ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2023
№4 (76)

BAKI-2023

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Aleksandr Puxkal (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Əlimusa İbrahimov (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2023
№4 (76)

BAKU-2023

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Alimusa Ibrahimov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***“GEOSTRATEGY”*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

# Siyasi elmlər

UOT 32

**XƏYYAM İSMAYILZADƏ**
*Bakı Dövlət Universitetinin*
*Beynəlxalq münasibətlər kafedrası.*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru*

*E-mail: ekonika22@yahoo.com*

## MÜASİR DÖVRDƏ ABŞ-ÇXR MÜNASİBƏTLƏRİNDƏ İQTİSADİ ASPEKTLƏRİN ÜMUMİ XARAKTERİSTİKASI

Soyuq müharibə bitdikdən və sosialist düşərgəsi tənəzzülə uğradıqdan sonra formalaşan yeni dünya nizamında ABŞ və Çin münasibətləri aktuallıq kəsb etməyə başladı. Dünya siyasətinə və iqtisadiyyatına birbaşa təsir göstərən iki dövlət arasında rəqabət və əməkdaşlıq çərçivəsində münasibətlər həm dinamik, həm də intensiv surətdə inkişaf edirdi. ABŞ-ÇXR iqtisadi əlaqələri 1990-2001, 2002-2008 və 2008-ci ildən dən sonrakı dövrü əhatə edən üç mərhələyə bölünür. Bu mərhələlər müəyyən geoiqtisadi və geosiyasi hadisələrlə müşayiət olunur: Çinin canlanan iqtisadi islahatları, Ümumdünya Ticarət Təşkilatına daxil olması, bir sıra siyasi münaqişələr, dünya iqtisadi tənəzzülü və 11 sentyabr hadisələri.

1989-cu ildə Berlin divarının dağıdılması Şərqi Avropada kommunist rejimlərinin və sonrakı iki il ərzində Sovet İttifaqının tənəzzülə uğramasının xəbərini verirdi. Sovet İttifaqı təhlükəsi aradan qalxdıqca, Çin və Birləşmiş Ştatlar arasında davamlı inkişaf edən iqtisadi əlaqələr qeyri-müəyyənliyə sürükləndi. ÇXR 1993-cü ildə 27 milyard ABŞ dolları birbaşa xarici sərmayə cəlb etdi və həmin il investisiyanın cəlb olunmasına görə ABŞ-dan sonra ikinci oldu. Honq-Konq və Tayvandan sonra ABŞ Çinin ən böyük investoru oldu. Lakin siyasi gərginlik iki ölkə arasında münasibətləri pozmaqda davam edirdi. İqtisadi fəallığın səviyyəsi strateji əlaqələrdən kənar idi.

Corc Buşun vəzifədə olduğu dövrdən (1989-1993) Klintonun (1993-2001) və 2009-cu ildə Barak Obamanın prezidentliyinə qədər, ABŞ və Çin bir sıra kritik hadisələrin öhdəsindən gəldi. Birincisi, 1989-cu ilin "Pekin baharı" indiyədək xüsusilə siyasətin qurulması və qarşılıqlı münasibətlərdə ciddi əks-səda doğurmuşdur. İkincisi, 1994-cü ildə insan hüquqları və Soyuq müharibədən sonrakı dövrdə iqtisadi məsələlərin siyasi alət kimi istifadə edilməsi idi. Üçüncüsü, Çinin 2001-ci ilin dekabrında Ümumdünya Ticarət Təşkilatına daxil olması və 11 sentyabrdan sonrakı dövrdə iqtisadi əlaqələrdə əməkdaşlığın davam etdirilməsi idi. Dördüncüsü, Çinin Corc Buşun prezidentliyinin ilk dövründə (11 sentyabra qədərki dövr) diplomatiyaya hörmətsizlik edən və Amerikanın xarici hərbi əməliyyatlarını müdafiə edən aparıcı neo-mühafizəkarların əsas hədəfinə çevrilməsi idi. ABŞ Çinə güclənən hərbi təhlükə kimi baxırdı. Beşincisi, Çinin Birləşmiş Ştatlarla ticarət əlaqələri 2010-cu ildə ABŞ-ın Tayvana silah satışı və Prezident Obamanın Dalay Lama ilə görüşü də daxil olmaqla saysız-hesabsız problemlərlə üzləşməsi idi [1, səh.49].

Münasibətlərdə ilk ciddi qarşıdurma 1989-cu ilin may-iyun aylarında Pekində baş verən Tiananmen tələbə etirazları ilə başladı. 5 iyun 1989-cu ildə repressiyalarına cavab olaraq, ABŞ Corc Buşun prezidentliyi dövründə Çin hökumətinə qarşı sanksiyalar tətbiq etdi, o cümlədən bir sıra ikitərəfli sazişlərin dayandırdığını elan etdi. Bu sazişlərə nüvə əməkdaşlıq sazişi, investisiya zəmanətləri, Ticarətin İnkişafı Proqramı, ixrac nəzarətinin liberallaşdırılması və s. aiddir. Bununla belə, Buş iqtisadi inkişafın Çində siyasi demokratikləşməyə gətirib çıxaracağına inanırdı. O, Konqresdə sanksiyaların artırılmasını tələb edən demokratların və respublikaçıların artan təzyiqlərinə boyun əyməkdən imtina etdi. Buna baxmayaraq, Konqres iki qanun qəbul etdi, biri polis ləvazimatlarının ixrac lisenziyalarını dayandırdı, digəri Çinli tələbələrə və alimlərə ABŞ-da daimi yaşamaq və işləmək hüququ verməklə yanaşı, Eksimbankın Çinə kreditlərini dondurdu. Vaşinqton və Pekin kommunikasiya xətlərini açıq saxlamağa çalışdılar və siyasi münasibətləri yaxşılaşdırmaq yollarını axtardılar, lakin normal münasibətlərin bərpası çətin oldu. 1989-cu il hadisələri ABŞ Konqresinin diqqətini Amerikanın Çinlə bağlı siyasətinə yönəltdi. Beləliklə, iqtisadi məsələlər tez bir zamanda insan hüquqları, daha sərt iqtisadi sanksiyalar üçün vasitəyə çevrildi.

1989-cu il Birləşmiş Ştatlar və Çin münasibətlərində gərginliyin olmasına baxmayaraq, ABŞ-Çin

iqtisadi əlaqələri Tiananmen hadisələrindən sonra inkişaf etdi. Keçmişə nəzər saldıqda aydın olur ki, 1990-cı ildən 2009-cu ilə qədər olan on doqquz il ərzində iki ölkə arasındakı iqtisadi münasibətlər sabit qalmamışdır. Tiananmenin kölgəsi hələ də münasibətlərin üzərində olsa da, siyasi münasibətlərin "dost və ya düşmən" modeli 1990-2009-cu illərdə ikitərəfli ticarət münasibətlərinin sürətli artımı ilə ziddiyyət təşkil edirdi.

1993-cü ildən 2001-ci ilə qədər davamlı strateji təməlin olmaması iqtisadi münasibətlərdə qeyri-müəyyənliyə səbəb oldu. 1995-1996-cı illərdə Tayvan və Çin arasında hərbi gərginlik də daxil olmaqla, çoxsaylı böhranlar nəticəsində münasibətlər pozuldu. 1999-cu ilin mayında Belqradda Çin səfirliyinin bombalanması və 2001-ci ildə Amerikanın casus təyyarəsi hadisəsi və s. Bununla belə, bu uğursuzluqlara baxmayaraq, iki xalq arasında iqtisadi əlaqələr bu illər ərzində sürətlə genişlənməyə davam etdi.

Çin-Amerika iqtisadi əlaqələrində əsas hadisələrdən biri 11 dekabr 2001-ci ildə Ümumdünya Ticarət Təşkilatına (ÜTT) 142 üzv dövləti tərəfindən Çinin rəsmi qəbul edilməsi oldu. ÜTT 1 yanvar 1995-ci ildə yaransa da, onun sələfi olan Tariflər və Ticarət üzrə Baş Saziş (GATT) 1948-ci ilə yaranmışdı. Çin GATT-ı ilk imzalayanlardan biri idi, lakin millətçilər vətəndaş müharibəsində kommunistlərə uduzandan sonra 1949-cu ildə təşkilatdan çıxdı. 1986-cı ildə Çin GATT-a yenidən qoşulmaq üçün rəsmi müraciət etdi. Lakin Çin ÜTT-nin üzvlüyünə ancaq 15 il sonra qəbul edildi. Əmtəələrin beynəlxalq ticarətini tənzimləmək üçün qurulan GATT illər ərzində ticarət mübahisələrinin həllinə yönəlmiş bir neçə raund danışıqlar yolu ilə inkişaf etmişdir. Bunlardan sonuncusu və ən böyüyü 1986-1994-cü illərdə ÜTT-nin yaranmasına səbəb olan Uruqvay Raundu idi. Dünya ticarətindəki dəyişiklikləri əks etdirərək, ÜTT öz səlahiyyətlərini xidmətlər və əqli mülkiyyət ticarəti üzrə genişləndirdi. Qanuni olaraq, ÜTT-nin sazişləri və digər sənədlər ixracatçılara və idxalçılara mümkün qədər səmərəli ticarətə kömək etmək məqsədi daşıyan məcburi qaydalar təşkil edirdi. 2001-ci ildən başlayaraq ÜTT ticarət danışıqlarının yeni raunduna, 2006-cı ilin iyulunda dağılan Doha İnkişaf Proqramına ev sahibliyi etdi [1, səh.93].

Çinin ÜTT-yə üzv olması rifahın yüksəlməsinə, ticarətin liberallaşdırılmasına və qlobal inteqrasiyaya yönəlmiş iqtisadi islahatların yeni mərhələsini həyata keçirməyə sövq etdi. Xarici bankların daxili bazarda rəqabət aparmasına şərait yaratması ilə birlikdə maliyyə sektoru da liberallaşdırıldı. Çinin ÜTT öhdəliklərinə yerli və xarici özəl firmalar üçün aşağı tariflər və ayrı-seçkiliyə yol verməyən ticarət hüquqları daxildir. Orta tarif dərəcəsi 1992-ci ildəki 43%-dən 1999-cu ildə 17%-ə, 2004-cü ildə isə 10%-ə qədər endirildi. Həmçinin, orta kənd təsərrüfatı tarifləri 15%-ə endirildi. Hazırda faktiki olaraq bir çox mallar ölkəyə rüsumsuz daxil olur. Nəticədə, 2006-cı ildə idxalın dəyərinə nisbətən tutulan faktiki tariflər cəmi 2% təşkil etmişdir [1, səh.95].

2005 və 2006-cı illərdə ABŞ-ın Çinlə olan ticarət kəsiri tarixdə qeydə alınan ən böyük kəsir idi. Çinin tənqidçiləri kəsirin ABŞ-ın istehsal sektorunda iş yerlərinin itirilməsi və ABŞ-ın Çin ixracatına qarşı olan maneələrin səbəb olduğunu bildirdilər. Bu səbəblərə Çin mallarının və xidmətlərinin aşağı qiyməti, valyutanın (Yuan) devalvasiyası, bazara çıxışda maneələrin olması, əqli mülkiyyət hüquqlarının zəifliyi və hökumətin şəffaflığının aşağı səviyyəsini də əlavə etdilər.

ABŞ-Çin iqtisadi əlaqələrinə təsir edən ikinci əsas amil Şərqi Asiyanın dünya iqtisadiyyatında rolunun dəyişməsi oldu. Ticarət əlaqələrinin sürətlə inkişaf etməsinə baxmayaraq, 1997-ci ildən 2006-cı ilə qədər olan onillik ərzində Çinin ABŞ-ın qlobal ticarət kəsirindəki payı 27%-dən 28%-ə yüksələrək demək olar ki sabit qaldı. 2004-cü ildə Honq-Konq, Yaponiya, Cənubi Koreya, Sinqapur və Tayvandan gələn vəsaitlər Çinə cəlb olunan xarici investisiyaların təxminən 60%-ni təşkil edirdi. İsveçrə investisiya bankı və ABŞ-Çin Biznes Şurasının məlumatına görə, dəyər etibarilə ÇXR ixracatının 50%-dən çoxu Çində fəaliyyət göstərən xarici şirkətlərin məhsulları olsa da, bu firmaların əksəriyyəti Honq Konq, Tayvan və Koreyada yerləşirdi.

ABŞ-Çin iqtisadi əlaqələrinə təsir edən üçüncü əsas amil Çinin beynəlxalq ticarətə açıq olması və ondan asılılığının artmasıdır. 1998-ci ildən bəri Çinin idxal və ixracatının artım tempi demək olar ki eyni səviyyədə davam etdi. Çinin ÜTT-yə daxil olmasından sonrakı altı il ərzində (2002-2008) ABŞ-ın Çinə ixracı artdı. Çin yalnız dünyada mikroprosessorlar və təyyarələrin ən böyük idxalçısı deyil, həm də Sinqapur, Malayziya, Tayvan, o cümlədən, bir sıra ölkələr üçün həm xammal, həm də istehsal üçün mühüm ixrac bazarı idi. Çin Oxford Economics və Signal Group-un 2006-cı ilin yanvarında hazırladıqları hesabatda son onillikdə qlobal iqtisadi inkişafın əsas

lokomotivlərindən biri olmuşdur.

ABŞ-Çin iqtisadi əlaqələrinə təsir edən dördüncü amil isə 2008-ci ildə baş verən qlobal iqtisadi bohran oldu. 2008-ci ildən sonrakı maliyyə böhranına cavab olaraq, yeni dünya iqtisadi nizamının tərəfdarları qlobal tələbin yenidən balanslaşdırılmasını təklif etdilər. Şübhəsiz ki, bu təkliflər "qeyri-sabitliyi" aradan qaldırmaq üçün lazım olan tədbirlərlə bağlı mübahisələri əhatə edirdi. Bəziləri üçün bu o deməkdir ki, ABŞ öz kəsirini əhəmiyyətli dərəcədə azaltmalı, daha çox qənaət etməli və daha az xərcləməlidir, halbuki inkişaf etməkdə olan bazarlar və böyük profisiti olan iqtisadiyyatlar – məsələn, Çin – daha çox xərcləməli və ixracı azaltmalıdır. Digər tərəfdən, tənqidçilər Çinin "valyuta manipulyatoru" kimi səciyyələndirilməsinin əsassız olduğunu və qlobal iqtisadiyyatın yenidən balanslaşdırılmasının BVF, Dünya Bankının və digər beynəlxalq təşkilatların qərar qəbuletmə strukturlarının dəqiq tənzimlənməsi yolu ilə baş verəcəyini iddia etdilər.

Lakin bu fikir ayrılıqları 1976-cı ildə Edvin O. Reyşauerin haqlı olaraq qeyd etdiyi kimi, ABŞ-Çin iqtisadi münasibətlərinin "bəşəriyyətin gələcəyinin müəyyən edilməsində böyük rol oynaması" faktını vurğulayır. Son qırx il ərzində artan iqtisadi asılılıq tez bir zamanda yeni münasibətlər yaratdı. İnsan haqları, əlverişli ölkə statusu, Tayvan və Tibet məsələsi, ABŞ-ın nəhəng ticarət kəsiri və qeyri-müəyyən qlobal iqtisadiyyat kimi məsələlərlə ikitərəfli münasibətlərdə çətinliklər və imkanlar mövcuddur. Çinin böyük güc kimi ortaya çıxması və Amerikanın ardıcıl müharibələrdə sınanmış hegemon ambisiyaları ilə, sürətlə inkişaf edən ticarət əlaqələri ilə geosiyasi və ideoloji fərqlərlə əlaqəli münaqişə arasındakı ziddiyyət iki xalq arasında münasibətlər üçün ciddi problem yaratmağa davam edəcək. Çin-Amerika iqtisadi əlaqələri çətinliklər və uğursuzluqlarla üzləşməyə davam etsə də, hər bir tərəf üçün uzunmüddətli məqsəd geosiyasi məhdudiyyətlərin girovluğunda qalmaqdansa, sabit siyasi əlaqələr yaratmaq üçün kifayət qədər güclü iqtisadi əlaqələr qurmaq daha əlverişlidir.

ABŞ hegemoniyasının tənəzzülü 2008-ci il Qlobal Maliyyə Böhranı ilə birlikdə açıq-aydın görünməyə başladı. Bu kontekstdə BRICS ölkələrinin (Braziliya, Rusiya, Çin, Hindistan və Cənubi Afrika) beynəlxalq əmək bölgüsü iyerarxiyası daxilində beynəlxalq bazarlarda rəqabət qabiliyyəti və kapital yığımlarının inkişafı da göz qabağındadır. Bunların arasında Çin "dünyanın emalatxanası"na çevrilib. Bundan əlavə, Çin getdikcə yüksək texnologiyalı məhsulların istehsalına yönəlib və həm xaricdən investisiyalar, həm də beynəlxalq yardımlar hesabına maliyyə sahəsində çəkisini artırmışdır.

Çin Prezidenti Si Tsinpinin 7 sentyabr 2013-cü ildə Qazaxıstanda və 3 oktyabr 2013-cü ildə İndoneziyada etdiyi çıxışlar Çinin yeni dövr strategiyaları haqqında məlumatlar ilə zəngindir. 2013-cü il Çinin beynəlxalq arenada fəal iqtisadi siyasətə başladığı il sayılır. Qazaxıstandakı çıxışında Çin prezidenti, "İpək Yolu İqtisadi Zonası" layihəsindən, Si İndoneziyadakı çıxışında isə "XXI Əsr Dəniz İpək Yolu (Bir Yol)" layihəsi haqqında danışdı. Çin "Bir kəmər-bir yol" (OBOR) adlanan bu layihələr ilə həm dəniz, həm də qurudan Avropa ilə birləşmək məqsədini güdür [2, səh.44].

OBOR layihəsi təkcə Çin və Avropanı birləşdirməkdən ibarət deyil. Layihənin daha geniş və uzunmüddətli məqsədləri vardır. İlk olaraq layihə üçün nəzərdə tutulan marşruta nəzər saldıqda onun Asiya, Avropa və Afrika qitələrini əhatə etdiyi görünür. Bu mənada layihə qitələrarası əhatəyə malikdir. Bundan əlavə, layihənin iqtisadi ölçüsü ön plana çəkilsə də, layihənin sosial, mədəni və təhlükəsizlik ölçülərinin əhəmiyyətini də unutmaq olmaz.

Çin son 30 ildə xarici ticarət həcmini xeyli artırdı. Çin böyüdükcə və enerji ehtiyacları artdıqca, bu qədər böyük əhalinin ehtiyaclarını ödəmək üçün iqtisadi artımını müəyyən səviyyədən yuxarı saxlamalıdır. Bununla belə, o, təkcə daxili amilləri deyil, həm də xarici amilləri nəzərə almalıdır. Xüsusilə, son illərdə Asiya-Sakit Okean regionunda ABŞ-ın qlobal hegemonluğunu qoruyub saxlamaq marağı Çin və ABŞ arasında maraqların toqquşmasına səbəb oldu.

Trans-Sakit Okean Tərəfdaşlığı (TPP) və 12 ölkənin daxil olduğu ABŞ-ın son ticarət razılaşması Çinin bölgədə artan fəallığını pozmağa cəhddir. Xüsusilə ABŞ bu tərəfdaşlıq vasitəsilə Yaponiya ilə əlaqələrini daha da gücləndirmək məqsədi güdür. Beləliklə, Birləşmiş Ştatlar Çin və Hindistan arasında artan münasibətləri Yaponiya ilə balanslaşdırmağa çalışır. Belə bir rəqabət mühitində Çin təkcə öz strategiyalarını neytrallaşdırmaqla yanaşı, iqtisadi artımını da müəyyən səviyyədə saxlamağı hədəfləyir [2, səh. 45].

Lakin 2015-ci ildə Çin iqtisadiyyatında inkişaf ləngiməyə başladı. Bu ləngimə qarşıdakı illərdə də davam edərsə, Çində iqtisadi problemlər yaradacaq. Bundan başqa, Çində resurs problemi də var. Xüsusən də, dəmir-polad istehsalında Çində istehsal artıqlığı

var və bu artıqlığın kökünü kəsmək mümkün deyil. Bu problemlər Çinin OBOR layihəsinə rəhbərlik etdiyi zaman da öz təsirini göstərir. Çin OBOR kimi layihələrlə iqtisadi artımını gücləndirmək istəyir. Bundan başqa, məqsəd layihənin icrası zamanı və sonrakı mərhələlərdə ixrac problemini aradan qaldırmaqdır.

Bu layihə Çin üçün sülh, əməkdaşlıq, iqtisadi inkişaf, şəffaflıq və bərabər imkanların simvoludur. Bu layihə vasitəsilə Çin xarici siyasətdə sabitlik, qonşuluq münasibətlərinin inkişafı və uyğunlaşması, regionda ticarət və iqtisadi artım üçün əlverişli mühit yaratmağı hədəfləyir. Xüsusilə qonşuluq siyasətinin Çin üçün ayrıca resepti var. Çünki Çin regional gücünü artırmaq üçün qonşuları ilə münasibətləri inkişaf etdirməli olduğunu bilir. Qonşuluq siyasəti 2002-2012-ci illərdə Çinin lideri olan Hu Cintao dövründə başlayıb və 2013-cü ildə Si Tsinpinin rəhbərliyi ilə daha da inkişaf etdirilmişdir.

Yeni İpək Yolu layihəsi Asiya-Sakit okean regionunda Çinin gücünü möhkəmləndirmək üçün saysız-hesabsız imkanlar yaradır. Bu layihə Çinin xarici siyasəti üçün iqtisadiyyat, enerji və təhlükəsizlik baxımından son dərəcə əhəmiyyətlidir. ABŞ-ın bölgəyə marağı da Çini regionda bu ölkəyə qarşı balanslı siyasət strategiyası yürütməyə vadar edir. Məlumdur ki, yeni İpək Yolu layihəsinin prioriteti iqtisadiyyatdır. Bununla belə, layihə xüsusilə enerji üçün təmin etdiyi üstünlüklərə görə daha vacibdir. Dünyanın ən böyük neft idxalçısı olan Çin enerji təchizatçılarını şaxələndirmək və asılılığını azaltmaq istəyir. Eyni zamanda, Çinin enerji şirkətləri Mərkəzi Asiyada, xüsusən də Qazaxıstan və Türkmənistanda müxtəlif layihələrini həyata keçirməyi hədəfləyirlər. Layihə bu aspektlər baxımından son dərəcə əhəmiyyətlidir [3, səh.9-10].

Çin ilə ticarətin təsirləri son illərdə artan müzakirələrə səbəb oldu. Xüsusilə, müzakirələr Çinin bazar qüvvələrini güclü dövlət müdaxiləsi ilə birləşdirən unikal iqtisadi modelini nəzərə alaraq beynəlxalq bazarlarda ümumi qəbul edilmiş qaydalara riayət etməməsi ilə bağlı narahatlıqlar üzərində cəmlənib.

2017-ci ilin avqust ayında Birləşmiş Ştatların Ticarət Nümayəndəliyinin Ofisi (USTR) Çinin 1974-cü il tarixli Ticarət Aktının 301-ci Bölməsinə uyğun olaraq texnologiya transferi, əqli mülkiyyət və innovasiya ilə bağlı hərəkətləri, siyasəti və təcrübələri ilə bağlı araşdırma başlatdı. Demək olar ki, Çinlə ticarət müharibəsinin toxumlarını səpdi.

Gərginlik 2018-ci ilin əvvəlində sürətlə artmağa başladı. ABŞ Çin məhsullarına, o cümlədən bütün günəş panelləri və paltaryuyan maşınlara 30% antidempinq rüsumları tətbiq etdi. Bunun ardınca qlobal polad və alüminium idxalına 25% tariflər tətbiq olundu, bu, milli təhlükəsizlik zəminində əsaslandırıldı və Çindən idxala əhəmiyyətli dərəcədə təsir etdi. Bundan sonra USTR 1974-cü il tarixli Ticarət Aktının 301-ci Bölməsinin araşdırmasına əsaslanaraq Çin idxalına geniş tariflər tətbiq etməyə başladı. 2018-ci ilin yayında 50 milyard dollarlıq maşın idxalına 25% tariflər, ardınca 2018-ci ilin oktyabrında 250 milyard dollarlıq sənaye təchizatına 10% tariflər tətbiq edildi. Daha sonra 2019-cu ilin mayında 15% tariflərdən əvvəl həmin mallara rüsumlar 25%-ə qaldırıldı. 2019-cu ilin sentyabrında daha 110 milyard dollarlıq istehlaka yönəldilmiş idxala tətbiq edildi. Çin ABŞ mallarına, nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsullarına, neft və təbii qaza və əsas avadanlıqlara ekvivalent tariflər tətbiq etdi [4].

ABŞ-ın Peterson Beynəlxalq İqtisadiyyat İnstitutunun məlumatına görə, 2019-cu ilin sonuna kimi ABŞ-ın Çindən idxalına təsirli (ticarət çəkisi) tarif 2018-ci ilin əvvəlindəki 3,1%-lə müqayisədə 21% təşkil edib. ABŞ 2018-ci ilin əvvəlindəki 8% ilə müqayisədə 20,9% təşkil edib [5].

Ticarət müharibəsinin tam təsirinin nəticəsini söyləmək hələ tez olsa da, ilkin sübutlar artıq bu müharibənin ABŞ iqtisadiyyatına ziyan vurduğunu göstərdi. Akademik tədqiqatlar nəticəsində ticarət müharibəsinin ABŞ-ın ÜDM artımını, rifahını və məşğulluğunu azaltdığı ortaya çıxdı. 2018-ci ilin sonuna qədər ABŞ iqtisadiyyatı üçün təxmin edilən xərclər 6,9-7,2 milyard dollar arasında dəyişdiyi və ticarət müharibəsinin ABŞ firmalarına bazar kapitallaşması baxımından 1,7 trilyon dollara başa gəldiyi ortaya çıxdı.

Siyasi spektrin hər iki tərəfindəki ABŞ siyasətçiləri, həmçinin Amerika ictimaiyyəti də Çinlə iqtisadi əlaqələrə şübhə ilə yanaşır. Pew Araşdırma Mərkəzinin sorğuları göstərir ki, amerikalıların 73%-i Çin haqqında mənfi fikirdədir. ABŞ Prezidenti Co Bayden, Trump administrasiyasının tariflərdən istifadəsini açıq şəkildə tənqid etsə də, tarifləri əhəmiyyətli dərəcədə genişləndirmək ehtimalı az olsa da, o, tarifləri dərhal ləğv etməyəcəyini söylədi. Ehtimallardan biri Bayden administrasiyasının növbəti dörd il ərzində tarifləri tədricən geri qaytarmaq üçün Çin ilə danışıqlar aparmasıdır. Yüksək tarif maneələri və Bayden administrasiyası altında ticarət siyasətinin necə inkişaf edəcəyi də qeyri-müəyyən olaraq qalır. Növ-

bəti illər ərzində həyata keçiriləcək siyasət tədbirləri gələcək onilliklər üçün hər iki ölkə arasındakı iqtisadi münasibətləri yaxşı şəkildə formalaşdıra bilər.

Gələcəkdə ABŞ-Çin ticarət və iqtisadi münasibətləri ətrafında iki alternativ ssenarini formalaşdırmaq mümkündür: ya tariflər və ticarət gərginliyi qismən azalacaq, ya da onlar arasında gərginlik daha da güclənəcəkdir. Məhz buna görə də hər iki tərəf, ən azı iqtisadi sahədə heç bir problemin olmaması üçün əllərindən gələni edir, çünki dünya iqtisadiyyatı bu prosesdən ancaq xeyir görə bilər ki, bunu da bütün mütərəqqi dünya arzulayır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Wang, Dong (2010), "China's Trade Relations with the United States in Perspective", 189 səh.*

*2. Kaan Yiğenoğlu, ABD-Çin Rekabeti Bağlamında "Tek Kuşak, Tek Yol" Projesinin Değerlendirilmesi, 2017, 183 səh.*

*3. Ekman, A. (2015), China in Asia: What is behinq the new silk roads?, French Institute of International Relations and OCP Policy Center, 32 səh .*

*4. https://www.uschina.org/sites/default/files/the_us-china_economic_relationship_-_a_crucial_partnership_at_a_critical_juncture.pdf*

*5. https://www.piie.com/research/piie-charts/us-china-trade-war-tariffs-date-chart*

**XÜLASƏ**

Məqalədə "soyuq müharibə" bitdikdən sonra qloballaşan dünyada bipolyar sistemin monopolyar sistem tərəfindən əvəz edilməsi, Sovetlər İttifaqının süqutundan sonra yeni dünya nizamının formalaşması, bir çox dövlətlərin sürətli inkişafı və onlar arasında əməkdaşlıq haqqında məlumat verilir. Eyni zamanda, burada qlobal nüfuz və rəqabət uğrunda mübarizə aparan ABŞ və ÇXR arasında iqtisadi aspektlərin hərtərəfli tədqiq olunması da geniş işıqlandırılmışdır.

**Açar sözlər:** *ABŞ, ÇXR, SSRİ, Kommunist partiyası, Ümumdünya Ticarət Təşkilatı, investisiya, iqtisadi tənəzzül, soyuq müharibə, geosiyasət, demokratiya.*

***ХАЙЯМ ИСМАИЛЗАДЕ***
***Бакинский Государственный Университет,***
***Кафедра международных отношений,***
***Доктор философских наук, и.о. доцента***
***Ekonika22@yahoo.com***

**Общая характеристика экономических аспектов американо-китайских отношений *в новейшее время***

В статье представлена информация о смене биполярной системы на монополярную в глобализированном мире после окончания холодной войны, формировании нового мирового порядка после распада СССР, бурном развитии многих государств и отношении между ними. При этом также широко освещается комплексное изучение экономических аспектов между США и КНР, которые борются за глобальное влияние и конкуренцию.

**Ключевые слова:** *США, КНР, СССР, Коммунистическая партия, Всемирная торговая организация, инвестиция, экономический спад, холодная война, геополитика, демократия.*

***KHAYYAM ISMAYILZADEH***
***Baku State University,***
***Department of International Relations,***
***Doctor of Philosophy in Political Science, Acting Associate Professor***
***Ekonika22@yahoo.com***

**General characterization of economic aspects in US-PRC relations in modern times**

The article provides information on the replacement of the bipolar system by the monopolar system in the globalized world after the end of the Cold War, the formation of a new world order after the fall of the Soviet Union, the rapid development of many states and cooperation between them. At the same time, a comprehensive study of the economic aspects between the United States and the PRC, which are fighting for global influence and competition, is also widely covered.

**Key words:** *USA, PRC, USSR, Communist party, World Trade Organization, investment, economic recession, cold war, geopolitics, democracy.*

UOT 32

# QURUMLARIN KORPORATİV SOSİAL MƏSULİYYƏT (KSM) İŞİNDƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN (PR-ın) ROLU

**ANAR ŞÜKÜROV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası İnzibati İdarəetmə fakültəsinin dekan müavini, doktorant*

*E-mail: anar-shukurov2015@list.ru*

Korporativ Sosial Məsuliyyət anlayışı ilk dəfə 1926-cı ildə Klark tərəfindən istifadə edilmişdir və o, müəssisələrin cəmiyyət qarşısında öhdəliklərinin olduğunu bildirmişdir [8, s.138]. Korporativ Sosial Məsuliyyət anlayışı keçmişdən bu günə qədər bir çox şəkildə müəyyən edilmişdir. Belə ki, Korporativ Sosial Məsuliyyət anlayışının korporativ vətəndaşlıq, iş etikası və sosial performans kimi bir çox anlayışlarla əlaqəsi, oxşarlığı və fərqliliyi vardır.

KSM 1990-cı illərin ortalarından etibarən davamlı inkişaf məqsədlərinə nail olmaqda müəssisələrin rolunun yenidən nəzərdən keçirilməsi həmçinin dəyişən sosial gözləntilərə qurumların verdiyi cavablar kimi də müəyyən edilmişdir [7, s.315].

Həmçinin KSM, qloballaşan dünyada müəssisələrin rollarının diferensiallaşdırılmasını və müəyyən mənada müəssisələrin dövlətə dəstək verməsi zərurətini ifadə edir. Kilcullen və Kooistra yazırlar ki, KSM biznesə aid edilən mənəvi öhdəlik səviyyəsidir [5, s.162].

Korporativ Sosial Məsuliyyət cəmiyyətin və ətraf mühitin qorunmasına və inkişaf etməsinə yönələn könüllü davranış mədəniyyətidir [11, s.11]. Korporativ Sosial Məsuliyyət konsepsiyasında qurumun əməkdaşlıq etdiyi təşkilatlarla münasibətdə məsuliyyət, istehlakçılara, öz əməkdaşlarına qarşı məsuliyyətlilik, qurumun ekoloji məsuliyyəti, həmçinin qurumun bütün cəmiyyət qarşısındakı məsuliyyət məsələləri öz əksini tapır.

KSM-də əsas olan başlıca xarakterik xətt könüllülükdür ki, bu da, faktiki olaraq xeyriyyəçiliyin sinonimidir. Yəni ki, burada biznes kompaniyası daxili və xarici mühit qarşısında olan məsuliyyətini dərk edir və öz gəlirlərinin bir hissəsini ictimai ehtiyaclara sərf edir. Qurumların Korporativ Sosial Məsuliyyət fəaliyyətləri həmin regionun sosial, ekoloji, iqtisadi fəaliyyətinə yardım edir. Həmçinin KSM həm həmin bölgənin, həm qurumun özünün və həm də bütün cəmiyyətin davamlı inkişafına kömək etmiş olur.

KSM-in zəruri olması qurumların tələbatının resurs bazasının öz həyat fəaliyyəti üçün sosial iqtisadi sistem kimi təmin etmək baxımından meydana çıxır [11, s.28]. Çünki bu hər şeydən əvvəl əmək resurslarıdır və onların (korporasiyalar) rəqabət mühitində inkişafının əsas amillərindəndir. Korporasiyaların iqtisadi münasibətlərində müasir tendensiyalar onların artım dinamikasını əks etdirir. Müasir dövrümüzdə artan rəqabət mühiti, istehsal texnologiyalarının təkmilləşdirilməsi, istehlakçı uğrunda mübarizə və məhsulun keyfiyyəti müəssisələrin idarəetmə məsələlərində bu mövzuların yenidən kompleks şəkildə gözdən keçirilməsini məcburi edir.

KSM konsepsiyasına ən çox qəbul edilən yanaşmalardan birini ortaya qoyan Karroll, 2006-cı ildə Buxholtz ilə birlikdə KSM-ə belə bir tərif vermişlər: “Müəssisənin sosial məsuliyyəti müəyyən bir zamandakı iqtisadi, hüquqi, etik və istəyə bağlı (xeyirxahlıq da daxil olmaqla) sosial gözləntiləri əhatə edir” [1, s.35]. Cədvəl 1-dən göründüyü kimi, Karroll və Buxholtza görə, KSM gəlirliliyin, qanunlara tabe olmağın, etik davranmağın və yaxşı korporativ vətəndaş olmağın məcmusudur. Müəssisələr bu vəzifələri aşağıdan yuxarıya deyil, eyni vaxtda yerinə yetirməlidirlər.

Korporativ sosial məsuliyyət bir təşkilatda bir və ya iki funksiya ilə əlaqələndirilə bilən tətbiq deyil, KSM qurumun biznes sistemidir həmçinin qurumun bütün varlığına aid olan cəmiyyətin düşüncəsidir [10, s.423]. Bu səbəbə görə də qurumlar həyata keçirdikləri hər fəaliyyətdə, ünsiyyətdə olduğu kütlə ilə bütün münasibətlərdə sosial məsuliyyət ideyası ilə hərəkət etməlidirlər.

İctimaiyyətlə əlaqələr anlayışı haqqında bir çox təriflər verilmişdir. Bu təriflərin çox hissəsində ünsiyyət anlayışı mərkəzi yer tutur. Bu baxımdan demək olar ki, ictimaiyyətlə əlaqələrin tərifində qarşılıqlı əlaqənin və qurum və onun işçiləri arasında ümumi zəmin yaradılmasının nəzərdə tutulduğu bir ünsiyyət prosesinə diqqət yetirən konseptuallaşdırma mövcuddur. Buna görə də, sosial məsuliyyət təcrübələri qurum və onun hədəf auditoriyası arasında ümumi

**Cədvəl 1. Korporativ Sosial Məsuliyyətin dörd tərkib elementi [1].**

| Məsuliyyət növü | Sosial gözlənti | Xüsusiyyətləri |
|---|---|---|
| İqtisadi | Yerinə yetirilməsi vacib | • Mənfəətlilik<br>• Satışları artırmaq və xərcləri azaltmaq<br>• Strateji qərarların qəbulu<br>• Şirkət siyasətinə diqqət yetirmək<br>• İnvestorların investisiyalarından adekvat və cəlbedici gəlir əldə etmələrinin təmin edilməsi |
| Hüquqi | Yerinə yetirilməsi vacib | • Bütün qanun və qaydalara əməl etmək<br>• İstehlakçıların, ətraf mühitin və işçilərin hüquqlarını qoruyan bütün qanuni qaydalara əməl etmək<br>• İmzalanmış bütün müqavilə və razılaşmalara əməl etmək<br>• Malların və xidmətlərin təminat və zəmanət şərtlərinə riayət etmək |
| Etika | Yerinə yetirilməsi gözlənilən | • Şübhəli proqramlardan yayınmaq<br>• Qanuna tabe olmaqla yanaşı, mənəvi gözləntiləri qarşılamaq<br>• Qanunu yerinə yetirilməli olan davranışları qəbul etmək və tələblərdən yüksək davranmaq<br>• Düzgün, ədalətli və vəziyyətə uyğun davranmaq<br>• Etik liderlik |
| Xeyriyyəçilik | Yerinə yetirilməsi gözlənilən/ Arzu edilən | • Yaxşı vətəndaşlıq<br>• Cəmiyyətdən aldığımızı cəmiyyətə qaytarmaq<br>• Korporativ yardımlar etmək<br>• Təhsil, səhiyyə, mədəniyyət və incəsənət kimi mövzularda cəmiyyətə dəstək verən proqramları həyata keçirmək<br>• Cəmiyyətin rifahı üçün çalışmaq<br>• Könüllü işlər aparmaq. |

zəmin yaratmağa mühüm təsir göstərir. Bernays ictimaiyyətlə əlaqələr və sosial məsuliyyətin eyni mənada işlənə bildiyi fikrini müdafiə edirdi [4, s.55].

XX əsrin başlanğıcında İctimaiyyətlə əlaqələr peşə kimi dəyər qazanmış, ancaq ötən əsrdə ictimaiyyətlə əlaqələrə yanaşmalar davamlı dəyişikliklərə məruz qalmışdır. Müasir dövrümüzdə bir tərəfdən qurumların fəaliyyət sahələri genişlənməyə davam edərkən, digər tərəfdən də kommunikasiya texnologiyalarındakı sürətli inkişaf və xüsusən də kommunikasiya texnologiyalarının dəyişməsi insanların məlumatı daha asan əldə etməsinə şərait yaratmış və buna uyğun olaraq bu sahədə güclü bir maariflənmə olmuşdur [3, s.196]. Bunlar da hədəf kütlələrin qurumların sosial-korporativ fəaliyyətləri haqqında məlumatlı olmalarına səbəb olmuşdur. Bu nöqtədə qurumların hədəf auditoriayaları təşkilatlardan texniki və ya iqtisadi aktivləri ilə yanaşı, sosial məsələlərə də həssaslıq göstərmələrini gözləyirlər [2, s.133].

Qurumlar yalnız əmtəə və xidmətlər əsasında mənfəət əldə edən və iqtisadi məsuliyyət daşıyan təşkilatlar deyildir. Onlar dünyanı yaşam üçün daha əlverişli etmək, cəmiyyəti inkişaf etdirmək və məhdud resursların davamlılığını təmin etmək baxımından ekoloji və sosial məsuliyyət daşıyan strukturlardır [13, s.34]. Başqa sözlə ifadə etsək, müasir dövrümüzdə qurumların fəaliyyətlərində sosial məsuliyyət praktikaları ön plana çıxmaqdadır. Çünki qurum daxili uyğunluq qədər qurumun xarici uyğunluğu da vacib məsələ kimi başa düşülməkdədir. Müəssisələr başa düşürlər ki, onların təkcə iqtisadi aktiv kimi gəlir əldə etməkdən əlavə, cəmiyyət qarşısında öhdəlikləri də vardır [9].

İctimaiyyətlə əlaqələr fəaliyyətin inkişafının ilk günlərindən aparıcı mütəxəssislər arasında sosial məsuliyyət praktikasında PR-ın roluna böyük diqqət yetirilmişdir. Korporativ PR-ın qurucularından biri olan Artur Peyc demokratik cəmiyyətdə bütün şirkətlərin dövlətin icazəsi ilə işə başladığını və ictimaiyyətin razılığı ilə varlığını davam etdirdiyini vurğulamış və bu çərçivədə dürüstlüyün açıq və məqsədyönlü ünsiyyətin vacibliyini bildirmişdir [6].

1980-ci ildə Edvard Bernays Boston Universitetində Jurnalistika Təhsili Assosiasiyasının toplantısında "İctimaiyyətlə əlaqələr sosial məsuliyyət təcrübəsidir və Amerikanın gələcəyinin açarıdır" şərhini vermişdir [12].

Korporativ Sosial Məsuliyyət tədqiqatlarının uğrunda və onların maraqlı tərəfləri ilə möhkəm əlaqələrin qurulmasında İctimaiyyətlə əlaqələr fəaliyyəti çox mühüm rol oynayır. KSM-nin uğuru və maraqlı tərəflərin KSM fəaliyyətlərində iştirakı qurumların həm daxili, həm də xarici maraqlı tərəflərlə əlaqə saxlamağını məcburi edir. Məhz elə bu effektiv ünsiyyət ictimaiyyətlə əlaqələr fəaliyyəti vasitəsilə əldə edilir. Buna görə də qurumlarda KSM tədqiqatları ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislərin vəzifəsidir və daha çox ictimaiyyətlə əlaqələr şöbələri tərəfindən həyata keçirilməkdədir.

Son zamanlar Korporativ Sosial Məsuliyyət (KSM) media vasitəsilə qurumların kommunikasiya və İctimaiyyətlə Əlaqələr üzrə məsul şəxsləri tərəfindən dilə gətirilən, məşhurlaşdırılan və cəmiyyətə öyrədilən bir anlayış olsa da, onu İctimaiyyətlə Əlaqələr fəaliyyətinin bir funksiyası və ya vasitəsi kimi görmək düzgün deyil. KSM yanaşması təşkilatın ümumi dünyagörüşü ilə müəyyən edilir və həmin mentalitetin xüsusiyyətlərini əks etdirir.

Hər hansı bir qurumda KSM kommunikasiyasının tək bir şöbənin və ya şəxsin işi olduğunu söyləmək düzgün deyildir. Ancaq İctimaiyyətlə Əlaqələr və ya Korporativ Ünsiyyət adı altında fəaliyyət göstərən bölmələrin KSM ünsiyyətində əsas rol oynayan kommunikasiya strategiyalarının yara-

dılması, həyata keçirilməsi və nəzarəti üçün məsuliyyət daşıdıqları danılmaz faktdır.

İctimaiyyətlə əlaqələr şöbələri sosial məsuliyyət tədbirlərinin planlaşdırılması və həyata keçirilməsi vəzifəsini öz üzərinə götürür. Lakin demək olar ki, onun əsas vəzifəsi bu maarifləndirməni institusional struktur daxilində yaratmaqdır. Reallıqda ictimaiyyətlə əlaqələr mütəxəssislərinin gördüyü iş sosial məsuliyyətin idarəetmə qərarlarına daxil edilməsi üçün qurumu səfərbər etməkdir.

İctimaiyyətlə əlaqələr qurumun bir parçası olaraq ətraf mühiti və qeyri-hökumət təşkilatları ilə ünsiyyəti təmin edir. Bu baxımdan qurumun KSM barəsində məlumatlılığını artırır. Dolayısı ilə cəmiyyət üçün təhsil, ətraf mühit, sağlamlıq, işsizlik kimi məsələlərdə qurumun fəal rol almasına şərait yaradır.

Başqa sözlə ifadə etsək, qurum və onun hədəf qrupları arasında qarşılıqlı anlaşma, əməkdaşlıq və uzlaşma kimi prinsipləri hədəfləyən ictimaiyyətlə əlaqələr qurum daxilində sosial məsuliyyət anlayışının qurulmasına səbəb olur [2, s.134].

İctimaiyyətlə Əlaqələr və KSM arasındakı əlaqə ilə bağlı olan bu yazıda KSM-in qurumun ümumi missiyası və dünyagörüşü əsasında qurulmuş bir anlayış olduğu və İctimaiyyətlə Əlaqələrin KSM kommunikasiyasında əsas açar rol oynadığı qənaətinə gəlinmişdir.

Sosial məsuliyyət anlayışı qurumun mahiyyətini əks etdirən bir iş və davranış nümunəsi olduğuna görə müxtəlif hədəf qrupları tərəfindən düzgün başa düşülməsi lazımdır. Bu işlər ictimaiyyətlə əlaqələr bölməsi tərəfindən diqqətlə idarə edilməlidir. Bütün PR fəaliyyətində olduğu kimi KSM işində də ilk addım olaraq hədəflər müəyyən edilməzdən və planlar qurulmazdan əvvəl araşdırma işinin aparılmasıdır. Bu istiqamətdə mövcud vəziyyəti müəyyən etmək üçün müxtəlif hədəf qruplarının həmin quruma qarşı sosial məsuliyyət qavrayışı ölçülməlidir.

KSM tədqiqatlarının uğurlu olmasında ictimaiyyətlə əlaqələr böyük rola sahibdir. Əvvəldən sona kimi təsirli ünsiyyətə ehtiyacı olan və müvəffəqiyyəti maraqlı tərəflərlə yaxşı münasibətdən asılı olan KSM tədqiqatları ictimaiyyətlə əlaqələr fəaliyyəti tətbiq edənlərin töhfələri ilə həyata keçirildikdə həm maraqlı tərəflərə, həm cəmiyyətə, həm də qurumlara daha çox fayda verir. Buna görə də ictimaiyyətlə əlaqələr şöbələrinin proqramlarında KSM mühüm yer tutur.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Carroll, A.B., Buchholtz, A.K., (2006). Business & Society – Ethics and Stakeholder Management, USA, Thomson Corporation South-Western.*

*2. Göksel, Ahmet B., (2010). Stratejik Halkla İlişkiler Yönetimi, Nobel Yayın Dağıtım, Ankara, 268 s.*

*3. Görpe, Semra., (1999). "Yeni Millennium'da Halkla İlişkiler: Toplumsal Sorumluluğa Geri Dönüş" başlıklı çeviri için giriş yazısı, İstanbul İletişim Fakültesi Dergisi, Sayı 9, s.193-203.*

*4. Gruning, James E. and Hunt Todd., (1984). Managing Public Relations, Wardswordh – Thomson, USA, 576 p.*

*5. Kilcullen, M ve Kooistra, J.O., (1999) At Least Do No Harm: Sources on the Changing Role of Business Ethics and Corporate Social Responsibility, Reference Services Review, 27(2), 158–178.*

*6. Kim, S.Y., Reber, B.H., (2007). How Public Relations Professionalism Influence Corporate Social Responsibility. Sözlü Bildiri, International Communication Association 2007 Annual Meeting, P1-29.*

*7. Morimoto, R., Ash, J. , Hope, C., (2005). Corporate Social Responsibility Audit: From Theory to Practice. Journal of Business Ethics, 62, 315-325.*

*8. Nikolaeva, R ve Bicho, M., (2011) The Role of Institutional and Reputational Factors in the Voluntary Adoption of Corporate Social Responsibility Reporting Standards, Journal of the Academy of Marketing Science, 39 (1), 136-157.*

*9. Okay A, Ayla O. (2007). Halkla İlişkiler Kavram Strateji ve Uygulamaları, Der Yayınları, İstanbul.*

*10. Okay, A. (2014). Halkla İlişkiler Kavram, Strateji ve Uygulamaları / A.Okay, A.Okay. - İstanbul: Der Yayınları, - 608 s.*

*11. Quliyev R. Korporativ Sosial Məsuliyyət, Dərslik, Bakı 2017, 296 s.*

*12. Stone, J. D. (2005). Public Relations and Public Responsibility. Public Relations Quarterly, 50 (1), 31-34.*

*13. Ural, Ebru G. (2006). Stratejik Halkla İlişkiler Uygulamaları, Birsen Yayınevi, İstanbul, 211 s.*


## XÜLASƏ


Bu məqalədə İctimaiyyətlə əlaqələr və Korporativ Sosial Məsuliyyət (KSM) arasındakı əlaqəyə diqqət yetirilmişdir. Korporativ Sosial Məsuliyyət anlayışının formalaşmasında, bu vəzifələrin həya-

ta keçirilməsində və tərəflər arasında effektiv ünsiyyətin təmin edilməsində mühüm rol oynayan İctimaiyyətlə əlaqələr, qurum və hədəf auditoriya arasında körpü rolunu oynayır. Həmçinin İctimaiyyətlə əlaqələr Korporativ Sosial Məsuliyyət (KSM) tədqiqatlarının uğurlu olmasında və qurumun maraqlı tərəfləri ilə möhkəm əlaqələrin qurulmasında çox vacib bir ünsürdür.

**Açar sözlər:** *İctimaiyyətlə əlaqələr, Korporativ Sosial Məsuliyyət (KSM), Korporativ Sosial Məsuliyyət (KSM) tədqiqatları, İctimaiyyətlə əlaqələr fəaliyyəti, idarəetmə.*

## РЕЗЮМЕ

Эта статья посвящена взаимосвязи между связями с общественностью и корпоративной социальной ответственностью (КСО). Связи с общественностью, играющие важную роль в формировании концепции Корпоративной социальной ответственности, в реализации этих задач и в обеспечении эффективной коммуникации между сторонами, выступают мостом между учреждением и целевой аудиторией. Кроме того, связи с общественностью являются очень важным элементом успеха исследований в области корпоративной социальной ответственности (КСО) и построения прочных отношений с заинтересованными сторонами организации.

**Ключевые слова:** *связи с общественностью, корпоративная социальная ответственность (КСО), исследования корпоративной социальной ответственности (КСО), деятельность по связям с общественностью, управление.*

## SUMMARY

This article focuses on the relationship between Public Relations and Corporate Social Responsibility (CSR). Public relations, which plays an important role in the formation of the concept of Corporate Social Responsibility, in the implementation of these tasks and in ensuring effective communication between the parties, acts as a bridge between the institution and the target audience. Also, public relations is a very important element in the success of Corporate Social Responsibility (CSR) research and building strong relationships with the organization's stakeholders.

**Keywords:** *Public relations, Corporate Social Responsibility (CSR), Corporate Social Responsibility (CSR) studies, Public relations activity, management.*

UOT 321;323

# SOSİAL XİDMƏTƏ DAİR YENİ YANAŞMALAR: NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

*ORCİD İD 0009-0001-1354-2701*

**CEYRAN RƏHMƏTULLAYEVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siyasəti kafedrasının dissertantı,*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Sosial-mədəni fəaliyyət kafedrasının müəllimi*
*E-mail: ceyran_8@yahoo.com*

**Problemə giriş.** Sosial xidmətlə bağlı məsələlər Azərbaycan Respublikasının hökümətinin daima diqqət mərkəzindədir. İctimai münasibətlər mürəkkəbləşdikcə insanların tələbatlarının artması, maraqlarının inkişafı ictimai həyatın da bu tələbatların ödənilməsini təmin edən sahələrini genişləndirir. İlk növbədə, müstəqillik dövründə cəmiyyətin sosial strukturunda baş verən dəyişiklikləri qeyd etmək yerinə düşər. Qonşu işğalçı ölkə Ermənistanla uzunmüddətli münaqişə nəticəsində qısa zamanda minlərlə insanın öz əzəli torpaqlarında yaşamaq, işləmək hüququnu və statusunu itirməsi Azərbaycanda əhalinin sosial müdafiəsi üzrə dövlət orqanlarında mühüm struktur dəyişikliklərinə səbəb olub. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ehtiyacı olanların mənzil ilə, işlə, davamlı təhsil, tibbi xidmət, ümumiyyətlə lazımi şəraitlə təmin edilməsi və s. istiqamətində xeyli işlər görmüşdür.

Bu istiqamətdə mühüm işlər görülüb və indi də görülür. İllər ərzində bu istiqamətdə sosial xidmət müxtəlif forma və istiqamətlər üzrə aparılaraq zənginləşmiş və inkişaf etmişdir. Eyni zamanda göstərilən sosial xidmətlər həm hüquqi, həm də maddi xarakter şəklində özünü formalaşdırırdı. Nəticədə qaçqınlar və məcburi köçkünlər üçün onların yeni şəraitə uyğunlaşması sahəsində bütün iş sahələrini tənzimləyən mühüm qanunvericilik bazası formalaşdırılıb. Həyat göstərdi ki, iş düzgün istiqamətdə gedir. Bu kateqoriyadan olan insanların ailələrində başqa, yeni səviyyədə sosial xidmətlərə ehtiyacı olan yeni nəsillər yetişdi. Bunlar iş yerləri, bütün səviyyələrdə təhsil almaq və işləmək imkanı, karyera yüksəlişi, zəngin asudə vaxt keçirmək, sağlam həyat sürmək və s. kimi sahələri əhatə edirdi.

İllər keçdikcə sosial xidmət nəinki müəyyən kateqoriyalı insanları əhatə etməyə başladı. Məsələn, məcburi köçkünlərlə yanaşı, əlillər, ekstremal vəziyyətə düşənlər və s. bu qəbildən olan insanlar da bu kateqoriyaya daxil olur. Yaşamaq şəraiti dəyişdikcə hər bir sosial qrupun nümayəndələri öz ehtiyaclarını ödəmək üçün müxtəlif imkanlardan istifadə edirlər. Hər şeydən əvvəl bu, gündəlik həyat və istirahət sahəsi, xidmət sahələridir. Texnologiyaların inkişafı, yeni texniki qurğular sayəsində bu sahələrin işinin təkmilləşdirilməsi sosial fəaliyyətin müxtəlif sahələrində xidmət göstərən hüquqi və fiziki şəxslərin fəal artımına şərait yaratmışdır. Hər bir insan uğur qazanmağa, firavanlığa, sağlam olmağa, yaxşı karyera qurmağa və cəmiyyətdə hörmət sahibi olmağa çalışır.

Bu baxımdan siz həm ödənişli, həm də pulsuz olaraq müxtəlif keyfiyyətli sosial xidmətlər əldə edə bilərsiniz. Sosial xidmətlər çox müxtəlifdir, çünki bazar iqtisadiyyatı qanun çərçivəsində azad rəqabət üzərində qurulub. Eyni zamanda, kiçik və orta biznesin də inkişaf etməsi üçün inhisarçılığın imkanları məhdudlaşdırılır. Bu şəraitdə sosial xidmət həm dövlət, həm də özəl xidmətlər səviyyəsində təkmilləşir və inkişaf etdirilir.

Qeyd edək ki, tibb sahəsi, ailə-məişət adət-ənənələri, insanların və yüklərin daşınması və s. ilə bağlı xidmətlər sürətlə inkişaf edir. Qeyd edək ki, xidmət sahəsinin inkişafı əhalinin məşğulluğuna da müsbət təsir göstərir. Müəyyən xidmətlərə tələbatın artması bu xidmətlər üzrə mütəxəssislərin hazırlanmasının da artmasına səbəb olur. Bu baxımdan, Azərbaycan Elm və Təhsil Nazirliyinin peşə təhsilinin inkişafı ilə bağlı proqramı maraq doğurur. Peşə təhsilinin bu formasının bütün fəaliyyət sahələrini məqsədyönlü şəkildə həyata keçirən bütöv bir təşkilatlar kompleksi yaradılmışdır. Bu, gənclərə əmək bazarında özlərini reallaşdırmaq, istedadlarını göstərmək, cəmiyyətdə öz yerlərini tutmaq imkanı yaradır. Peşə təhsili əsasında əlavə təhsil almaq imkanı var və bir çox gənclər bu imkandan lazım olduğu kimi istifadə edirlər.

Xidmət sektorunun və bütövlükdə sosial xidmətlərin inkişafı cəmiyyətin sosial strukturunda, istər dövlət səviyyəsində, istərsə də özəl sektorda müəyyən xidmətləri yerinə yetirən peşəkar təlim keçmiş mütəxəssislərdən ibarət bütöv qrupları formalaşmaqda özünü göstərir. Məsələn, gənclərin ali məktəbə daxil olmağa hazırlanmasında repetitorluğun böyük rolunu qeyd etmək lazımdır. Geniş repetitorluq ins-

titutunun formalaşmasına ictimai rəy müsbət reaksiya verməsə də, eyni zamanda, bu gün Azərbaycanda sosial təhsil xidmətlərinin bu sahəsinin rolu kifayət qədər yüksəkdir.

**Problemin işlənmə dərəcəsi.** Hər bir ölkədə yaşayış səviyyəsindən asılı olaraq sosial xidmət göstərilir, eyni zamanda bu sahə tədqiqatçıların aktual problemlərindən birinə çevrilmişdir. Göstərilən xidmətlərin spektrindən asılı olaraq bu sahənin səmərəliliyi, burada formalaşan xidmət modelləri öyrənilir, bunun da əsasında inkişaf perspektivləri, səmərəliliyinin artırılması yolları təyin edilir. Artıq qeyd etdiyimiz kimi, sosial qrupların hər birinə, tələbatlarından və sosial vəziyyətlərindən asılı olaraq belə xidmət göstərilir. Məsələn, "tədqiqat və qiymətləndirmə nəticələri göstərir ki, aztəminatlı ailələr və onların uşaqları həqiqətən də məktəb əsaslı proqramlar vasitəsilə lazımi səhiyyə xidmətlərinə çıxış əldə edirlər. Yeniyetmələr arasında ən çox ehtiyacı olanlar (yüksək riskli davranışlarla ölçülür) xidmətlərdən ən çox istifadə edirlər. Məktəb əsaslı səhiyyə xidmətlərindən istifadə edənlərin tibbi sığortaya sahib olma ehtimalı digərlərinə nisbətən daha azdır. Psixi sağlamlıq və stomatoloji xidmətlər xüsusilə marjinal resursları olan icmalarda tələb olunur; bununla belə, məktəblərdəki klinikalarda əvvəllər sənədləşdirilməmiş bir çox xroniki xəstəliklər (astma, ürək problemləri) aşkar edilir" [1]. Tədqiqat nəticəsində həm də problemlə bağlı olaraq faydalı və vacib tövsiyələr verilir:

1. Potensialın zəif olduğu yerlərdə, əsas nəticə tədbiri kimi qeyri-dövlət provayderlərinə xidmətlərin göstərilməsi üçün hökumət vasitəsilə işləməyi nəzərdən keçirin.

2. İradə çatışmazlığı olan yerdə donorları əlaqələndirmək, dövlət və qeyri-dövlət provayderlərini idarə etmək üçün qeyri-dövlət mexanizmindən (BMT-nin müqayisəli üstünlüyü var) istifadə edin. Təhvil verilməsini asanlaşdırmaq üçün dövlət sistemləri ilə uyğunlaşın.

3. Həm potensialın, həm də iradənin zəif olduğu yerlərdə, xidmətlərin çatdırılmasına daha uzunmüddətli, proqramlı yanaşmaq üçün humanitar aktorlarla işləyin.

4. Resursları icma səviyyəsinə endirmək, xidmətlərə tələbi stimullaşdırmaq, xidmət təminatçılarına nəzarət etmək və müsbət siyasi və sosial dəyişiklikləri təşviq etmək üçün yerli strukturlarla işləyin.

5. Tələb tərəfində, zəifliyi azaldan və yoxsulların xidmətlərə çıxışını asanlaşdıran sosial müdafiə tədbirlərini nəzərdən keçirin [2].

Sosial işin həyata keçirilməsi yollarının təhlili ilə bağlı da maraqlı təkliflər irəli sürülür (uyğun metod və müdaxilə seçilməsi, sosial işçilərin istifadə etdiyi ən yaxşı 5 metod, 8 ən yaxşı sosial iş müdaxiləsi, sosial iş və məişət zorakılığı: 4 faydalı metod) [3].

В статье рассказывается о восстановлении образцов материальной культуры Фонда Гейдара Алиева после Карабахского триумфа нашей армии, фестивалях и мероприятиях, проводимых в рамках исторической культуры, поддержки и деятельности первой леди Азербайджанской Республики Мехрибан Алиевой в рамках Фонда. Цель состоит в том, чтобы избавить наше культурное наследие от ситуации, сложившейся после армянского вандализма, доказать фактами, что карабахская культура не описывается вне азербайджанской культуры. Потому что Карабах - это наше прошлое, настоящее и будущее. Карабах является редчайшей частью культурной истории Азербайджана. Результатом 44-дневной войны стала победа над нами азербайджанской армии во главе с Верховным Главнокомандующим Ильхам Алиевым, а также освобождение нашей пленной культуры. Города, памятники, подвергшиеся армянскому вандализму, находились в почти полностью разрушенном состоянии. С деятельности фонда начались реставрационные работы каждого поврежденного образца материальной культуры в Карабахе. При этом многие события в Карабахе включены в деятельность Фонда Гейдара Алиева. Статья написана из деятельности Фонда, реставрационных работ, проводимых в Карабахе, историко-культурного наследия Азербайджана по инициативе первой леди Азербайджанской Республики Мехрибан Алиевой. Помимо реставрационных работ, следует особо отметить фестивали и мероприятия в Карабахе, развитие Карабаха основывается как на восстановлении и сохранении нашего прошлого, так и на передаче будущих поколений. Работа по восстановлению и реконструкции была дана параллельно с подготовкой и организацией мероприятия. В течение короткого времени после победы все эти работы были более заметны на исследовательском фоне.

**Ключевые слова:** *Карабах, Фонд Гейдара Алиева, культура, Ильхам Алиев, Мехрибан Алиева*

UOT: 94(479.24). 930:314

# RUSİYA İŞĞALINDAN SONRA DƏRBƏND ƏHALİSİNİN DİNİ VƏ SOSİAL TƏRKİBİ (XIX-XX əsrin əvvəlləri)

**ASƏF HACIYEV**
*Bakı Dövlət Universiteti,*
*aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: asafhajiyev@rambler.ru*

Dərbənd əhalisinin dini mənsubiyyəti haqqında Rusiyanın işğalına qədər demək olar ki, konkret rəqəmlər göstərmək mümkün olmasa da, XVIII əsrin sonu - XIX əsrin əvvəllərində bölgədə olmuş səyyah, elm adamları və hərbi yürüş iştirkçılarının qələmə aldıqları müəyyən məlumatlara rast gəlmək mümkündür. Belə ki, F.F.Simonoviç (1760-1815, general-leytenant) 1796-cı ilə aid Dərbənd şəhərində islamın Əli (şiə - A.H.) və sünni təriqətinə məxsus 2.080, qriqoryan təriqətinə məxsus 90 ailənin yaşaması barədə məlumat vermişdir. Müəllif Dərbənd dairəsinə aid olan 780 ailənin dini mənsubiyyəti barədə isə məlumat verməmişdir [2,143].

N.F.Rtişevin (1754-1835, Rusiya dövlət xadimi və hərbçisi, general infanteriya - piyada qoşunları generalı) 1813-cü ilə aid hesabatında göstərilir ki, 1810-cu il sayımına görə, Dərbənddə qeydə alınan 1.435 müsəlman ailəsində kişi cinsindən olan 3.953 nəfər, 28 erməni ailəsində 50 nəfər, 59 yəhudi ailəsində isə 166 nəfər yaşamışdır. Bu hesabatda Dərbəndin müsəlman əhalisinin şiə və sünni təriqəti arasında hansı nisbətdə bölünməsi, həmçinin Ulus mahalına daxil olan 9 kənddə qeydə alınan 284 ailənin dini mənsubiyyəti göstərilməmişdir [2,250].

E.İ.Kozubski "Dərbənd şəhərinin tarixi" kitabında 1810-cu ilə dair verilən məlumatda müsəlman və erməni əhalisinin sayında fərqli rəqəm verir. Belə ki, E.İ.Kozubski şəhərdə 3.947 nəfər müsəlmanın, 56 nəfər ermənin, 166 nəfər isə yəhudinin yaşadığını göstərmişdir [3, 241].

1820-ci ildə Dərbənd şəhərində olmuş Fransız diplomatı və səyyahı Jak Fransua Qambanın (1763-1833, həmçinin Fransanın Tiflisdə konsulu. O ilk dəfə 1817-ci ildə, ikinci dəfə isə 1819-cu ildə Rusiya ərazisinə səyahət etmişdir) məlumatına görə, Dərbəndin 7-8 minlik əhalisinin 2/3 hissəsi fars, 600-700 nəfəri erməni, 200-300 nəfəri yəhudi, bir neçə nəfəri isə ərəb olmuşdur [3,162]. Müəllifin məlumatında əhalinin dini mənsubiyyəti göstərilməsə də, fars və ərəb kimi qeyd etdiyi əhalinin müsəlman, ermənilərin qriqoryan, yəhudilərin isə iudaizmə mənsub olmaları şübhə doğurmur.

Kazan Universitetinin professoru Eduard İvanoviç Eyxvaldın (1795-1876) məlumatına əsasən, Dərbənddə olan 1800 ailədə 26 min nəfər əhali yaşamışdır ki, bunların da çoxu şiələrdir. Müəllif həmçinin şəhərdə ermənilərin və yəhudilərin sayca az olduqlarını, rus məmurlarının isə daha çox olmaları barədə məlumatı da diqqətdən qaçırmamışdır [3, 163].

Dərbənd şəhərinin komendantı mayor fon Aşeberqin 16 iyul 1824-cü ildə keçirdiyi əhali siyahıyaalmasının nəticələrinə əsasən, şəhərdə 11.060 nəfər əhali yaşayırdı ki, bu əhalinin 10.377 nəfəri dini mənsubiyyətinə görə, müsəlman (5.407 nəfəri kişi, 4.970 nəfəri qadın) idi. 239 nəfər ermənin (136 nəfər kişi, 103 nəfər qadın), həmçinin 444 nəfər yəhudinin (230 nəfər kişi, 214 nəfər qadın) mənsub olduğu din göstərilməsə də onların qriqoryan və iudaizm dininə sitayiş etmələri məlumdur [3,166].

Dərbənd şəhərinin komendantı olmuş polkovnik Rozenfeldin 22 aprel 1830-cu il tarixli hesabatında da Dərbənd şəhəri əhalisinin dini tərkibi barədə məlumatlar vardır. Rozenfeldin hesabatından məlum olur ki, həmin dövrdə Dərbənd şəhəri, forştadt (şəhərətrafı) və Sabnova kəndində ümumilikdə 2.115 ailədə 10.616 nəfər əhali yaşamışdır. Onların 1.986-sı müsəlman ailəsi, 87-si yəhudi ailəsi, 42-si isə erməni ailəsi idi. 10.616 nəfər əhalinin 9.963 nəfəri müsəlman (5.184 nəfər kişi, 4.779 nəfər qadın), 455 nəfəri iudaizm (243 nəfər kişi, 212 nəfər qadın), 198 nəfəri isə (107 nəfər kişi, 91 nəfər qadın) qriqoryan dininə mənsub idilər [1, 20-21]. (Ümumiyyətlə erməni və yəhudilərin dini mənsubiyyəti bir çox sənədlərdə göstərilməsə də onlar müvafiq olaraq qriqoryan və iudaizmə şamil edilmişdir - A.H.)

1832-ci ildə Dərbənd şəhərində keçirilmiş kameral təsvir sənədlərində əhalinin bütövlükdə tərkibi, o cümlədən dini tərkibi haqqında qənaətbəxş məlumatlar verilməmişdir. 1832-ci il sayımına görə, Dərbənd şəhəri, forştadt (şəhərətrafı) və Sabnovada qeydiyyata alınmış 1.795 ailədə kişi cinsindən olan 5.139 nəfər yaşayırdı. Belə ki, onların 4.741 nəfəri

(1715 ailə) müsəlman dininə mənsub olan tatar (azərbaycanlı - A.H.), 256 nəfəri iudaizm dininə mənsub yəhudi (50 ailə), 142 nəfəri isə erməni - qriqoryan idi (30 ailə) [3, 181]. Dərbənd şəhəri əhalisinin böyük əksəriyyəti Əli təriqətinə - şiə, 1/10 hissəsi isə sünni təriqətinə inanırdı [14, 165-166]. Qeyd etmək lazımdır ki, 1886-cı ilə qədər Dərbənddə keçirilmiş siyahıyaalmalarda əhalinin dini tərkibi haqqında ətraflı məlumatlar verilmədiyi üçün şəhər əhalisinin ideoloji mənsubiyyət baxımından dolğun təsvirini vermək mümkün deyildir.

1886-cı il ailə, 1897-ci il Ümumrusiya siyahıyaalmaları materiallarında, həmçinin XIX əsrin sonu - XX əsrin əvvəllərində illər üzrə tərtib edilmiş qubernator hesabatları və icmallarında isə əhalinin dini tərkibi müxtəlif dinlər və təriqətlər üzrə konkret statistik rəqəmlər əsasında təsvir edilmişdir [4; 15, 3]. Qeyd edilən materiallar əsasında tərtib etdiyimiz cədvəl Dərbənd şəhəri əhalisinin dini mənsubiyyəti baxımından tərkibi barədə əyani təsəvvür yaradır (cədvəl 1).

1897-ci il Ümumrusiya siyahıyaalınmasının nəticələrinə görə, Dərbənd şəhərində 1.135 nəfər pravoslav, 3 nəfər təfriqəçi, 296 nəfər katolik, 25 nəfər protestant, 10.383 nəfər müsəlman, 2.190 nəfər iudey, 613 nəfər müxtəlif xristian təriqətlərinə məxsus, 4 nəfər isə qeyri-xristian əhali yaşayırdı [15, 3; 3, 454]. Çox maraqlıdır ki, 1897-ci il Ümumrusiya siyahıyaalınmasında qriqoryan əhalinin (ermənilərin - A.H.) sayı göstərilməmişdir. Halbuki, 1897-ci il qubernator icmalında Dərbənd şəhərində hər iki cinsdən 942 nəfər qriqoryan əhalinin yaşaması faktı öz əksini tapmışdır. Cədvəl 2-dən göründüyü kimi. XIX əsrin əvvəlləri də daxil olmaqla Dərbənd şəhəri əhalisinin dini tərkibində pravoslav, qriqoryan və iudaizmə inanan əhalinin sayı dinamik olaraq yüksələn xətlə artmışdır. Qriqoryan əhalinin sayında hər hansı bir artım olmadığı halda, pravoslav və yəhudilərin artımında belə hallar müşahidə olunmuşdur. Belə ki, 1902,1906 və 1908-ci illərdə Dərbənd şəhərinin pravoslav əhalisinin say dinamikasında kəskin sıçrayışlar baş vermiş və 1908-ci ildə pravoslav əhalinin sayı rekord həddə 8.645 nəfərə çatmışdı. Yəhudi əhalisinin sayında ciddi artımlar 1905 və 1908-ci illərdə qeydə alınmış, onların rekord say həddi 1908-ci ildə 6.518 nəfərə çatmışdı. Sünni, xüsusilə də şiə təriqətinə məxsus müsəlman əhalisinin sayında isə XIX əsrin sonu-XX əsrin əvvəllərində, 1908-ci il istisna olmaqla, diqqət çəkən elə bir artım baş verməmişdir. Doğrudur, Dərbəndin sünni təriqə-

**Cədvəl 1**
**Dərbənd şəhəri əhalisinin dini tərkibi**

| İllər | Pravoslav | | Təfriqəçi | | Qriqoryan | | Katolik | | Protestant | | Müsəlman | | | | Yəhudi | | Naməlum | | Cəmi hər iki cins |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | sünni | | şiə | | | | | | |
| | k. | q. | k. | q. | k. | q. | k. | q. | k. | q. | k. | q. | k. | q. | k. | q. | k. | q. | |
| 1886 | 1237 | 380 | - | - | 488 | 387 | 21 | 8 | 9 | 4 | 933 | 813 | 5062 | 813 | 1028 | 963 | - | - | 15265 |
| 1893* | 529 | 346 | - | - | 491 | 390 | 17 | 11 | 6 | 8 | müs. müs. | kişi qadın | 5705 4338 | | 1368 | 1203 | - | - | 14412 |
| 1896** | 900 | | - | - | 92 | 3 | 3 | 8 | 13 | | 630 | | 94 | 42 | 26 | 68 | - | - | 14614 |
| 1897 | 647 | 410 | - | - | 527 | 415 | 49 | 12 | 14 | 9 | 413 | 361 | 5395 | 4125 | 1515 | 1260 | - | - | 15152 |
| 1899 | 1325 | 708 | - | - | 824 | 639 | 39 | 7 | - | - | 640 | 441 | 5355 | 4049 | 1498 | 1347 | 1295 | 379 | 18546 |
| 1902 | 1877 | 808 | 57 | - | 951 | 680 | 119 | 8 | 25 | 12 | 714 | 443 | 5412 | 4141 | 1704 | 1495 | 315 | 197 | 18958 |
| 1903 | 2391 | 1186 | 55 | - | 1059 | 756 | 139 | 24 | 26 | 12 | 1449 | 952 | 5419 | 4128 | 1802 | 1585 | - | - | 20983 |
| 1904 | 2439 | 1205 | 53 | - | 1123 | 765 | 125 | 8 | 28 | 12 | 707 | 443 | 5446 | 4125 | 1896 | 1683 | 920 | 537 | 21515 |
| 1905 | 2425 | 1297 | 39 | - | 1366 | 911 | 93 | 8 | 13 | 12 | 956 | 589 | 5445 | 4115 | 2468 | 2114 | 875 | 504 | 23230 |
| 1906 | 5784 | 1563 | 111 | 42 | 1667 | 956 | 109 | 9 | 10 | 12 | 2401 | 695 | 5469 | 4094 | 3010 | 2361 | 941 | 543 | 29777 |
| 1907 | 5786 | 1759 | 36 | - | 1693 | 996 | 174 | 11 | 26 | 10 | 2554 | 1243 | 5442 | 4075 | 3200 | 2584 | 1113 | 59 | 30761 |
| 1908 | 6995 | 2103 | 19 | - | 1772 | 1000 | 215 | 17 | 239 | 72 | 4453 | 1572 | 6354 | 4086 | 4497 | 2021 | - | - | 35415 |
| 1909 | 6669 | 2026 | 18 | - | 1797 | 1050 | 415 | 73 | 34 | 9 | 3776 | 1046 | 5497 | 4095 | 3526 | 2621 | 320 | 195 | 33167 |
| 1911 | 6340 | 2015 | - | - | 1797 | 1071 | 256 | 71 | 20 | 9 | 4082 | 1233 | 5474 | 4070 | 3603 | 2675 | - | - | 32716 |

** 1893-cü il statistik məlumatlarında müsəlman əhali sünni və şiə təriqətinə bölünmədən bir yerdə verilmişdir.*

*** 1896-cı il qubernator icmalında əhalinin dini tərkibi kişi və qadın cinsinə bölünməmişdir.*

tindən olan müsəlman əhalisinin sayında 1906 və 1907-cı illərdə yüksək artım qeydə alınmışdır. Belə ki, Dərbəndin sünni əhalisi 1905-ci ildə 1.545 nəfər olduğu halda, 1906 və 1907-ci illərdə onların sayı 3.096 və 3.797 nəfər təşkil etmişdir. 1909-cu ildən etibarən Dərbənd şəhəri əhalisinin sayında qeydə alınan azalma prosesi əhalinin dini tərkibində, xüsusilə də müsəlman əhalisinin sayında daha qabarıq şəkildə müşahidə olunurdu. 1926-cı il Ümumrusiya siyahıyaalma sənədlərində əhalinin dini mənsubiyyəti haqqında məlumatlar olmadığı üçün Dərbənd əhalisinin dini tərkibində hansı proseslərin izlənməsi mümkün deyildir.

Dərbənd əhalisinin öyrənilməsi mühüm olan məsələlərindən biri də əhalinin sosial tərkibinin araşdırılmasıdır. XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid olan sayım materiallarında və qubernator icmallarında Dərbənd əhalisinin sosial tərkibi haqqında kifayət qədər materiallar vardır. Dərbənd əhalisinin sosial tərkibi haqqında əldə etdiyimiz ilk məlumat 1830-cu ilə aiddir. Dərbənd şəhərinin komendantı polkovnik Rozenfeldin 1830-cu il 22 aprel trixli hesabatında verilən məlumata əsasən, Dərbənd şəhərində qeydə alınmış 9.618 nəfər əhalinin 55-i bəy, 44-ü seyid, 29-u molla, 4-ü şeyx, 2-si axund, 2-si erməni ruhanisi, 2-si yəhudi ruhanisi, forştadtda (şəhərətrafı) yaşayan 801 nəfərin 1-i molla, Sabnovada yaşayan 197 nəfərin 2-si molla, 1 nəfəri isə şeyx idi [1, 20-21]. Dərbənd şəhərində keçirilmiş ilk kameral təsvir materiallarında da əhalinin sosial tərkibi haqqında bəzi statistik rəqəmlər göstərilmişdir. Həmin sənədlərdə verilən məlumatlara görə, 1832-ci ildə Dərbənddə siyahıya alınmış kişi cinsinə məxsus 5.139 nəfərin 66-sı bəy, 2-si erməni zadəganı, 4-ü axund, 39-u molla, 1-i azan verən, 43-ü seyid, 4-ü erməni ruhanisi, 3-ü isə yəhudi ruhanisi idi [14, 165-166]. E.İ.Kozubskinin 1851-ci il kameral təsvir materialları əsasında tərtib etdiyi cədvəldə [3, 241] əhalinin sosial tərkibi ailələr üzrə Dərbənd şəhərinin mahalları arasında belə bölünmüşdür (cədvəl 2).

Beləliklə, 1886-cı il ailə siyahıyaalınmasına görə, Dərbənd şəhəri əhalisinin 150 nəfəri zadəgan (110 nəfəri kişi, 40 nəfəri qadın), 291 nəfəri bəy (250 nəfəri kişi, 41 nəfəri qadın), 6 nəfəri pravoslav ruhani (4 nəfəri kişi, 2 nəfəri qadın), 300 nəfəri fəxri vətəndaş (158 nəfəri kişi, 142 nəfəri qadın), 22 nəfəri tacir (12 nəfəri kişi, 10 nəfəri qadın), 8.844 nəfəri şəhərli (8.214 nəfəri kişi, 630 nəfəri qadın), 52 nəfəri isə ehtiyatda olan aşağı rütbəli məmurlardan (30 nəfəri kişi, 22 nəfəri qadın) ibarət olmuşdur [16]. Maraqlıdır ki, 1886-cı il ailə siyahıyaalmasında Dərbənddə kəndli və müsəlman din xadimləri kateqoriyaları haqqında heç bir məlumat verilməmişdir. 1897-ci il Ümumrusiya siyahıyaalma materiallarında isə əhali-

**Cədvəl 2**
**Dərbənd şəhəri əhalisinin sosial tərkibi (1851-ci il)**

| Sosial təbəqələr | I mah | II mah | III mah | IV mah | V mah | VI mah | VII mah | VIII mah | IX mah | Erməni icması | Yəhudi icması | Forştadt | Sabnova | Cəmi ailə |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Sadə əhali** | 306 | 121 | 86 | 174 | 253 | 194 | 348 | 105 | 235 | 69 | 180 | 102 | 44 | 2217 |
| **Bəy** | 8 | 3 | 2 | 11 | 13 | 13 | 21 | 14 | 16 | 8 | - | - | - | 109 |
| **Molla, ruhani** | 4 | 3 | 2 | 2 | 4 | 4 | 10 | 2 | 4 | 6 | 2 | 2 | 1 | 46 |
| **Şeyx, seyid, ağa** | 3 | - | 5 | 1 | 9 | 21 | 19 | - | 6 | - | - | - | - | 64 |

nin sosial tərkibi daha bəsit parametrlər üzrə göstərilmişdir. Belə ki, həmin siyahıyaalınmanın nəticələrinə əsasən, Dərbənd şəhəri əhalisinin 740 nəfərini irsi və şəxsi zadəganlar, 30 nəfərini ruhanilər, 148 nəfərini tacirlər, 11.142 nəfərini şəhərlilər, 2.306 nəfərini kəndlilər, 214 nəfərini xarici təbəələr, 69 nəfərini digər sosial təbəqələr təşkil edirdi [15, 2]. Göründüyü kimi, 1886 və 1897-ci illərin statistik rəqəmləri arasında ətraflı müqayisələr aparmaq qeyri-mümkündür. Dərbənd əhalisinin sosial tərkibinin dolğun mənzərəsini yaratmaq üçün XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid Dağıstan vilayəti qubernatorunun icmallarında [5; 6; 7; 8; 9; 10; 11; 12; 13] verilmiş məlumatlar əsasında tərtib etdiyimiz cədvəli nəzərdən keçirək (cədvəl 3). Bu cədvəldəki statistik məlumatların təhlili göstərir ki, Dərbənd şəhəri əhalisinin sosial tərkibi əsasən imtiyazlı təbəqə olan zadəgan və ruhanilərdən, həmçinin vergi verən təbəqəyə aid olan şəhərli və kəndlilərdən ibarət olmuşdur. Çox maraqlıdır ki, 1898-ci ildən sonra Dərbənd şəhəri əhalisinin sosial tərkibində kəndli kateqoriyası aradan çıxmışdır. Zadəgan silkinə məxsus olan əhalinin say dinamikasında artım 3 dəfə, 1899-cu ildə 245 nəfər, 1905-ci ildə 147 nəfər və 1908-ci ildə isə 143 nəfər qeydə alınmışdır. Zadəgan silkinə məxsus bəylərin say dinamikasında nəzərə çarpacaq dərəcədə artım isə 2 dəfə (1905-ci ildə 147 nəfər, 1908-ci ildə 179 nəfər) baş vermişdir. İmtiyazlı silkə aid olan ruhanilərin sayında XIX əsrin sonunda müşahidə olunan artım prosesi XX əsrin əvvəllərində azalma və stabilləşmə dövrü ilə əvəz olunmuşdur. Şəhər əhalisinin tərkibində qeydə alınan irsi fəxri vətəndaşlar və tacirlərin sayı demək olar ki, dəyişməz olduğu halda, şəhərli kateqoriyasının sayı XIX əsrin sonundan başlayaraq 1908-ci ilə qədər yüksələn xətlə artmış sonrakı dövrdə isə azalma prosesi baş vermişdir.

Dərbənd şəhəri əhalisinin sosial tərkibində 1903-cü ildən qeydə alınan silki məlum olmayan əhalinin sayında 1905-ci ildə 1904-cü ilə nisbətən 2 dəfə, 1906-cı ildə isə 1905-ci ilə nisbətən 2,5 dəfə artım baş vermişdir. Bu artım isə Dərbəndə iş ardınca qonşu bölgələrdən gələn əhali axınının güclənməsi ilə əlaqədar olmuşdur.

Beləliklə, əldə olunan materialların təhlili onu göstərir ki, Rusiya Dərbənd şəhərini işğal etdikdən sonra çarizmin yeritdiyi ruslaşdırma, xristianlaşdırma siyasəti burada yaşayan müsəlman əhalinin həm dini, həm də sosial tərkibinə çox ciddi təsir göstərmişdir və nəticədə Dərbəndin müsəlman əhalisinin xüsusi çəkisinin kəskin şəkildə azalması baş vermişdir.

**Cədvəl 3**
**XIX əsrin sonu – XX əsrin əvvəllərində Dərbənd əhalisinin sosial tərkibi**

| Bütün əhali | İllər | Zadəganlar | | | | | | | Ruhanilər | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | İrsi zadəgan | | Şəxsi zadəgan | | Bəylər | | Cəmi | Pravoslav | | Qriqoryan | | Katolik | | Sünni | | Şiə | | Yəhudi | |
| | | | k. | q. | k. | q. | k. | q. | | k. | q. | k. | q. | k. | q. | k. | q. | k. | q. | k. | q. |
| 15594 | 1894 | 771 | - | - | - | - | - | - | 52 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 15666 | 1895 | 762 | - | - | - | - | - | - | 59 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 15651 | 1896 | 753 | - | - | - | - | - | - | 67 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 16196 | 1897 | 993 | - | - | - | - | - | - | 76 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 18871 | 1898 | 1046 | - | - | - | - | - | - | 93 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 18546 | 1899 | 1291 | 110 | 114 | 385 | 337 | 176 | 169 | 64 | 6 | 15 | 2 | 5 | - | - | 2 | 2 | 15 | 15 | 1 | 1 |
| 18555 | 1900 | 1286 | - | - | - | - | - | - | 56 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 18775 | 1901 | 1286 | - | - | - | - | - | - | 56 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 18960 | 1902 | 1286 | 112 | 114 | 381 | 335 | 175 | 169 | 58 | 4 | 5 | 3 | 8 | - | - | 3 | 4 | 11 | 9 | 6 | 5 |
| 20983 | 1903 | 1286 | 112 | 114 | 381 | 335 | 175 | 169 | 56 | 4 | 6 | 3 | 5 | - | - | 3 | 4 | 11 | 9 | 6 | 5 |
| 21515 | 1904 | 1286 | 112 | 114 | 381 | 335 | 175 | 169 | 56 | 4 | 6 | 3 | 5 | - | - | 3 | 4 | 11 | 9 | 6 | 5 |
| 23230 | 1905 | 1433 | 112 | 114 | 381 | 335 | 250 | 241 | 56 | 4 | 6 | 3 | 5 | - | - | 3 | 4 | 11 | 9 | 6 | 5 |
| 29777 | 1906 | 1447 | 123 | 117 | 381 | 335 | 250 | 241 | 56 | 4 | 6 | 3 | 5 | - | - | 3 | 4 | 11 | 9 | 6 | 5 |
| 30761 | 1907 | 1457 | 123 | 117 | 391 | 335 | 250 | 241 | 45 | 4 | 6 | 3 | 5 | - | - | 3 | 4 | 11 | 9 | - | - |
| 35415 | 1908 | 1600 | 115 | 100 | 375 | 340 | 350 | 320 | 60 | 4 | 4 | 3 | 3 | - | - | 1 | 1 | 20 | 20 | 2 | 2 |
| 33095 | 1909 | 1396 | 123 | 117 | 319 | 335 | 260 | 242 | 52 | 4 | 6 | 3 | 5 | - | - | 3 | 4 | 11 | 9 | 2 | 5 |
| 32716 | 1911 | 1464 | 120 | 116 | 392 | 332 | 263 | 241 | 42 | 4 | 5 | 3 | 5 | - | - | 1 | 1 | 11 | 9 | 1 | 2 |

**Cədvəl 3-ün ardı**

| İllər | Şəhərli | | | | | | | Kəndli | Hərbçi | | | Silki məlum olmayan | | | Xarici təbəələr | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | İrsi fəxri vətəndaş | | Tacir | | Şəhərli | | Cəmi | Cəmi | k. | q. | Cəmi | k. | q. | Cəmi | k. | q. |
| | | k. | q. | k. | q. | k. | q. | | | | | | | | | | |
| 1894 | 12235 | - | - | - | - | - | - | 1162 | 1305 | - | - | - | - | - | 69 | - | - |
| 1895 | 12362 | - | - | - | - | - | - | 1083 | 1319 | - | - | - | - | - | 81 | - | - |
| 1896 | 12375 | - | - | - | - | - | - | 1103 | 1270 | - | - | - | - | - | 83 | - | - |
| 1897 | 12445 | - | - | - | - | - | - | 1265 | 1306 | - | - | - | - | - | 111 | - | - |
| 1898 | 15170 | - | - | - | - | - | - | 1213 | 1329 | - | - | - | - | - | 20 | - | - |
| 1899 | 15754 | 8 | 11 | 94 | 59 | 8997 | 6585 | - | 1162 | 980 | 182 | - | - | - | 275 | 200 | 75 |
| 1900 | 15825 | - | - | - | - | - | - | - | 1113 | - | - | - | - | - | 275 | - | - |
| 1901 | 16347 | - | - | - | - | - | - | - | 1086 | - | - | - | - | - | - | - | - |
| 1902 | 16561 | 8 | 11 | 70 | 53 | 9411 | 7008 | - | 1055 | 990 | 65 | - | - | - | - | - | - |
| 1903 | 16775 | 8 | 11 | 66 | 50 | 9494 | 7146 | - | 1060 | 985 | 75 | 1806 | 1092 | 714 | - | - | - |
| 1904 | 17074 | 8 | 11 | 67 | 60 | 9637 | 7291 | - | 1196 | 1115 | 81 | 1903 | 1215 | 688 | - | - | - |
| 1905 | 17094 | 8 | 11 | 68 | 46 | 9649 | 7312 | - | 816 | 754 | 62 | 3831 | 2431 | 1400 | - | - | - |
| 1906 | 17276 | 8 | 11 | 54 | 36 | 9742 | 7425 | - | 974 | 897 | 77 | 10024 | 8020 | 2004 | - | - | - |
| 1907 | 17360 | 8 | 11 | 54 | 36 | 9733 | 7518 | - | 923 | 859 | 64 | 10976 | 8585 | 2391 | - | - | - |
| 1908 | 19502 | 15 | 10 | 60 | 40 | 12061 | 7316 | - | 1001 | 937 | 64 | 13252 | 10601 | 2651 | - | - | - |
| 1909 | 17552 | 9 | 11 | 54 | 36 | 9807 | 7635 | - | 843 | 784 | 59 | 13252 | 10601 | 2651 | - | - | - |
| 1911 | 17777 | 9 | 11 | 54 | 36 | 9936 | 7731 | - | 274 | 253 | 21 | 13159 | 10525 | 2634 | - | - | - |

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Движение горцев Северо-восточного Кавказа в 20-50-х гг. XIX века. Махачкала, 1959, 785 с*

2. *История, география и этнография Дагестана XVIII-XIX вв. Архивные мат. Под ред. М.О.Косвена и Х.М.Хашаева. М.: Изд. Вост. Лит., 1958, 372 с.*

3. *Козубский Е.И. История города Дербента. Темир-Хан-Шура: Изд. Русская типография, 1906, 648 с.*

4. *Нагиева М.К. Посемейные списки населения Дагестанской области 1886 года и переписи населения 1897 и 1926 г. Стат. справ. Махач: Наука, 2005.*

5. *Обзор о состоянии Дагестанской области за 1897 год. Т-Х-Шура, 1898.*

6. *Обзор Дагестанской области за 1899 год. Приложение ко всеподданнейшему отчету военного губернатора. Темир-Хан-Шура, 1900.*

7. *Обзор Дагестанской области за 1902 год. Темир-Хан-Шура, 1903.*

8. *Обзор Дагестанской области за 1903 год. Темир-Хан-Шура, 1904.*

9. *Обзор Дагестанской области за 1904 год. Темир-Хан-Шура, 1905.*

10. *Обзор Дагестанской области за 1905 год. Темир-Хан-Шура, 1907.*

11. *Обзор Дагестанской области за 1906 год. Темир-Хан-Шура, 1908.*

12. *Обзор Дагестанской области за 1907 год. Темир-Хан-Шура, 1909.*

13. *Обзор Дагестанской области за 1908 год. Темир-Хан-Шура, 1909.*

14. *Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. СПб., 1836, ч. 1-4.*

15. *Первая всеобщая перепись населения Российской империи 1897 г. Дагестанская область. СПб, 1905, Т.62.*

16. *Свод статических данных извлеченных из посемейных списков населения Закавказья. Тифлис, 1893.*

**Rusiya işğalından sonra Dərbənd əhalisinin dini və sosial tərkibi (XIX-XX əsrin əvvəlləri)**


**XÜLASƏ**

Məqalədə Rusiya işğalından sonra Dərbənd əhalisinin XIX - XX əsrin əvvəllərində dini və sosial tərkibi araşdırılır. Xatırladaq ki, Rusiyanın işğalına qədər, Dərbənd əhalisinin həm dini, həm də sosial tərkibi barədə məlumatlara XVIII əsrin sonu - XIX əsrin əvvəllərində bölgədə olmuş səyyah, elm adamları və hərbi yürüş iştirkçılarının qeydlərində rast gəlirik. Araşdırdığımız dövr, yəni XIX-XX əsrin əvvəlləri üçün isə Dərbənd əhalisinin dini və sosial tərkibi barədə daha dolğun məlumatları şəhərdə keçirilmiş kameral təsvir sənədlərinin, qubernator hesabatlarının və icmallarının, həmçinin siyahıyaalma materiallarının köməyi ilə təhlil edərək belə nəticəyə gəlmişik ki, Rusiya Dərbənd şəhərini işğal etdikdən sonra çarizmin yeritdiyi ruslaşdırma, xristianlaşdırma siyasəti Dərbənd əhalisinin həm dini, həm də sosial tərkibinə çox ciddi təsir göstərmiş və əhalinin kəskin şəkildə azalmasına gətirib çıxarmışdır.



**Açar sözlər:** *Dərbənd, Rusiya, əhali, şəhər, siyahıyaalma, dini tərkib, sosial tərkib.*


**Религиозный и социальный состав населения Дербента после российской оккупации (XIX-начало XX века)**


**РЕЗЮМЕ**

В статье исследуется религиозный и социальный состав населения Дербента XIX - начала XX веков. Напомним, что до российской оккупации сведениями как о религиозном, так и о социальном составе населения Дербента мы встречаемся в записях путешественников, ученых и участников военных походов, побывавших в регионе в конце XVIII - начале XIX века.

Анализируя более полные данные о религиозном и социальном составе населения Дербента за исследуемый период, то есть за XIX-начало XX века, с помощью проведенных в городе камеральных описательных документов, отчетов и обзоров губернаторов, а также материалов переписей, мы пришли к выводу, что политика русификации, христианизации, проводимая царизмом после оккупации Россией города Дербента, оказало очень серьезное влияние как на религиозный, так и на социальный состав населения Дербента, и привело к резкому сокращению населения.



**Ключевые слова:** *Дербент, Россия, населения, город, перепись, религиозная состав, социальный состав.*


**Religious and social composition of the population of Derbend after the Russian occupation (XIX-early XX centuries)**


**SUMMARY**

The article examines the religious and social composition of the population of Derbend in the XIX-early XX centuries. It should be recalled that before the occupation of Russia, we find information about both the religious and social composition of the population of Derbend in the notes of travelers, scientists and participants of military campaigns who visited the region in the late XVIII - early XIX centuries. Analyzing complete information about the religious and social composition of the population of Derbend for the period we investigate - the XIX - beginning of the XX centuries, obtained from the city’s cameral description documents, governor's reports and summaries, as well as census materials, we came to the conclusion that after the Russian occupation of the city of Derbend the policy of russification and Christianization introduced by tsarism had a very serious effect on both the religious and social composition of the population of Derbend and led to a sharp decrease in the population.



**Key words:** *Derbent, Russia, population, city, census, religious compocition, cocial compocition.*

UOT: 94

# HEYDƏR ƏLİYEVİN GƏNC KADRLARIN DÖVLƏT İDARƏ ETMƏSİNƏ CƏLB EDİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ (1969-1982-ci illər)

**YÜZDANƏ CABBARLI**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu “Əliyevşünaslıq” şöbəsinin kiçik elmi işçisi*
*E-mail: uzdana93@mail.ru*

Ölkəmizin həyatında böyük rol oynayan gənclər Azərbaycan SSR-in iqtisadiyyatına, elm və mədəniyyətinin tərəqqisinə töhfələrini verir, respublikanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsində iştirak edirdilər. Bu nöqteyi-nəzərdən gənc kadrların dövlət idarəçiliyi sistemində iştirakı, gənclərin hərtərəfli inkişafı, səmərəli məşğulluğu və onların potensiallarından dövlətin rifahı üçün istifadə olunması çox vacib hesab edilir.

Dövlət işlərinin və ictimai işlərin idarə olunmasında gənclərin hüquqları SSRİ Konstitutsiyasının (1977-ci il), habelə müttəfiq və muxtar respublikaların konstitutsiyalarında qanunvericilik yolu ilə təsbit edilmişdi. SSRİ Konstitutsiyasının 96-cı maddəsinə əsasən SSRİ-nin 18 yaşına çatmış bütün vətəndaşları seçmək və seçilmək hüququna malik idilər. SSRİ Ali Sovetinə 21 yaşına çatmış SSRİ vətəndaşları deputat seçilə bilərdi [10, s. 130].

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycan SSR-də hakimiyyətə gəlməsinə qədər qadınların və gənclərin rəhbər vəzifələrə irəli çəkilməsində ciddi problemlər vardı. Belə ki, XX əsrin 60-cı illərində xalq təsərrüfatına rəhbərlikdə, partiya, sovet, həmkarlar ittifaqı və gənclər təşkilatlarının təşkilatçılıq, kütləvi-siyasi və ideoloji işində yol verilən ciddi nöqsanlarla əlaqədar olaraq respublikada ağır vəziyyət yaranmışdı. Mövcud siyasi sistem, inzibati-amirlik idarə üsulu gənclərin ictimai-siyasi fəallığını azaldırdı. Bütün siyasi hakimiyyət partiyanın əlində cəmləşmiş, dövlət və ictimai təşkilatlar, o cümlədən gənclərin təmsil olunduğu komsomol da dəyişikliyə uğramışdır. 1950-ci illərin sonu 1960-cı illərin əvvəlləri gənclərin ictimai-siyasi fəallığını artırmaq üçün görülən bəzi işlər səthi xarakter daşıdığından səmərəli nəticə vermirdi. Bütün bunlar isə gənclərin öz qüvvəsinə inamını, təşəbbüskarlığını, sosial fəallığını zəiflədir, onların hakimiyyətə, siyasətə və idarəetmə işinə yadlaşması ilə nəticələnirdi. Onların gənclər təşkilatları ətrafında birləşməsinə şərait yaratmaq üçün ÜİLKGİ XIV (1961-ci il) və XV (1966-cı il) qurultayları komsomol komitələrinin hüquqlarını bir qədər artırsa da, bu yerli təşkilatların müstəqilliyini və özünüidarəsini heç də artırmamışdı. Təşkilatın kütləviliyi onun hələ əsl gənclər təşkilatına çevrilməsi demək deyildi. Əksinə komsomol sıralarına qəbulun kütləvi xarakter alması, bu təşkilatın gənclər arasında nüfuzunun həddən artıq azalmasına səbəb olmuşdu. Komsomola qəbulun fərdi ərizə verilmədən, kollektiv şəkildə aparılması kütləvi xarakter almışdı. Komsomol təşkilatları yalnız yuxarı partiya orqanlarının müəyyən etdiyi şərtlər daxilində fəaliyyət göstərirdilər.

Xalq istehlakı malları istehsal edən sahələrdə də gənclər aparıcı rol oynasa da, onların istehsalatda sabitləşdirilməsi məsələsində ciddi səhvlər var idi və bəzi sahələrdə axıcılıq 50%-ə çatırdı. Bunun əsas səbəbi isə fəhlə kadrlara normal əmək və məişət şəraitinin yaradılmaması idi [2, s.137].

Gənc kadrların irəli çəkilməsini daim diqqət mərkəzində saxlayan Heydər Əliyev Azərbaycan gənclərinin XXX qurultayında çıxışında göstərmişdir ki, indi bizim qarşımızda duran ən mühüm problem elə istehsalat kollektivləri yaratmaqdan ibarətdir ki, orada yalnız mühəndis-texniki işçilər deyil, fəhlə kadrları da yüksək ixtisasa və proseslərin idarə olunması sahəsində mürəkkəb vəzifələri yerinə yetirmək qabiliyyətinə malik olsunlar [4, s.13-14]. Eyni zamanda Heydər Əliyev qurultaydakı çıxışında neft sənayesi və respublika komsomolu rəhbərlərinin diqqətini bu sahədə gənclərin sayının az olması, kadrların sabitləşdirilməməsi faktlarına cəlb etmiş və qeyd etmişdi ki, uzun bir dövr ərzində bu sahədə yaşı 30-a qədər işçilərin sayı 22%-dən yuxarı qalxmır, halbuki, ümumən respublika sənayesində gənclərin sayı bütün işçilərin sayının 41%-nə bərabərdir [2, s.136].

Bu dövrdə gənclərlə bərabər qadınların da dövlət idarəetmə orqanlarına cəlb olunmasında ciddi nöqsanlar vardı. Rəhbər işdə çalışan müəssisə, kolxoz və sovxoz rəhbərləri, rayon sovetləri icariyyə sədrləri və onların müavinləri arasında qadınların sayı az idi. Səhiyyə, maarif və mədəniyyət ocaqlarının, ticarət müəssisələrinin rəhbərləri arasında qadınların sayı yüksək deyildi, halbuki bütün bu sahələrdə işləyənlərin əksəriyyətini qadınlar təşkil edirdi.

1960-cı illərin ortalarında 955 kolxoz sədrindən 32-si, 1577 komsomolçu-gənclər briqada başçısından 591-i, 3457 ferma müdirindən 176-sı qadın idi. Bununla yanaşı, qızların mexanizator, sürücü ixtisaslarına yiyələnmələri prosesi sürətlənsə də, sürücü-mexanizator qızlara pis münasibət yenə də qalmaqda idi. Bir sıra hallarda təsərrüfat rəhbərləri, partiya orqan-

ları fərqlənmək xatirinə mexanizator qızları yüksək öhdəliklər götürməyə təhrik edir, hər hektardan 100, 120, hətta 150 sentner məhsul götürmək barədə qeyri-real rəqəmlər irəli sürürdülər [2, s. 108]. Qızların "böyük kimya uğrunda mübarizəyə" cəlb olunmasının acı nəticəsi o olmuşdur ki, Sumqayıt sintetik-kauçuk, superfosfat zavodlarında, neft-kimya kombinatında işləyənlərin əksəriyyətini qızlar təşkil edirdilər. Ancaq qadınların və qızların ağır fiziki qüvvə tələb edən maşın mexanizmlərdə işə cəlb olunması doğru deyildi.

Respublikada hakimiyyətə gəldiyi ilk illərdən Ulu Öndər çıxışlarında daim gənclərin və qadınların idarəetmə elminə yiyələnməsinin, dövlət işlərini və ictimai işləri cəsarətlə öz əllərinə almalarının vacibliyini vurğulayırdı.

XX əsrin 70-ci illərində Heydər Əliyev gəncləri dövlətin idarə olunmasına cəlb etmək sahəsində keçirdiyi tədbirlər sayəsində respublika gənclər təşkilatlarının keyfiyyət və kəmiyyət tərkibi yaxşılaşmışdı. Belə ki, 1959-cu ilin əvvəllərində Azərbaycan LKGİ-nin sıralarında 332237 nəfər gənc birləşirdisə, 1987-ci ilin əvvəllərində bu rəqəm 1238089-a çatmış və ya təqribən 3,7 dəfə çoxalmışdır. Azərbaycan LKGİ-nin ilk təşkilatlarının şəbəkəsi genişlənmiş, strukturunda irəliləmələr baş vermişdir. 60-80-ci illərdə gənclər təşkilatlarının sayı 6539-dan 11298-ə çatmış və ya təqribən iki dəfə artmışdır [10, s.131].

Qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyevin gənc kadrların idarəetməyə cəlb edilməsi istiqamətində fəaliyyəti sayəsində artıq gənclər dövlətin idarə olunmasında bilavasitə iştirak edirdilər. Belə ki, 1979-cu ildə SSRİ Ali Sovetinə seçilən deputatların 207 (13,8%-ni) nəfərini gənclər təşkil edirdi. 1980-ci ildə müttəfiq və muxtar respublikaların Ali Sovetlərinə 6728 deputat seçilmişdir ki, onların 964 nəfəri (14,3%) ÜİLKGİ üzvü idi. Yerli Sovetlərə seçilən bütün deputatların isə 21,2%-ni gənclər təşkil edirdi [8]. Azərbaycan SSR-in yerli Sovetlətinə seçilən 49804 deputatın 20,3%-ni ÜİLKGİ üzvləri təşkil edirdi [7, s. 6].

1967-ci ildə Azərbaycan SSR Ali Sovetinin deputatlarından 42 nəfəri və ya 11,4 %-i 30 yaşınadək olan gənclər idi. 1985-ci ildə isə artıq Azərbaycan SSR Ali Sovetində 30 yaşınadək olan deputatların sayı 112 nəfərə çatmışdı [10, s. 132].

1970-ci illərdə azərbaycanlı gənclər artıq respublikanın ictimai-siyasi həyatında daha fəal iştirak etməyə başlamışdılar. Belə ki, Heydər Əliyevin bu sahədə gördüyü böyük işlərin sayəsində 16 mindən çox gənc vətəndaş xalq deputatları sovetlərinin, o cümlədən 118 nəfər SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. 17.500 gənc rəhbər həmkarlar ittifaqı orqanlarında çalışır, 40 mindən çox gənc xalq nəzarəti işində fəal iştirak edirdi [6, s. 212].

Ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbəriliyi dövründə əldə edilmiş tarixi naliyyətlərdən biri də güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, bu illərdə SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərilmişdi. 1970-ci illərdə Heydər Əliyevin kosmonavtlar içərisində azərbaycanlıların az olması faktının aradan qaldırılmasına yönəlmiş uğurlu fəaliyyəti nəticəsində aviasiya məktəblərinə azərbaycanlı gənclər təhsil almağa göndərilməyə başlandı. Belə ki, Heydər Əliyevin göstərişi əsasında Kiyev Mülki Aviasiya İnstitutuna 42 nəfər azərbaycanlı gənc oxumağa göndərilmişdi. Həmçinin, 1981-ci ildə ilk dəfə təyyarəçilik məktəblərinə gənclərin böyük bir qrupu göndərilmişdir [13, s. 93-94].

XX əsrin 70-ci illərində Heydər Əliyevin azərbaycanlı gənclərin ordu sıralarına cəlb olunmasında, onlara yüksək rütbə, dərəcə və rəhbər vəzifələr verilməsində olan problemləri nəzərə alaraq Azərbaycan SSR-də milli hərbi kadrlar hazırlayan Naxçıvanski adına İxtisaslaşdırılmış İnternat-Məktəbinin yaradılması (1971-ci il) istiqamətində fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Məktəbdə aparılan geniş quruculuq işləri sayəsində məktəbin məzunları arasında ali hərbi məktəblərə daxil olanların sayı ilbəil artırdı. Belə ki, 1974-cü ildə C.Naxçıvanski adına xüsusi internat məktəbin 21 məzunu, 1975-ci ildə 24 məzunu, 1976-cı ildə 46 məzunu, 1977-ci ildə 68 məzunu, 1978-ci ildə 81 məzunu, 1979-cu ildə 83 məzunu, 1980-ci ildə 105 məzunu, 1981-ci ildə 107 məzunu, 1982-ci ildə 103 məzunu İttifaqın ali hərbi məktəblərinə daxil olmuşdular [14, s. 116].

Heydər Əliyev qadınların rəhbər vəzifələrə irəli çəkilməsinə böyük siyasi və əməli əhəmiyyət verirdi. Respublikanın ictimai-siyasi həyatında qadınların rolundan hər zaman bəhs edən Heydər Əliyev Azərbaycan KP-nın XXIX qurultayında demişdir: "Qadın kadrları ilə iş nəzərəçarpacaq dərəcədə yaxşılaşmışdır. Məsul partiya və sovet işində, başqa sahələrdə qadınların sayı xeyli artmışdır. Bir qayda olaraq rəhbər vəzifələrdə çalışan qadınlar tapşırılan işin öhdəsindən yaxşı gəlirlər" [3, s. 83].

Qadınların idarəetmə işlərinə cəlb olunması sahəsində olan problemlərin kökündə qızların 16 yaşında ailə həyatı qurmasına icazə verən qanunun olması, onların məktəbdən ayrılması və s. məsələlər dayanırdı. Eyni zamanda orta təhsilini tam bitirməmiş, ali təhsil

almamış qadınların çoxluq təşkil etməsi savadlı gənc nəslin yetişməsinə də öz mənfi təsirini göstərirdi. Mövcud vəziyyət aparılmış geniş təbliğat, nəzarət, qiyabi məktəblər şəbəkəsinin genişləndirilməsi və s. tədbirlər sayəsində xeyli yaxşılaşmışdı. Belə ki, 1960-1961-ci dərs ilində işləyən gənclərin içərisində oxuyanların cəmi 9 %-i, 1981-1982-ci dərs ilində isə artıq 45 %-i, Astara, Lənkəran, Masallı, Yardımlı rayonlarında isə 80-85 %-i qadın və qızlar idi [9, s. 122].

Respublika əhalisinin yarıdan çoxunu təşkil edən qadınlar iqtisadiyyatın, maarif və elmin bütün sahələrində uğurla işləyirdilər, bir çox yüksək partiya və dövlət vəzifələrində çalışırdılar. 50 rayon və şəhər partiya komitəsində qadın katib var idi, onların 6-sı birinci katib idi. Lakin rəhbər vəzifələrdə çalışan qadınların sayı hələ də çox az idi. 553 sənaye müəssisəsindən yalnız 38-nə, cəmi 18 kolxoza və 8 sovxoza qadınlar başçılıq edirdilər [5, s. 34-35].

Ulu Öndərin rəhbər vəzifələrə qadınların irəli çəkilməsi istiqamətində fəaliyyəti nəticəsində 1970-ci ildə ilk partiya təşkilatlarının katibləri arasında qadınların xüsusi çəkisi 23,2%, 1975-1976-cı illərdə 26,5%, 1980-ci ildə 29,7% təşkil edirdi. Azərbaycan KP MK-nın üzvləri arasında qadınların sayı daha da artmışdır. Əgər Azərbaycan KP-nin XXVIII qurultayı tərəfindən Azərbaycan KP MK-nın üzvlüyünə namizəd 6 nəfər qadın seçilmişdirsə, XXIX qurultay tərəfindən Azərbaycan KP MK üzvlüyünə 25 nəfər, MK namizədliyinə isə 9 nəfər qadın seçilmişdir [12, s. 150].

Qadınların rəhbər vəzifələrə irəli çəkilməsi sahəsində atılan addımların nəticəsi özünü hələ 1970-ci illərin əvvəllərindən göstərirdi. 1971-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin tərkibində Xarici İşlər naziri və İctimai Təminat naziri qadın idi. Bundan başqa Azərbaycan SSR Mandat komissiyasında 2, Qanunvericilik mülahizələri komissiyasında 8, Plan büdcə komissiyasında 13, Sənaye, Nəqliyyat və Rabitə komissiyasında 3, Tikinti və İnşaat materialları sənayesi komissiyasında 10, Kənd təsərrüfatı komissiyasında 13, Səhiyyə və İctimai Təminat komissiyasında 7, Xalq maarifi, elm və mədəniyyət komissiyasında 11, Ticarət, Əhaliyə məişət xidməti və Kommunal təsərrüfatı komissiyasında 14, Gənclər komissiyasında 7, Təbiəti mühafizə komissiyasında 4, Xarici İşlər komissiyasında 5 nəfər qadın çalışırdı [1; v. 12,15-25].

1980-ci ildə respublikanın xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli mütəxəssislər içərisində qadınların sayı 32,4 min nəfər (47%) idi. Bu da 1965-ci illə müqayisədə 2,6 dəfə artıq idi. Ulu öndər Heydər Əliyev Respublika Həmkarlar İttifaqının XVI qurultayındakı nitqində dediyi kimi, 1980-ci ildə partiya üzvlüyünə namizəd qəbul edilən qadınların sayı namizədliyə qəbul olunanların ümumi sayının 40%-dən artıq bir hissəsini təşkil etmişdir. Partiya, sovet və həmkarlar ittifaqı orqanlarının tərkibində qadınlar geniş təmsil olunmuşdular [12, s. 6].

Heydər Əliyevin bacarıqlı kadrların, xüsusən qadınların və gənclərin qətiyyətlə irəli çəkilməsi siyasətini Azərbaycan SSR-in ayrılmaz hissəsi olan Naxçıvan MSSR-in timsalında da görmək mümkündür. Əgər 1972-ci ildə VPK-nın nomenklaturasında cəmi 25 nəfər qadın var idisə, 1974-cü ildə onların sayı 41-ə çatdırılmışdır. Bu zaman nomenklaturaya daxil olan işçilərin sırasında 40 yaşına qədər olanların sayı 60%-dən yuxarı idi. Naxçıvan MSSR Ali Soveti və yerli sovetlərin deputatlarının 29%-i 30 yaşınadək olan gənclərdən ibarət idi [11, s. 151].

Respublikaya rəhbərliyi dövründə dahi şəxsiyyət, uzaqgörən siyasətçi Heydər Əliyevin böyük və prinsipial xidmətlərindən biri Azərbaycan Konstitutsiyasına Azərbaycan dilinin dövlət statusu verilməsinə nail olması idi. Belə ki, keçmiş SSRİ-yə daxil olan respublikalar içində yalnız 3 dövlətin öz ana dilini dövlət səviyyəsinə qaldıra bildiyini nəzərə alsaq bunun respublikamız üçün nə qədər əhəmiyyətli olduğunu dərk etmək olar. Bütün bunlar gənclərimizə rəhbər vəzifələrdə öz dilində işləmək imkanlarını verirdi. Təbii ki, bu da gənc kadrların öz köklərinə bağlılığını gücləndirir, öz müqəddəratını özü təyin edən respublikanın gəncləri kimi daha inamla işləmələrinə və ən əsası Heydər Əliyev kimi güclü idarəetmə bacarığına malik, böyük zəkaya sahib liderin simasında daha enerjili fəaliyyət göstərmələrinə səbəb olurdu.

Beləliklə, 1970-1980-ci illərdə güclü idarəetmə bacarığına malik şəxsiyyət Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən düşünülmüş siyasət nəticəsində respublikada ictimai həyatın bütün sahələrində baş verən müsbət dəyişikliklər gənclərin sosial-psixoloji vəziyyətinə, siyasi fəallığına müsbət təsir göstərdi. Ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR-in siyasi rəhbəri olduğu dövrdə gənclərin və qadınların ictimai-siyasi fəallığı artmış, onların dövlət idarəetmə strukturlarında təmsil olunması sahəsində böyük irəliləyiş baş vermiş, onların təhsil və mədəni səviyyəsi yüksəlmişdir. Bir çox rəhbər vəzifələrdə gəncləşmə prosesi getmiş, bu təkcə yaşda deyil, həm də təfəkkürdə, işə yanaşmada da təzahür etmişdir. Nəticədə respublikada təcrübə ilə gənc kadrların yüksək enerjisi arasında vəhdət qurulmağa başlanmışdır. Gələcək müstəqil Azərbaycanın idarə edilməsində də fəal iştirak edəcək kadr potensialının əsas tərkib hissəni məhz bu dövrdə hazırlanmış gənclər təşkil edəcəkdi.

### ƏDƏBİYYAT SİYAHISI:


1. *Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, f.1, s.58, iş 105.*

2. *Cəfərov H.R. Azərbaycanda gənclər hərəkatı yeni inkişaf mərhələsində: (1940-2007-ci illər). Bakı: Adiloğlu, 2007, 224 s.*

3. *Əliyev H.Ə. Azərbaycan Kommunist Partiyasının XXIX qurultaına Azərbaycan KP Mərkəzi Komitəsinin hesabat məruzəsi: 28 yanvar 1976-cı il. Bakı: Azərnəşr, 1976, 108 s.*

4. *Əliyev H.Ə. Kommunizim uğrunda mübarizədə partiyanın sədaqətli dayağı. Azərbaycan komsomolunun XXX qurultayında nitq. Bakı, Azərnəşr, 1978, 52 s.*

5. *Əliyev H.Ə. "Sov.İKP XXIV qurultayının tələbləri ilə əlaqədar olaraq kadrların seçilməsini, yerləşdirilməsini və tərbiyə edilməsini daha da yaxşılaşdırmaq sahəsində Azərbaycan partiya təşkilatının vəzifələri haqqında" 1975-ci il iyulun 30-da Azərbaycan KP MK plenumunda Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevin məruzəsi. Bakı: Azərnəşr, 1975, 88 s.*

6. *Heydər Əliyev. İki cilddə. I cild. Bakı: Turxan NPB, 500 s.*

7. *İnkişaf etmiş sosializm şəraitində Azərbaycan Kommunist partiyasının kadr siyasəti (mühazirəçilər üçün metodiki tövsiyə). Bakı,1981, 13 s.*

8. *Kommunist qəzeti, 2 mart 1980-ci il.*

9. *Qaffarov T.B. Azərbaycan SSR kənd əhalisinin maddi rifahı və mədəni səviyyəsinin yüksəldilməsi (60-80-ci illərin birinci yarısı). Bakı: Elm, 1986. 180 s.*

10. *Qasımov Ə.Q. Gəncləri dövlətin idarə olunmasına cəlb etmək sahəsində Azərbaycan LKGİ-nin fəaliyyəti (60-80-ci illər) //Azərbaycan SSR EA Tarix İnstitutunun ÜİLKGİ-nin 70 illiyinə həsr olunmuş Elmi konfransın materialları. Bakı, 1989, 214 s.*

11. *Qasımov Ə.Q. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri). Bakı: Təhsil, 2009, 320 s.*

12. *Qədirova E.H. Azərbaycan qadınları kommunizmin fəal qurucularıdır: 1966-1980-ci illər. Bakı: Elm, 1982, 187 s.*

13. *Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005, 140s.*

14. *Süleymanov M. Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi. Bakı: Elm və təhsil, 2018, 728 s.*


### XÜLASƏ


Məqalədə XX əsrin 60-cı illərində gənclər təşkilatlarının fəaliyyətində olan problemlər və Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bu sahədə görülmüş tədbirlər işıqlandırılmışdır. Eyni zamanda 70-ci illərdə Heydər Əliyevin gənclərin və qadınların dövlət idarəetmə strukturlarında iştirakının artırılması, rəhbər vəzifələrə təyin edilməsi istiqamətindəki fəaliyyətindən bəhs olunur.



**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycan SSR, kadr siyasəti, gənclər, qadınlar.*


### SUMMARY

**Heydar Aliyev's activities in the directuion of attracting young personnel to state administration (1969-1982)**

**Y.N.Jabbarli**


The article illustrates the problems in the activities of youth organizations in the 60s of the 20th century and the measures taken in this area by the coming of Heydar Aliyev to power. At the same time, the article addresses activities of Heydar Aliyev in the 70s to increase participation of young people and women in public administration structures and to appoint them to leading positions.



**Keywords:** *Heydar Aliyev, Azerbaijan SSR, personnel policy, youth, women.*


### РЕЗЮМЕ

**Деятельность Гейдара Алиева по привлечению молодых кадров в органы государственного управления (1969-1982 г.г.)**

**Ю.Н.Джаббарлы**


В статье излагаются проблемы, с которыми сталкивались молодежные организации в своей деятельности в 60-е годы XX века, и меры, принятые Гейдаром Алиевым для разрешения их после прихода его к власти. В тоже время, в статье освещается деятельность Гейдара Алиева в привлечении женщин и молодежи в структуры государственного управления и назначения их на руководящие должности.



**Ключевые слова:** *Гейдар Алиев, Азербайджанская ССР, кадровая политика, молодежь, женщины.*

UOT 94 (479.24)

# ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ ГОРОДА ХАНКЕНДИ С МОМЕНТА ОБРАЗОВАНИЯ ДО ПРИОБРЕТЕНИЯ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**СУГРА ОРУДЖЕВА**
*Бакинский Государственный Университет, докторант*
*E-mail: sugrau@mail.ru*

Сегодня история городов и районов Нагорного Карабаха, является одной из наименее исследованных актуальных проблем истории Азербайджана. Изучение возникновения и развития городов и районов Нагорного Карабаха имеет большое научное и политическое значение, также в различных аспектах обусловило изучение многих проблем историографии. 26 октября Президент Азербайджанской Республики Ильхам Алиев обратился к народу: "В течение последних лет в результате последовательной деятельности мы достаточно проинформировали мировую общественность об истории Карабаха, истории конфликта. Вся эта проделанная работа вот сегодня помогает нам, потому что в мире сложилось более объективное мнение, представление об этом вопросе. Именно в результате наших неустанных усилий мы смогли добиться этого" [8]. Это обращение показывает важность изучения истории Карабаха. Прежде чем приступить к изучению историографии проблемы истории городов и районов Нагорного Карабаха, следует обратить особое внимание на вопрос, что история рассматриваемой темы не изучена глубоко, история Шуши, Аскерана, Гадруда, Ханкенди, Ходжалы, Ходжавенда, Агдера отдельно не исследована в научной литературе. Количество работ по истории городов и районов Нагорно-Карабахского региона Азербайджанской Республики очень мало. В 70-80-е годы XX столетия были предприняты инициативы в изучении проблемы, проведены исследования в различных направлениях. В целом, история городов и районов Азербайджана, история Нагорного Карабаха, как видно из анализа историографии Нагорного Карабаха, не проводилось специального исследования, не изучалась история городов и районов региона в отдельности. В связи с этим одним из важнейших вопросов, стоящих перед историками, является более глубокое изучение и доведение до мирового сообщества проблем, связанных с экономическим, политическим, культурным, а также этническим составом и исторической географией наших исторических земель Карабаха. С этой точки зрения представленная статья даст информацию об одном из районов Карабаха – Ханкенди. При исследовании данного артикля использовались источники, научно-методическая литература, научно-исследовательские работы. Наряду со всем этим дана информация о политике общенационального лидера Г. А. Алиева на этой территории, которая открыла новый путь развитию. Основная цель данной статьи – это исследование истории образования, территории, природно-географических особенностей, географического положения, площади, рельефа, климата, внутренних вод, почвы и растительности, освещение основных населенных пунктов, анализ экономической, общественно-политической и культурной жизни, отслеживание численности населения, этнического и национального состава города Ханкенди. Сначала надо дать информацию о Карабахе.

Верхне-Карабахский регион Азербайджана является одним из древнейших очагов культуры в мире. Междуречье Куры и Аракса является одним из древнейших очагов цивилизации. В этом районе имелись все условия, благоприятствующие обитанию здесь человека. Есть немало оснований полагать, что территория эта вместе со Средиземноморьем и Северной Африкой входила в зону прародины человечества, что и здесь происходило становление человека, как биосоциального и социального существа. Климат района в ту пору, по сравнению со всеми последующими этапами, был теплым и умеренно влажным. Зона эта отличалась богатой флорой и фауной. Именно здесь обнаружены древнейшие следы жизни и деятельности человека. И выявлено это в пещере Азых, являющейся древнейшей стоянкой человека на территории Советского Союза.

Уникальное обиталище человека — Азыхская пещера, ее колоссальный материал имеет исключительное значение в изучении проблем формирования и развития первобытного общества, ранних людей, их материальной и духовной

Beləliklə, bu cür qənaətə gəlmək olar ki, bu xalqın bəzi nümayəndələri (əksəriyyəti) özlərini türk xalqı ilə eyniləşdirərək Ahısqa türkləri hesab edirlər, digərləri özlərini müsəlman gürcülər, əhəmiyyətsiz bir hissəsi isə mesxlərin nəslindən olduqlarını düşünürlər. Bu xalqın elə nümayəndələri də var ki, öz etnik qrupları başqa xalqlardan fərqli, lakin onların fikrincə həm türk, həm də gürcü dillərinə bənzəyir ki, bu da onların etnik özünüdərkinin binar xarakterini əks etdirir. Türk etnosuna mənsubluğunun dərk edilməsi tək bir etirafla, türk dilinin etnik-mədəni mühitdə fəaliyyət göstərməsi ilə izah olunur. Özlərini müsəlman gürcü hesab edənləri ümumi ərazi motivasiya edir, çünki Mesxeti-Cavaxetiya Gürcüstan dövlətinin tərkibində olub.

E.Paneş və L.Yermolovla razılaşmaq olar ki, ahısqalı türklər türk etnosunun xüsusi etnosunu təmsil edirlər. Bu etnik qrup iki etnik ərazi - Gürcüstan və Türkiyə zonasında inkişaf etmişdir. Təbii ki, o, hər iki xalqın nümayəndələrindən formalaşmış və hətta müəyyən dərəcədə bu xalqların mədəniyyətlərinin xüsusiyyətlərini özündə birləşdirmişdir. Buradan türk komponentinin daha təsirli olduğu ortaya çıxdı.

Etnik özünüdərk nəzəriyyəsinin problemlərindən biri etnogenezin, etnik özünüdərkin inkişafının ümumi qanunauyğunluqlarını müəyyən etməyə imkan verən etnonim (öz ad) problemidir. XIX əsr Rusiya imperiyasının mənbələrində və sənədlərində "müsəlmanlar", "gürcülər-sünnilər" terminləri üstünlük təşkil edir və onlar 1893-cü ildən türk adlandırılmağa başlayır. 1923-cü ildə "azərbaycanlılar" termini onlara, bir az sonra isə "azərbaycanlı"nın sinonimi olan "türklərə" şamil olundu. Deportasiyadan sonra sənədlərdə "türklər", "sovet türkləri", bəzən "azərbaycanlılar" kimi qeyd olunurdu.

Bununla belə, tədqiq olunan xalqın nümayəndələri öz aralarında "Ahısqa türkləri" adına üstünlük verirlər, 1989-cu ildən "Ahısqa türkləri" adını da tanıyırlar ki, bu da reallığa tam uyğun gəlmir. Müasir gürcü elmi və publisistik ədəbiyyatında "mesxetilər", "mesxi" etnonimləri üstünlük təşkil edir. Rus elmində "Ahısqa türkləri" termini işlədilir. Bu araşdırmada "Ahısqa türkləri" adı rusdilli ədəbiyyatda qəbul edilmiş termin kimi istifadə edilmişdir.

**Açar sözlər:** *Ahısqa, Qıpçaq, Bun-türk, Mesxetiya, Cavaxetiya, Gürcüstan, Türkiyə, Qafqaz*

## ƏDƏBİYYAT SİYAHISI:

***Azərbaycan dilində***

*1. Asif Hacılı "Axısqa türkləri: Vətən bilgisi". İstanbul, 2009. Səh 19-22.*

***Türk dilində***

*2. Candan Badem "Çarlık Yönetiminde Kars, Ardahan, Artvin" , İstanbul, 2018, s. 105-122*

*3. Muvahhid Zeki, Artvin Vilayeti Hakkında Malumatı Umumiye, 2010, s. 91-117.*

*4. Şemseddin Sami, Kamusü'l-Alem, 1889-1898, 1. cilt, s. 46.*

*5. Yunus Zeyrek "Ahıska ve Ahıska Türkleri", Ankara, 2001.*

***İnternet resursları***

*6. https://avciya.az/%d0%bd%d0%b0%d1%88%d0%b8-%d0%b0%d1%85%d1%8b%d1%81%d0%ba%d0%b8%d0%bd%d1%81%d0%ba%d0%b8%d0%b5-%d1%82%d1%83%d1%80%d0%ba%d0%b8/?lang=ru*

*7. https://riss.ru/article/7431/*

*8. https://russian.eurasianet.org/node/59538*

*9. https://ca-c.org.ru/journal/1997/10-1997/st_15_enoh.shtml*

*10. http://www.noravank.am/rus/articles/detail.php?ELEMENT_ID=2895*

*11. http://100tatarstan.ru/structure/profile/meskhetintsy-istoriya-i-kultura*

*12. https://ru.wikipedia.org/wiki/%D0%9C%D0%B5%D1%81%D1%85%D0%B5%D1%82%D0%B8%D0%BD%D1%86%D1%8B*

*13. https://rus.azattyq.org/a/kazakhstan-meskhetians-deportation-unrehabilitated-ethnic-group/31621301.html*

*14. http://anl.az/down/meqale/ayna/2010/may/120006.htm*

*15. https://avciya.az/ahiska-turkl%c9%-99rinin-etnik-tarixi-surgun-v%c9%99-v%-c9%99t%c9%99n-mucadil%c9%99si/*

*16. https://www.kavkaz-uzel.eu/articles/292683/*

*17. https://portal.dpu.edu.tr/orhan.elmaci/ma-kale_oku/148/ahiska-turklerinin-yilmaz-bekcisi-yu-nus-zeyrek*

*18. https://www.altayli.net/ahiska-ve-ahis-ka-turkleri.html*

*19. https://www.ahiska-gazeta.com/ru/histo-ries/47/*

*20. http://ahiska-az.narod.ru/m012.htm*

*21. https://www.dissercat.com/content/meskhe-tinskie-turki-istoricheskaya-sudba-i-problemy-kul-turnoi-adaptatsii*

*22. https://tr.wikipedia.org/wiki/Ah%C4%B1s-ka_T%C3%BCrkleri*

## ЭТНИЧЕСКАЯ ИДЕНТИЧНОСТЬ ТЮРКОК ОСЬ (МЕСХЕТИ)

### Резюме

Можно сделать вывод, что одни представители этой нации (большинство) идентифицируют себя с тюркским народом и считают себя турками-ахысгаками, другие считают себя грузинами-мусульманами, незначительная часть считает себя потомками месхов. Есть и представители этой нации, чьи этносы отличаются от других народов, но по их мнению сходны как с тюркским, так и с грузинским языками, что отражает бинарный характер их этнического самосознания. Понимание принадлежности к тюркскому этносу объясняется единым признанием, функционированием тюркского языка в этнокультурной среде. Те, кто считают себя грузинами-мусульманами, руководствуются общей территорией, потому что Месхети-Джавахети входила в состав грузинского государства.

**Ключевые слова:** *Ахыска, Кыпчак, Бун-Тюрк, Месхетия, Джавахети, Грузия, Турция, Кавказ.*

## ETHNIC IDENTITY OF AKHISGA (MESKHETI) TURKS

### Summary

İt can be concluded that some representatives of this nation (the majority) identify themselves with the Turkish people and consider themselves Akhisga Turks, others consider themselves Muslim Georgians, and an insignificant part think they are descendants of the Meskhs. There are also representatives of this nation whose ethnic groups are different from other nations, but in their opinion similar to both Turkish and Georgian languages, which reflects the binary nature of their ethnic self-awareness. The understanding of belonging to the Turkish ethnos is explained by a single recognition, the functioning of the Turkish language in the ethno-cultural environment. Those who consider themselves Muslim Georgians are motivated by the common territory, because Meskheti-Javakheti was part of the Georgian state.

**Keywords:** *Ahiska, Kypchak, Bun-Turk, Meskheti, Javakheti, Georgia, Turkey, Caucasus.*

UOT 572.9

https://orcid.org/0009-0003-5040-6826

# AZƏRBAYCAN AİLƏLƏRİNDƏ GENDER BƏRABƏRLİYİ VƏ ETİKETİN TRANSFORMASİYASI

**İLAHƏ SARIYEVA**
*Bakı Dövlət Universiteti, doktorant*

*E-mail: sarıyevailahe74@gmail.com*

İnsan sosial varlıq kimi daim cəmiyyət həyatının və elmin diqqət mərkəzində olmuşdur. Bu mənada "qadın və kişi problemi" müxtəlif zaman müstəvisində ən müxtəlif parametrlərlə tədqiqata cəlb edilmiş, hətta bir çox hallarda geniş müzakirə və mübahisə predmetinə çevrilmişdir. Xatırlatmaq lazımdır ki, haqqında söhbət açılan problem bir sıra elm sahələrinin xüsusi tədqiqat obyekti kimi də araşdırılmışdır. Heç şübhəsiz ki, bu cəhətdən etik, fəlsəfi-etik antropologiya və gender tədqiqatlarının qarşılıqlı münasibətləri özlüyündə maraq doğuran bir fenomen kimi bu gün xüsusi aktuallıq kəsb edir. Yeri gəlmişkən qeyd edək ki, həmin münasibətlər elmi-fəlsəfi ədəbiyyatda indiyə qədər etik davranış kateqoriyası ilə kontektsdə araşdırılmamışdır.

Tarixin bütün dönəmlərində Azərbaycan qadın hökümdarları ilə tanınan ölkələrdən biri olub və hazırda ölkənin Vitse Prezidenti Mehriban Əliyeva başda olmaqla bir neçə yüksək nüfuzlu qadın siyasətçi var. Vətəndaşlar arasında apardığımız sorğuya əsasən, bu gün əksər azərbaycanlılar "qadınlar və kişilərin eyni dərəcədə yaxşı siyasi liderlər olduğunu" deyirlər və hər on nəfərdən birindən çoxu qadınların kişilərdən daha yaxşı siyasi lider olduqlarını düşünür. Azərbaycanlı yetkinlərin yalnız dörddə biri kişilərin qadınlardan daha yaxşı siyasi lider olduqları mövqeyindədir. Bununla belə, yerli şəraitdə azərbaycanlıların fikrinə görə, kişilər qadınlardan daha önəmli rollara malik olmalıdırlar. Təxminən on azərbaycanlıdan yeddisi qadının ərinə həmişə itaət etməli olduğu fikri ilə razılaşır, o cümlədən təxminən üçdə ikisi bu fikirlə tamamilə razılaşırlar.

Bir çox yaşlı azərbaycanlılar evdə bəzi gender rollarına eqalitar fikirlər bildirirlər. Məsələn, gənclərin 62%-i deyir ki, həm kişilər, həm də qadınlar uşaqlara qulluq etmək üçün məsuliyyət daşımalıdırlar. Lakin ənənəvi gender normaları hələ də əhalinin böyük təbəqələri arasında öz təsirini saxlayır: Böyüklərin təxminən üçdə biri (34%) hesab edir ki, uşağa qulluq ilk növbədə qadınlar tərəfindən həyata keçirilməlidir. Eynilə, kiçik əksəriyyət (54%) deyir ki, ailələrdə həm kişilər, həm də qadınlar pul qazanmaq üçün məsuliyyət daşımalıdırlar, lakin bir çox azərbaycanlılar (43%) bunu əsasən kişilərin öhdəliyi kimi görürlər. Azərbaycanlıların əksəriyyətinin fikrinə görə, iş yerləri az olduqda, kişilərin qadınlardan daha çox məşğulluq hüququ olmalıdır ki, bu da kişilərin iqtisadi sahədə davamlı nüfuzunu əks etdirir. On nəfərdən səkkizi bu fikirlə razıdır.

Müasir azərbaycan ailələri həm oğul, həm də qız sahibi olmağı yüksək qiymətləndirirlər, buna çox hallarda "ingilis cütlüyü" deyilir. Demək olar ki, bütün azərbaycanlılar ailənin ən azı bir oğlunun (94%) və ayrıca ən azı bir qızının (90%) olmasının çox vacib olduğunu deyirlər və həm oğul, həm də qız övladı valideynlərdən miras almaqda bərabər hüquqlara malik olmalıdır (64%) və qocaldıqca valideynlərə qulluq etmək məsuliyyəti hər ikisinə də aiddir (58%). Lakin sorğu respondentlərinin əksəriyyətinin fikrinə görə, bu sahələrdə qız övladı deyil, oğul daha çox hüquq və vəzifələrə malik olmalıdırlar. Məsələn, azərbaycanlı yetkinlərin hər on nəfərdən dördü qocalmış valideynlərə qayğı göstərmək üçün əsas məsuliyyətin oğlanların olması lazım olduğunu desə də, yalnız 2%-i qızları haqqında eyni fikirdədir. Üstəlik, azərbaycanlıların əksəriyyəti (63%) valideynlərin dəfn mərasimləri üçün ilk növbədə qızları deyil, oğulları məsuliyyət daşıyır. Sevdikləriniz üçün dini cənazə mərasimləri çox vacib hesab olunur və ən azı azərbaycanlı ənənəsinə görə oğullar valideyni son mənzilə yola salmalıdırlar.

Bu normalar müxtəlif tarixi, sosial, dini və iqtisadi səbəblərə görə ailələrin qızlara deyil, oğullara daha çox dəyər verdiyi Azərbaycan cəmiyyətində daha geniş bir fenomenin bir hissəsidir - bu adət geniş şəkildə "oğul üstünlüyü" olaraq adlandırılır. Yetkin oğullar ənənəvi olaraq valideynləri ilə birlikdə yaşayır və ailəyə maddi dəstək verirlər. Bu arada, qızlar ərə getdikdə, onların ailələri cehiz verə bilər, bu, hələ də bəzi nikahlarda mövcud olan vacib adətdir və qızlar çox vaxt ərinin valideynləri ilə yaşayır və qayınataları qarşısında öhdəliklərini yerinə yetirirlər. Son illərdə Azərbaycan cəmiyyəti qızların statusunun yaxşılaşdırılmasına diqqəti artırdı - hökumətin "Qız uşağını xilas et, qız uşağını öyrət" proqramı, məsələn, hamiləlik zamanı cinsi seçmə təcrübələrinin qarşısını almağa və digər siyasətlərlə yanaşı, ictimai məlumatlandırma kampaniyaları aparmaqla

qızlar üçün təhsil imkanlarını təmin etməyə çalışır.

“Azərbaycanda kişilər qadınlara nisbətən genderlə bağlı mühafizəkar fikirlərə sahibdirlər”. Azərbaycanlılar dini azlıqlardan daha çox qadınlara qarşı ayrı-seçkiliyi qəbul edirlər, lakin əksəriyyət qadınlar "çox ayrı-seçkiliklə" üzləşmədiyini söyləyir.

Azərbaycanlıların demək olar ki, dörddə biri (23%) ölkələrində qadınlara qarşı “çox ayrı-seçkiliyin” olduğunu deyir. Bu o deməkdir ki, Azərbaycanlı yaşlıların böyük əksəriyyəti bu qrupların heç birinə qarşı çox ayrı-seçkilik görmür. Təxminən altı azərbaycanlı qadından biri (16%), 2019-2020-ci illər sorğusundan əvvəl son 12 ayda qadın olduqları üçün şəxsən ayrı-seçkiliyə məruz qaldıqlarını söylədi - bu yaxınlarda ayrı-seçkilik hiss etdiklərini söyləyən qadınların payı ilə müqayisə edilə bilər. Azərbaycanlı kişilərin oxşar payları son zamanlarda cinsi (14%) və dini (17%) ayrı-seçkilik ilə üzləşdiklərini söylədi. Lakin daha çox yaşlı nəsil qadınlara qarşı zorakılığı əsas problem olaraq görürlər (azərbaycanlıların dörddə üçü qadınlara qarşı zorakılığın “çox böyük problem” olduğunu söyləyir – bu, kommunal zorakılığın çox böyük problem olduğunu söyləyənlərin payı 65%- dir. “Qadınlara qarşı cinayətlər” kimi qeydə alınan polis hadisələri 2010-2019-cu illər arasında təxminən iki dəfə artıb.

Azərbaycanlıların təxminən yarısı oğlanlara qadınlara hörmət etməyi öyrətməyin daha vacib olduğunu deyir, azərbaycanlıların isə təxminən dörddə biri qızlara düzgün davranmağı öyrətməyin qadınların təhlükəsizliyini artırmaq üçün daha yaxşı yol olduğunu deyir. Azərbaycanlı yetkinlərin əlavə dörddə biri bu iki variant arasında dəqiq mövqe tutmur, bunun əvəzinə iki yanaşmanın bəzi birləşməsinin zəruri olduğunu, polis vasitəsilə təkmilləşdirilmiş asayişin vəziyyəti yaxşılaşdıracağını və ya qadınların artıq təhlükəsiz olduğunu dilə gətirir. Qadınlar kişilərə nisbətən oğlanlara bütün qadınlara hörmət etməyi öyrətməyin təhlükəsizliyin yaxşılaşdırılması üçün daha vacib yol olduğunu söyləyirlər (53%-ə qarşı 48%).

**Azərbaycanın gender münasibətləri qlobal miqyasda necə müqayisə olunur.**

Gender probleminin tədqiqatçısı Ə.Abasovun qeyd etdiyi kimi, mədəniyyət təlim-təhsil vasitəsilə cəmiyyətdə psixoloji sterotipləri möhkəmlədir. Belə təəssürat yaranır ki, məhz mədəniyyət cinslərin ictimai, sosial rollarının yanlış formalaşmasına və buna uyğun olaraq qadın və kişi münasibətlərində disharmoniyaya səbəb olur. Mədəniyyət real situasiyanı, regional, etnik xüsusiyyətləri müəyyən səviyyədə əks etdirsə də, o bütövlükdə yetərincə inersiondur. Buna görə də istər-istəməz müəyyən mərhələdə onun cəmiyyətdə baş verən dəyişmələrdən geri qalması təəssüratı yaranır, amma sonra onun üçün də keçid anı gəlir. Hazırda ümumbəşəri mədəniyyət qlobal yeniliklər astanasındadır. Lakin o hələ də problemi gender tədqiqatlarının məqsədi olan cinslər arasında harmonik münasibətlər prioritetinə uyğun həll etmək iqtidarında deyildir (1, s. 15).

Ailənin, nikah münasibətinə əsaslanan kişi və qadın birliyi olması, ailə üzvləri arasında ərin və arvadın, habelə ailənin digər üzvləri arasındakı münasibətlərin düzgün və ədalətli tənzimlənməsini tələb edir (3, s. 4-7). Qadınlar üçün bərabər hüquqlara dair qlobal ictimai rəylə geniş şəkildə uyğunlaşsa da, evdə və iqtisadiyyatda gender dinamikasına gəldikdə, Azərbaycanlılar sorğu edilən əksər ölkələrdəki insanlardan daha mühafizəkar olurlar. Azərbaycanda kişi işçi qüvvəsində iştirak nisbəti daha yüksəkdir (76%) və bu ölkədaxili uyğunsuzluq Azərbaycanın BMT-nin Gender Bərabərsizliyi İndeksində aşağı yer tutmasına səbəb olur.

Biz bir qrup azərbaycanlıya gender rolları ilə bağlı sual verdik: “Hansı evlilik daha qaneedicidir, ərin ailəni təmin etdiyi və arvadın, ev və uşaqların qayğısına qaldığı evlilik, yoxsa ər və arvadın hər ikisinin işlədiyi və birlikdə evə və uşaqlarına baxdığı bir evlilik? – Müsahibədə iştirak edən 100 nəfər qadından (yaş həddi 24-40) 80- i birinci evliliyə üstünlük verdiyini bildirdi. Yalnız 20 nəfər qadın ikinci evliliyi seçdi.

**Ali təhsili olan azərbaycanlıların gender rolları ilə bağlı ənənəvi fikirlərə sahib olma ehtimalı azdır.**

Ali təhsili olan Azərbaycanlı yetkinlərin mühafizəkar gender normalarını dəstəkləmək ehtimalı təhsili olmayanlara nisbətən daha azdır. Məsələn, ali təhsilli azərbaycanlıların təxminən dörddə biri (24%) ailədəki qadınların uşaqların baxımına görə məsuliyyət daşımalı olduğunu söyləyir, halbuki rəsmi təhsili olan azərbaycanlıların təxminən üçdə biri (35%) uşağa qulluq məsuliyyətinin bərabər bölünməsinin vacib olduğunu, qadının istirahət etməli olduğunu deyir. Bununla belə, hətta ali təhsil almış azərbaycanlılar da bəzən genderlə bağlı məsələlərə dair ənənəvi fikirləri dəstəkləyirlər. Məsələn, ali dərəcəsi olanlar (80%) və daha az təhsillilər (88%) arasında böyük əksəriyyət arvadların həmişə ərinə tabe olması fikri ilə razılaşır.

Ali təhsilli qadınlar öz müstəqilliyini qorumağa çalışırlar. Müasir gənclərdə bu daha çox hiss edilir. Onların 90 faizi üçün ailə qurmaq, oğul-uşaq sahibi olmaq II dərəcəli fikirdir. Əsas öz işini qurmaqdır. Qeyd edək ki, gənc oğlanlar da eyni fikirdədirlər. Onlar da qadının müstəqilliyini çox sadə qəbul edir, qadına təkcə ev xanımı kimi deyil, eyni zamanda iş xanımı kimi də baxırlar və ailə qurmaq üçün belə qızlara daha çox üstünlük verirlər.

**İslam dini qaydaları ciddi şəkildə hökm sürən Azərbaycan ailələrində kişilərin ailənin gəlirini təmin etməli olduğu söylənilir.**

Müstəqillik illərində Azərbaycanda yenidən islam dininə qayıdış müşahidə olundu. Əsrlər boyu xalqın mənəvi dəyərlərinin əsasında duran əxlaq normalarına meyli artdı. Bu normalar isə islamın mənəvi dəyərlərinə söykənir, bu dəyərlərdən bəhrələnir. Bütövlükdə milli-mənəvi dəyərlərimiz dövlət səviyyəsində mühafizə edilir.(5, s. 159) "Ailə məişəti məsələsində Azərbaycanda yaşayan müsəlman əhalinin demək olar ki, əksəriyyəti eyni normalara riayət etmişlər. Bu bir sıra adətlərin (qonaqpərvərlik, tərbiyə, dəfn mərasimi və s.) icrasında özünü bariz göstərir. Hər bir xalqı ətraflı tədqiq etmənin yolu da məhz ailə məişətindən keçir. Ailə münasibətlərinin mahiyyəti həm islam dünyasında və həm də Qafqaz xalqlarının əksəriyyətində demək olar ki, eynidir. Qafqaz ailəsi bu bir anlayışdır, tarixi keçmişlərinə, ənənəvi mədəniyyətlərinə, təsərrüfat-məişət xüsusiyyətlərinə görə müəyyən mənada bənzərlik, bir oxşarlıq təşkil edir. Yaxın qonşuluq əlaqələri Qafqaz ailələrinin bir-birinə təsir dairəsini gerçəkləşdirmişdir. Baxmayaraq ki, bu müxtəlif şəraitdə mövcud olmuş, etnik ənənələrin müxtəlifliyi özünü fərqli şəkildə büruzə vermiş, müxtəlif tarixi hadisələrin təsirinə məruz qalmışdır". (4, s. 38).

Dini baxışlardan asılı olaraq ailədə ərin və ya arvadın əsas idarəedici olmasına münasibət dəyişir. Belə ki, Heydər Əliyev Fondunun vitse prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanda yayılan tolerantlıq ideyaları, ölkədə dini azadlığa təkan verdi. Nəticədə hər bir şəxs öz dini baxışlarına görə azadlıq qazanmış oldu. Bu ailə münasibətlərinə tə təsirsiz ötmədi. İslam dininin qaydalarına ciddi şəkildə əməl edən, qız uşaqlarının hələ kiçik yaşlarından başlarını bağlaması, ailədə gender bərabərliyi fikrini şübhə altına alır. Belə ailələrdə qadın evin kişisinin dediyi ilə hərəkət edir, onun hökmündən kənara çıxa bilmir. Əgər aiulədəki qız övladı başı açıq gəzmək istəsə belə, bu mümkün deyil. Belə ailələrdə qız uşağından soruşmadan, onun istəyi nəzərə alınmada kiçik yaşlarından "ərə vermək" də adi haldır.

Bu tip ailələrdə kişi ailənin maddi dayağı hesab edilir, yəni kişi nə gətirsə, ailə onunla məhdudlaşır. Kişi (ər) hər bir şeyə cavabdehdir. Qadının (arvadın) işləyib evə qazanc gətirməsi qəbul edilmir. Qadının əsas məsuliyyəti uşaq dünyaya gətirməsi, onların tərbiyəsi ilə məşğul olması, təmizliyə nəzarət etməsi, yemək bişirməsidir. Belə tip ailələrdə bütün qərarlar kişi (ər) tərəfindən verilir. Əgər tarixə nəzər salsaq, bu qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər sadə azərbaycanlı ailəsinin ümumi qəbul olunmuş ailə normalarıdır. XX əsrin əvvəllərindən cəmiyyətdə baş verən inqilablar, qadınların bu hərəkata qoşulması onların ailədəki mövqeyini və ona yanaşmanı dəyişdi. Bunu bütün azərbaycanlı ailələrinə aid etmək olarmı? – Xeyir, olmaz. Çünki 20 faiz ailələr məhz, dini adət ənənələri qoruyub-saxlamaqla, ailədə qadının ikinci dərəcəli, kişinin isə hökmran olduğunu sübut etməyə çalışırlar.

Bu hal Cənub regionunda daha çox müşahidə edilir. Bu gün bu regionun əsas problemlərindən biri də qız uşaqlarının erkən yaşda məcburən ərə verilməsidir. Dövlət qanununun olmasına baxmayaraq, valideyinlər izah edə bilmədikləri səbəbdən azyaşlı qız uşaqlarını özündən yaşca çox böyük olan, bəzən isə qoca kişilərə ərə verirlər. Ailənin funksiyası kimi nəsilartırma evlənən tərəflər üçün mühüm əhəmiyyət daşıyır. Nəslin davam etdirilməsi ailədə əsas məsələ hesab olunur. Xüsusən ərə gələn qız üçün bu özünü yeni ailədə müəyyən qədər təsdiq xarakteri daşıyırdı. Belə ki, övladı olmayan qadının həmin evin tamhüquqlu bir üzvü kimi gələcəkdə yaşaya bilməsi sual altında qalırdı. Cəmiyyət tərəfindən də uşağı olmayanlara qarşı bəzi məsələlərlə bağlı mənfi münasibət hər addımbaşı nəzərə çarpır. Məsələn, təzə gəlin üstünə, doğulmuş uşaq və zahı yanına getməmək kimi manelər ortaya çıxır. Çox təəssüf ki, bu cür geridəqalmış düşüncə tərzinin Cənub bölgəsində indi də qalması müşahidə olunur.

XX əsrin sonuna yaxın bütün dünyada baş verən kəskin dönüş mərhələləri, mövcud superdövlətlərdən birinin – SSRİ-nin çökməsi, həmin məkanda yeni iqtisadi-siyasi formasiyanın yaranması cəmiyyətin bütün sahələrinə öz təsirini göstərmişdir. Azərbaycan da baş verən sosial-siyasi dəyişikliklərdən kənarda qalmamışdır. SSRİ-nin süqutundan sonrakı mərhələ elmi ədəbiyyatlarda bir qayda olaraq "keçid mərhələsi" kimi qiymətləndirilir. Bu isə heç də təsadüfi deyildir. Həqiqətən, cəmiyyət bir siyasi-iq-

tisadi platformadan başqasına keçir. Yeni dövr özü ilə yeni prinsip, yeni qanun, yeni təfəkkür tərzi, yeni davranış normaları gətirir. Əlbəttə heç də adamların hamısı yeni həyat tərzinə alışa bilmir. Əslində, belə bir transformasiya üçün hazır "mexaniki model" də mövcud deyildir. Hər cür yeniliyin insan həyatına daxil olmasını həmişə ağrılar və çətinliklər müşayiət etmişdir. Bu indi də belədir. Keçid dövrünü yaşayan insanların düşüncəsi mövcud mühitlə uzlaşmağa heç də bütün vaxt və hallarda qadir deyil. Onlar ənənəvi adət-ənənə, rəftar və davranış qaydalarını avtomatik olaraq dəyişə bilmirlər. Xüsusən, qadınların yeni sosial mühitə uyğunlaşmasında köklü problemlər yaranır. Həmin mərhələdə etik normaların ənənəvi "qəliblərə" uyğun gəlməməsi də müşahidə olunur.

"XX əsrin sonlarında Azərbaycan torpaqlarının 20 faizi Rusiyanın hərbi dəstəyi ilə Ermənistan tərəfindən işğal olunmuşdur. Bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın vəziyyətində yaşayır. Müxtəlif yaşayış məntəqələrində çadır və vaqonlarda, yataqxana və mehmanxanalarda yaşayan ailələrin ağır yükünü çox vaxt qadınlar çəkməli olmuşdur. Yeni yaşayış tərzi insanların həyat və məişətinə, rəftar və davranışına da təsir göstərir" (2, s. 96).

Azərbaycan ailələrində ənənəvi olaraq, necə deyərlər, "hərənin öz yeri" olmuşdur. Ata-oğul, gəlin-qayınana, qardaş-bacı və s. münasibətləri əsrlər boyu formalaşmış, yeni keyfiyyətlərlə zənginləşmişdir, amma qaçqın taleyi yaşayan ailələrdə bu "subordinasiya" son illərdə kəskin şəkildə pozulmuşdur; belə ki, kiçik, dar "mənzildə" yaşayan ailələrdə bir sıra kəskin problemlər üzə çıxmışdır. Yeni həyat tərzi istər-istəməz yeni rəftar və yeni davranış tələb edir. Nəticədə, qadın-kişi münasibətləri tamamilə yeni bir müstəviyə keçmişdir ki, bu əlbəttə, təqdiredici hal deyildir.

Bu gün Azərbaycanın demək olar ki, bir çox bölgələrində qadınlar yüksək təhsil səviyyəsinə nail olublar. Bundan əlavə, qadınlar daha peşəkarcasına hazırlaşır, iqtisadi cəhətdən daha fəal və ictimai həyatda daha çox iştirak edirlər. Eyni zamanda, dinamik inkişaf edən və yüksək maaşlı sənaye sahələrində qadınların xüsusi çəkisi azalır, sahə və peşə seqreqasiyası artır. İqtisadiyyatın yenidən qurulması və əmək bazarında rəqabət artdıqca, ən perspektivli sənaye sahələrində işəgötürənlər getdikcə daha çox kişi işçilərə üstünlük verirlər.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Abasov Ə., "Gender araşdırmaları Azərbaycanda// Azərbaycanda gender tədqiqatları", Bakı, Səda, 2002*

*2. Ağayeva K. Etika və gender: sosial-əxlaqi davranışın təhlili. Bakı, "Sabah", 2007, 196 s.*

*3. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. B., «Hüquq ədəbiyyatı» nəş., 2011, 254 s.*

*4. Bünyadova Ş. "Orta əsr Azərbaycan ailəsi". Bakı-2012, "Elm" nəşriyyatı, 384 səh.*

*5. Əliyev A.Müstəqillik illərində Azərbaycan ailəsində islami dəyərlərin roluna dair// Humanitar elmlər seriyası - 2, - Bakı: Bakı Dövlət Universiteti, 2019, s.159-164*


## XÜLASƏ


Cəmiyyətin tarixi inkişaf prosesi, arxeoloji qazıntılar bir daha sübut edir ki, hələ tayfalar mövcud olandan insanların özlərini necə aparmaq qaydaları yaranmış, özünəməxsus əmək, hərbi, gündəlik davranış, qonaq qəbulu və başqa etiketlər mövcud olmuşdur. Etiket qaydalarını kollektiv üzvləri qeyrişərtsiz yerinə yetirmək məcburiyyətində idi. Gender bərabərliyi insan hüquqlarının fundamental prinsiplərindən biridir, lakin kişilər və qadınlar, eləcə də müxtəlif gender kimliklərinə malik insanlar arasında bərabərsizlik bütün ölkələrdə müşahidə olunur və çox vaxt bərabər imkanların olmaması və insan hüquqlarının kobud şəkildə pozulması ilə nəticələnir. Gender ayrı-seçkiliyi, demək olar ki, bütün insan hüquqları müqavilələri ilə qadağandır. Dünyada qadınların hüquqlarının təmin edilməsində əhəmiyyətli irəliləyişlərə baxmayaraq, milyonlarla qadın və qız zorakılığa və ayrı-seçkiliyə məruz qalır, bərabərlik, ləyaqət və muxtariyyətdən, bəzən də öz həyatlarına nəzarət etmək hüququndan məhrum edilir. Gender bərabərliyinin inkişafı cəmiyyətin innovativ inkişafı və müasirləşməsi üçün zəruri şərtdir. Empirik tədqiqatlar gender bərabərsizliyinin müxtəlif təzahürlərindən iqtisadi və demoqrafik itkilərin mövcudluğunu sübut etmişdir. Azərbaycanda həm qanunvericiliyin təkmilləşdirilməsi sahəsində, həm strukturların və təşkilatların formalaşması və inkişafı sahəsində, həm də eqalitar gender sosial normalarının və qeyri-rəsmi qaydaların tətbiqi sahəsində bərabərlik lazımdır. Məqalədə sosial sorğu əsasında Azərbaycan ailələrində gender bərabərliyi və cəmiyyətin sürətlə inkişafı nəticəsində ailə etiketlərinin irəli və ya geriyə transformasiyası geniş təhlil olunur.

**Açar sözlər:** *Azərbaycan ailəsi, gender bərabərliyi, demoqrafik inkişaf, insan inkişafi, ər-arvad münasibətləri.*

**Гендерное равенство и трансформация этикета в азербайджанских семьях**

**РЕЗЮМЕ**

Исторический процесс развития общества, археологические раскопки еще раз доказывают, что со времен существования племен существовали правила поведения людей, специфический трудовой, воинской, повседневный этикет, гостеприимство и другие этикеты. Члены коллектива должны были безоговорочно выполнять правила этикета. Гендерное равенство является одним из основополагающих принципов прав человека, однако неравенство между мужчинами и женщинами, а также между людьми разной гендерной идентичности наблюдается во всех странах и часто приводит к отсутствию равных возможностей и грубым нарушениям прав человека. Гендерная дискриминация запрещена почти всеми договорами о правах человека. Несмотря на значительный прогресс в обеспечении прав женщин во всем мире, миллионы женщин и девочек подвергаются насилию и дискриминации, им отказывают в равенстве, достоинстве и автономии, а иногда и в праве распоряжаться своей жизнью. Развитие гендерного равенства является необходимым условием инновационного развития и модернизации общества. Эмпирические исследования доказали наличие экономических и демографических потерь от различных проявлений гендерного неравенства. В Азербайджане институты гендерного равенства слабы, более того, в последние 10 лет наблюдается стагнация и спад в развитии этих институтов. Азербайджану необходимо равенство как в сфере совершенствования законодательства, в сфере формирования и развития структур и организаций, так и в сфере применения эгалитарных гендерных социальных норм и неформальных правил. В статье на основе социологического опроса широко анализируется гендерное равенство в азербайджанских семьях и трансформация семейных ярлыков вперед или назад в результате стремительного развития общества.

**Ключевые слова:** *азербайджанская семья, гендерное равенство, демографическое развитие, человеческое развитие, отношения между мужем и женой.*

**Gender equality and transformation of etiquette in azerbaijanian families**

**SUMMARY**

The historical process of the development of society, archaeological excavations once again prove that since the existence of tribes there have been rules for the behavior of people, specific labor, military, everyday etiquette, hospitality and other etiquettes. Members of the team had to unconditionally follow the rules of etiquette. Gender equality is one of the fundamental principles of human rights, but inequality between men and women, and between people of different gender identities, occurs in all countries and often leads to a lack of equal opportunities and gross violations of human rights. Gender discrimination is prohibited by almost all human rights treaties. Despite significant progress in securing women's rights around the world, millions of women and girls are subjected to violence and discrimination, denied equality, dignity and autonomy, and sometimes the right to control their own lives. The development of gender equality is a necessary condition for innovative development and modernization of society. Empirical studies have proven the existence of economic and demographic losses from various manifestations of gender inequality. In Azerbaijan, the institutions of gender equality are weak; moreover, in the last 10 years, there has been a stagnation and decline in the development of these institutions. Azerbaijan needs equality both in the field of improving legislation, in the field of formation and development of structures and organizations, and in the field of application of egalitarian gender social norms and informal rules. Based on a sociological survey, the article broadly analyzes gender equality in Azerbaijani families and the transformation of family labels forward or backward as a result of the rapid development of society.

**Key words:** *Azerbaijani family, gender equality, demographic development, human development, relationship between husband and wife.*

**UOT: 338.2: 338.24.021.8**
*ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563*

# ŞUŞA ŞƏHƏRİNİN QARABAĞIN MƏRKƏZİ KİMİ FORMALAŞMASI VƏ İNKİŞAFININ STRATEJİ ƏHƏMİYYƏTİ

**ŞƏFA ƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin professoru,*
*iqtisad elmləri doktoru,*
*UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri*

*E-mail: shafa.aliyev@sdu.edu.az*
*garabagh.iam@unec.edu.az*

XXI əsr müstəqil Azərbaycan Dövləti üçün kifayət qədər əlamətdar hadisələrlə yadda qalmaqdadır. Amma, bu hadisələrin içərisində iki tarixi məqam daha çox diqqəti çəkir. Belə ki, 2023-cü ildə Azərbaycan xalqının dahi oğlu, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyidir və bununla bağlı 2023-cü il ölkə prezidentinin sərəncamı ilə "Heydər Əliyev İli" elan edilmişdir [1]. İkinci əlamətdar tarixi hadisə isə 2020-ci il sentyabr ayının 27-dən başlayan və 44 gün davam edən Böyük Qarabağ Zəfəridir. Məhz bu zəfərin nəticəsində Azərbaycan xalqının tapdalanan qüruru özünə qaytarılmış, Şuşa da daxil olmaqla müqəddəs və inci torpaqlarımız işğalçıların murdar ayaqları altından təmizlənmişdir. İşğalçılar diz çökdürülmüş və Ermənistan rəhbərliyi təslimşilik aktını imzalamışlar. Bununla da Azərbaycan müstəqil dövlət kimi ərazi bütövlüyünü təmin etmiş və dərhal işğaldan azad olunmuş ərazilərin dirçəldilməsinə başlanılmışdır. Təsadüfi deyildir ki, dövlət başçısı 21 iyul 2023-cü ildə keçirilən Şuşa Qlobal Media Forumunda qeyd etmişdir ki, əlbəttə, Şuşanın bərpası başlanılıbdır, bir müddət öncə Baş plan təsdiq edilibdir və indi artıq ilk yaşayış layihəsi icra olunur. Siz onları şəhərin bir neçə yerində görə bilərsiniz. Həmin lahiyələr çərçivəsində Şuşa sakinləri yenidən evlərinə qayıdacaqlar. Bununla yanaşı, artıq qeyd etdiyim kimi, Şuşa Prezident sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilibdir və bizim gözləntimiz odur ki, dünyadan çoxsaylı qonaqlarımız olacaqdır, insan axını olacaqdır. Çünki bu, nadir, misilsiz bir məkandır. Burada tarix, mədəniyyət, memarlıq və iqlim vəhdət təşkil edir. Bu, bizim böyük sərvətimizdir. Əlbəttə ki, bu şəhər qaya üzərində qurulubdur, qədim şəhərdir və bu, həqiqətən də Qafqazın incisidir və Qarabağın tacıdır [2]. Bu fikirlərlə razılaşmamaq qeyri-mümkündür. Təbiət Şuşadan heç nə əsirgəməmişdir və eyni zamanda, Şuşanın özünəməxsus xüsusiyyətləri, özəllikləri vardır və tarixi aspektlərdən də yanaşsaq Şuşanın strateji əhəmiyyəti dəfələrlə artır.

Şuşa şəhərinin formalaşması və inkişaf etməsi proseslərini fundamental araşdıran akademik Z.Ə.Səmədzadə bildirir ki, Şuşa şəhəri XVIII əsrin sonlarından başlayaraq bütün Cənubi Qafqazın mühüm ticarət mərkəzlərindən birinə çevrilmişdi. Şuşa şəhəri özünün sənətkarlıq məhsulları ilə şöhrət qazanmışdı. XIX əsrin əvvəllərində şəhərdə 50-dən artıq sənət sahəsi üzrə ixtisaslaşmış böyük sənətkarlar ordusu fəaliyyət göstərirdi. XIX əsrin əvvəllərində burada müxtəlif növ parçalar istehsal edən 500 toxucu dəzgahı işləyirdi. Kapitalist münasibətlərinin sürətli inkişafı Şuşada ipəkçiliyin fabrik-zavod istehsalı səviyyəsinə yüksəlməsinə gətirib çıxardı. Şuşada XX əsrin 20-ci ilinə kimi həyat qaynayırdı [3, s. 98]. Bütün bunlar Şuşanın şərəfli və balanslı şəkildə tarixi-iqtisadi inkişaf xüsusiyyətlərinə malik olmasının əlamətləri kimi dəyərləndirilə bilər. Şuşa həm də Qarabağ regionun mərkəzi kimi tarixi funksiyanı yerinə yetirmişdir və bu gün də Şuşa qeyd olunan regionun döyünən ürəyi hesab edilir. Əslində bu şəhərin dirçəldilməsi və inkişaf etdirilməsi, bütövlükdə tarixi-coğrafi mövqeyini və quruluşunu özünə qaytaran və yeni yaradılan Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi inkişafının intensivləşdirilməsi deməkdir [4].

Qeyd edək ki, Şuşanın inkişaf prosesləri, demoqrafik meyilləri, iqtisadiyyat quruculuğu məsələləri kifayət qədər özəlliyi ilə fərqlənir. Əgər XIX əsrdə Şuşa Qarabağın mərkəzi kimi sürətlə inkişaf etmişdirsə, XX əsrdə bu proseslər süni şəkildə əngəllənmişdir. Belə ki, SSRİ rəhbərliyinin dəstəyi ilə erməni millətçiləri və onların havadarları məqsədyönlü şəkildə Şuşanın Qarabağın mərkəzi statusundan məhrum edilməsinə nail oldular. Sovet haqimiyyətinin qurulmasından sonra Şuşa yeni yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin Mərkəzi kimi müəyyənləşdirildi. Lakin 1923-cü ildə iyulun 7-dən etibarən bu vilayətin mərkəzi kimi Xankəndi seçilir. Bununla da Şuşa Qarabağın inzibati mərkəzi olmaq funksiyasından məhrum edilir [5, s. 37-38]. Məhz sovet hakimiyyəti dövründə Şuşanın üzərində qara buludlar

çoxalmağa başlamış, əhalinin sayı bir neçə dəfə azalmış və şəhərin inkişafına etinasızlıq artmışdır.

Yalnız 1970-ci illərin əvvəllərindən başlayaraq Şuşa şəhərinin inkişaf etdirilməsinin vacibliyi ön plana çıxarılmış və bu proseslərdə Ulu öndər Heydər Əliyevin tarixi xidmətləri olmuşdur. Heydər Əliyev Şuşa şəhərinə dəfələrlə səfər etmiş və bir çox obyektlərin açılışında şəxsən iştirak etmişdir. Şuşanın tarixi simasının və Qarabağın mərkəzi statusunun özünə qaytarılması istiqamətində önəmli addımlar atmışdır. Məhz onun təşəbbüsü ilə Şuşa şəhərində kurort kompleksi inkişaf etdirilmişdir və şəhərdə sosial infrastruktur gücləndirilmişdir mehmanxana və çoxmərtəbəli yaşayış binaları istismara verilmişdir, abidələr bərpa olunmuş və yeniləri yaradılmışdır [6]. Şuşa həm də ölkəmizin tarixi və strateji əhəmiyyətli mədəniyyət mərkəzi kimi çox mühüm funksiyanı yerinə yetirir. Burada olan abidələr, mədəniyyət nümunələri, görkəmli Azərbaycan sənətkarlarının və mütəfəkkirlərinin ev muzeyləri mədəniyyət inciləri kimi qiymətləndirilə bilər [7].

Qeyd edək ki, hazırda Qarabağ iqtisadi rayonunda aparılan geniş miqyaslı quruculuq işlərinin mərkəzində Şuşa şəhərinin dirçəldilməsi təkanverici qüvvə kimi çıxış edir. Şəhər tikinti meydançası təsəvvürü yaratmışdır, hər tərəfdə təmir və bərpa işləri görülür, digər tərəfdən isə yeni sosial və xidmət infrastrukturu yaradılır, obyektlər şəbəkəsi istismara verilir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün kompleks işlər görülür [8]. Qeyd edilənlər Şuşa şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, şəhərin sahəvi iqtisadiyyat strukturunun formalaşdırılması, prioritet fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bir çox xarici mütəxəssislər və eyni zamanda yerli mütəxəssislər, tədqiqatçılar, həmçinin bu araşdırmanın müəllifi belə bir fikirə üstünlük verirlər ki, Şuşa şəhərinin iqtisadiyyat quruculuğunda önəmli yeri məhz mədəniyyət iqtisadiyyatının elementləri, xidmət sektorunun müxtəlif sahələri və əsas etibarilə turizm-rekreasiya fəaliyyəti tutmalıdır. Fikrimizcə bunun üçün ciddi tarixi, iqtisadi, coğrafi, iqlim amilləri mövcuddur [9]. Eyni zamanda, Şuşa şəhərinin sürətli şəkildə dirçəldilməsi, şəhər təsərrüfatının formalaşdırılması, otel və xidmət müəssisələri şəbəkəsinin yaradılması, yaxın perspektivdə isə ilk növbədə keçmiş məcburi köçkünlərin şəhərə qayıtması üçün yaşayış massivlərinin sürətlə tikilməsi, məktəb və xəstəxanaların tikintisi və s. amillər ümumilikdə regionda bərpa və dirçəliş proseslərinə əlavə motivasiyalar yaradır [10].

Şuşa şəhərinin iqtisadiyyatının inkişaf etdirilməsi yeni yanaşmaların ortaya qoyulması, xüsusilə yüksək və "ağıllı" texnologiyalar əsasında şəhər quruculuğunun təmin edilməsi vacib şərtlərdəndir. Belə ki, hazırda Şuşada intellektual resursların mobilizasiya edilməsi, əvvəldə qeyd edilən iqtisadiyyat sahələrinin yaradılmasında yüksək texnologiyaların tətbiq olunması, şəhərin sosial-iqtisadi dirçəldilməsini kifayət qədər sürətləndirə bilər. Bunlar isə öz növbəsində Azərbaycnın güclü dövlət kimi tərəqqisinin yeni zirvəsi kimi baxıla və sosial-iqtisadi inkişafın yeni mərhələsinə keçməkdə ciddi təkan rolunu oynayar [11]. Bunun üçün şəhərin investisiya cəlbediciliyinin artırılması tədbirlərinin görülməsinə zərurət vardır. Məlumdur ki, dövlət tərəfindən işğaldan azad olunmuş ərazilərdə bərpa və dirçəliş işlərinin sürətləndirilməsi üçün kompleks tədbirlər görülmüşdür. Eyni zamanda, müxtəlif vergi güzəştləri və digər stimullaşdırıcı mexanizmlər tətbiq olunmuşdur. Bu proseslərdə iştirak edənlər üçün də güzəştlər vardır. Amma bütün bunlarla bərabər, hesab edirik ki, əsas prioritet məsələlərdən biri kimi quruculuq və dirçəliş tədbirlərində dövlət resursları ilə yanaşı, alternativ maliyyə və investisiya mənbələrinin formalaşdırılması, işlək maliyyə təminatı mexanizmlərinin hazırlanması vacibdir. Bu sırada mühüm prioritetlərdən biri də bütövlükdə görüləcək işlərin səmərəli olması üçün və bu proseslərdə xarici investisiyaların cəlb edilməsinin asanlaşdırılması, xarici investorların iştirak etməsindən ötrü maksimum əlverişli investisiya mühitinin yaradılmasıdır [12]. İnvestisiyaların cəlb edilməsi mexanizmləri işlək olmalı, qanunvericilik bazası beynəlxalq təcrübəyə uyğun gəlməli, yatırılan investisiyaların müqabilində investorların maraqlarının qorunması üçün müvafiq amillər ciddi şəkildə öyrənilməli və nəzərə alınmalıdır. Ümumilikdə işğaldan azad olunmuş ərazilərdə səmərəli investisiya qoyuluşları proseslərinin intensivləşdirilməsi və bu məqsədlə əlavə tədbirlərin görülməsi tələb olunur [13]. Şuşa kimi strateji əhəmiyyət kəsb edən şəhərin iqtisadiyyat quruculuğunun intensiv şəkildə aparılması, paralel olaraq şəhərdə müxtəlif beynəlxalq statuslu mühüm tədbirlərin keçirilməsi, şəhərə gələn yerli və xarici qonaqların sayının durmadan artması aparılan quruculuq və dirçəliş tədbirlərinin maksimum sürətləndirilməsinə zərurət yaratmışdır. Digər tərəfdən, regionda reallaşdırılan çoxsaylı nəqliyyat

layihələri Şuşa şəhərinin strateji rolunu güclü şəkildə artıra biləcək amillərdəndir. Həyata keçirilən layihələr, istismara verilimiş iki beynəlxalq hava limanı (Füzuli və Zəngilan Beynəlxalq Hava limanları), mürəkkəb relyefə malik olan Laçın rayonunda üçüncü beynəlxalq hava limanının tikintisinin sürətlə davam etməsi yaxın illərdə Şuşa şəhərinə gələn yerli və xarici turistlərin sayının əhəmiyyətli şəkildə artmasına imkan verəcəkdir [14].

Bir tarixi hadisəyə xüsusi diqqət yönəltmək istərdik. Şuşa şəhəri həm də alınmaz bir qala kimi tarixə düşmüşdür və xalqımızın qəhrəmanlıq, igidlik rəmzidir. Buna görə də Şuşa şəhərinin sosial-iqtisadi dirçəldilməsi uzaq perspektivdə müstəqil Azərbaycanın qüdrətinin artması anlamına gəlir. Digər tərəfdən, Azərbaycan Türkiyə qardaşlığını və müttəfiqliyini misli görünməmiş səviyyəyə yüksəldən Şuşa Bəyannaməsi strateji tarixi əhəmiyyət kəsb edən hadisələr sırasındadır [15]. Bu həm də Türk dünyasının coğrafiyasının birləşdirilməsində, uzun əsrlər ərzində bir-birindən ayrı düşmüş türk dövlətlərinin sürətli inteqrasiyasında ciddi önəm kəsb edəcəkdir. Artıq bunlarla bağlı türkdilli dövlətlər arasında gedən proseslər bunu deməyə əsas verir ki, yaxın illərdə biz türkdilli dövlətlərin inteqrativ əlaqələrinin daha sıx olacağını görə biləcəyik. Bütün bu proseslərdə Şuşa şəhəri birləşdirici və təkanverici funksiyanı yerinə yetirir [16]. Eyni zamanda, ölkə Prezidentinin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq olunmuşdur [17]. Bu proqramda genişmiqyaslı bərpa və dirçəliş layihələri və tədbirləri nəzərdə tutulmuşdur. Hesab edirik ki, qeyd olunan proqramın reallaşdırılması Şuşa şəhərinin sosial-iqtisadi inkişafını daha da tezləşdirəcək və şəhərin regionda strateji rolunu yüksəldəcəkdir.

## YEKUN

Beləliklə, yaxın və uzaq hədəflər nəzərə alınmaqla, Şuşanın Qarabağın mərkəzi kimi formalaşması və inkişafı ilə bağlı bir qrup məqamlara və amillərə diqqət yönəltmək istərdik:

- bərpa və dirçəliş tədbirləri sürətləndikcə Şuşanın Qarabağın mərkəzi funksiyasının yerinə yetirmək statusu tamamilə bərqərar olmaqdadır;

- aparılan dirçəliş layihələrinə əsasən əminliklə qeyd etmək oalr ki, Şuşa yaxın perspektivdə nəinki regionun, dünyanın ən cəlbedici şəhərlərindən birinə çevriləcəkdir;

- tarixi və müasir strateji əhəmiyyəti nəzərə alınmaqla, Şuşa dünya azərbaycanlılarının birlik şəhəri və Türk dövlətlərinin mədəniyyət mərkəzi kimi xüsusi önəm kəsb edəcəkdir və s.

**Açar sözlər:** *Azərbaycan, Qarabağ, Qarabağ iqtisadi rayonu, Şuşa, Şuşanın inkişaf hədəfləri, Şuşanın inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, – 29 sentyabr 2022-ci il.*

*2. İlham Əliyev Şuşa Qlobal Media Forumunda çıxış edib. 21 iyul 2023. https://president.az/az/articles/view/60544.*

*3. Səmədzadə, Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə: 5 cild/ Z. Səmədzadə; [baş red. A. Səmədzadə; red. Y. Məmmədova]. Bakı: Kitab Çapı, 2022. – 856 s.*

*4. Алиев, Ш.Т. Стратегическая важность возрождения Шуша в интенсификации социально-экономического развития Карабахского экономического района/ Ш.Т. Алиев, Л.А. Меликова// Современные тенденции развития науки и мирового сообщества в эпоху цифровизации: Сборник материалов VII Международной научно-практической конференции, Москва, 30 июня 2022. – с. 321-329.*

*5. Şuşa-270. Şuşanın demoqrafik, sosial-iqtisadi inkişafı: dünən, bu gün və perspektivlər. Bakı, – 2022. – 268 s.*

*6. Əliyev, Ş.T. Heydər Əliyevin Şuşa şəhərinin Qarabağin mərkəzi kimi qorunmasinda və inkişaf etdirilməsində tarixi rolu / SDU-nun rəsmi saytı. 08.05.2023. - https://sdu.edu.az/az/news_society/119?fbclid=IwAR1Uw2mwN6LFhNI3IRDM0v-jwkjJZkpo9rJK4iUOBRagAH9F0o5qcvI9Mso.*

*7. Şuşa - Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı. https://azertag.az/xeber/Susa_Azerbaycanin_tarixi_ve_strateji_ehemiyyetli_medeniyyet_paytaxti-1921706.*

*8. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. “Geostrategiya” jurnalı, – sentyabr, 2021. №4(64), – s.67-72.*

*9. Əliyev, Ş.T. Şuşa şəhərinin sosial-iqtisadi quruculuğunun strateji aspektləri və inkişaf drayverləri*

*/ AR Mədəniyyət Nazirliyi və Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Azərbaycanda Mədəniyyət İqtisadiyyatı: Şuşadan İnkişaf İmpulslari" mövzusunda beynəlxalq elmi-praktiki Konfransı keçiriləcəkdir (18-20 sentyabr, 2022-ci il / Şuşa – Bakı). - s.78-86.*

*10. Əliyev, Ş.T. Qarabağ regionunda bərpa və dirçəliş proseslərinin aktual aspektləri / Azərbaycan Respublikası Təhsil Nazirliyi. Sumqayıt Dövlət Universiteti. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr olunmuş: Regional iqtisadiyyat: Müasir aspektlər və aktual məsələlər adlı Respublika elmi konfransının materialları. Sumqayıt, 22–23 aprel 2021. –Səh. 253-256.*

*11. Şuşanın Sosial-İqtisadi Dirçəldilməsi – Azərbaycanın Tərəqqisinin Yeni Zirvəsidir - adlı ümumrespublika elmi məqalə müsabiqəsinin Elektron məqalə toplusu. Bakı-2022. Elektron-kitab. UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi, 30.12.2022.- http://unec.edu.az/application/uploads/2022/03/Kitab-m-sabiqe.pdf?fbclid=IwAR2z1Sir8_8Em_kEoVd_j_apQDKTcDPbdOQxpCvhMEi-hh4CmsTP2iXgGDc.*

*12. Алиев, Ш.Т., Аббасова, Ч.И., Гамидова, А.М. Оценка потенциала и пути развития Карабахского экономического района Азербайджана / VIII International Scientific and Practical Conference International forum: problems and scientific solutions held in Melbourne, Australia. Scientific collection «interconf», September 6-8, 2021, № 73, p. 7-15. https://ojs.ukrlogos.in.ua/index.php/interconf/article/view/14257/13074.*

*13. Əliyev, Ş.T., Behbudova K.E. İşğaldan azad olunmuş ərazilərə səmərəli investisiya qoyuluşları / "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri". Ümumilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş Beynəlxalq Elmi-Praktiki Konfrans. BBU, 2021, Səh. 93-95. - https://bbu.edu.az/uploads/files/Konfrans/SON-konfrans-16_07_2021----.pdf.*

*14. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана // "Вопросы истории", Москва, 2022 №06,с.148-155. https://elibrary.ru/item.asp?id=48808624.*

*15. Əliyev, Ş.T., Şuşa Bəyannaməsi – Azərbaycan Türkiyə qardaşlığını və müttəfiqliyini misli görünməmiş səviyyəyə qaldırmaqdadır. "İki sahil" qəzeti / saytı. http://ikisahil.az/post/321035-shusha-beyannamesi-azerbaycan-turkiye-qardashligini-ve-muttefiqliyini-misli-gorunmemish-seviyyeye-qaldirmaqdadir. 15 iyun 2022.*

*16. Əliyev, Ş.T. Şuşa şəhərinin dirçəldilməsinin Qarabağın sosial-iqtisadi inkişafında strateji əhəmiyyəti böyükdür. AzərTAC. 12.05.2023. https://azertag.az/xeber/Susa_seherinin_dircheldilmesinin_Qarabagin_sosial_iqtisadi_inkisafinda_strateji_ehemiyyeti_boyukdur____Achiqlama-2613077.*

*17. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. AR Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*

**АЛИЕВ Шафа Тифлис оглы,**
***Профессор Сумгаитского Государственного Университета, д.э.н.***
***Руководитель Центра Исследования Экономики Карабаха UNEC.***
***E-mail: shafa.aliyev@sdu.edu.az***
***ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563***
***E-mail: garabagh.iam@unec.edu.az***

**РЕЗЮМЕ**

Стратегическое значение формирования и развития города Шуша как центра Карабаха

В статье исследовано стратегическое значение формирования и развития города Шуша как центра Карабаха. С этой целью раскрыта стратегическая важность и место города Шуша в развитии Карабахского региона. Рассмотрены историко-экономические аспекты эволюции города Шуша в XIX-XXI веке. Анализирована структура и особенности экономической основы развития города. Отмечена историческая важность и ценность развития искусствоведения, разных видов мастерства и сектора услуг. Рассмотрены процессы развития города Шуша в период СССР, раскрыты основные факторы, которые способствовали снижению ее роли как центра Карабаха. Особо отмечены исторические заслуги и титанические услуги Общенационального Лидера Гейдара Алиева в интенсификации социально-экономического развития города в 1970-80-х годах. Обосновано стратегическое значение города Шуша в освобождении оккупированных территорий и в ускорении возрождения вновь созданного Карабахского экономического района. Обобщена

стратегическая значимость и важность города Шуша в усилении экономической мощи и государственности в Азербайджане в ближайшей и долгосрочной перспективе.

**Ключевые слова:** *Азербайджан, Карабах, Шуша, Карабахский экономический район, стратегическая значимость города Шуша, историческая роль города Шуша, приоритеты возрождения города Шуша.*

**ALIYEV Shafa Tiflis,**
***Professor at Sumgait State University.***
***Head of the UNEC Centre for Karabakh Economic Research.***
***E-mail: shafa.aliyev@sdu.edu.az***
***ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563***
***E-mail: garabagh.iam@unec.edu.az***

**SUMMARY**

Strategic importance of the formation and development of the city of Shusha as the center of Karabakh

The article examined the strategic importance of the formation and development of the city of Shusha as the center of Karabakh. The strategic importance and place of the city of Shusha in the development of the Karabakh region is revealed for this purpose. The historical and economic aspects of the evolution of the city of Shusha in the XIX-XXI century are considered. The structure and features of the economic basis for the development of the city are analyzed. The historical importance and value of the development of art history, various types of craftsmanship and the service sector is noted. The processes of development of the city of Shusha during the USSR period are considered, the main factors that contributed to the decrease in its role as the center of Karabakh are disclosed. The historical merits and titanic services of the National Leader Heydar Aliyev in intensifying the socio-economic development of the city in the 1970-80s are especially noted. The strategic importance of the city of Shusha in the liberation of the occupied territories and in accelerating the revival of the newly created Karabakh economic region is justified. The strategic importance and importance of the city of Shusha in strengthening economic power and statehood in Azerbaijan in the near and long term is given in the end of article.

**Key words:** *Azerbaijan, Karabakh, Shusha, Karabakh economic region, strategic significance of Shusha city, historical role of Shusha city, priorities of revival of Shusha city.*

UOT 33

# AZƏRBAYCANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DÖVLƏT SAHİBKARLIQ SİYASƏTİ SOSİAL-İQTİSADİ İNKİŞAFIN TƏMİNATÇISI KİMİ

**SƏKİNƏ BABAYEVA**
*Qərbi Kaspi Universitetinin dissertantı*
*E-mail: mirrena54@yahoo.com*

## Giriş

Azərbaycanda sahibkarlıq fəaliyyəti XIX əsrdə yüksək inkişaf mərhələsinə qədəm qoyması ilə əlaqədar milli xeyriyyəçi milyonçuların yetişdirilməsinə təkan verdi. XX əsrin əvvəllərində müxtəlif sahələri əhatə edən sahibkarlıq fəaliyyəti daha da inkişaf etməyə başladı. Sovet dövründə mərkəzləşmə, inzibati-təsərrüfatçılıq şəraitində sahibkarlığa son qoyuldu. "Azərbaycanda kiçik və orta səviyyəli müəssisələrin yaradılması və fəaliyyəti praktikası Azərbaycan SSR Nazirlər Kabinetinin 12 oktyabr 1990-cı il tarixli 48 saylı qərarı ilə nizamlanmşıdır"[4, 32]

1991-ci ildə müstəqillik əldə edən Azərbaycan Respublikası milli iqtisadi inkişaf modeli yoluna qədəm qoydu. Milli iqtisadi inkişaf modeli özünəməxsus xüsusiyyətləri, meyarları ilə üstünlük qazandı. Azərbaycan böyük iqtisadi güc mərkəzlərinin prinsiplərinə, vahid ənənə və davranış normalarına əməl etdi, qlobal böhran təhlükəsinə qarşı iqtisadi müqavimətini gücləndirdi, iqtisadi liberallaşdırımanı həyata keçirdi, beynəlxalq qurumlarla əməkdaşlıq edərək ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsini daim ön plana çəkdi. Deməli, milli iqtisadi inkişaf modelinin əsas xüsusiyyətləri yeni transformasiya şəraitində Azərbaycanın qloballaşma prosesinin təsirilə dünya iqtisadi məkanına inteqrasiya olunması, beynəlxalq iqtisadi və maliyyə qurumları ilə əməkdaşlıq qurmaqla iqtisadiyyatın yüksək səviyyəsinə çatmasıdır.

Müstəqillikdən sonra sahibkarlığı aşağıdakı inkişaf mərhələlərinə bölmək olar.

1. 1991-1993-cü illər;
2. 1993-1996-cı illər;
3. 1996-2003-cü illər.

1991-1993-cü illərdə islahatlar ləng, sistemsiz gedirdi. Buna görə inkişaf səviyyəsi aşağı idi, maliyyə və istehsal sahələrində sabitsizlik hökm una görə inkişaf səviyyəsi aşağı idi, maliyyə və istehsal sahələrində sabitsizlik hökm sürür, bazar iqtisadiyyatı zəif inkişaf edir, özəlləşdirmə, sahibkarlığın dövlət müdafiə sistemi yox dərəcəsində idi. Buna görə də iqtisadi dirçəlişə nail olmaq mümkün deyildi. Radikal və köklü islahatlara ehtiyac var idi. Bu dövrdə Azərbaycan cəmiyyətində vəziyyət qənaətbəxş deyildi. Respublika iqtisadiyyatında sahibkarlığın maddi əsası olan özəlləşdirməni, qiymətlərin liberallaşdırılmasını formalaşdırmaq lazım idi: "Lakin bir sıra obyektiv (rubl məkanında olan digər dövlətlərin bu prosesə başlaması) və subyektiv (respublikanın milli valyutaya keçidin vaxtında hazır olmaması, iqtisadi sərhədlərin təşəkkülündəki ləngimələr) səbəblər ölkəni iqtisadiyyatda dövlət mülkiyyətinin inhisarı şəraitində qiymətlərin sərbəstləşdirilməsi prosesinə başlamaq məcburiyyəti qarşısında qoydu." [8] Göründüyü kimi,1993-cü ilə qədər qeyd edilən proseslər vaxtında gerçəkləşmədi ki, bu da iqtisadiyyatda böhrana, ciddi maddi vəsait itkisinə səbəb oldu. Beləliklə, özəlləşdirmə gec həyata keçirildiyindən ölkədə iqtisadi qeyri-sabitlik yarandı.

Ölkəmizdə sahibkarlıq fəaliyyəti 1992-ci il dekabrın 15-də Azərbaycan Respublikası Milli Məclisini qəbul etdiyi "Sahibkarlıq fəaliyyəti haqqında" qanunla tənzimlənməyə başlandı.

1992-ci il yanvarın 15-də "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikası Qanunu ölkədə beynəlxalq təcrübədən istifadə olunmaqla xarici sərmayəçiləri milli iqtisadiyyata cəlb etmək və onların hüquqlarının müdafiə olunması məqsədi güdürdü.

Buradan aydın olur ki, dövlət sahibkarlara bütün sahələrdə yardım edir, əsası da maliyyə ilə təmin edir. Eyni zamanda dövlət qanununa əsaslanaraq sahibkarlığın fəaliyyətinə nəzarət edir, hətta zərurət yaranarsa onun fəaliyyətinə xitam verir. Sahibkarlığın inkişafının Heydər Əliyev mərhələsini şərti olaraq iki dövrə ayırmaq olar: 1993-cü ildən 1996-cı ilə qədər davam edən birinci mərhələ iqtisadiyyatın bərpa dövrü. Birinci mərhələ Azərbaycan iqtisadiyyatı obyektiv səbəblərdən inkişaf edə bilmirdi. "İkinci mərhələ ümumiyyətlə Heydər Əliyevin rəhbərliyi altında uğurlu siyasətlə xarakterizə olunur. Ölkə rəhbərliyinin həyata keçirmiş olduğu bu kimi işlər nəticəsində ölkə siyasi və makroiqtisadi sabitliyini təmin etmiş və iqtisadi yönümlü tədbirlərin icrası üçün əsas olmuş-

dur. Bu mərhələdə sahibkarlığın inkişafı səviyyəsinin müəyyənləşdirilməsi üçün bir sıra tədbirlərin icra edilməsinə baxmayaraq, bu istiqamətdə əsaslı dönüş 1996-cı ildən etibarən müşayiət edildi. Ölkə ərazisində iqtisadi və sosial islahatların və iqtisadiyyatın inkişafının şaxələndirilməsi modelinin həyati önəm kəsb etməsi və səmərəli olması özünü iqtisadiyyatın bugünkü inkişaf səviyyəsində göstərir" [6, 28].

Ölkənin idarəetmə strukturlarında və iqtisadi sferalarında reallaşdırılan islahatlar iqtisadi sferanın bütün digər sahələrində müşahidə edildiyi kimi sahibkarlıq fəaliyyəti prosesinin inkişaf etdirilməsi üçün də vacib addım hesab edilmişdir. Sahibkarlığın inkişafının təmin edilməsində dövlətin göstərdiyi dəstək və bu istiqamətdə dövlət tənzimləmə mexanizminin yaradılmasında, onun bir qurumda birləşdirilməsində və idarə edilməsində Ulu öndər H. Əliyevin 2001-ci il 30 aprel tarixində verdiyi fərmana əsasən yaradılmış olan İqtisadi İnkişaf Nazirliyi, sahibkarlıq fəaliyyətinin inkişafını iqtisadi inkişafın əsas məqsədinə çevirmişdir. Sahibkarlığın inkişafının stimullaşdırılması məqsədilə bu fəaliyyət sahəsinin tənzimlənməsinin qanunvericilik bazası inkişaf göstəricilərinə görə fərqlənən ölkələrin sərgiləmiş olduğu praktikaya əsasən təkmilləşdirilmişdir. Həmçinin 12 noyabr Azərbaycan Respublikasının Konstitusiyasında da iqtisadiyyatın inkişaf etdirilməsi ilə üzvi surətdə əlaqədar olan bir qisim müddəalar - sahibkarlığa hüquqi təminatın verilməsi, ölkədə rəqabət mexanizminin formalaşdırılması, rəqabətin qorunması əksini tapmışdır.

Dünya və milli təcrübəyə istinad edərək. Ümummilli lider Heydər Əliyevin sahibkarlığın, sərbəst iqtisadiyyatın, bazar iqtisadiyyatının yaradılması və inkişaf etdirilməsini strateji xətt kimi rəhbər tutaraq, dövlət sahibkarlıq siyasətini uğurla həyata keçirdi, sahibkarlıq fəaliyyətinin qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit vasitəsi ilə tənzimlənməsini gerçəkləşdirdi. Bununla da sahibkarlıq fəaliyyətini genişləndirdi. 1995-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının 59-cu maddəsinə görə, "hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər" [1, 20]. Heydər Əliyev tərəfindən 28 dekabr 1999-cu ildə təsdiq edilən "sahibkarlıq fəaliyyəti dəstəklənir; sərbəst bazar iqtisadiyyatının inkişafına şərait" yaradılır ifadəsi Mülki Məcəllədə təsbit olunmuş müddəaların sahibkarlıq fəaliyyətinin tənzimlənməsində başlıca amil oldu [2, 3].

Ulu Öndərin fəaliyyətində, həmçinin sahibkarlıq fəaliyyətinə mane olan bir sıra əngəllərin və yoxlamaların aradan qaldırılması istiqamətində imzalanan fərman və sərəncamları da bu sahədə müstəsna rol oynayıb. Qeyd etmək yerinə düşər ki, Azərbaycanda sahibkarlıq mühitinin formalaşması üçün vacib olan "Sahibkarlıq fəaliyyəti haqqında", "Müəssisələr haqqında", "Səhmdar Cəmiyyətləri haqqında", "Əmək birjası haqqında", "Lizinq kampaniyaları haqqında" qanunlar və bazar iqtisadiyyatının hüquqi mexanizminin qurulmasını təmin edən digər qanunlar da qəbul olundu.

1999-cu il iyulun 4-də Ulu Öndər Heydər Əliyev "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununu imzaladı. Bununla da kiçik və mikro sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli şərait yarandı.

Kiçik sahibkarlığa kömək proqramlarını icra hakimiyyəti orqanları hazırlayır, dövlət büdcəsi və yerli büdcələrlə maliyyələşdirilirdi. Kiçik sahibkarlığa kömək zamanı ciddi tədbirlər görülür, onlara dövlət maliyyə yardımı göstərir, informasiya, hüquqi və iqtisadi məsləhətlər verir, onlar üçün kadr hazırlığını həyata keçirir, onların subyektlərinin xarici iqtisadi fəaliyyətinə köməyi reallaşdırır. Kiçik sahibkarlıq subyektləri bu qanunun pozulmasına görə məsuliyyət daşıyır. Heydər Əliyevin kiçik sahibkarlığın inkişafı zərurətini irəli sürən fərmanı sübut etdi ki, ölkəmizin iqtisadi tərəqqisi iri, orta və kiçik biznesin optimal birliyindən asılıdır. Kiçik sahibkarlığın iqtisadi əhəmiyyəti artdı. Kiçik biznesin daxili ümumi məhsulda, milli gəlirdə, əhalinin əmək məşğulluğunda qabiliyyəti, ixrac məhsullarında, vergilərdə, əsas kapitalda, məhsul növlərində payı artdı. Kiçik sahibkarlığın sosial əhəmiyyəti də yüksəldi, işsizliyin səviyyəsi aşağı düşdü, əhalinin tələbatı ödənildi, xidmətin keyfiyyəti yaxşılaşdı, iqtisadiyyatda müsbət proseslər inkişaf etdi, cəmiyyət demokratikləşdi, Azərbaycan Respublikasının beynəlxalq aləmdə siyasi, iqtisadi çəkisi artdı. Kiçik sahibkarlıq bazar iqtisadiyyatının mobil, yüksək səmərəli tərkib hissəsi kimi inkişaf etdi, ölkə iqtisadiyyatının sağlamlaşdırılması üçün əlverişli şərait yaratdı, struktur yenidənqurmanı fəallaşdırdı, innovasion sektoru formalaşdırdı, dövlət tapşırıqlarını yerinə yetirdi, islahatların dərinləşdirilməsinə kömək etdi.

Azərbaycanda sahibkarlığın inkişafında Ulu Öndər Heydər Əliyev tərəfindən 2002-ci il avqustun 17-də təsdiq olunan “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər) haqqında Qanun mühüm rol oynamışdır. “Proqramın məqsədi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin tənzimlənmə sisteminin təkmilləşdirilməsi, KOS-un insan resursunun inkişafı, texniki, maliyyə köməyi mexanizmlərinin dərinləşdirilməsi, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi və regionlarda sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması əsasında KOS-un inkişafını təmin etmək” idi [7].

Kiçik və orta sahibkarlığa dövlət yardımına yönəlmiş milli layihəni həyata keçirmək üçün Heydər Əliyev ciddi tədbirləri həyata keçirdi. Azərbaycan Respublikasının sahibkarlığa aid qanunvericiliyini təkmilləşdirdi, işgüzar mühiti dəyişdirdi, sahibkarlığın inkişafına maneə olan normativ əngəlləri aradan qaldırdı, sahibkarlıq fəaliyyətinin həyata keçrilməsi şəraitini yaxşılaşdırdı, kiçik və orta sahibkarlıq subyektlərini maliyyə ehtiyatları ilə təmin etdi, sahibkarlığa yardım sistemi yaratdı.

Bununla da kiçik və orta biznes bölməsi iqtisadiyyatın ayrılmaz tərkib hissəsinə çevrildi, ölkənin sabitliyinə və rifahına xidmət etdi. Sahibkarlığın inkişafı yeni iş yerlərinin yaranmasına, rəqabət mühiti və bazar münasibətlərinin inkişafına gətirib çıxartdı. Dövlət tərəfindən sahibkarlara məsləhət, maliyyə, əmlak və informasiya yardımı göstərildi.

Ümummilli lider Heydər Əliyev sahibkarların problemləri ilə müntəzəm maraqlanırdı, onlarla mütəmadi görüşlər keçirir və iş adamlarını narahat edən məsələlərin aradan qaldırılması sahəsində ciddi tədbirlərin görülməsini tapşırırdı. Belə görüşlərə nümunə kimi 2002-ci ilin 25 aprel tarixində yerli və may ayında xarici iş adamları ilə keçirilən görüşdə ulu öndər Heydər Əliyev demişdir: "Aparılan siyasət, islahatlar və bazar iqtisadiyyatı prinsipi ölkədə yeni təbəqənin, sahibkarlar təbəqəsinin yaranmasına gətirib çıxarıbdır. Bu, belə də olmalıydı, çünki bazar iqtisadiyyatının əsasında şəxsi mülkiyyət, özəl mülkiyyət və sahibkarlıq durur. Bizim görəcəyimiz işlər ondan ibarət idi ki, islahatları həyata keçirmək üçün, bazar iqtisadiyyatının tələblərini ödəmək üçün lazım olan qanunlar qəbul etməliydik, qaydalar yaratmalı idik və ölkəmizdə bu qanunların həyata keçirilməsini, onlara riayət olunmasını təmin etməliydik. Biz deyə bilərik ki, bunu da etmişik. İndi Azərbaycanda böyük sahibkarlar təbəqəsi yaranıbdır. Sahibkarlar təbəqəsi Azərbaycan iqtisadiyyatının aparıcı bir hissəsidir" [9]. Dövlətin apardığı iqtisadi islahatlar sahibkarlığın təşəkkülünə gətirib çıxardan xüsusi mülkiyyət və bazar iqtisadiyyatının fopmalaşmasını gerçəkləşdiridi.

**Nəticə**

Beləliklə, 1993-2002-ci illəri əhatə edən sahibkarlığın inkişafının ikinci mərhələsini 2 yerə ayırmaq olar: 1993-1996 – cı illəri əhatə edən 1-ci mərhələ və 1996-2002- ci illəri əhatə edən 2-ci mərhələ. 1-ci mərhələdə iqtisadiyyatın inkişafı üçün zəmin hazırlandı, islahatlar həyata keçirildi . 2-ci mərhələdə sahibkarlıq fəaliyyəti formalaşdırıldı, ölkəyə xarici investisiyalar cəlb edildi. Bu mərhələdə iqtisadiyyatı inkişaf etdirmək üçün sahibkarlıq fəaliyyəti sahəsində ciddi struktur dəyişiklikləri reallaşdırıldı. Göründüyü kimi, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan ölkənin hərtərəfli inkişafının təmin edilməsi məsələləri dövlətin iqtisadi siyasətinin əsasında dayanırdı. Həyata keçirilən islahatların zamanın tələbinə uyğunlaşdırılması, qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olunması və sosial-iqtisadi inkişafın təmin edilməsi üçün həlledici stimul rolu oynamışdır.

**Açar sözlər:** *Sahibkarlıq fəaliyyəti,kiçik sahibkarlığın dəstəklənməsi,dövlət proqramı, kiçik və orta sahibkarlıq subyektləri, kadrların hazırlanması, Heydər Əliyev, dövlət siyasəti,sağlam rəqabət, biznes mühiti.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2018, 92 s.*

*2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2011, 778 s*

*3. Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanunu// Məhərrəmov A.M.Sahibkarlıq: nəzəriyyədən praktikaya. Bakı: Nurlar NPM, 2009, s.270-277*

*4. Məhərrəmov A.M.Sahibkarlıq: nəzəriyyədən praktikaya. Bakı: Nurlar NPM, 2009 360 s.*

*5. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası qanunu// Məhərrəmov A.M.Sahibkarlıq: nəzəriyyədən praktikaya. Bakı: Nurlar NPM, 2009, s.226-237*

*6. Süleymanli A. M. “Müasir dövrdə Azərbaycanda sahibkarliğin inkişafının regional problemləri və onun tənzimlənməsinin xüsusiyyətləri” mövzusunda*

*magistr dissertasiyası ,Вакы, 2016, 126 s.*

*7. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramının (2002-2005-ci illər) təsdiq edilməsi haqqında. 05.12.2020 www.e-qanun.az/alpidata/framework/data/1/f_1546.htm 2/12*

*8. Azərbaycanda sahibkarlığın inkişaf tarixi - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi https://economy.gov.az/article/azda-sahib-inkishaf-tar/21410 1/11 /22.11.20/*

*9. Azərbaycan Prezidenti Heydər Əliyevin yerli sahibkarlarla görüşü//https://azertag.az/print/961657*

**РЕЗЮМЕ**

**Бабаева Сакина Рашид гызы**

**ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В АЗЕРБАЙДЖАНЕ КАК ГАРАНТИЯ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ**

Основная цель статьи - изучить социально-политические аспекты роли государственной политики в области предпринимательства, реализуемой Общенациональным лидером Гейдаром Алиевым, в социально-экономическом развитии страны. Отмечается, что государственная политика Гейдара Алиева в области предпринимательства охватывает 1993-2002 годы нашей независимой страны. Отмечается, что Азербайджанская Республика, получившая независимость в 1991 году, начала строить и развивать свою национальную экономику, и начала формировать это преимущественно со своими характеристиками и критериями.

В заключение, отмечается, что Азербайджан усилил свое экономическое сопротивление угрозе глобального кризиса, успешно осуществил экономическую либерализацию и обеспечил экономическую безопасность страны, сотрудничая с международными организациями. Отмечается, что приватизация, являющаяся материальной основой предпринимательства в экономике республики, подтвердила правильность предпринятых тактических шагов с учетом возможности реальной финансовой стабильности в условиях либерализации цен за счет активизации производственной деятельности и увеличения поставки денежной массы. Благодаря Общенациональному лидеру Гейдару Алиеву либерализация цен обеспечила развитие процесса приватизации и предпринимательства, которые являются стержнем реформ в экономике страны.

**Ключевые слова:** *предпринимательство, поддержка малого бизнеса, государственная программа, субъекты малого и среднего бизнеса, подготовка кадров, Гейдар Алиев, государственная политика, здоровая конкуренция, бизнес-среда.*

**SUMMARY**

**Babaeva Sakina Rashid gizi**

**STATE POLICY OF THE GREAT LEADER HEYDAR ALIYEV IN AZERBAIJAN AS A GUARANTEE OF SOCIO-ECONOMIC DEVELOPMENT**

The main goal of the article is to study the socio-political aspects of the role of state policy in the field of entrepreneurship, implemented by the National Leader Heydar Aliyev, in the socio-economic development of the country. It is noted that the state policy of Heydar Aliyev in the field of entrepreneurship covers 1993-2002 of our independent country. It is noted that the Republic of Azerbaijan, which gained independence in 1991, began to build and develop its national economy, and began to form it mainly with its own characteristics and criteria.

In conclusion, it is noted that Azerbaijan has strengthened its economic resistance to the threat of a global crisis, successfully carried out economic liberalization and ensured the country's economic security, cooperating with international organizations.

It is noted that privatization, which is the material basis of entrepreneurship in the economy of the republic, confirmed the correctness of the tactical steps taken, taking into account the possibility of real financial stability in the context of price liberalization through the intensification of production activities and an increase in the supply of money supply. Thanks to the National Leader Heydar Aliyev, price liberalization ensured the development of the privatization process and entrepreneurship, which are the core of reforms in the country's economy.

**Keywords:** *Entrepreneurship, small business support, state program, small and medium business entities, staff training, Heydar Aliyev, state policy, healthy competition, business environment.*

UOT 338

# QONAQLAMA TURİZMİ VƏ ONUN İNKİŞAFINDA RƏQƏMSAL MARKETİNQ STRATEGİYALARININ ROLU

**TURAL BAYRAMOV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*

*E-mail: bayramov.tural97@mail.com*

## Giriş

Turizm bazarı dünya iqtisadiyyatında əhəmiyyətli dərəcədə böyük paya sahib olmaqla bərabər, eyni zamanda bir çox əlaqəli sahələrin də inkişafına təkan verir və ümumi daxili məhsul (ÜDM), məşğulluq, milli gəlir kimi bir sıra makroiqtisadi göstəricilərin formalaşmasında mühüm rol oynayır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2022-ci ildə ABŞ-ın turizm bazarında xərclənən vəsaitlərin həcmi 1,2 trilyon ABŞ dolları təşkil etmişdir. 2022-ci ildə turizm 15 milyon amerikalı işçini dəstəkləmiş, 8 milyon insanı isə işlə təmin etmişdir. Amerika iqtisadiyyatından nümunə kimi verilən bu göstəricilər turizmin miqyasını və iqtisadiyyata töhfələrini təsəvvür etməyə imkan verir [6]. Turizmin əlaqəli olduğu subyektlər olduqca rəngarəngdir. Buraya turizm firmaları və digər təşkilatlar, onların təqdim etdiyi məhsul və xidmətlər, müxtəlif məqsədli turistlər, o cümlədən istirahət və sağlamlıq, biznes məqsədilə səyahət edən insan qrupları daxildir. Bu müxtəliflik turizmin növlərinin və kateqoriyalarının da genişlənməsinə gətirib çıxarır. Belə ki, insanlar maddi-mənəvi irsə, fərqli mədəniyyətlərə olan marağından, istirahətə, biznes məqsədli səfərlərə tələbatından və sosial-iqtisadi ehtiyaclarından irəli gələrək həm turizm xidmətlərinin istifadəçisinə çevrilir, həm də turizm məhsul və xidmətlərinin yaradılması prosesinə qoşulurlar.

Qonaqlama industriyası turizm bazarının ən əhəmiyyətli hissəsini təşkil edir. Təqdim olunan məlumatlara əsasən turizm bazarında əldə olunan ümumi gəlirlərin təxminən 60% hissəsi məhz qonaqlamanın sahəsində əldə olunan gəlirlərdən ibarətdir. Buna görə də, qonaqlama turizmi böyük investisiyalar cəlb edir və inkişaf edir. Ancaq bu sahənin yüksək mənfəətli olması, onun həm də yüksək rəqabət şəraitində, yeni innovasiya və texnologiyaların tətbiqi şəraitində fəaliyyət göstərməsi ilə xarakterizə olunur [4]. Qonaqlama turizmi dərin tarixi köklərə və ənənələrə sahib olduğu kimi böyük inkişaf perspektivlərinə də malikdir. Qonaqlama turizminin inkişafına təkan verən bir çox səbəblər göstərmək olar. İnsanların istirahət və əyləncə məqsədilə yerli və beynəlxalq turizmə müraciətləri qonaqlama turizminin inkişafında böyük rol oynayır. Bundan əlavə, qlobal iqtisadiyyatda baş verən dərin inteqrasiya, insanların yaşayış və iş məqsədilə digər ərazilərə köçmələri, eləcə də, biznes səfərləri və rəsmi səfərlər, beynəlxalq idman yarışları və digər tədbirlər qonaqlama turizminin inkişafına təkan verən əsas faktorlar sırasındadır.

Müasir qonaqlama turizminin fəaliyyətində və uğurunda onların həyata keçirdiyi müxtəlif marketinq strategiyaları böyük rol oynayır. Ona görə ki, marketinq strategiyaları ilə bağlı müasir yanaşmaların mərkəzi elementini müştəri məmnunluğunun təmin edilməsi təşkil edir. Buna görə də, birinci məqsəd kimi müştəri istəyinin müəyyənləşdirilməsi, istehsalın səmərəli təşkili və satışın artırılmasından ibarətdir. Müasir innovasiya və texnologiyalardan istifadə etməklə firmalar bazar tələbini öyrənə və tətbiq olunan marketinq strategiyalarının nəticələrinə əsasən təhlil apara bilirlər. Bu baxımdan, müasir marketinq strategiyalarının hazırlanmasında sosial elmlərin tədqiqat nəticələrindən geniş şəkildə istifadə olunur. Beləliklə, marketinq strategiyalarına dair yeni yanaşma satış və marketinqin sıx şəkildə əlaqəli olduğunu və eləcə də, müştərilərə məxsus informasiyaların yığılması və təhlilinin vacibliyini qəbul edir. Bundan sonra firmalar seçdikləri potensial müştəri seqmentinə yönəlik marketinq strategiyalarını müəyyənləşdirir və tətbiq edir. Bu zaman müştərilərə fərdi yanaşma da nəzərə alınır [9]. Təcrübə göstərir ki, marketinq strategiyalarının hazırlanmasında müasir yanaşmalardan istifadə olunması səmərəli nəticələrin əldə olunmasına əhəmiyyətli dərəcədə kömək edir.

## Turizm industriyasının qlobal iqtisadiyyata töhfələri

Turizm industriyası dünya iqtisadiyyatına olduqca böyük töhfələr verir. Turizm bir çox ölkələr üçün təkcə gəlir mənbəyi kimi deyil, eyni zamanda, iqtisadi artım və inkişafın aparıcı qüvvələrindən biri kimi çıxış edir. Turizm milli iqtisadiyyatların böyüməsinə və insanların gəlir qazanmasına şərait yaradır və tu-

rizm xidmətlərinin inkişafı sosial rifah səviyyəsinin yüksəldilməsinə gətirib çıxarır [12]. Bundan əlavə, turizm əmək tutumlu sahə olmaqla iş bacarıqların inkişafına, yerli sahibkarlığın inkişafına və məşğulluq imkanlarının genişləndirilməsinə kömək edir. Vurğulamaq lazımdır ki, turizmin geniş əlaqələr sisteminə malik olması və mobillik xüsusiyyətləri onun həm də regional inteqrasiyaya və iqtisadiyyatın inklüziv inkişafına töhfə verməsi ilə nəticələnir. Turizm beynəlxalq səviyyədə xidmətlərin ticarətini və investisiyaları təşfiq etməklə mədəni yaxınlaşmanı və sahibkarlar arasında işgüzar əməkdaşlığı da inkişaf etdirir.

Qonaqlama turizminin iqtisadi təsirləri son illərdə əhəmiyyətli şəkildə artmışdır. 2018-ci ildə bu sektor qlobal ÜDM-in 10,4%-ni təmin etmiş və 319 milyondan çox iş yerini özündə cəmləmişdir ki, bu da ümumi məşğulluq göstəricisinin təxminən 10%-i deməkdir. Beynəlxalq ticarətə gəldikdə isə, turizm qlobal ixracın 6,5%-ni və kommersiya xidmətləri ixracının 27,2%-ni və inkişaf etməkdə olan ölkələrin xidmətlər ixracının 32%-ni təmin etmişdir. Ancaq COVİD-19 pandemiyası 2019-cu ildən başlayaraq digər sektorlara olduğu kimi turizmə də olduqca mənfi təsir göstərmişdir. Bununla əlaqədar, əksər dövlətlər pandemiyanın mənfi təsirlərini azaltmaq üçün müəyyən tənzimləyici və dəstəkləyici tədbirlər həyata keçirmişlər. Araşdırma göstərir ki, ən böyük mənfi təsirlər inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında və o cümlədən, onların turizm sektorunda özünü göstərmişdir [1]. 2019-cu ildə turizmin ÜDM-də çəkisinin artımı 3,5% olmuş, ümumilikdə isə bu sahə qlobal ÜDM-in 10,3%-ni təşkil etmişdir. Bundan əlavə, turizm və qonaqlama industriyası 2019-cu ildə 330 milyon insanın məşğulluğunu təmin etmiş, 2015-2019-cu illərdə açılan yeni iş yerlərinin təxminən 25%-i onun payına düşmüşdür. Buna baxmayaraq, turizm və qonaqlama industriyası pandemiyanın təsirindən ciddi sarsılmış və 2020-ci ildə onun qlobal iqtisadiyyata verdiyi töhfələrdə 60-80% azalma baş vermişdir [13]. Bunu da şübhəsiz ki, pandemiya səbəbindən bütün dünya iqtisadiyyatında tətbiq olunan qapanmalar və nəqliyyatın hərəkətindəki məhdudiyyətlərlə əlaqələndirmək olar.

**Qrafik 1. Qlobal turizmin və qlobal iqtisadiyyatın ÜDM artımı, 2011-2019.**




*Mənbə: Barkas, Honeck və Rubionun araşdırması [1].*

Verilmiş qrafikin təhlili göstərir ki, 2011-2019-cu illəri əhatə edən dövrdə turizm və qonaqlama industriyasında qeydə alınan iqtisadi artım davamlı olaraq qlobal ÜDM-in artım tempini üstələmişdir. Məlum olur ki, turizm ÜDM-nin ən böyük artım göstəricisi 2015-ci ildə qeydə alınmışdır. Birbaşa töhfələrdən əlavə, turizmin iqtisadiyyata dolayı iqtisadi təsirlərini də nəzərə aldıqda onun dünya iqtisadiyyatında əhəmiyyətinin artdığını və ümumi gəlirlərdə payının böyüməsi potensialının mövcudluğunu görürük. Nümunə kimi qeyd etmək olar ki, 2018-ci ildə turistlərin səyahət etdikləri ölkələrdə məhsul və xidmətlərin istehlakına görə etdiyi ödənişlər 7% artmışdır. Turizmdə baş verən ÜDM artımı ümumi iqtisadi aktivliyi yüksəldərək onunla əlaqəli olan daşınmaz əmlak, tikinti, pərakəndə ticarət və digər sektorlara da müsbət təsir edir. Turizm müştərilərlə sıx bağlı olan sahə olmaqla, həm də iqtisadiyyatın inklüziv inkişafına güclü dəstək verməsi ilə seçilir. Ən əhəmiyyətli göstəricilərdən biri ondan ibarətdir ki, mikro, kiçik və orta ölçülü sahibkarlıq subyektlərinin təxminən 80%-i turizm və qonaqlama industriyasına aid edilir. Turizmin gəlirlərinin 78,6%-ı istirahətə xərclənən vəsaitlərdən, 21,4%-i isə biznes xərclərindən formalaşır. Bundan əlavə, gəlirlərin 71,3%-i yerli turizmdən, 28,7%-ı isə beynəlxalq turizmdən əldə olunur.

### Qonaqlama turizminin inkişafına müasir marketinq strategiyalarının təsiri

Marketinqin müasir inkişaf templəri yeni tendensiyalar və konseptual yanaşmalar formalaşdırır. Ən yaxşı marketinq konsepsiyaları seçilmiş brendin əsas hədəf kütləsinə, məhsul müxtəlifliyinə və vizyonuna görə bir-birindən fərqlənir. Müasir marketinq strategiyalarının əsas məqsədlərinə firmanın sahib olduğu müştəri kütləsini qorumaq, əlavə olaraq yeni müştəri

qazanmaq və müəyyən dövr ərzində itirilmiş müştəri kontingentini geri qaytarmaq daxil edilir. Yeni marketinq strategiyalarında əsas diqqət çəkən məsələ "satıla bilən" və ya "tələbat olan" məhsul və xidmətlərin aşkar olunması və istehsal prosesinin ona görə qurulmasıdır [5]. Buradan təhlil əsasında belə nəticə əldə edirik ki, yeni marketinq strategiyalarının əsasını "məhsul-istehsal-satış-marketinq-sosial marketinq" anlayış və mərhələləri arasında əlaqə konsepsiyası təşkil edir. Bu konsepsiyanın mahiyyətini belə izah etmək olar ki, ilk öncə tələbat olan məhsul müəyyən edilir, daha sonra həmin məhsul istehsal edilir, onun marketinqi həyata keçirilməklə satışı reallaşdırılır və sonda marketinq araşdırmaları vasitəsilə əldə olunan nəticələr təhlil olunur. Bütün prosesin həm başlanğıcında, həm gedişində, həm də sonunda marketinq vacib rol oynayır.

Aparılan araşdırmalar göstərir ki, qonaqlama turizminin uğur qazanmasında onların marketinq və qiymət strategiyası əsas elementlərdən biri kimi çıxış edir. Xüsusilə də, rəqəmsal marketinq strategiyasının aparıcı istiqamətlərindən birini müştərilərin cəlb edilməsi məqsədilə onlayn platformalarda qiymət strategiyasının təbliği təşkil edir. Bu strategiya otellərin müştərilərinin və müvafiq olaraq gəlirlərinin artmasına gətirib çıxarır. Ancaq bununla belə, rəqəmsal marketinqin bir aləti kimi onlayn platformalar üzərindən reallaşdırılan bu siyasət qiymətlərin razılaşdırılmasını da tələb edir. Beləliklə də, otel industriyasının marketinq və qiymət strategiyasında qiymət bərabərliyi razılaşmaları (Price Parity Agreements (PPA)) əhəmiyyətli rol oynayır. Bu baxımdan tədqiqatçılar Boik və Corts PPA-ların qonaqlama industriyasında daha yüksək ödənişlərin reallaşmasına, yəni, qiymətlərlə eyni vaxtda satışların da artmasına səbəb olduğu fikrini irəli sürürlər [2]. Johnson isə Book and Corts tərəfindən aparılan tədqiqatın nəticələrinə əlavələr edərək göstərir ki, qiymət razılaşmasının həyata keçirilməsi platformalar arasında rəqabəti azaldır və onlar ödənişləri azaltmağa can atmırlar [7]. Müvafiq mövzuda araşdırma aparan Larrieu otellər ilə onlayn platformalar arasında tarazlığın mümkünlüyünü əsaslandırmışdır. Onun yanaşmasına görə, PPA-lar istehlakçılar üçün faydasız olsa da, razılaşmanın olduğu təqdirdə otellər üçün gəlirlərin artırılması baxımından çox sərfəlidir [10]. Bu istiqamətdə booking.com və kayak.com kimi onlayn platformalar aparıcı rol oynayır. Empirik araşdırma zamanı, 10 aprel 2014-cü il tarixindən 2017-ci ilin 1 iyul tarixinədək Kayak.com saytında Parisdə fəaliyyət göstərən 863 otel haqqında məlumat toplanılmış və onların 25 platforma üzərindən iki nəfərlik otaqlar üçün bir gecəlik təqdim etdikləri 6.097.632-dən çox təklif cəmlənərək təhlillər aparılmışdır.

**Qrafik 2. Parisdə otellərin gecəlik satdığı otaqların sayı.**




*Mənbə: Larrieu, T. 2019. [11].*

Təhlil zamanı ilk öncə onu qeyd etmək lazımdır ki, tədqiqata cəlb olunan qonaqlama subyektlərinin və təkliflərin çoxluğu otellərin geniş şəkildə onlayn platformalara və rəqəmsal marketinq strategiyalarına müraciət etmələrinin göstəricisidir. Beləliklə, verilmiş qrafik Paris ərazisindəki bütün otellər tərəfindən bir gecə üçün satılan otaqların ümumi sayını göstərir. Maraqlı məqamlardan biri ondan ibarətdir ki, 2015-ci ilin noyabrında Parisdə baş vermiş hücumlardan sonra satılan nömrələrin sayının kəskin şəkildə aşağı düşdüyünü görürük. Bundan əlavə, müştərilər tərəfindən məşğul edilən otaqların sayı sonrakı aylarda da azalır və 2016-cı ildə nisbətən artım nümayiş etdirir. Ümumilikdə isə, verilmiş statistika dəyişkən xarakterə malikdir. Bununla belə, otellərin qiymət bərabərliyi razılaşmasına qoşulması və rəqəmsal marketinq alətlərindən istifadə etməsi onların satışlarının və müvafiq olaraq gəlirlərinin artmasına gətirib çıxarır.

Strauss and Frost rəqəmsal marketinqi fərdi və təşkilati hədəfləri reallaşdırmaq məqsədilə məhsul və xidmətlərin, eləcə də, ideyaların qiymətləndirilməsi üçün elektron məlumatlardan və tətbiqlərdən istifadəni nəzərdə tutan konsepsiya kimi təqdim edir [15]. Dünya Turizm İnstitutunun yanaşmasına görə, rəqəmsal marketinqin başlıca məqsədinə internet və digər İKT vasitələrindən istifadə etməklə müvafiq bazarlarda sərfəli biznes yolları tapmaq və maraqlı

tərəflərlə əlaqələri genişləndirməkdən ibarətdir [16]. Bu tədqiqatçılar qonaqlama turizmində rəqəmsal marketinqin rolunu təhlil edərkən əsas amilləri qeyd etsələr də, informasiya resurslarından bəhs etməmişlər ki, bu da tədqiqatın çatışmayan tərəfi kimi qəbul oluna bilər. Ona görə ki, istənilən marketinq strategiyası tətbiq olunarkən informasiya resurslarından istifadə olunur. Xüsusilə də, rəqəmsal marketinq zamanı əsas proseslər informasiya resursları vasitəsilə həyata keçirilir.

Hazırda rəqəmsal marketinq strategiyasının tətbiqini zəruri edən müxtəlif şərtlər vardır. Bu baxımdan ilkin şərtlər kimi otelin aydın müəyyən olunmuş hədəflərə və marketinq strategiyasına malik olmasını və həmçinin firmanın marketinq funksiyaları yerinə yetirmək üçün müvafiq struktur bölməyə və funksional imkanlara malik olmasını göstərmək olar.

Turizm bazarında və ya otel şəbəkələrində rəqəmsal marketinqin tətbiqi məsələsi gündəmə gəldikdə onun reallaşdırılması üçün bir sıra faktorlar və resurslar müzakirə və təhlil olunur. Bunlardan birincisi kimi şəxsi bacarıqlar, yəni mütəxəssis potensialı diqqətə alınır. Daha sonra təşkilatın müvafiq resurslara sahib olması, korporativ mədəniyyət faktoru, təşkilatın strukturu və həcmi, həmçinin də rəqəmsal marketinqin qəbul olunması üçün lazım olunan xərclər, fəaliyyət göstərdikləri ölkənin infrastrukturu və ümumilikdə bazar konyukturu və hədəflənən bazar seqmenti təhlil olunur [3]. Qeyd olunan bu faktorlar, otellərdə marketinq strategiyalarının tətbiqi üçün zəruri olan resursları göstərir. Ancaq ən mühüm bir faktor var ki, o çox hallarda diqqətdən kənarda qalır və araşdırmalarda da geniş təhlil olunmur. Bu amil rəqəmsal marketinq strategiyasının və digər bütün innovasiya və yeniliklərin tətbiqinə cavabdeh olan sahibkardır. Məhz sahibkarın bütün bu tətbiqlərə və görülən işlərə yanaşması son nəticələrə həlledici təsir edir. Bu baxımdan qonaqlama turizmində marketinq strategiyasının tətbiq olunmasına müdirin müsbət yanaşması olmadığı halda lazımi resursların mövcud olmasının o qədər də önəmi yoxdur. Ancaq otel rəhbəri və ya onu idarə edən sahibkar geniş viziyona malik olduqda və rəqəmsal marketinq strategiyası həyata keçirmək barədə niyyəti olduqda resurslar baxımından müəyyən çatışmazlıqlar olsa belə qarşıya qoyulan məqsədi reallaşdıra bilər. Məsələn maliyyə resursları baxımından problem varsa, əlavə maliyyə qaynaqları tapa bilər. Eləcə də, insan resursları potensialı nəzərdə tutulan planları həyata keçirməyə imkan vermirsə yeni mütəxəssislər işə götürə bilər. Buradan belə qənaətə gəlirik ki, rəqəmsal marketinq strategiyasının tətbiqi üçün ən vacib amil sahibkarın və ya otel rəhbərinin bu barədə niyyətinin və müvafiq sahədə geniş baxışının olmasıdır.

Araşdırma onu deməyə əsas verir ki, son onillikdə otellərdə rəqəmsal marketinq strategiyalarının tətbiqi və xüsusilə də İKT-dən istifadə baxımından müsbət yanaşma mövcuddur və bu təcrübə getdikcə daha çox otelləri əhatə edir. Otellərdə rəqəmsal marketinq strategiyalarının tətbiqi rəqabət qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərir. Bunu tədqiqatçı Pitoskayanın müvafiq araşdırma nəticələri də sübut edir. Müəllif Yunanıstan turizm industriyasının üzərində apardığı empirik tədqiqatla bu nəticəyə gəlmişdir. Nəticələrə görə, rəqəmsal marketinq otelçilik sahəsində fəaliyyət göstərən sahibkarların gəlirlərini artırır və sosial rifah səviyyəsinin yüksəlməsinə gətirib çıxarır [14]. Bununla yanaşı, bütün otellərdə rəqəmsal marketinqin tətbiqi nəticəsi eyni deyil. Xidmət səviyyəsi yüksək və yerləşmə imkanları rahat olan otellərdə yeni strategiyaların tətbiqi performansın daha çox yaxşılaşmasına gətirib çıxarır.

Bu sahədə aparılan çoxsaylı araşdırma nəticələri onu göstərir ki, müasir otellər yeni reallıqlara uyğunlaşmaq üçün rəqəmsal sistemlərdən geniş istifadə etməli və müştərilərin surtələ dəyişən tələblərinə cavab vermək üçün rəqəmsal transformasiyaya üstünlük verməlidirlər. Bu zaman, ənənəvi rəqiblərə məğlub olmamaq, həm də, qarşıya çıxan yeni təhdidlərin öhdəsindən gəlmək üçün onlar müştəri mərkəzli marketinq strategiyalarının tətbiqini həyata keçirməlidirlər [8]. Hazırkı şəraitdə, müştəri əsaslı yanaşma və marketinq strategiyalarının tətbiq edilməsi də əsasən rəqəmsal platformalar üzərindən həyata keçirilə bilər. Ona görə ki, insanlar və xüsusilə də qonaqlama industriyasının müştəriləri olan şəxslər yeni texnologiya və innovasiyalara daha açıq fikirlidirlər. Bu baxımdan onlar səyahət etdikləri müxtəlif coğrafiya və ölkələr haqqında məsafədən məlumatlar almağa və seçimlər edərkən texnologiyalardan geniş istifadə etməyə daha çox meyillidirlər. Həmin müştərilər onlara göstərilən xidmət səviyyəsi haqqında öncədən xəbərdar olmağa və internet resurslarından istifadə etməklə otel brendlərinin müştəri məmnuniyyətinə necə üstünlük verməsi haqqında mövcud təcrübələri araşdırmağa can atırlar. Digər tətəfdən baxdıqda isə, ümumiyyətlə bütün cəmiyyət və ən əsası gənc nəsil rəqəmsal tətbiqlərə böyük üstünlük verir.

**Nəticə**

Turizm bazarı dünya iqtisadiyyatında əhəmiyyətli dərəcədə böyük paya sahib olmaqla bir çox sahələri əlaqələndirir və ümumi daxili məhsul, məşğulluq, milli gəlir kimi bir sıra makroiqtisadi göstəricilərin formalaşmasında mühüm rol oynayır. Turizm ÜDM-nin stabil artım templəri və qlobal ÜDM-in müvafiq göstəricisini üstələməsi bu sahənin dünya iqtisadiyyatına mühüm töhfələr verdiyini göstərir. Qonaqlama turizmi isə ümumi turizm bazarının təxminən 60%-ni əhatə etməklə iqtisadi artımın təmin edilməsində mühüm rol oynayır. Bu baxımdan, qonaqlama turizminin inkişafına bir sıra faktorlar, xüsusilə də, rəqəmsal marketinq strategiyaları əhəmiyyətli təsir edir. Araşdırma göstərir ki, rəqəmsal marketinq strategiyaları qonaqlama turizmi üçün olduqca səmərəli olsa da, onların tətbiqi üçün ən vacib amil sahibkarın müvafiq niyyətinin və bu sahədə geniş baxışının olmasıdır.

Digər bir nəticə ondan ibarətdir ki, yeni marketinq strategiyalarının əsasını "məhsul-istehsal-satış-marketinq-sosial marketinq" anlayış və mərhələləri arasında əlaqə konsepsiyası təşkil edir. Bu konsepsiyanın mahiyyətini belə izah etmək olar ki, ilk öncə tələbat olan məhsul müəyyən edilir, daha sonra həmin məhsul istehsal edilir, onun marketinqi həyata keçirilməklə satışı reallaşdırılır və sonda marketinq araşdırmaları vasitəsilə əldə olunan nəticələr təhlil olunur. Bütün prosesin həm başlanğıcında, həm gedişində, həm də sonunda marketinq vacib rol oynayır.

**REFERENCES**


*1. Barkas, P., Honeck, D., & Rubio, E. (2020). International trade in travel and tourism services: Economic impact and policy responses during the COVID-19 crisis (No. ERSD-2020-11). WTO Staff Working Paper.*

*2. Boik, A. and Corts, K., (2016), "The Effects of Platform Most-Favored-Nation Clauses on Competition and Entry", Journal of Law and Economics, 59, issue 1, p. 105 – 134.*

*3. El-Gohary, H. (2012). "Factors affecting E-Marketing adoption and implementation in tourism firms: An empirical investigation of Egyptian small tourism organisations", Tourism Management, 33(5), p. 1256–1269.*

*4. http://turizmblogum.blogspot.com/2018/02/qonaqlamann-tarixi-kecmisi.html?spref=fb*

*5. https://www.projectcubicle.com/modern-marketing-approach/*

*6. https://www.ustravel.org/sites/default/files/2023-04/answersheet_2023_final.pdf*

*7. Johnson, (2017), "The Agency Model and MFN Clauses", The Review of Economic Studies, Volume 84, Issue 3, July 2017, Pages 1151–1185.*

*8. Lam, C. and Law, R. (2019), "Readiness of upscale and luxury-branded hotels for digital transformation", International Journal of Hospitality Management, Vol. 79, pp. 60–69.*

*9. Lamb, C. W., Hair, J. F. and McDaniel, C. (2012). Marketing. Cengage Learning.*

*10. Larrieu, T. (2019), "Most Favoured Nation Clauses on the Online Booking Market".*

*11. Larrieu, T. (2019). Pricing strategies in online market places and price parity agreements: evidence from the hotel industry.*

*12. Million, E. U. R. (2020). OECD Tourism Trends and Policies 2020.*

*13. OECD. (2020). Tourism policy responses to the coronavirus (COVID-19).*

*14. Pitoska, E. (2013) "E-tourism: The use of internet and information and communication technologies in tourism: The case of hotel units in peripheral areas", Tourism in Southern and Eastern Europe, p. 335–344.*

*15. Straus, J., Frost, R. (2001) Elecrtonic marketing, NJ: Prentice Hall.*

*16. World Tourism Institution, European Travel Commision (2008). Handbook on E-marketing for Tourism Destinations, World Tourism Institution, Madrid.*



**XÜLASƏ**

Müasir turizm bazarı qlobal iqtisadiyyatın əsas aparıcı qüvvələrindən biri kimi çıxış edir. Geniş prizmadan baxdıqda, turizm və qonaqlama industriyası əsas makroiqtisadi göstəricilərin formalaşmasına və iqtisadi artımın təmin edilməsinə böyük töhfələr verir. Buraya ümumi daxili məhsul istehsalı, məşğulluğun təmin edilməsi və milli gəlir kimi bir sıra makroiqtisadi göstəriciləri də aid edə bilərik. Bu industriyanın ən mühüm xüsusiyyətlərindən birini isə yerli inkişafa və sosial rifahın yüksəldilməsinə müsbət təsirləri təşkil edir. Buna görə də, turizm bazarının əsas hissəsini özündə ehtiva edən qonaqlama turizminin və onun müasir inkişaf faktorlarının araşdırılması xüsusi elmi aktuallıq kəsb edir. Bu

məqsədlə, məqalədə turizm və qonaqlama sahəsinin qlobal iqtisadiyyata töhfələri, qonaqlama turizminin müasir vəziyyəti və onların istifadə etdiyi rəqəmsal marketinq strategiyalarının biznesin uğuruna təsirləri tədqiq olunmuşdur.

Araşdırma zamanı analiz, sintez və eləcə də, müqayisə və ümumiləşdirmə kimi ümumelmi tədqiqat metodlarından istifadə edilmiş, həmçinin müvafiq istiqamətdə aparılmış empirik tədqiqat nəticələrinə və statistik göstəricilərə müraciət olunmuşdur. Araşdırma göstərir ki, rəqəmsal marketinq strategiyaları qonaqlama turizmi üçün olduqca səmərəli olsa da, onların tətbiqi üçün ən vacib amil sahibkarın müvafiq niyyətinin və bu sahədə geniş baxışının olmasıdır.

**Açar sözlər:** *Turizm, qonaqlama, iqtisadi artım, məşğulluq, marketinq strategiyaları.*

**T. Bayramov**

**Hospitality tourism and the role of digital marketing strategies in its development**

**ABSTRACT**

The modern tourism market acts as one of the main drivers of the global economy. From a broad perspective, the tourism and hospitality industry contributes greatly to the formation of key macroeconomic indicators and economic growth. We can include a number of macroeconomic indicators such as gross domestic product production, employment provision and national income. One of the most important features of this industry is its positive effects on local development and improvement of social welfare. Therefore, the study of accommodation tourism, which includes the main part of the tourism market, and its modern development factors is of special scientific relevance. For this purpose, the article examines the contributions of the tourism and hospitality industry to the global economy, the current state of hospitality tourism and the effects of the digital marketing strategies they use on business success. During the research, general research methods such as analysis, synthesis, and comparison and generalization were used, as well as empirical research results and statistical indicators conducted in the relevant direction were applied. Research shows that although digital marketing strategies are very effective for hospitality tourism, the most important factor for their implementation is the appropriate intention and broad vision of the entrepreneur in this field.

**Key words:** *Tourism, hospitality, economic growth, employment, marketing strategies.*

**Т. Байрамов**

**Гостиничный туризм и роль цифровых маркетинговых стратегий в его развитии**

**РЕЗЮМЕ**

Современный туристический рынок выступает одним из основных драйверов мировой экономики. Если смотреть с широкой точки зрения, она в значительной степени способствует формированию основных макроэкономических производств и экономическому росту индустрии гостеприимства. Также могут быть включены макроэкономические показатели, такие как производство валового внутреннего продукта, обеспечение занятости и национальный доход. Приобретение одной из наиболее важных особенностей этой отрасли способствует развитию на местах и повышению общественного благосостояния. Поэтому изучение гостиничного туризма, включающего в себя основную часть туристского рынка, и современных факторов его развития имеет особую научную актуальность. С этой целью в статье рассматривается вклад сектора туризма и гостеприимства в мировую экономику, текущее состояние гостиничного туризма и влияние стратегий цифрового маркетинга, которые они используют, на успех в бизнесе. В ходе исследования использовались общенаучные методы, такие как анализ, синтез, сравнение и обобщение, а также применялись результаты эмпирических исследований и статистические показатели, проведенные в соответствующем направлении. Исследования показывают, что, хотя стратегии цифрового маркетинга очень эффективны для гостиничного туризма, наиболее важным фактором для их реализации является соответствующее намерение и широкое видение предпринимателя в этой области.

**Ключевые слова:** *Туризм, гостеприимство, экономический рост, занятость, маркетинговые стратегии.*

UOT 338.48

# HADİSƏ TURİZMİNİN MƏFHUMU VƏ NƏZƏRİ ASPEKTLƏRİ

**AYTƏKİN AXUNDOVA**
*Bakı Dövlət Universiteti,*
*iqtisad üzrə fəlsəfə doktoru*

*E-mail: aytekin.akhundova@mail.ru*

Hadisə turizmi – bu turizm industriyasında inkişaf və dinamik istiqamət olub, turizm ölkələrində daha cazibədar və perspektivli seqment hesab edilir. Bu elmdə yeni axın xaricdə 80-ci illərdə başlamış və əvvəllər turizmin digər elementləri kimi işgüzar, idman və qastronomik növləri kimi baxılmışdır. Lakin, sürətli və inkişaf edərək və unikal əlamətləri özündə birləşdirməklə, hadisə turizmi muxtar sahəyə çevrilməklə dünyanın müxtəlif ölkələrinin turistlərinin diqqətini özünə cəlb etməyə imkan vermişdir.

Hadisə turizmi, turizm industriyasının spesifik sektoru olmaqla, turistləri müxtəlif tədbirlərə cəlb etməklə, müxtəlif yerlərdə və müəyyən zamanlarda, kütləvi tədbirlərin və hadisələrin keçirilməsinə istiqamətləndirilmişdir. Bu hadisələr müxtəlif ola bilər və özlərinə mədəni festifalları, idman yarışlarını, işgüzar konfransları, sərgiləri, bayramları, musiqi və tədbir görüşlərini həmçinin digər tədbirləri, yerli əhalini, həmçinin bütün dünya turistlərini cəlb edən tədbirləri əhatə edir.

XX əsrin ikinci yarısında, hadisə turizmi özünün çiçəklənmə dövrünü yaşadı, hazırda o, bütün dünyada aktiv inkişaf edir və dünya bazarında istehlak xidmətlərini genişləndirir. Beynəlxalq Turizm Təşkilatının (UNWTO) göstəricilərinə əsasən, hadisə tədbirləri turist industriasıyasında əhəmiyyətli yer tutur, dünyanın müxtəlif regionlarında turizmin dinamik inkişafına səbəb olur.

Hazırda dünyanın müxtəlif ölkələri arasında turistləri cəlb etmək üçün keyfiyyətli xidmət və unikal eksklüziv hadisələr təqdim etməklə kəskin rəqabət gedir. Turistlər öz gəzintilərindən maksimum ləzzət almağa çalışırlar və burada hadisə turizmin potensialı perspektivli turizmin üzərinə düşür. Hadisə turizmi xarici turistləri cəlb etmək və iqtisadiyyatı inkişaf etdirmək üçün yeni imkanlar yaradır. Müxtəlif miqyaslı hadisələr həyata keçirməklə (mədəni festivallar, idman yarışları, işgüzar konfranslar və ya digər hadisələr) səyahətçilərdə maraq doğurur.

Hadisə turizmi - səyahət industriyasında nisbətən cavan və dinamik inkişaf edən istiqamətdir. Son onillər ərzində unikal turlar – görüntülü tədbirlər və mədəni hadisələr daha çox səyahətçiləri cəlb etmişdir. Bu tip turizm ölkənin ənənəvi istirahətindən, gözəlliyindən ləzzət almaq deyil, eyni zamanda bayramların unikal atmosferindən, festivalların, idman hadisələrinin, işgüzar konfransların təsirindən azad olmağa imkan verir. Hadisə turistlər üçün cəlbedici maqnit nöqtəsinə çevrilir, onların səyahət təcrübəsini zənginləşdirir və unudulmaz təəssüratlar yaradır. Hadisə turizminin əsas xüsusiyyəti parlaq unikal məqamların çoxluğudur. Bu, perspektivli və dinamik inkişaf edən turizm növüdür [1, s. 62-63].

Beynəlxalq praktikada "hadisə turizmi" termini müəyyən etmək üçün "event tourism" (ingilis dilində - hadisə və ya xüsusi tədbirlər məvhumundan istifadə edilir. İlk vaxtlar "hadisə turizmi" terminini 1987-ci ildə Yeni Zelandiyanın turizm departamenti və Yeni Zelandiya ictimaiyyəti istifadə etmişdir, bununla belə hadisələr və turizm arasında əlaqə yaradılır. Xarici ədəbiyyatda bu termin destinasiya, sahibkarlıq, həmçinin idarəetmə orqanlarının əsas fəaliyyəti kimi işlənilir, onlar daha çox turist axınını artırmağı arzu edirlər. [2, c. 8-14].

Hadisə turizmi məfhumunu təhlil edərkən, tədqiqatçılar müxtəlif nəticələrə və müəyyənedicilərə gəlirlər. O.B.Alekseyeva hadisə turizmi dedikdə, "turist fəaliyyəti" turistləri müxtəlif formalı mədəni və idman həyatına cəlb etmək başa düşülür ki, bu da turizm infrastrukturunun inkişafına səbəb olur, əhalinin müxtəlif təbəqələrinin cəmiyyətə inteqrasiyasına və distansiyanın müsbət imicinin formalaşmasına səbəb olur" [3, c. 3].

C. Danskinin rəyincə, "hadisə turizmi – turizmin elə bir növüdür ki, turist səfərləri hər hansı müəyyən hadisə və tədbirlərə həsr olunubdur. Turist gəzintisi üçün müxtəlif idman, mədəniyyət, biznes, dini və siyasi həyat bəhanə ola bilər [4, c. 12]. C. Dementiyev təsdiq edir ki, "hadisə turizmi hər hansı tələbatı ödəmək üçün tədbirlərə qarışmaqdır". Ya. S. Naruta hadisə turizmini bir çox rus və xarici turistləri cəlb edən müxtəlif sosial hadisələr, nadir təbiət hadisələri ilə əlaqəli turizm fəaliyyəti kimi şərh edir [6, s. 1159].

E. A. Lakomov yazır ki, hadisə turizmi müxtəlif əlamətdar sosial hadisələrlə, habelə nadir təbiət hadisələri ilə bağlı olan turizm fəaliyyətidir, öz unikallığı, ekzotikliyi, orijinallığı ilə müxtəlif ölkələrdən çoxlu sayda turisti cəlb edir [7, s. 64]. E.A. Beletskaya hadisə turizmi anlayışına əsasən, cəmiyyətin həyatında baş verən hadisə ilə bağlı müəyyən vaxtda təyinat yerinə getməyə yönəlmiş mədəni turizmin əhəmiyyətli bir hissəsini nəzərdə tutur [8, s. 3]. N.S. Bulqanianın fikrincə, hadisə turizmi, turist səfərlərinin bəzi konkret hadisələrlərilə üst-üstə düşdüyü turizm istiqamətidir [9].

Beləliklə, təhlil əsasında belə nəticəyə gəlmək olar ki, hadisə turizmi turizm sənayesində müəyyən yerlərdə və müəyyən vaxtlarda baş verən müxtəlif tədbirlərə turistlərin cəlb edilməsi ilə bağlı mühüm və perspektivli seqmentdir.

Tədbir turizmi regional turizmin inkişafı üçün alternativ variantdır, burada diqqət istiqamətlərin dinamik inkişafını, rəqabət və marketinq strategiyasını stimullaşdıran müxtəlif tədbirlərin keçirilməsinə yönəlib. Bu cür tədbirlər bütün turizm sənayesinə müsbət təsir göstərir, yerli adət və ənənələrin canlanmasına töhfə verir. İldən-ilə hadisə turizminin qlobal turizm sistemində payı təxminən 1,5% artır.

Bu turizm növünün mahiyyəti müəyyən vaxt və məkanda baş verən konkret hadisələrə həsr olunmuş xüsusi təşkil olunmuş tədbirlərdə iştirak etmək imkanıdır. Hadisə turizmi aktiv istirahət fəaliyyətidir və yüksək gəlirli turistlərin diqqətini cəlb edir. Bu turizm növü daim inkişaf edir və ziyarətçiləri cəlb etmək üçün yeni maraqlı turlar təklif edir.

Tədbirlər üzrə turist axınının yaş tərkibinin strukturu da xeyli dəyişmişdir. İndi 30 yaşadək səyahətçilərin payı hadisə turist axınının 40%-dən çoxunu təşkil edir. Ekspertlər bunu bir çox dövlətlərin, ilk növbədə Avropanın iqtisadi sabitliyi ilə əlaqələndirirlər. Bir qayda olaraq, müəyyən bir ölkədə iqtisadi sabitlik nə qədər yüksək olarsa, bu ölkənin gənc sakinlərinin digər ölkələrdə keçirilən tədbirlərə getmək imkanı və arzusu bir o qədər çox olur [10, s. 143].

Kommersiya biznesi, hadisə turizmi xaricdə geniş inkişaf etdirilmişdir. Bu sahədə aparıcı ölkələri, ilk növbədə, inkişaf etmiş ölkələr adlandırmaq olar: ABŞ, İtaliya, Fransa, Cənubi Koreya, Böyük Britaniya. Bununla belə, bəzi ekspertlər qeyd edirlər ki, Avstraliya hadisə turizminin inkişafı baxımından birinci yeri tutur, burada turizmin təyinat üçün faydalarını maksimum dərəcədə artıra bilən hadisə tədbirlərinin dəqiq strateji planlaşdırılması sistemi mövcuddur. Bu gün dünyada hadisə iqtisadiyyatı üzrə ixtisaslaşmış onlarla şəhər var [11, s. 38].

Ümumiyyətlə, E. G. Leonidova görə hadisə turizminin xarakterik xüsusiyyətləri bunlardır (şək. 1), [12, s. 7].

**Şəkil 1. Hadisə turizminin xarakterik xüsusiyyətləri**




Üstəlik yüksək gəlirlilik və sürətli özünü təmin etmək. Bu cür tədbirlərin müxtəlifliyindən asılı olmayaraq, hadisə turizmi yalnız ərazinin iqtisadi inkişafına töhfə verən və keçirildiyi təyinat üçün resurslar yaradanlara aiddir. Hesab edirəm ki, müasir şəraitdə tədbir turizmi turizm sənayesinin təkmilləşdirilməsi, büdcənin maliyyələşdirilməsinin şaxələndirilməsi və regionların imicinin təşviqi üçün perspektivli üsullardan biridir ki, bu da əhalinin məşğulluğunun və rifah səviyyəsinin yüksəlməsinə xidmət edir.

Tədbir turizmi isə onun əsaslarını təşkil edən və inkişafına töhfə verən bir neçə əsas nəzəri aspektlərə əsaslanır (şək. 2), (müəllif tərəfindən işlənib hazırlanmışdır):

**Şəkil 2. Hadisə turizminin əsas nəzəri aspektləri**




a) İqtisadi əhəmiyyəti. Tədbir turizmi bir çox regionlar və ölkələr üçün mühüm iqtisadi göstəricidir.

Bu, turistləri cəlb edir, iş yerləri yaradır, yerli infrastrukturun inkişafına təkan verir, gəlir və vergi daxilolmalarını artırır.

b) Mədəni zənginləşdirmə. Mədəni tədbirlərin təşkili ev sahibi olan ölkənin mədəniyyəti və adət-ənənələri ilə maraqlanan turistləri cəlb edir. Belə tədbirlər milli mədəni irsin qorunub saxlanmasına və təbliğinə, mədəniyyətlərarası mübadilənin təşviqinə imkan verir.

c) Marketinq və təşviqat. Hadisə turizmi hədəf auditoriyanın diqqətini cəlb etmək üçün effektiv marketinq strategiyası tələb edir. Tədbir tədbirlərinin təşviqi aydın, məqsədyönlü və potensial turistlərin maraqlarına yönəldilməlidir.

d) İdarəetmə və planlaşdırma. Tədbir turizminin uğurlu təşkili səriştəli idarəetmə və planlaşdırma tələb edir. Bütün mərhələlərin - konsepsiyanın seçilməsindən tutmuş tədbirin həyata keçirilməsinə qədər səmərəli əlaqələndirilməsi uğurlu nəticənin təmin edilməsində mühüm amildir.

e) Davamlılıq və sosial məsuliyyət. Tədbir turizmi davamlılıq və sosial məsuliyyət məsələlərini nəzərə almalıdır. Fəaliyyətlər ətraf mühitin, mədəni və sosial dəyərlərin qorunmasını nəzərə almalı, həmçinin yerli əhalinin rifahına töhfə verməlidir.

f) Yerli icmanın cəlb edilməsi. Yerli ictimaiyyətlə əməkdaşlıq tədbir turizminin uğurlu təşkili üçün əsas amildir. Yerli əhalinin cəlb edilməsi turistləri cəlb edəcək orijinal və maraqlı tədbirlər yaratmağa imkan verir.

Ümumiyyətlə, hadisə turizminin konsepsiyası və nəzəri aspektləri geniş və maraqlı tədqiqat mövzusudur. Səyahətçilər arasında vacib və populyar bir istiqamətdir və iqtisadi cəhətdən turizm gəlirlərinin cəlb edilməsi, əlaqəli sənaye sahələrinin inkişaf etdirilməsi, infrastrukturun yaxşılaşdırılması, investisiyaların cəlb edilməsi və mədəni irsin qorunması ilə regionların inkişafının stimullaşdırılmasında mühüm rol oynayır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Babkin A.V. Turizmin xüsusi növləri: dərslik. - M.: Sovet idmanı, 2015. - 252 s.*

*2. Boorstin D. The Image: A Guide to Pseudo-Events in America / D. Boorstin // Harper, New York, 1994 - 452 p.*

*3. Alekseyeva O.V. Hadisə turizmi regionun sosial-iqtisadi inkişafı amili kimi: müəllif. dis. ... iqtisad. elmlər. namizəd - M., 2012. - 24 s.*

*4. Donskix S.V. Hadisə turizmi: dərslik.-metod. dərslik. / S. V. Donskix. Minsk: RIPO, 2014. - 112 s.*

*5. Dementiev S., Xviler Ya. Hadisə turizmi // Turizm biznesi, 2007. - No 1. səh. 77-82.*

*6 Naruta Ya.S., Qarina T.A. Hadisə turizmi: anlayışlar, növləri, təsnifatı // Beynəlxalq Tətbiqi və Fundamental Tədqiqatlar Jurnalı. - 2016. - No 11. - S. 1158-1162.*

*7. Lakomov E.A. Tədbir turizminin növlərinin təsnifatı // Universitetin bülleteni. - 2013. - No 2. - S. 64-69.*

*8. Beletskaya E.A. Rusiyada və xarici ölkələrdə hadisə turizminin təşkilinin xüsusiyyətləri: müasir mərhələlər //Elmi nəticə. "Biznes və serviz texnologiyaları" seriyası. - 2016. - V. 2, No 2. - S. 3-6.*

*9. Bulganina S.V., Lopatkina N.S. Hadisə turizmi: tarix və inkişaf perspektivləri // Naukovedenie. - 2015. - V.7, No 3(28). - S. 6.*

*10. Qrushin M. Yu. Rusiyada hadisə turizminin inkişafının təhlili, onun funksiyaları, tədbir fəaliyyətinin səmərəliliyinin artırılması yolları // MIR (Modernizasiya. İnnovasiya. İnkişaf). 2016. V. 7. No 2. S. 139-145).*

*11. Klimova T. B. Vişnevskaya E. V. Rusiya Federasiyasında və xaricdə tədbir turizminin inkişafı təcrübəsi. "BİZNES VƏ XİDMƏT TEXNOLOGİYASI SERİSİ" elmi-praktik jurnalı. Jurnal "Elmi nəticə. Biznes və Xidmət Texnologiyaları. 2014, səh. 35 -41*

*12. Leonidova E.G. Hadisə turizmi Rusiya turizm bazarının yeni istiqaməti kimi // Universum: İqtisadiyyat və Hüquq. 2015. No 7 (18). səh. 4 – 11*

## XÜLASƏ:

Hadisə turizmi müasir turizmin gənc və perspektivli sahələrindən hesab edilir. Daha dəqiq desək, turizm sektorunda hadisə turizmi mühüm əhəmiyyət daşıyır, belə ki, onlar distansiyanın inkişafına onun rəqabətqabiliyyətliliyinə və marketinq strategiyasına əhəmiyyətli təsir edirlər. Beynəlxalq Turizm Təşkilatının (UNWTO) göstəricilərinə əsasən hadisə tədbirləri turizmi dünyanın müxtəlif regionlarında və turizmin inkişafının əsas istiqamətlərindən hesab edilir. Məqalədə, hadisə turizminin aparıcı, nəzəri aspektləri və hadisə turizminin iqtisadi əhəmiyyəti tədqiq edilir. Hadisə turizminin xarakteristikası verilmiş və hadisə turizminin aktuallığı əsaslandırılmışdır.

**Açar sözlər:** *turizmin inkişafı, hadisə turizminin mahiyyəti, tədbirlər.*

UOT 339.9; 339.9.061(100)

# AZƏRBAYCAN VƏ İRAN İSLAM RESPUBLİKASI ARASINDA İQTİSADİ ƏLAQƏLƏRİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ ONUN ƏHƏMİYYƏTİ

**FAMİL HƏSƏNOV**
*Naxçıvan Dövlət Universitetinin müəllimi*
*AMEA-nın İqtisadiyyat İnstitutunun dissertantı*
*E-mail: f_hasanov@mail.ru*

## GİRİŞ

Dünya iqtisadiyyatında baş vermiş yeni meyillər, təmayüllər və proseslərin fonunda xarici iqtisadi əlaqələrin tənzimlənməsi, xarici iqtisadi siyasətin qurulması və onun strateji və prioritet istiqamətlərinin müəyyənləşdirilməsi baxımından, o cümlədən də liberallaşma və qloballaşma proseslərinin təsiri nəticəsində formalaşan "vahid ticarət meydanı" müstəvisində dünya ölkələrinin təcrübəsi hər bir yeni müstəqillik qazanmış keçid iqtisadiyyatı ölkəni, o cümlədən də Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyət daşıyır. Bu təcrübələrdən və onun müsbət nəticələrindən "qidalanmaq" gözlənilməz simptomların qarşısını vaxtında almağa və dünya birliyinə daha dayanıqlı və iri addımlarla yanaşmağa, inteqrasiya etməyə şərait yaratmışdır.

Eyni zamanda müasir şəraitdə dövlətlər bir–biri ilə qarşılıqlı münasibətlər yaratmadan dünya təsərrüfatından ayrılaraq müstəqil şəkildə yaşaya bilməz. Elə bu baxımdan da hər bir dövlət özünün xarici iqtisadi əlaqələrinə xüsusi diqqət yetirir. Araşdırmalar göstərir ki, ölkələr arasında iqtisadi əlaqələr daima artır və genişlənir. Özünün iqtisadi maraq və mənafe dairəsindən çıxış edən hər bir dövlət həmişə başqa dövlətlərlə iqtisadi əlaqələr yaratmağa ehtiyac hiss edir. İdeoloji, siyasi, dini və iqtisadi fərqlər dünya dövlətlərinin inteqrasiyasının qarşısını almaq iqtidarında deyildir [5].

Yuxarıda qeyd olunanları nəzərə alaraq istər Azərbaycan respublikasının və istərsə də onun yaxın qonşusu olan İran İslam Respublikasının özlərinin xarici iqtisadi əlaqələrini qurub inkişaf etdirərkən bir-birləri ilə çox yaxın məsafədən iqtisadi münasibətlər qurmaları vacibdir. Azərbaycan Respublikası ilə İran İslam Respublikasının iqtisadi əlaqələrinin böyük tarixi əhəmiyyəti vardır. Azərbaycan və İran dövləti tarixin böyük sınaqlarından keçərək əsrlər boyu qonşuluq şəraitində yaşamış və dostluq əlaqələrini qoruyub saxlamışdılar. Tək ona görə yox ki, bu iki ölkə qonşu olaraq yaxın iqtisadi əlaqələri yüksələn xətt üzrə inkişaf etdirməkdədir. Ümumiyyətlə Azərbaycan Respublikası Cənubi Qafqazın tarixi baxımdan ən qədim, mədəni baxımdan daha zəngin, iqtisadi nöqteyi-nəzərindən isə ən güclü ölkəsidir. Azərbaycanda çoxsaylı irandilli xalqlar məskunlaşmışlar və eyni zamanda İranda da əsrlərdir ki, on milyonlarla azərbaycanlı soydaşımız yaşamaqdadır. Bütün bu göstəricilər Azərbaycanı İranın Cənubi Qafqaz siyasətinin mərkəzində olmasına əsas səbəb olmuşdur. Ölkəmizin daim İranla olan iqtisadi münasibətlərini, bu ölkənin Yaxın və orta Şərqdə yerini, habelə dünyada gedən proseslərdə İranın rolunu öz xarici siyasətində nəzərə almaqdadır [10]. Göstərilən amillər İran–Azərbaycan əlaqələrinin həm siyasi, həm də iqtisadi təzahürlərində özünü biruzə verməkdədir. Şərait, şərtlər və tələbatlar isə Azərbaycan və İran arasında iqtisadi əlaqələrin əsas istiqamətlərini müəyyən etmişdir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, müasir iqtisadi əlaqələr regional dövlətlər arasında daha geniş vüsət almışdır. Azərbaycanla İran arasında mövcud olan müxtəlif sahələrdəki əlaqələrin özünəməxsus cəhətləri vardır. İki xalqın dini, mədəni, mənəvi dəyərlər baxımından yaxınlığı, eyni zamanda ortaq tarixə malik olması Tehranla Bakının əlaqələrinə təsir göstərən əsas amillərdəndir. Təsadüfi deyil ki, bir çox ekspertlər Qafqaz və Xəzər regionundakı sabitliyin İran – Azərbaycan münasibətlərindən daha çox asılı olduğunu etiraf edirlər [6].

Qeyd etmək lazımdır ki, ölkəmizin müstəqillik əldə etməsindən əvvəl də İranla Azərbaycan arasında müxtəlif xarakterli əlaqələr mövcud olub. Hələ sovet dövründə Bakıda İranın konsulluğu fəaliyyət göstərirdi. Lakin Azərbaycanın müstəqilliyinin ilk illərində iki ölkənin münasibətlərində ciddi problemlər yarandı və bu, ilk növbədə rəsmi Tehranın bölgədə yaranmış yeni geostrateji duruma adekvat reaksiya verə bilməməsi və Azərbaycana rəhbərlik edən qüvvələrin ziddiyyətli siyasət yeritməsindən irəli gəlirdi.

1992-93-cü illəri İran-Azərbaycan münasibətlərinin ən gərgin dövrü kimi xarakterizə etmək olar. Lakin 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanın digər qonşuları ilə yanaşı, İran İslam Respub-

likası ilə də münasibətlər getdikcə yaxşılaşmağa başlamışdı [9].

Qonşu dövlət kimi İran İslam Respublikası ilə əməkdaşlığın inkişafı Ümummilli Lider Heydər Əliyevin xarici siyasət konsepsiyasında əksini tapan mühüm amillərdəndir.

Qeyd etmək lazımdır ki, Azərbaycan və İran xalqlarının din, mədəniyyət, mənəvi dəyərlər və dil baxımından yaxınlığı, digər tərəfdən ortaq tarixə malik olmaları yüksək səviyyəli əməkdaşlıq üçün real zəmindir. Ulu öndər Heydər Əliyevin söylədiyi fikirlər də deyilənləri təsdiq edir: "İranda hamı bilməlidir ki, Azərbaycan həmişə İranın dostu olub, bu gün də dostudur, gələcəkdə də dostu olacaqdır. Bəzi qüvvələr İran Azərbaycan əlaqələrini gərginləşdirmək, onlara ləkə vurmaq, yaxud hansısa problemlər yaratmaq istəyirlər...Bunu həm İranda bilirlər, həm də Azərbaycanda biz bilirik. Ancaq mən Azərbaycan Prezidenti olaraq bildirmək istəyirəm ki, heç bir qüvvə dostluq və qardaşlıq əlaqələrini poza bilməz" [1].

İki dövlət arasında münasibətlər 1993-cü ildən Prezident Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Hər iki dövlət başçısının qarşılıqlı səfərləri zamanı imzalanan sənədlər İran – Azərbaycan münasibətlərinin hüquqi-siyasi bazasını təşkil etmişdir [8].

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi əlaqələrin inkişafı hər iki tərəfin marağına olduqca uyğundur. Ölkəmizin müstəqillik əldə etdiyi dövrün ilk illərindən başlayaraq bu münasibətlərin yeni mərhələsinin başlanğıcı qoyuldu və bu münasibətlərin yeni mərhələyə qədəm qoyması zərurətdən meydana gəlmişdir. Çünki SSRİ-nin dönəmində xarici-iqtisadi əlqələr tam şəkildə mərkəzdən idarə olunurdu və bu sahələrin fəaliyyəti barədə verilən qərarlar, hazırla nan təlimatlar və s. ayrı-ayrı müəssisələrin, firmalar tərəfindən yox, yalnız birbaşa dövlət (mərkəz) tərəfindən yerinə yetirilirdi. Belə ki, qloballaşan dünya iqtisadi müstəvisi daxilində İran və Azərbaycan iqtisadiyyatlarının müəyyən qədər qarşılıqlı asılılığı mövcuddur [7]. İran-Azərbaycan münasıbətlərinin yaxşılaşmasına təkan verən əsas faktor kimi İran –Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının rolunu qeyd etmək olar. Belə ki, 1992-ci il noyabrın 16-dan 20-dək Azərbaycan Respublikası ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın birinci iclası keçirilmişdir. Görüşün nəticəsi olaraq iki ölkə arasında iqtisadi əməkdaşlıq haqqında memorandum imzalanmışdır. İndiyə qədər Komissiya Bakıda və Tehranda bir sıra işgüzar görüşlər keçirmiş, əlaqələrin inkişafı və perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılmışdır . Bunlara baxmayaraq bu iqtisadi münasibətlərin inkişaf dinamikasına nəzər saldıqda görərik ki, ayrı- ayrı illərdə İran və Azərbaycan iqtisadi əlaqələrinin inkişafında müəyyən dəyişikliklər nəzərə çarpacaqdır. Bu dəyişiklikləri heç də siyasiləşdirmək düzgün olmazdı. Çünki müstəqilliyimizin ilk illərinə nəzər salsaq görərik ki, ölkəmizin ticarət əlaqəsinin əsasını qonşu dövlətlər (Ermənistan istisna olmaqla) təşkil etmişdir. Qeyd etmək düzgün olardı ki, 1993-1997-ci illər ərzində İran Azərbaycanın ticarət tərəfdaşları arasında ticarət dövriyyəsinə görə davamlı olaraq 1-ci və 2-ci yeri tutmuşdu. Sonrakı göstəricilər isə illər ərzində daim dəyişikliyə uğramışdır. 1998-ci ildə İran Azərbaycanın idxalında 8-ci yeri tutmuş və onun tərəfdaşları arasında xüsusi çəkisi 4,0 % təşkil etmişdir. Həmin göstəricilər 1999-cu il üçün 6-cı yer 4,6 % , 2000-ci il üçün 7-ci yer 4,8%, 2001-ci il üçün 8-ci yer 3,9 %, 2002-ci il üçün isə 10-cu yer 3,5% olmuşdur [11].

Lakin sonrakı illərdə də bu iki ölkə arasında olan xarici ticarət dövriyyəsi dəyişmiş, amma illər üzrə bu iqtisadi əlaqələr davamlı xarakter daşımışdır. Bunu aşağıda verilən cədvəldən daha aydın görmək olar.

**2005-2018-ci illərdə Azərbaycanla İran İslam Respublikası arasında olan xarici ticarətin vəziyyəti**

| İLLƏR | XARİCİ TİCARƏT DÖVRİYYƏSİ | O CÜMLƏDƏN İXRAC | O CÜMLƏDƏN İDXAL | SALDO |
|---|---|---|---|---|
| **2005** | **242786,4** | 166 468,0 | 76 318,4 | **90 149,6** |
| **2006** | **381819,0** | 295 901,6 | 85 917, 4 | **209 984,2** |
| **2007** | **539966,8** | 434 731,1 | 105 235,7 | **329 495,4** |
| **2008** | **452874,8** | 355 647,6 | 97 227,2 | **258 420,4** |
| **2009** | **168811,5** | 90 130,1 | 78 681,4 | **11 448,7** |
| **2010** | **243219,3** | 124 980,7 | 118 238,6 | **6 742,1** |
| **2011** | **305315,2** | 144 828,7 | 160 486,5 | **-15 657,8** |
| **2012** | **263787,1** | 87 342, 3 | 176 444,8 | **-89 102,5** |
| **2013** | **281029,7** | 73 347,4 | 207 682,3 | **-134334,9** |
| **2014** | **186597,9** | 39 441,7 | 147 156,2 | **-107714,5** |
| **2015** | **124712,4** | 34 257,0 | 90 455,4 | **-56 198,4** |
| **2016** | **221209,9** | 49 684,6 | 171 525,3 | **-121840,7** |
| **2017** | **257068,8** | 16 794,1 | 240 274,7 | **-223480,6** |
| **2018** | **446032,7** | 31 231,7 | 414 801,0 | **-383569,3** |
| **YEKUN:** | **4 115 231,7** | **1 944 786,6** | **2 170 444** | **-225658,3** |

*Mənbə: DSK-nın materialları əsasında tərtib olunub[12].*

Yuxarıdakı cədvəldən də göründüyü kimi iki ölkə arasında olan xarici ticarət dövriyyəsi ayrı- ayrı illərdə müxtəlif istiqamətlərə yön almışdır.

Rəsmi statistikaya görə, 2016- cı ildə Azərbaycanın ticarət dövriyyəsinin ümumi həcmi 18 mlrd . dollara yaxın olub. İran İslam Respublikası bu sıralamada 13-cü yerdə qərarlaşmışdı.

Lakin, Azərbaycanın idxalında İranın birincilik əldə etdiyi sahələr də vardır. Belə ki, statistik məlumatlara əsasən metal konstruksiyalarının 2006-cı il üzrə Azərbaycana idxalında birincilik İrana məxsus olmuşdur [4].

Eyni zamanda İran İslam Respublikasının yanacaq–enerji kompleksinin aktual problemlərindən biri neft və qaz hasilatı sahələrinin müasir, etibarlılıq dərəcəsi yüksək olan avadanlıqlara və onların ehtiyat hissələri ilə təmin edilməsidir. Bu baxımdan Azərbaycan İran üçün ən yaxın və effektiv əməkdaşlığa malikdir. Bununla yanaşı İran İslam Respublikası Azərbaycandan müəyyən neft avadanlıqları da alır. Bu Azərbaycanın neft–mədən avadanlıqlarının ixracının ümumi həcminin 1-2 % -i deməkdir.

Bu iki ölkə arasında iqtisadi əlaqələrin tendensiyasını davam etdirmək, bu əlaqələri şaxələndirmək və daha da inkişaf etdirmək üçün dövlətlər səviyyəsində daimi qarşılıqlı səfərlər təşkil olunmuşdur. Son illərdə bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İran İslam Respublikasına səfəri zamanı Prezident Həsən Ruhani ilə görüşündə demişdir: “ Biz çox şadıq ki, İran-Azərbaycan əlaqələri yüksələn xətlə, uğurla və sürətlə inkişaf edir. Bizim əlaqələrimizin çox möhkəm təməli vardır. Əsrlər boyu xalqlarımız bir yerdə yaşamış, yaratmışlar. Bizi tarix, mədəniyyət, ortaq keçmişimiz dinimiz birləşdirir. Bizim münasibətlərimiz bu möhkəm təməl üzərində qurulur və bu gün İran-Azərbaycan əlaqələri strateji əməkdaşlıq səviyyəsinə qalxmışdır. Biz üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda bir-birimizi daim dəstəkləyirik. Bizim aramızdakı ticarət əlaqələrinin çox gözəl perspektivləri vardır. Bu gün beynəlxalq aləmdə baş verən hadisələr eyni zamanda ikitərəfli münasibətlərimizə aid olan məsələlər geniş müzakirə edildi. Biz razılaşdıq ki beynəlxalq terorizmə qarşı birgə səylərimizi daha da gücləndirəcəyik. Beynəlxalq aləmdə də bundan sonra bir-birimizə dəstək göstərəcəyik [2].

Ümumiyyətlə son illərdə ölkələrimiz arasında qarşılıqlı əməkdaşlığın daha da genişləndiyinin şahidi oluruq. Təkcə son 5 ildə Azərbaycan və İran dövlət başçıları arasında 12 görüş olub, 100-dən çox qarşılıqlı səfər həyata keçirilib, 24 biznes forum və işgüzar görüş keçirilib. İndiyədək ölkələrimiz arasında 150- dən çox sənəd imzalanıb. Bu qarşılıqlı əməkdaşlığın tərkibi olaraq Azərbaycan Respublikasının nümayəndə heyəti İran İslam Respublikasında işgüzar səfərdə olub. İran İslam Respublikasının Energetika Nazirliyində keçirilən görüşdə iki ölkə arasında elektrik enerjisinin alqı-satqısının təmin olunması, Azərbaycan- İran-Rusiya enerji sistemlərinin birgə fəaliyyətinin tənzimlənməsi və üçüncü ölkəyə elektrik enerjisinin tranziti məsələləri müzakirə edilmişdir .

“Azərenerji” ASC ilə İranın “TAVANİR” Enerjinin İstehsalı Ötürülməsi və Paylanmasını İdarəetmə Şirkəti arasında elektrik enerjisinin alqı-satqısı üzrə müqavilə imzalanmışdır.

Azərbaycanda sənaye, tikinti, xidmət, rabitə, ticarət, nəqliyyat, kənd təsərrüfatı və s. sahələrdə 1000-dən çox İran şirkəti qeydiyyatdan keçib. İran tərəfindən Azərbaycan iqtisadiyyatına 3.4 mlrd. dollar investisiya yatırılıb. İki ölkə arasında rabitə sahəsində də əməkdaşlıq edilməkdədir. Azərbaycanla İran İslam Respublikası arasında ilk Beynəlxalq Rabitə 1991-ci ildə təşkil edilmişdir. Bakı ilə Naxçıvan arasında rabitə əlaqəsinin dayanıqlığını təmin etmək məqsədi ilə bu ölkədən tranzit olaraq Bakı-Culfa , Bakı-Babək , Bakı-Ordubad, Bakı-Naxçıvan istiqamətinin kabel magistralı çəkilmişdir.Hər iki ölkənin müvafiq elmi-tədqiqat institutları və tədris müəssisələri arasında alimlərin təcrübə mübadiləsi, qarşılıqlı səfərlər, seminarlar və kadr hazırlığı həyata keçirilir[12].

Eyni zamanda iki ölkə arasında bank işi və sığorta sahəsində də sıx əməkdaşlıq aparılır. “Bank Milli İran” ın Bakı Filialı respublikamızda ilk xarici bank filialı kimi 1993 –cü il 29 yanvar tarixində qeydiyyatdan keçmişdir. Filialın əsas fəaliyyəti İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında köçürmələrin yerinə yetirilməsi, əmanətlərin qəbul edilməsi, valyuta və manatla əməliyyatların aparılması, bankların müxbir hesablarına xidmət etməsi, valyuta mübadiləsi və s. ibarətdir [11]

Lakin inkişafımızın sonrakı illərində ölkəmiz dünya müstəvisinə inteqrasiya olmuş, ayrı-ayrı xarici dövlətlərlə iqtisadi münasibətlər qurmağa başlamış və iki tərəfli müqavilələr bağlanmışdır. Çünki bunu keçid aldığımız quruluşun əsas iqtisadi atributlarından biri hesab etmək olar. Müasir dövrdə də İran və Azərbaycan iqtisadi əlaqələrinin inkişafında Azərbaycan ticarət münasibətlərində İranın xüsusi çəkisi vardır və bu çəkinin gələcək illərdə artan dinamika ilə inkişaf etməsi gözləniləndir. Ölkəmizin Cənubi Qafqazda yerləşdiyi yer, onun coğrafi mövqeyi nəinki qonşu dövlətləri onunla iqtisadi əlaqə qurmağa sövq edir, eyni zaman-

da Şimal-Cənub və Qərb-Şərq istiqamətində nəqliyyat xətlərinin çəkilməsini və istifadə edilməsini zəruri etmişdir. Bu gün Azərbaycan Qərblə-Şərqi, Cənubla-Şimalı bir-birinə bağlayan və böyük əhəmiyyətə malik tranzit ölkədir. Eyni zamanda da İran İslam Respublikasının bizim ölkənin inkişafında müstəsna rolu vardır. Belə ki, XX əsrin sonlarından başlayaraq və 30 ildən artıqdır ki, Ermənistan dövləti tərəfindən ölkəmizə qarşı irəli sürülən heç bir əsası olmayan ərazi iddiası nəticəsində Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına gedən bütün kommunikasiya xətləri ölkəmizin əsas hissəsindən təcrid olunaraq blokada vəziyyətində saxlanılmışdır. Yaranmış bu cür iqtisadi və siyasi gərginliyin nəticəsində iki ölkə arasında qarşılıqlı razılaşmalar əldə olunmuşdur. Belə ki, İran İslam Respublikasının ərazisindən keçməklə ölkəımizdən Naxçıvan Muxtar Respublikasına və əks istiqamətdə avtomobil nəqliyyatının hərəkəti, 15 il sonra isə, yəni 2005-ci ildən Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa olunmuşdur. Bu, çox böyük bir hadisə idi. Məhs elə bu tarixi hadisənin reallaşması cənub qonşumuz olan İran İslam Respublikasının razılığı ilə reallaşdırılmışdı [3].

Göründüyü kimi Azərbaycanla İran İslam Respublikasının xarici iqtisadi əlaqələri tək ticarət dövriyyəsi, idxal-ixrac əməliyyatları ilə yekunlaşmır. Bu iki dövlət eyni zamanda bir-birindən tranzit ölkə kimi də istifadə edə bilir və bu istifadə gələcəkdə daha da geniş vüsət alacaqdır.

Eyni zamanda bu iki ölkə arasında olan dostluq və yaxın qonşuluq münasibətlərinin təzahürü kimi çətin vaxtlarda bu iki dövlətin bir-birinin yanında olması, maddi yardımlar göstərməsi hallarını da müsbət amil kimi qeyd etmək olar. Belə ki, müstəqilliyimizin ilk illərində qonşu İran dövləti tərəfindən ölkəmizə maddi yardımlar edilmişdir.

2019-cu-ilin aprel ayında İran İslam Respublikasında aramsız yağışlar nəticəsində yaranan təbii fəlakətlə əlaqədar ölkə Prezidenti cənab İlham Əliyevin göstərişi ilə Azərbaycan hökuməti İran İslam Respublikasına 950 min manatlıq humanitar yardım göstörmişdir. 2020-ci ilin əvvəlində bütün bəşəriyyəti bürümüş Koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizə məqsədi ilə Azərbaycan Respublikası tərəfindən humanitar əsaslarla İran İslam Respublikasına 5 milyon ABŞ dolları məbləğində maliyyə yardımının göstərilməsi barədə qərar qəbul edilmişdir [15].

XXI əsrin böyük tarixi, iqtisadi və siyasi hadisələrindən biri olan Zəngəzur dəhlizi bu günün ən əsas danışılan aktual mövzularından biridir. Zəngəzur dəhlizi nəyinki region dövlətləri üçün, eləcə də bütün dünyanın diqqət mərkəzində dayanır. Zəngəzur dəhlizli nəyin ki, onun əsas halqası olan Azərbaycan və bölgə ölkələri üçün, eləcə də Şərqdə Çindən, hətta Yaponiyadan, Koreyadan başlayaraq Qərb ölkələrinədək bir coğrafiya üçün böyük əhəmiyyət kəsb edir. Ona görə də Şərqdən Qərbədək ölkələrin maraq dairəsi böyüdükcə bu məsələnin reallaşması daha da sürətlənir.

Çünki Zəngəzur dəhlizi elə bir coğrafiyada yer alır ki, orta yol, orta xətt olaraq, həqiqətən də böyük əhəmiyyətə malikdir. Ona görə də bu dəhliz təkcə Ermənistan, Gürcüstan, Azərbaycan, Türkiyə, İran, Rusiyaya aid hesab edilməməlidir. Belə demək mümkünsə, Çin, Avropa İttifaqı kimi fərqli qüvvələr də bu layihəyə cəlb olunmalıdır. Maraqlı ölkələri bu məsələyə cəlb etməklə problemin çözümündə böyük rol oynayacağı mümkündür[15].

Burdan belə bir nəticəyə gəlmək olar ki, Zəngəzur dəhlizinin bütün dünya üçün əhəmiyyətinə görə Azərbaycan və qonşu İran İslam Respublikası bu logistikaya qoşulmaqla regional və dünya arenasında iştirakçı olacaqlar. Bu da hər iki ölkənin beynəlxalq səviyyədə iqtisadi əlaqələrinə böyük təkan vermiş olar.

Ümumiyyətlə, İran İslam Respublikası ilə Azərbaycan dövləti arasında iqtisadi əlaqəlrin daha geniş müstəvidə inkişaf etdirilməsi üçün aşağıdakı məqsədəuyğun tədbirlərin həyata keçirilməsi zəruridir:

- İran İslam Respublikası ilə Azərbaycan arasında zəruri məhsullar üzrə idxal-ixrac sahəsində ikitərəfli əlaqələrin genişləndirilməsi;
- Rusiya, İran və Azərbaycan arasında dünya bazarına ixrac oluna biləcək məhsullar üzrə müştərək innovasiyalı istehsal müəssisələrinin yaradılması;
- “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində Rusiya, İran və Azərbaycan arasında tranzit yükdaşımaların həcminin artırılması istiqamətində stimullaşdırıcı addımların atılması;
- “Şərq-Qərb” beynəlxalq yük daşımalarında İran İslam Respublikasının maraqlarını nəzərə alaraq stimullaşdırıcı addımların atılması;
- Azərbaycan-İran iqtisadi əlaqələrinin inkişafı üçün nəqliyyat, tranzit gömrük sahəsində yaranmış problemlərin aradan qaldırılması zəruridir. Azərbaycan-İran iqtisadi əlaqələrinin inkişafı nəinki iki dövlət, eyni zamanda region üçün əhəmiyyətini nəzərə alaraq kompleks tədbirlər həyata keçirilməlidir;
- Azərbaycanla İran İslam Respublikasının iş adamları üçün qarşılıqlı olaraq əlverişli biznes mühitinin formalaşdırılması və investisiya qoyuluşlarının stimullaşdırılması təmin olunmalıdır;
- Azərbaycanla İran İslam Respublikası arasında

layihələrin böyük potensialının mövcudluğunu nəzərə alaraq ölkəmizin İranla maliyyə sahəsində də əməkdaşlıq edə bilməsi nəzərə alınmalıdır;

- Azərbaycanla İran İslam Respublikasının qarşılıqlı razılıqları əsasında azad iqtisadi zonaların yaradılması və inkişaf etdirilməsi təmin olunmalıdır.

Hesab edirik ki, bu tədbirlərin həyata keçiriməsi gələcək illərdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı iqtisadi əlaqələri daha da genişləndirəcəkdir.

**Açar sözlər:** *xülasə, Azərbaycanla iqtisadi münasibətlər, əməkdaşlıq, beynəlxalq münasibətlər, qarşılıqlı iqtisadi inkişaf, dünya iqtisadiyyatı, iqtisadiyyatın şaxələndirilməsi, xarici ticarət, qarşılıqlı investisiya.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Əhmədov N.H. Müstəqillik illərində Azərbaycanın xarici iqtisadi əlaqələri və onun reğional problemləri. Bakı: "Elm" nəşriyyatı-2012*

*2. Ağayev S.H., Hadi Tiznuş Taban, Azərbaycan Respublikasının İran İslam Respublikası ilə qarşılıqlı iqtisadi əlaqələrinin perspektivləri, 2007*

*3. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M., İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: İqtisad Universiteti, 2002, 446 səh.*

*4. Şəkərəliyev A.Ş.Dünya İqtisadiyyatı. Müasir dövrün problemləri. Bakı, İqtisad Universiteti, 2003, 255 səh..»*

*5.Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, Azərbaycan nəşriyyatı, 2005, 752 səh.*

*6. Abdullayev M.A. Beynəlxalq münasibətlər tarixi. Dərslik, Bakı: Mürtəcim, 2000, 344 səh.*

*7. Колесов В.П., Кулаков М.В. Международная экономика.- Москва-2009; 345 с.*

*8. "Respublika" qəzeti. 5 avqust 2004-cü il.*

*9."Xalq" qəzeti 27 fevral 2016-cı il.*

*10. Ширай В.И. Мировая экономика и международные экономические отношения .-Москва: Издательский дом Дашков и К. 2003-528с.*

*11. Farrin Hussein. The Political Economy of Exchange Reform /Iran after revolution. Crisis of an Islamic state/Edited by Soced Rah-nema and Sohrab Behdad. Tauris publishers. London-New York. 2016, 356 p.*

*12. www.amar.org.ir/english - İran İslam Respublikası Statistika Təşkilatının saytı*

*13. www.stat.gov.az-Azərbaycan Dövlət Statistika Komitəsinin saytı*

*14. info@azərenerji.gov.az*

*15. Oxu.az xəbər saytı*

**Гасанов Фамиль Гасан оглы**

**Преподаватель Нахчыванского Государственного Университета**

**Диссертант Института Экономики НАНА**

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ИСЛАМСКОЙ РЕСПУБЛИКОЙ ИРАН И ЕГО ЗНАЧЕНИЕ

**Р Е З Ю М Е**

В статье, посвященной азербайджано-иранским экономическим отношениям, в основном анализируются процессы, происходящие в мире, а также импортно-экспортные операции, проводимые между двумя странами. Из этих анализов можно сделать вывод, что отношения, установленные между Азербайджаном и Ираном, расширяются и охватывают все сферы.

При этом говорится о важности Зангезурского коридора, который станет крупным историческим событием 21 века и участником процесса нормализации экономических и политических отношений между отдельными государствами.

В статье делается вывод и в конце вносятся предложения по дальнейшему совершенствованию экономических отношений.

**Hasanov Famil Hasan oglu**

***Teacher of Nakhchivan State University***

***Dissertation student of ANAS Institute of Economics***

## MAIN DIRECTIONS OF ECONOMIC RELATIONS BETWEEN AZERBAIJAN AND THE ISLAMIC REPUBLIC OF IRAN AND ITS SIGNIFICANCE

**SUMMARY**

The article dedicated to Azerbaijan-Iran economic relations mainly analyzes the processes taking place in the world, as well as the import-export operations conducted between the two countries. From these analyses, it can be concluded that the relations established between Azerbaijan and Iran are expanding and cover all fields.

At the same time, the importance of the Zangezur corridor, which will be a great historical event of the 21st century and a participant in the process of normalization of economic and political relations between individual states, is discussed.

The article is concluded and suggestions for further improvement of economic relations are given at the end.

UOT 314

# DEMOGRAPHIC DEVELOPMENT AND GLOBAL DEMOGRAPHIC TRENDS

**KAMRAN SHYKHYLY**
*Doctoral student of Azerbaijan University of Architecture and Construction*

*E-mail: 19kamran95@mail.com*

## Introduction

Demography is the statistical study of the population of humans. Demography, to put it more precisely, examines and keeps track of population size, composition, and mobility through time and space. It should be emphasised that research methodologies from history, economics, anthropology, sociology, and other sciences are applied in the process of studying demography. Demography is very helpful for analysing and predicting population-related social, cultural, and economic changes so that appropriate preventive measures can be taken by both commercial business entities and individual governments. Entrepreneurs use demographic forecasting to anticipate future supply and demand or to try to grow their firm.

There are accounts of simple demographic studies like censuses being conducted as far back as 6,000 years ago in the ancient world. Famous demographers from the 16th century, like John Graunt from Great Britain, made significant contributions to the discipline. It should be noted that the initial demographic studies focused mostly on death; more specifically, they sought to ascertain the number of deaths and the ages at which they occurred. By looking at baptismal and burial records, as well as statistics on women of childbearing age, John Graunt was able to ascertain the number of men of military age. The demographic studies conducted by Ground are regarded as some of the earliest statistical analyses of the English population. Despite the fact that the early demographic studies we've examined were mostly focused on mortality, as nineteenth-century studies discovered a decline in the number of newborns, demographers started focusing on births as well as deaths. The emergence of the concept of "differential fertility" as a result of pertinent investigations is an intriguing part of this demographic trend. Differential fertility indicates that various aspects of society, including poverty levels, work possibilities, and religious and cultural beliefs, influence the number of children that certain demographic groups have. Migration was the second most significant component in demographic research, behind the quantity of births and deaths. Therefore, factors like death, birth rate, and migration affect the size of the Population [3].

In the decades following 1960, the population of the European Union, which includes the top-ranking nations in the world in terms of economic growth, multiplied numerous times until it reached the current level of 500 million people. Despite this, the population growth rates of Commonwealth nations have drastically slowed down each year, and long-term projections indicate that the population will decline. Although migration is a significant factor in the dynamics of population growth in many EU nations, it should be emphasised that current trends and the ageing of the population limit the likelihood of growth rates. Therefore, the demographic development trend is distinguished by having different effects for European countries. Such a situation leads to a significant decrease in the population, especially in remote areas, which can further intensify the trends of economic decline and stratification faced by the regions. Thus, demography has a serious impact on the social, economic and regional development of the European Union. In addition, the rapid urbanization trend, environmental pollution and lack of affordable housing exacerbate the situation. Although migration trends in recent years have improved the balance in some regions of Europe, migration in general affects the countries of the union unevenly. Although European economic structures and investment funds are mainly mobilized to increase economic growth in the regions, they are also focused on solving issues arising from demographic problems [6].

## Scientific approaches

Some argue that employing conventional statistical and demographic techniques to analyse data is

sufficient for demography. Models of associated behavioural processes as well as theoretical problems that need elucidation in this context are frequently left to other fields [1].

Because "population composition" and "changes in it" were explicitly mentioned in their definition of demography, Hauser and Duncan's (1959) method proved successful. Because of this method and the enlargement of its scope, academics divided demography into two categories under the names of "official demography" and "population studies" [10].

The term demography was best established in France and Italy, and it has never been properly accepted for general use in English-speaking nations, according to A. B. Wolfe. The author reached the conclusion that demography can be viewed as biosocial accounting by performing the function of continuous population inventory, population growth, and analysis of naturally occurring processes. This was done while taking into account the importance of population censuses to demography [2].

According to A. B. Wolfe, “The term demography was best established in France and Italy, and it has never been sufficiently accepted for general use in English-speaking countries. Taking into account that population censuses play a key role in demography, the author came to the conclusion based on continuous analysis that demography can be considered as bio-social accounting by performing the function of continuous population inventory, population growth and analysis of natural processes occurring [10].

It is uncommon to think of the long-term population outcome of demographic systems as a factor that raises the population's average or overall well-being. From this vantage point, it is challenging to determine the population density that elevates people's well-being according to the demographic theory. Population systems are determined by average person welfare rather than global aggregate utilitarian welfare since demographic changes are decisions reliant on individual welfare [5].

In the 21st century, the field of demography has increased its importance both from a scientific-theoretical point of view and practically. This can be explained by the fact that without knowing the demographic situation of any country and conducting its analysis, one cannot make a definite opinion about the country's current potential and future development prospects. Although the stage of rapid development of demography is considered to be the 20th century, the collapse of socialism and the worldwide expansion of the transition to market economy relations have increased the interest in demography development as well as in many areas. There may be several reasons for this. However, experience shows that modern business interests and investment plans of large firms make it necessary to study demographic indicators for individual regions and countries. At this time, the age, gender composition of the population, average life expectancy, birth and death rate, population health and other factors are of particular importance for the business goals of investors. For example, if we compare Azerbaijan as an example, we can say that our country is considered an efficient market for baby food, products necessary for their nutrition and development due to the number of newborns. Based on this example, we can say that the development of the market economy and economic interests have a great role in the development of demography. According to the "demographic transition" theory, the prerequisite for the "population explosion" that embodies demographic development is not due to an increase in the number of births, but to a sharp decrease in the number of deaths recorded due to the improvement of health conditions. If we express this proposition more precisely, the theory of "demographic transition" claims that during the initial stages of economic growth, the number of new born babies is fairly stable, while the number of deaths decreases and, as a result, the rate of population growth increases. [7]. It is crucial to understand how the demographics of the world's population are changing in order to accurately analyse present issues and provide solutions for potential future issues. Because changes in demography and its makeup have a profound effect on every part of our existence, from social policy to urban planning to climate change, as well as many different facets of the global economy.

**Development trend of global demography**

One of the world's most critical challenges right now is the planned development of the demographics. Therefore, both national governments and pertinent organisations carry out demographic forecasting and regulation of population development. The United Nations (UN) carries out research on the state of the demographics, makes data and analysis pub-

lic, and also makes suggestions. Since demographic development is related to economic factors, this issue is considered and evaluated in relation to sustainable development goals and other strategic and global programs. The UN's retrospective and forecast chart, covering the period from 1950 to 2090, allows analyzing the marked historical stage of global demographic development.

**Figure 1. Global population size: 1950-2021, and medium projection with 95 per cent prediction intervals, 2022-2050**




*Source: UN. (2023). Data stories highlights.*

The graph shows that while there were roughly 2.5 billion people on the planet in 1950, that number only neared 8 billion at the end of 2022 and surpassed 8 billion in 2023. As anticipated in 1950, it took 37 years for the world's population to double to 5 billion, and it did so in 1987. It is anticipated that it will take 70 years for the global human population to double once more in the following phase. According to the most recent UN estimates, the world's population will be around 8.5 billion in 2030, 9.7 billion in 2050, and finally 10.4 billion in 2100. It should be noted that just the eight nations mentioned-the Democratic Republic of the Congo, Egypt, Ethiopia, India, Nigeria, Pakistan, the Philippines, and the United Republic of Tanzania-are anticipated to account for more than half of the projected increase in the global population between 2022 and 2050 [8]. Because the forecasts are self-justifying over the remaining period, we can infer that they have a very high likelihood of being accurate. To more fully comprehend the trend and assess demographic development trends, it is important to go back and review the real indicators from recent years.

The information provided by the UN is one of the most trustworthy sources when evaluating the demographic situation on a worldwide scale. In this regard, understanding the demographic situation of the world, population growth, and annual growth rates will be aided by the examination of the data shown in the graph below.

**Figure 2. World population and annual growth rate (2013-2023)**




*Source: United Nations – World Population Prospects [9].*

This graph, which was created using data from the UN, showed the dynamics of the world's population. The graph displays trends for the previous 10 years as well as the year 2023. The first section of the graph shows that between the start of the last decade in 2013 and the present year 2023, there has been an uninterrupted rise in the global population. The world's population increased from 7,250,593,370 in 2013 to 7,975,105,156 in 2022 and 8,045,311,447 in the first half of the current year 2023. The world population's annual growth rates throughout the years under study may be seen in the second portion of the graph. It turns out that the global population growth rate from 2013 to 2022 indicates a continual fall up until that year. In other words, while the annual growth rate was 1.24% in 2013, it declined in subsequent years, reaching a low of 0.98 percent in 2020 and a high of 83% in 2022. The world population's yearly growth rate increased to 0.88% in the current year 2023, according to statistics.

The particular numbers and percentages recorded for the study years are shown in table 1 below along with the visual representation and trend analysis.

**Table 1. World - Historical Population Growth Rate Data**

| Year | Population Growth Rate | Growth Rate |
|---|---|---|
| 2023 | 8,045,311,447 | 0.88% |
| 2022 | 7,975,105,156 | 0.83% |
| 2021 | 7,909,295,151 | 0.87% |
| 2020 | 7,840,952,880 | 0.98% |
| 2019 | 7,764,951,032 | 1.06% |
| 2018 | 7,683,789,828 | 1.10% |
| 2017 | 7,599,822,404 | 1.15% |
| 2016 | 7,513,474,238 | 1.17% |
| 2015 | 7,426,597,537 | 1.19% |
| 2014 | 7,339,013,419 | 1.22% |
| 2013 | 7,250,593,370 | 1.24% |

*Source: https://www.macrotrends.net [4].*

By examining the table, we can see that, despite the fact that the world's population has grown during the years covered (2013–2023), the rate of that growth has partially decreased since 2013, and, as previously noted, it has only slightly increased again in 2023. For comparison, it should be taken into account that in the first decade of the 21st century, the population growth rates were partially stable. Here, it is worth noting one factor that, as mentioned in graph 1, although the UN forecasts indicate that the world population will reach 8 billion in 2022, this forecast was realized only in the first months of 2023. Thus, based on the analysis of graph 1, graph 2 and table 1, as well as other available data, we come to the conclusion that despite the fact that the interest rates of the real growth dynamics have partially decreased, the given forecasts were mostly justified.

**Results**

In the modern world, the field of demography has increased its importance both from a scientific-theoretical and practical point of view. Currently, it is impossible to assess the country's current potential and future development prospects without analyzing the demographic situation. Because demographic development is closely related to socio-economic development, welfare level and resource potential.

The research shows that in the first decade of the 21st century, the population growth rates were partially stable and in the second decade, the annual growth rates partially decreased, but in general, the number of the world's population increased steadily over the last 70 years. At the beginning of 2023, the world's population has reached 8 billion, which is consistent with the forecasts made before the period under study, which allows us to say that the population will increase significantly in the coming decades. This sets new global challenges, requiring increased attention to population studies and demographic planning. Considering all this, it is proposed to consider the following recommendations in the national and international framework:

1. Conducting new empirical research on demographic development;
2. Planned implementation of demographic development;
3. Ensuring adequacy of population growth with existing resource potential.

**REFERENCES**

*1. Burch, T. K. (2018). Model-based demography: essays on integrating data, technique and theory. Springer Nature.*

*2. Caldwell, J. C. (1996). Demography and social science. Population Studies, 50(3), 305-333.*

*3. https://education.nationalgeographic.org/resource/demography/*

*4. https://www.macrotrends.net/countries/WLD/world/population-growth-rate*

*5. Kolk, M. (2021). Demographic Theory and Population Ethics–Relationships between Population Size and Population Growth.*

*6. MARGARAS, V. (2019). Demographic trends in EU regions.*

*7. Tabbarah, R. B. (1971). Toward a theory of demographic development. Economic Development and Cultural Change, 19(2), 257-276.*

*8. UN. (2023). Data stories highlights. https://population.un.org/dataportal/home*

*9. United Nations-World Population Prospects. (2023). https://population.un.org/wpp/*

*10. Xie, Y. (2000). Demography: Past, present, and future. Journal of the American Statistical Association, 95(450), 670-673.*

## ABSTRACT

Demography deals with the statistical study of human population. More specifically, demography keeps track of and researches population size, composition, and migration in both space and time. Demography has grown more important in the 21st century, both practically and from a scientific-theoretical standpoint. Without understanding the country's demographic condition and undertaking a study of it, it is impossible to evaluate the potential the country currently has and its future growth prospects. Therefore, demographic analysis has a special role in determining the complex dynamic conditions that shape the current situation and the future social landscape. Considering all this, the article examines demographic development, annual growth rates of world population and main trends. General research methods such as analysis, synthesis, comparison and generalization were used in the article.



**Key words:** *Demography, population, population growth, forecasting, statistics.*



**K. Şıxılı**


**Demoqrafiya inkişafı və qlobal demoqrafik tendensiyalar**


## XÜLASƏ

Demoqrafiya insan populyasiyasının statistik tədqiqi ilə məşğul olur. Daha dəqiq desək, demoqrafiya əhalinin sayını, onun strukturunu, eləcə də, məkana və zamana görə hərəkətini izləyir və araşdırır. XXI əsrdə demoqrafiya sahəsi həm elmi-nəzəri baxımdan, həm də praktik olaraq öz əhəmiyyətini artırmışdır. Hər hansı bir ölkənin demoqrafik vəziyyətini bilmədən və onun təhlilini aparmadan ölkənin mövcud potensialını və gələcək inkişaf perspektivlərini qiymətləndirmək olmaz. Buna görə də, demoqrafik təhlil mövcud vəziyyəti və gələcək sosial mənzərəni formalaşdıran mürəkkəb dinamik şəraiti müəyyənləşdirmək baxımından xüsusi rola malikdir. Bütün bunları nəzərə alınaraq, məqalədə demoqrafiya inkişafı, dünya əhalisinin illik artım dərəcələri və əsas tendensiyalar araşdırılmışdır. Məqalədə analiz, sintez, müqayisə və ümumiləşdirmə kimi ümumelmi tədqiqat metodlarından istifadə olunmuşdur.



**Açar sözlər:** *Demoqrafiya, populyasiya, əhali artımı, proqnozlaşdırma, statistika.*



**К. Шикили**


**Демографическое развитие и глобальные демографические тенденции**


## РЕЗЮМЕ

Демография занимается статистическим изучением населения. В частности, демография отслеживает и изучает количество населения, его структуру, а также его движение во времени и пространстве. В 21 веке сфера демографии увеличила свое значение как с научно-теоретической точки зрения, так и с практической. Невозможно оценить текущий потенциал страны и перспективы дальнейшего развития, не зная демографической ситуации той или иной страны и не проводя ее анализа. Поэтому демографическому анализу отводится особая роль в определении сложных динамических условий, формирующих текущую ситуацию и будущий социальный ландшафт. Учитывая все это, в статье рассматривается демографическое развитие, ежегодные темпы прироста населения мира и основные тенденции. В статье использованы общие методы исследования, такие как анализ, синтез, сравнение и обобщение.



**Ключевые слова:** *Демография, население, прирост населения, прогнозирование, статистика.*

UOT 336.1; 336.22

# İNNOVATİV İQTİSADİ İNKİŞAFIN STİMULLAŞDIRILMASI VƏ TƏNZİMLƏNMƏSİNDƏ VERGİ MEXANİZMLƏRİ

**NİCAT MƏMMƏDYAROV**
*BDU-nun doktorantı, İqtisadiyyat kafedrası*
*E-mail: nijat_mammadyarov@mail.ru*

## Giriş

XXI əsr elmi texniki yeniliklərin sürətlə inkişaf etdiyi, sənaye inqilablarının sürətləndiyi bir dövr kimi tarixə daxil oldu. Məlumdur ki, müxtəlif dövrlərdə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi hər ölkə özünəməxsus təkamül prosesi keçmişdir.

Dünyada baş verən, yüksək texnoloji inkişaf birbaşa və dolayısı ilə insanların həyatına təsir edir. Sosial – iqtisadi inkişaf insan faktorundan – texnoloji faktora keçmə mərhələsindədir. II dünya müharibəsindən sonra dünyada inkişafa qədəm qoyan ölkələr insan amilinə xüsusi diqqət verdikləri halda, XXI əsrdə IV sənaye inqilabının insan əməyini maşın əməyi ilə əvəz etməyə başlanması yeni bir dövrün gəldiyini xəbər verir. Bu gün də insan kapitalına sərmayə yatırır, amma maraq daha çox yeni texnologiyalarda dayanır. İqtisadi islahatların aparılması zamanı innovativ yanaşmalar bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Nəzərə alsaq ki, vergi sisteminin təkmilləşdirilməsi dövlətin iqtisadi siyasətinin əsas bir hissəsidir, onda əminliklə deyə bilərik ki, iqtisadi inkişafın stimullaşdırılması və tənzimlənməsində vergi mexanizmlərində strateji addımlar atmaq üçün zəruri addımlar atılmalıdır.

Son dövrlərdə dövlət milli iqtisadiyyatın yüksək fəaliyyətini təmin edilməsini vacib faktorlardan hesab edir. Bunun bir sıra səbəbləri vardır. Bu səbəblər dövlətin iqtisadiyyatı tənzimləməsini vacib etməklə yanaşı, bu sahədə həlledici rol oynayır. Məhz buna görə dövlət iqtisadi siyasətinin əsas faktorları dəyişməz olaraq qalmaqdadır.

Burada dövlətin iqtisadiyyatla qarşılıqlı əlaqəsinin və dövlətin iqtisadiyyata müdaxiləsinin hüdudlarının aşkarlanması müasir iqtisadiyyatın aktual problemlərindən hesab olunmaqdadır. Dövlət tənzimlənməsinin hüdudları və təkmilləşdirilməsinin əsas problemləri iqtisadi siyasətin əsası hesab olunur. Müasir dövrdə dövlətin bütün iqtisadi sistemlərə müdaxilə etməkdə əsas məqsədi, əhalinin həyat səviyyəsinin yüksəlişi və bazarda olan mövcud problemlərin aradan qaldırılmasına xidmət edir. Bir qayda olaraq dövlət xarici təsirlərin nəzərə alınmasını vacib hesab edərək, milli sərvətlər, istehsal olunan məhsullar bazarının effektliyinin yaradılması, əhalinin işlə təmin olunmasında kifayət qədər maraq göstərmək, istehsal sahəsində sağlam rəqabət mühitini yaradılmasına çalışır. Burada əsas məqsəd haqsız rəqabətə yol verməməkdir. Məlum olduğu kimi bir çox problemlər, işsizlik və inflyasiyanın artması iqtisadiyyatın inkişafına təsir göstərməkdədir. Dövlət sosial ədalətlilik probleminə təsir edərək, bazar mexanizmləri vasitəsilə elmi-texniki irəliləyişlərə nail olmağa çalışır. Ölkədə regionların inkişafını və dövlətlərarası xarici ticarət tarazlığının təmin edilməsi məqsədi ilə iqtisadiyyatın tənzimlənməsini zəruri hesab edir.

Dövlət birbaşa və ya dolayısı yolla əhalinin həyat səviyyəsini stabilləşdirmək məqsədi ilə iqtisadiyyatın tənzimləməsini həyata keçirir. Bunun əsas səbəbi, gələcəkdə baş verə biləcək bütün iqtisadi krizislərdə həm xalqın maddi ehtiyaclarını və bu kimi başqa problemlərin qarşısın almağa çalışır. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Azərbaycanda vergi sistemində kifayət qədər formalaşmayan innovasiyaların stimullaşdırılmasının inkişaf dərəcəsinə görə digər sənaye ölkələrindən çox fərqlənməsinə baxmayaraq, vergi seçiminin inkişaf istiqaməti dövlət tərəfindən aparılmaqdadır. Dövlət tərəfindən tənzimlənən vergi imtiyazlarının əsas üstünlükləri ölkədə qeyri-istehsal sistemindəki vəziyyəti və Azərbaycanda vergi sistemində baş verən dəyişikliklərlə izah olunur. Burada əsas məsələ, iqtisadi inkişafın stimullaşdırılması və tənzimlənməsində vergi mexanizmlərinin təkmilləşdirilməsi məsələsidir. İqtisadi inkişafın stimullaşdırılması və tənzimlənməsində vergi güzəştləri etməklə dövlət gələcəkdə qarşılaşa biləcək bir çox problemləri həll edərək, qeyri – neft sektorunun, xüsusi ilə də biznesin inkişafında dövlət dəstəyini stimullaşdıra bilər. Azərbaycanda vergi mexanizmlərinin formalaşmasında, regional diferensiallaşmanın tənzimlənməsi, sosial funksiyaların gücləndirilməsinə təkan verə bilər.

Azərbaycanın neft ölkəsi olması bir çox fərqli məqamlar yaradır. Belə ki, neftin dünya bazarındakı qiymətinin dəyişməsi ölkədə, iqtisadiyyatın inki-

şafına təsir edir. Dünya bazarında neftin qiymətinin yuxarı qalxması və ya aşağı düşməsi zamanı dövlət intensiv inkişaf yolları axtararaq, əmək məhsuldarlığını sabit saxlamağa çalışır.

**Azərbaycanda vergi sisteminin yaranması tarixinin dünəni və bu günü**

Dünya iqtisadiyyatında vergilər iqtisadi münasibətlərdə fəal iştirak edərək, dövlət gəlirlərinin əsasını təşkil edirdi. Qədim dövrlərdə verginin ilk forması qurban gətirməklə başlamışdır. Dövlətin təşkilində qurban verilməsi könüllü adı altında, məcburi xarakter daşıyırdı. Vergi sisteminin ilk formaları Qədim Romada yaranmışdır. Roma əhalisi ailə tərkibinə və əmlakına görə vergi ödəyirdi.

E.ə. IV - III əsrlərdə Romada dövlət strukturunun inkişafı ilə birgə yeni koloniyalarda kommunal təsərrüfatlar inkişaf etməyə başlamışdır. Roma dövlətində maliyyə təsərrüfatının təşkili (e.ə. 63-cü il - eramızın 14-cü ili) imperator Avqust Oktavianın diqqət yetridiyi əsas sahələrdən biri hesab olunurdu. Məhz onun dövründə birbaşa və dolayı vergitutma sistemi yaradıldı. (1)

Qədim Romada ən mühüm vergilər bunlar idi:

- 1%-li dövriyyə vergisi,
- 4%-li qul satışından alınan xüsusi dövriyyə vergisi,
- qulların azad olarkən 5%-li vergi,
- torpaq vergisi,
- adam başına və ya can vergisi,
- tikililərə görə vergi,
- aksizlər, gömrük rüsumları, kommunal vergilər,
- tüstü vergisi,
- 5%-li vərəsəlik vergisi və s. (1)

Azərbaycanda vergi sisteminin tarixini bir neçə dövrə bölmək olar. Əlverişli coğrafi mövqeyi, təbii sərvətlərinin bolluğuna görə uzun illər Azərbaycan əsarət altında olmuşdur. Uzun illər Azərbaycan dövləti əsarət altında olduğundan müstəqil vergi sistemi və vergi siyasəti olmamışdır. Azərbaycan Respublikasında müstəqil vergi sistemi 1990-cı illərin əvvəllərində təşəkkül tapmışdır. Respublikamızda vergi sistemi iqtisadi münasibətlərin zəruri həlqəsini təşkil edir. Dövlətin inkişafı ilə vergi sistemi də dəyişmişdir. Azərbaycanın vergi sisteminin tarixini bir neçə dövrə bölmək olar. Azərbaycanın vergi sistemini aşağıdakı kimi dörd tarixi mərhələyə ayırmaq olar: (3, 87)

1. Qədim dövrlərdə (Xəzərə qədər) Azərbaycanda vergilər;
2.X-XX əsrin əvvəllərində Azərbaycanda vergilər;
3.Azərbaycan Cümhuriyyəti (1918 - 1920-ci illər) və sovet dövründə vergilər;
4.Müstəqillik dövründə Azərbaycanda vergilər. (3, 87)

III-IV əsrin I yarısında Azərbaycanda vergi mənasında olan "xaraq" termini III-IV əsrlərdə torpaq vergisinə aid edilirdi. Torpaq vergisinin miqdarı əkilən bitkinin xarakterindən asılı olaraq dəyişirdi. Bundan başqa Azərbaycanda torpaq və can vergisindən başqa aşağıdakı vergilər alınırdı:

- xüms – mülkiyyətdən və əmlakdan alınan vergi,
- gəlirin 1/5-nə bərabər olan vergi;
- zəkat – yoxsulların xeyrinə varlı müsəlmanların əmlakından tutulan vergi;
- zəkat əl-fitr – orucluğun başa çatması münasibətilə verilən pay – fitrə;
- sədəqə – yoxsullara verilən ianə;
- uşr – məhsulun 1/10-nə bərabər vergi.

Bunlardan başqa Bakıda (Şirvanda) neft və duz mədənlərindən də vergi tutulurdu. (1)

1919-cu il iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanda vergi xidməti parlamentin qəbul etdiyi qərarla Maliyyə Nazirliyinin nəzdində Vergi Müfəttişliyinin təsis olunması ilə yaradılıb. Azərbaycanda vergi xidməti 1920-1991-ci illərdə SSRİ-nin tərkibində Sovetlər İttifaqının vergi qanunlarına tabe olub. Yalnız müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasında vergi sistemi Maliyyə Nazirliyinin tərkibində yaradılıb. (4)

Bu onu deməyə əsas verir ki, Azərbaycanda vergi sisteminin formalaşması müstəqillik dövründə xüsusi hal aldı. Azərbaycanda Dövlət başçısının 369 saylı fərmanı ilə, 14 oktyabr 1991-ci il tarixində vergi sisteminin yaranmasına başlandı. Bu prosesin ardınca, 21 iyun 1992-ci ildə, dövlət vergi sisteminin vəzifələri təmin edən "Dövlət vergi xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Ulu öndər Heydər Əliyevin göstərişi ilə, 2 hissədən, 17 fəsildən, 221 maddədən ibarət olan Vergi Məcəlləsi 2001-ci ilin yanvar ayının 1-dən hüquqi statusun qazandı. (3, 94)

**Azərbaycanın iqtisadi inkişaf strategiyasında vergi islahatlarının gələcək hədəflərində vergi siyasətinin əhəmiyyəti**

Azərbaycan qeyri-neft sektoru sahəsinin inkişafı üçün makroiqtisadi sabitliyin tamında vergi siyasəti xüsusi əhəmiyyət daşıyır. İqtisadiyyatda rəqabət qabiliyyətinin yüksəldilməsində dövlətin iqtisadi siyasəti, ixrac potensialının artırılmasına, regional

sahənin inkişafında vergi sistemi xüsusi yerdə dayanır. Dövlətin sosialyönümlü siyasətində vergi siyasətində şəffaflığın gücləndirilməsi məsələlərinə üstünlük verilir. Azərbaycanda vergi sisteminin güclənməsi ümumi daxili məhsulun (ÜDM) artım tempinə təsir edir.

Ümumi daxili məhsulun (ÜDM) artım tempi qeyri-neft sektorunda artım göstəricisi monetar siyasətin səmərəli koordinasiyasında makroiqtisadi sabitliyin təmin edilməsi əsas məsələlərdəndir. Azərbaycanda dayanıqlı inkişaf üçün dövlət tərəfindən prioritetlər müəyyənləşdirilib. Ölkəmizin iqtisadi həyatında "Azərbaycanın 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın qəbul edilməsi ÜDM-in artım tempinə təsir etməklə vergi siyasətinin düzgün qurulması vacib məsələlərdən hesab olunur. (5)

Müasir dövrdə Azərbaycanın iqtisadi hədəflərə uyğun vergi siyasətinin aktuallığını nəzərə alaraq, yeni strateji inkişaf mərhələsi mühüm gözləntilərlə səciyyələnir. Azərbaycanın Vergi siyasəti dövrün müəyyən edilmiş bazar iqtisadiyyatı qanunları əsasında idxal məhsullarının yerli istehsal olunan məhsulları ilə əvəz olunmasına çalışmaqla, ölkə daxilində istehsal sənayesinin inkişafının tənzimlənməsinə nail olmaqdan ibarətdir.

**Cədvəl 1**
**Azərbaycan və dünya ölkələrinin beynəlxalq ixrac – idxal (milyard ABŞ dolları) əməliyyatları**

| **Ölkələr** | | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | İxrac | 21,8 | 12,7 | 13,5 | 15,3 | 19,5 | 19,6 | 13,7 | 22,2 |
| | İdxal | 9,2 | 9,2 | 8,5 | 8,8 | 11,5 | 13,7 | 10,7 | 11,7 |
| Rusiya | İxrac | 497,4 | 343,5 | 285,7 | 357,3 | 450,3 | 424,3 | 337,1 | 493,1 |
| | İdxal | 287,1 | 182,9 | 182,4 | 227,9 | 238,7 | 244,6 | 232,1 | 293,5 |
| Avstraliya | İxrac | 241,2 | 188,5 | 192,5 | 231,1 | 254,7 | 271,0 | 250,8 | 344,8 |
| | İdxal | 227,6 | 200,2 | 189,1 | 221,2 | 227,3 | 221,6 | 211,8 | 261,2 |
| Avstriya | İxrac | 169,2 | 145,8 | 145,1 | 160,3 | 184,8 | 178,7 | 169,4 | 202,8 |
| | İdxal | 171,4 | 148,1 | 150,1 | 166,7 | 193,7 | 184,8 | 172,4 | 219,5 |
| Argentina | İxrac | 71,9 | 56,8 | 57,7 | 58,6 | 61,7 | 64,5 | 54,9 | 77,9 |
| | İdxal | 65,3 | 59,8 | 55,6 | 66,9 | 65,5 | 49,1 | 42,4 | 63,2 |
| Ermənistan | İxrac | 1,5 | 1,5 | 1,8 | 2,2 | 2,4 | 2,6 | 2,5 | 3,0 |
| | İdxal | 4,4 | 3,2 | 3,3 | 4,1 | 5,0 | 5,5 | 4,6 | 5,4 |
| Belarus | İxrac | 36,1 | 26,7 | 23,5 | 29,2 | 33,9 | 33,0 | 29,2 | 40,0 |
| | İdxal | 40,5 | 30,3 | 27,6 | 34,2 | 38,4 | 39,5 | 32,8 | 41,8 |
| Belçika | İxrac | 473,4 | 397,9 | 398,2 | 430,1 | 468,7 | 446,9 | 422,3 | 545,3 |
| | İdxal | 453,8 | 375,6 | 379,4 | 409,1 | 454,9 | 428,9 | 397,4 | 510,2 |
| Bolqarıstan | İxrac | 30,9 | 25,8 | 26,7 | 31,6 | 33,6 | 33,3 | 32,0 | 41,0 |
| | İdxal | 34,7 | 29,3 | 29,0 | 34,3 | 37,9 | 37,7 | 35,1 | 46,2 |
| Braziliya | İxrac | 225,1 | 191,1 | 185,2 | 217,8 | 242,4 | 221,1 | 209,2 | 280,8 |
| | İdxal | 239,2 | 178,8 | 143,4 | 157,5 | 190,0 | 193,2 | 166,3 | 234,7 |
| Böyük Britaniya və | İxrac | 482,4 | 438,3 | 404,3 | 436,5 | 486,6 | 460,0 | 399,5 | 468,2 |
| Şimali İrlandiya BK | İdxal | 684,1 | 618,7 | 583,5 | 613,0 | 673,7 | 696,2 | 638,3 | 693,8 |
| Macarıstan | İxrac | 112,4 | 100,3 | 103,0 | 113,7 | 124,7 | 123,8 | 120,7 | 141,9 |
| | İdxal | 103,9 | 90,7 | 91,4 | 103,8 | 120,7 | 120,6 | 116,0 | 142,0 |
| Almaniya | İxrac | 1492,5 | 1323,7 | 1334,4 | 1448,2 | 1560,5 | 1489,4 | 1382,5 | 1631,9 |
| | İdxal | 1209,3 | 1052,9 | 1055,3 | 1162,9 | 1284,3 | 1234,0 | 1171,8 | 1420,1 |
| Gürcüstan | İxrac | 2,9 | 2,2 | 2,1 | 2,1 | 3,4 | 3,8 | 3,3 | 4,2 |
| | İdxal | 8,6 | 7,3 | 7,3 | 7,3 | 9,4 | 9,5 | 8,1 | 10,1 |
| Qazaxıstan | İxrac | 79,5 | 46,0 | 36,7 | 48,5 | 61,1 | 58,1 | 47,5 | 60,3 |
| | İdxal | 41,3 | 30,6 | 25,4 | 29,6 | 33,7 | 39,7 | 38,9 | 41,4 |
| Qırğızıstan | İxrac | 1,9 | 1,5 | 1,6 | 1,8 | 1,8 | 2,0 | 2,0 | 2,8 |
| | İdxal | 5,7 | 4,2 | 4,0 | 4,5 | 5,3 | 5,0 | 3,7 | 5,6 |
| Moldova | İxrac | 2,3 | 2,0 | 2,0 | 2,4 | 2,7 | 2,8 | 2,5 | 3,1 |
| | İdxal | 5,3 | 4,0 | 4,0 | 4,8 | 5,8 | 5,8 | 5,4 | 7,2 |
| Tacikistan | İxrac | 1,0 | 0,9 | 0,9 | 1,2 | 1,1 | 1,2 | 1,4 | 2,1 |
| | İdxal | 4,3 | 3,4 | 3,0 | 2,8 | 3,2 | 3,3 | 3,2 | 4,2 |
| Türkmənistan | İxrac | 19,8 | 12,1 | 7,5 | 7,8 | 11,7 | … | … | … |
| | İdxal | 16,6 | 14,1 | 13,2 | 10,2 | 5,3 | … | … | … |
| Ukrayna | İxrac | 53,9 | 38,1 | 36,4 | 43,3 | 47,3 | 50,1 | 49,2 | 68,1 |
| | İdxal | 54,4 | 37,5 | 39,2 | 49,6 | 57,2 | 60,8 | 54,3 | 72,8 |
| Danimarka | İxrac | 110,5 | 94,6 | 95,2 | 101,7 | 109,7 | 111,1 | 108,5 | 125,9 |
| | İdxal | 99,1 | 85,2 | 85,3 | 92,4 | 102,6 | 98,2 | 98,3 | 120,3 |
| Hindistan | İxrac | 322,5 | 267,4 | 264,5 | 299,1 | 323,3 | 324,9 | 276,4 | 395,4 |
| | İdxal | 462,9 | 392,8 | 361,6 | 449,8 | 509,0 | 486,1 | 373,2 | 572,9 |
| İtaliya | İxrac | 528,0 | 457,0 | 462,9 | 510,6 | 549,5 | 537,7 | 499,8 | 610,3 |
| | İdxal | 470,4 | 410,9 | 406,8 | 456,8 | 503,2 | 475,0 | 426,9 | 557,5 |
| Kanada | İxrac | 470,0 | 410,8 | 393,5 | 424,0 | 447,7 | 448,8 | 390,6 | 507,6 |
| | İdxal | 466,0 | 419,7 | 403,0 | 433,2 | 458,0 | 462,7 | 420,1 | 504,0 |
| Çin | İxrac | 2343,2 | 2282,4 | 2136,7 | 2280,4 | 2501,3 | 2499,5 | 2599,0 | 3363,8 |
| | İdxal | 1963,1 | 1680,8 | 1589,5 | 1842,3 | 2134,0 | 2078,4 | 2066,0 | 2688,6 |
| Litva | İxrac | 32,4 | 25,4 | 25,0 | 29,9 | 33,3 | 33,2 | 32,9 | 40,8 |
| | İdxal | 35,2 | 28,2 | 27,3 | 32,3 | 36,5 | 35,8 | 33,4 | 44,6 |
| Meksika | İxrac | 397,7 | 380,6 | 373,9 | 409,5 | 450,7 | 460,6 | 417,2 | 494,8 |
| | İdxal | 400,0 | 395,2 | 387,1 | 420,4 | 464,3 | 467,1 | 393,3 | 522,5 |
| Niderland | İxrac | 574,2 | 473,9 | 470,2 | 527,8 | 726,7 | 708,6 | 674,6 | 836,5 |
| | İdxal | 508,2 | 424,9 | 412,3 | 464,9 | 645,5 | 635,7 | 595,1 | 758,0 |
| Norveç | İxrac | 142,3 | 103,8 | 89,5 | 102,0 | 122,1 | 102,8 | 84,5 | 160,1 |
| | İdxal | 88,1 | 76,4 | 72,7 | 82,8 | 89,1 | 85,3 | 80,4 | 97,8 |
| Polşa | ixrac | 216,7 | 198,2 | 203,9 | 234,3 | 263,6 | 266,6 | 273,8 | 337,9 |
| | idxal | 219,9 | 194,1 | 199,6 | 233,7 | 269,0 | 265,3 | 261,6 | 338,3 |
| Koreya Respublikası | İxrac | 572,7 | 526,8 | 495,4 | 573,7 | 605,7 | 542,6 | 512,5 | 644,4 |
| | İdxal | 525,5 | 436,5 | 406,2 | 478,5 | 534,7 | 503,3 | 467,6 | 615,1 |
| Rumıniya | İxrac | 69,9 | 60,6 | 63,6 | 70,8 | 79,7 | 76,9 | 70,7 | 87,4 |
| | İdxal | 77,9 | 69,9 | 74,6 | 85,5 | 97,7 | 96,5 | 92,1 | 116,2 |
| ABŞ | İxrac | 1623,4 | 1503,1 | 1451,0 | 1546,7 | 1664,2 | 1643,2 | 1424,9 | 1754,3 |
| | İdxal | 2412,6 | 2315,3 | 2250,2 | 2409,5 | 2542,7 | 2567,4 | 2406,9 | 2935,3 |
| Türkiyə | İxrac | 157,6 | 144,0 | 142,7 | 157,2 | 177,2 | 180,8 | 169,6 | 225,2 |
| | İdxal | 242,2 | 207,0 | 198,6 | 233,8 | 231,2 | 210,3 | 219,5 | 271,4 |
| Finlandiya | İxrac | 74,3 | 59,7 | 57,4 | 67,5 | 75,9 | 73,5 | 66,2 | 82,0 |
| | İdxal | 76,6 | 60,4 | 60,8 | 70,6 | 78,6 | 73,7 | 68,3 | 86,0 |
| Fransa | İxrac | 568,5 | 506,2 | 501,4 | 535,0 | 582,2 | 571,0 | 488,6 | 584,8 |
| | İdxal | 670,1 | 573,2 | 571,9 | 624,0 | 676,4 | 654,7 | 581,3 | 714,1 |
| İsveç | İxrac | 162,6 | 140,0 | 139,3 | 152,9 | 166,0 | 160,6 | 155,5 | 189,7 |
| | İdxal | 159,5 | 138,3 | 141,0 | 154,2 | 170,6 | 159,0 | 150,0 | 186,9 |
| Yaponiya | İxrac | 690,2 | 624,8 | 644,9 | 698,1 | 737,9 | 705,6 | 641,3 | 756,0 |
| | İdxal | 811,9 | 648,0 | 607,6 | 671,9 | 748,3 | 721,0 | 635,5 | 769,0 |

*Mənbə: https://www.stat.gov.az/source/trade/*

Cədvəl 1 verilən statistik məlumatlara əsasən onu demək olar ki, Azərbaycan MDB dövlətləri arasında xüsusi irəliləyişə nail olmuşdur. Belə ki, 2014 - cü ildə ixrac 21.8, idxal 9.2, 2021-ci ildə isə bu göstərici 0.4 ixrac, 2.5 idxal artaraq, 2021-ci ildə idxal 22.2, ixrac 11.7 milyard ABŞ dolları olmuşdur. Respublikada aparılan düzgün iqtisadi siyasətin nəticəsi olaraq, vergilərin düzgün tənzimləməsi bu inkişafın əsas amili olduğunu deməyə əsas verir.

Dövlət iqtisadi inkişafı nəzarətdə saxlamaqla, ölkənin ehtiyac duyduğu məhsulların idxalından asılılığın, müəyyən etməklə, bu məhsulların ölkə daxilində istehsalına şərait yaratmağa cəhd göstərir. Dövlətin bu tənzimləmə forması vergi sistemi ilə əlaqəli olduğundan, Azərbaycanın iqtisadi inkişaf strategiyasında vergi siyasətinin tənzimləmələrini həyata keçirəcək layihələrə ehtiyac vardır.

**Cədvəl 2**
**Azərbaycanın xarici ticarət dövriyyəsinin dinamikası**

| İllər | Milyon ABŞ dolları ilə | | | | Əvvəlki ilə nisbətən faktiki qiymətlərlə, faizlə* | | |
|---|---|---|---|---|---|---|---|
| | ticarət dövriyyəsi | idxal | ixrac | saldo | ticarət dövriyyəsi | idxal | ixrac |
| 1991 | 4.002,2 | 1.881,2 | 2.121,0 | 239,8 | x | x | x |
| 1992 | 2.423,8 | 939,8 | 1.484,0 | 544,2 | 60,6 | 50,0 | 70,0 |
| 1993 | 1.353,5 | 628,8 | 724,7 | 95,9 | 55,8 | 66,9 | 48,8 |
| 1994 | 1.430,6 | 777,9 | 652,7 | -125,2 | 105,7 | 123,7 | 90,1 |
| 2020 | 24.464,6 | 10.732,0 | 13.732,6 | 3.000,6 | 72,7 | 64,0 | 78,8 |
| 2021 | 33.911,2 | 11.703,2 | 22.208,0 | 10.504,8 | 87,2 | 90,0 | 85,0 |
| 2022 | 52.686,5 | 14.539,9 | 38.146,6 | 23.606,7 | 103,3 | 101,7 | 104,2 |

*Mənbə: 1. Dövlət Gömrük Komitəsinin məlumatları 2. 2010-2022-ci illər üzrə indekslər qiymət amili nəzərə alınmaqla hesablanmışdır.*

Cədvəldən göründüyü kimi, Azərbaycanın xarici ticarət dövriyyəsinin ən aşağı göstəricisi, 1993-cü ilə təsadüf edir. Belə ki, bu ildə xarici ticarət dövriyyəsinin dinamikası 1.353,5 milyon ABŞ dolları olmuşdur. Bunun əsas səbəbi Ermənistan Respublikasının ölkəmizə qarşı əsassız torpaq iddiası ilə apardığı hərbi münaqişələri göstərmək olar. Respublikada aparılan düzgün iqtisadi siyasətin nəticəsi olaraq, 2022-ci ildə xarici ticarət dövriyyəsinin dinamikası 52.686,5 milyon ABŞ dolları olmuşdur.

Nəzərə alsaq ki, maliyyə bazarlarının inkişaf etməsi, real sektorun inkişafı ilə düz mütənasibdir. Düzgün iqtisadi siyasətin nəticəsi olaraq, Azərbaycan dünyada maliyyə bazarlarının inkişafında vergi tənzimlənməsinə nail olmuşdur. Müasir dövrdə Respublikamızda maliyyə texnologiyasının inkişafı vergi tənzimləmələrini aktuallaşdırır.

Son zamanlar Azərbaycan işğaldan azad olunmuş ərazilərdə, iqtisadi inkişafa nail olmaq, bu sahələrin yenidən inkişafı üçün, sabit xərclərinin azaldılmasında, bu regionlarda iqtisadi sahələrin inkişafı, vergi islahatlarında öz əksini tapmalı və "Azərbaycanın 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda vergi siyasətində innovasiyanın inkişafı genişlənməlidir.

Vergi sahəsində respublikada həyata keçirilən iqtisadi siyasətdə beynəlxalq proseslər də nəzərə alınır. Dünya iqtisadiyyatının sürətli inkişafı ilə yanaşı, bu ölkələrdə tətbiq olunan vergi qanunları öyrənilir. Bir sözlə beynəlxalq təcrübələrin öyrənilməsi vacib sayılır. Dünya təcrübəsinin ölkənin vergi qanunvericiliyində nəzərə alınması vacib sayılır. 2022-2030-cu illərdə Azərbaycanın iqtisadi inkişaf strategiyasında vergi islahatlarının gələcək hədəflərində vergi siyasətinin əhəmiyyəti durmadan artmaqdadır. Qarşıya qoyulan hədəflərə çatmaq üçün isə, dövlət tərəfindən həyata keçirilən islahatların yerinə yetirilməsi, gələcəkdə milli iqtisadiyyatımızın yüksək templə inkişafına səbəb olması proqnozlaşdırılır. Bu baxımdan vergi qanunvericiliyini, onun fəaliyyət qaydası və şərtlərini bilmək istər bütövlükdə cəmiyyət, istərsə də onun hər bir üzvü tərəfindən vergi mədəniyyətinin dərk edilməsi üçün əvəzsiz şərtdir. (6, 4)

Azərbaycanda vergi sisteminin effektivliyinin artırılması amilinin iqtisadi inkişafa təsiri

İnnovativ iqtisadi inkişafın stimullaşdırılması və tənzimlənməsində vergi mexanizmlərinin düzgün istifadə olunması iqtisadiyyata təsir göstərməyə başlayır. Dövlət vergi sistemi effektivliyinin artırmaqla iqtisadiyyata təsir edərək, qanunverici bazanın yaradılmasına nail olur. Bütün bu proseslər nəticəsində dövlətin iqtisadiyyata təsiri vacib amilə çevrilir. Dünyada baş verən müharibələr, iqtisadi böhranlar şəraitində dövlət iqtisadi tənzimlənmə mexanizmindən istifadə edir. Bütün burada əsas maksimal hədd, dövlətin qəbul etdiyi hüquqi normativ aktların iqtisadi prinsip qanunlarına əsaslanaraq, ona zidd olmamasıdır.

Bütün hüquqi normativ aktların iqtisadi prinsip qanunlarına əsaslanaraq, ona zidd olmaması üçün, Azərbaycanda vergi sistemi effektivliyinin artırılması amilinin iqtisadi inkişafa təsiri məsələsi aktual olmaqla yanaşı, vacib faktorlardandır. Belə ki, mövcud ola biləcək problemlərin yaranmaması üçün, iqtisadi inkişafda vergi mexanizminin tənzimləməsi aktual məsələlərdən hesab olunur.

**Nəticə**

Bütün bunlarla yanaşı Azərbaycanda innovativ iqtisadi inkişafın stimullaşdırılması və tənzimlənməsində vergi mexanizmlərinin strukturunu müasir dövrün tələbləri baxımından təkmilləşdirilməyə ehtiyac vardır. Azərbaycanın iqtisadi inkişafının göstəricilərinə nəzər saldıqda görünür ki, müasir texnologiyalara olan tələbatın 50-80%-dən çoxu idxal hesabına ödənilir. Bu baxımdan, Azərbaycanda innovasiya-

lara olan marağın azalması yolverilməzdir. Bunun üçün də mövcud elmi-texniki innovativ potensialın iqtisadiyyatın sənaye sektorunda vergisi krediti, investisiya fəaliyyətinin stimullaşdırılmasında dünya təcrübəsindən istifadə edilməlidir. Bu sahədə vergi siyasəti yeni investisiyalar üçün mühüm imkanlar yaradır. Bu proses köhnəlmiş avadanlıqların dəyişdirilməsi və yeni texnologiyaların tətbiqi üçün səmərəli hesab olunur.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. https://taxes.gov.az/vn/child/vergitarixi.html*

*2. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimləməsinin əsasları. Metodik vəsait. Bakı: "İqtisad Universiteti" – 2011. -120 səh.*

*3. Nəbiyev İsmayıl İbrahim oğlu, Azərbaycanda vergi sisteminin tarixi, «Azərbaycanın vergi xəbərləri».-2011.-№6.-S.87-106.*

*4. https://www.taxes.gov.az/az*

*5. https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e72131_az.html*

*6. Налоги и налогообложение в Российской, Федерации: Учебник для вузов. — 6-е изд., доп.и перераб.—М.: Международный центр финансовоэкономического развития, 2004. — 576 с.*

## XÜLASƏ

Məqalədə Azərbaycan Respublikasında iqtisadi inkişafın stimullaşdırılmasında vergi mexanizmlərinin təkmilləşdirilməsi məsələlərindən bəhs edilir. İnnovativ iqtisadi inkişafın stimullaşdırılmasında vergi sisteminin əhəmiyyətinin nə dərəcədə sabit və innovativ yönümlü olması məsələsi, məqalənin əsas hissəsini təşkil edir. Digər iqtisadi sahələrdən fərqli olaraq Azərbaycan Respublikasının vergi sistemində innovasiyalardan az istifadə olunduğu məqalədə statistik məlumatlar əsasında şərh edilmişdir. Eyni zamanda, bu sahədə yaranan problemlər və bu problemlərin aradan qaldırılması üçün təklif və tövsiyələr verilmişdir. Vergi sistemində innovasiyalardan düzgün istifadə olunmamasının, zəif investisiya potensialının yaranmasına səbəb olduğu göstərilmişdir.

İqtisadi artımın inkişafının əsas mənbəyi müasir vergi mexanizmidir. Bu sahənin əhəmiyyətini dərk edən inkişaf etmiş ölkələr əsas iqtisadi siyasətini bu sahəyə yönəltmişdir. Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikasında vergi mexanizminin tənzimlənməsinin innovativ iqtisadi inkişafı üçün aktual məsələlərdən olduğu məqalədə göstərilmişdir. İnkişaf etmiş ölkələrin təcrübəsini əsas tutaraq, Azərbaycan Respublikasında innovativ iqtisadi inkişafın stimullaşdırılması və tənzimlənməsində vergi mexanizmlərinin rolunun artırılması üçün təklif və tövsiyələr verilmişdir.

**Aşar sözlər:** *innovasiya, vergi mexanizmləri, dünya bazarı, iqtisadiyyatın tənzimlənməsi, vergi siyasəti.*

## РЕЗЮМЕ

В статье рассматриваются вопросы совершенствования налоговых механизмов стимулирования экономического развития в Азербайджанской Республике. Основную часть статьи составляет вопрос о том, насколько устойчива и инновационно ориентирована налоговая система в стимулировании инновационного развития экономики. В отличие от других областей экономики, в статье на основе статистических данных поясняется, что в налоговой системе Азербайджанской Республики инновации используются меньше. При этом были даны проблемы, возникающие в этой области, и предложения и рекомендации по преодолению этих проблем. Показано, что нецелевое использование нововведений в налоговой системе приводит к созданию слабого инвестиционного потенциала.

Основным источником развития экономического роста является современный налоговый механизм. Понимая важность этой области, основная экономическая политика развитых стран была сосредоточена на этой области. Учитывая все это, в статье показано, что регулирование налогового механизма в Азербайджанской Республике является одним из актуальных вопросов инновационного развития экономики. На основе опыта развитых стран сделаны предложения и рекомендации по повышению эффективности налоговых механизмов в стимулировании и регулировании инновационного развития экономики в Азербайджанской Республике.

**Ключевые слова:** *инновации, налоговые механизмы, мировой рынок, регулирование экономики, налоговая политика.*

UOT 338.48

# QUBADLI RAYONUNDA ALTERNATİV TURİZM POTENSİALI

**SÜLEYMAN ƏKBƏROV**
*Azərbaycan Turizm və Menecment Universiteti*
*E-mail: ekberov-s@list.ru*

XX əsrin 80-ci illərindən etibarən insanların istirahət tələbatlarında ciddi dəyişikliklər müşahidə olunmağa başladı. Səyahət edənlər artıq daha komfortlu və lüks ərazilər əvəzinə, daha sakit və daha təbii ərazilərdə istirahət etmək tələbatlarını irəli sürmüş oldular. Məhz həmin dövrdən etibarən turizm sektorunda alternativ turizm növləri yaranmağa başladı. Alternativ turizm növlərindən ən geniş yayılmış növləri ekoturizm, kənd turizmi və aqroturizm olaraq bilinir. Hazırda dünyada bu turizm növləri üzrə İtaliya, Fransa, İspaniya, Türkiyə daha ön sıralarda yer alırlar [5. s.10].

Ölkəmizdə də alternativ turizm növləri çox böyük potensiala malikdir. Belə ki ölkəmizdə mövcud olan üç mindən çox kənd və kənd tipli yaşayış məskənləri kənd turizminin, təbii ərazilər, kənd ərazilərində təsərrüfat növləri aqroturizmin, "Akademik H.Əliyev adına Zəngəzur Milli Parkı", "Ağgöl Milli Parkı", "Şirvan Milli Parkı", "Hirkan Milli Parkı", "Altıağac Milli Parkı", "Abşeron Milli Parkı", "Şahdağ Milli Parkı", "Göygöl Milli Parkı", "Samur-Yalama Milli Parkı", "Qızılağac Milli Parkı" ekoturizm növlərinin inkişaf etdirilməsi baxımından böyük potensial bəxş edir.

İşğaldan azad olunmuş ərazilərimiz, o cümlədən Qubadlı rayonunun yerləşdiyi coğrafi mövqe turizm fəaliyyətlərinin həyata keçirilməsi baxımından çox əlverişlidir. Xüsusi ilə də Qubadlı rayonunun ərazisinin bir hissəsinin təbii resurs və meşələrlə əhatə olunması, burada ekoturizmdən istifadənin mümkünlüyünün göstəricisidir. Qubadlı rayonunun ərazisinin təbii müxtəlifliyi təbiətsevər turistlər üçün mühüm əhəmiyyətli bir destinasiyaya çevrilə bilər. Təbii ki, bunun üçün də mövcud potensialdan maksimum şəkildə yararlanmaq lazımdır.

Kənd və aqroturizm isə daha çox perspektiv bəxş etməklə yanaşı böyük bir potensiala malikdir. Qubadlı rayonun tərtib olunmuş baş planında da bu turizm növlərinin inkişaf etdiriləcəyinə dair məlumatlar qeyd olunmuşdur. Ümumilikdə ölkəmiz üçün kənd və aqroturizm çox geniş istifadə olunmayan və yeni bir turizm növü olmaqla yanaşı, məhz işğaldan azad edilmiş ərazilərimizdə bu turizm növlərinin inkişaf etdirilməsi daha məqsədəuyğundur. Ədəbiyyatlarda bəzən kənd və aqroturizm qarışdırılır və bir-biri ilə eyni funksiyaya malik olduğu bildirilsə də, əslində kənd turizmi daha geniş anlayış olmaqla yanaşı, öz daxilində aqroturizmi də əhatə edə bilməkdədirsə, aqroturizm kənd turizminə olan nisbətdə daha dar anlamdadır və onun daxilində kənd turizmi mövcud ola bilmir.

Kənd və aqroturizmdən daha az istifadə olunmasından əlavə olaraq, postpandemiya dövründə digər turizm növlərində olduğu kimi kənd turizmində də yüksək dərəcədə azalmalar müşahidə olunmağa başladı. Aşağıdakı diaqramda pandemiyadan öncəki ildə, ölkəmiz üzrə ümumi turizm xərclərinin iqtisadi rayonlar üzrə bölgüsü verilmişdir.

**Diaqram 1. 2019-cu ildə ölkə üzrə həyata keçirilən ümumi turizm xərclərinin bölgüsü (iqtisadi rayonlar üzrə)**




*Mənbə: [1].*

Alternativ turizm növləri hər nə qədər böyük potensial bəxş etsə də, yuxarıda qeyd olunan turizm xərclərinin çox az bir hissəsi kənd və aqroturizmin payına düşüb. Məhz bu turizm növlərinin, turizm sektorunda payının yüksəldilməsi üçün, işğaldan azad edilmiş ərazilərin böyük potensialından istifadə etmək lazımdır.

Qubadlı rayonunda yerləşən 16 ölkə əhəmiyyətli və 51 yerli əhəmiyyətli tarixi abidə turizmin inkişaf etdirilməsində əhəmiyyətli bir rola malik olacaqdır. Xüsusi ilə də Qədili, Eyvazlı, Qayalı, Seytas, Məmər, Dəmirçilər və Dondarlı kəndləri bu baxımdan daha

böyük əhəmiyyətə malikdir və kənd turizmi, aqroturizmin inkişaf etdirilməsi mümkündür. Bərgüşad çayı sahilləri isə ekoturizm üçün əsas ərazilər olaraq tanınır.

Şərqi Zəngəzurun qərb hüdudlarında yerləşən Qubadlı rayonuna ötən ilin 19 oktyabr tarixində Prezident İlham Əliyevin səfəri həyata keçirilib. Prezident Qubadlının baş planı ilə tanış olub. Baş plana əsasən, Qubadlı ərazisində yaxın 20 il ərzində əsas diqqət yönəldiləcək sahələr aşağıdakı cədvəldə qeyd olunub.

**Cədvəl 1. Qubadlı rayonunda qarşıdakı 20 il üçün inkişaf etdirilməsi nəzərdə tutulan sahələr**

| Sıra | Sahələr üzrə |
|---|---|
| **1.** | **Bitkiçilik və ekoloji kənd təsərrüfatı** |
| **2.** | **Balıqçılıq və balıqyetişdirmə** |
| **3.** | **Müasir sənətkarlıq** |
| **4.** | **Yüngül sənaye** |
| **5.** | **Təbiət əsaslı aqroturizm** |
| **6.** | **Digər sahələr** |

*Mənbə: [3, s.2]*

Cədvəldən də göründüyü kimi Qubadlı rayonunda aqroturizmin inkişaf etdirilməsi qarşıdakı 20 il ərzindən nəzərdə tutulan sahələrdəndir. Ümumiyyətlə hər hansı bir sahə və ya sektorun inkişaf etdirilməsi baxımından dövlət layihələri və dövlət dəstəyi ən önəmli amillərdən biridir. Məhz dövlətimizində bu sahəyə dəstək olması Qubadlı rayonunda aqroturizm o cümlədən, alternativ turizm növlərinin inkişaf etdirilməsi üçün böyük əhəmiyyət kəsb etmiş olacaq.

Aqroturizm xüsusilə kənd təsərrüfatının iqtisadiyyatda mühüm yer tutduğu inkişaf etməkdə olan ölkələrdə dolanışıq vasitələrini artıran və yaxşılaşdıran bir mənbə kimi görülür [6. s.1185-1198]. Bundan əlavə, bir çox turistin daha əvvəl getdikləri yerləri və gündəlik həyatdan fərqli fəaliyyətləri yaşamaq istəməsi aqroturizmin çox sürətlə böyüməsini təmin edir [7. s.209-223].

Aqroturizm ilk növbədə kənd təsərrüfatı ilə məşğul olan və dolanışığını əkinçiliklə təmin edən yerli əhalini əhatə edir. Bununla belə, ətrafdakı cəmiyyətlərin sosial-mədəni quruluşuna da müsbət təsir göstərir. Bu səbəblərlə aqroturizm, kənd təsərrüfatı ilə məşğul olan ailələrə məşğulluq təmin etmək, kənd təsərrüfatı torpaqlarını gələcək nəsillər üçün qorumaq və kənd təsərrüfatını təşviq etmək üçün bir vasitədir [4. s.33].

Aqroturizm regionun və ölkənin iqtisadiyyatına, sosial və mədəni strukturuna müsbət təsir göstərən, kənd təsərrüfatı sektorunda digər sektorlarla müqayisədə gəlir səviyyəsi aşağı olan istehsalçılara əlavə gəlir imkanları yaradan fəaliyyət sahəsidir. Aqroturizmin əsas üstünlüklərini aşağıdakı kimi sıralamaq olar:

1. Aqroturizm ilə kənd təsərrüfatı məhsullarına tələbat artır ki, bu da istehsala və istehsalçılara müsbət təsir göstərir.
2. Aqroturizmin inkişafı məşğulluq, əlavə gəlir, şəxsi gəlir, həyat səviyyəsi, kənd miqrasiyası və dövlət gəlirlərinə müsbət təsir göstərir.
3. Aqroturizm vasitəsi ilə ənənəvi turizm destisasiyalarının (sahil turizmi) yükünü yüngülləşdirmək və turizmi müxtəlif sahələrə yaymaq mümkündür
4. Aqroturizm (xüsusilə ailələr və onların uşaqları üçün) ucuz, daha xoş istirahət imkanı yaradır.
5. Aqroturizm şəhər və kənd yerlərində yaşayanların həyat və davranış fərqini əhəmiyyətli dərəcədə azaldır.

Yaxın bir gələcəkdə Qubadlı rayonuna insanların öz dədə-baba yurdlarına qayıdacaqlarını nəzərə alaraq, kənd və aqroturizmin inkişaf etdirilməsi nəticəsi olaraq aşağıdakı sosial-iqtisadi inkişafın da həyata keçirilməsinə nail olunacaq.

- ➢ Yerli əhalinin məşğulluğu, məşğulluq səviyyəsinin artırılması, əlavə gəlir əldə etmə imkanlarının yaradılması;
- ➢ Kənd turizmi və aqro turizmin inkişaf etdirilməsi ilə kəndlərə gətiriləcək infrastruktur, səhiyyə və təhsil xidmətlərində həm keyfiyyət baxımından həm də və kəmiyyət baxımından əhəmiyyətli artımlar müşahidə ediləcək [2. s.94-95];
- ➢ Aqroturizm və kənd turizminin inkişafı ilə kənd ərazilərində yaşayan qadınların iş həyatında aktiv şəkildə iştirak etməsi daha asan və daha sürətli olacaq;
- ➢ Gələcək zamanda turistlərin ətraf mühitə daha həssas yanaşacaqlarını bilərək, kənd yerlərində dəbdəbəli binalar tikmək deyil, restavrasiya işləri ilə ənənəvi memarlıq üslubunun qorunub saxlanılması, bunun da nəticəsi olaraq ətraf mühiti landşaft baxımından daha planlı şəkildə təşkil etmək olar;
- ➢ Şəhərdə yaşayan insanların, aqroturizm və kənd turizmində iştirak etmələri nəticəsi olaraq, kənd təsərrüfatı problemlərini tanımaqla həll oluna bilər;
- ➢ Kənd yerlərində kənd turizmi və aqroturizm baxımından gəlir gətirəcək potensiallardan olan təbii (məsələn, monumental ağaclar, yaylalar, şəlalələr,

mağaralar) və arxeoloji sərvətlərə verilən önəm daha da arta bilər və onların qorunmasına töhfə verə bilər;

➢ Şəhərdə yaşayan insanların kənd və aqroturizmdə iştirak etmələri, kənd əhalisi üçün yeniliklərin öyrənməsi, yeni-yeni insanlar tanımaq yeni dostlar qazanmaq və həyata fərqli baxış bucağına sahib olmaq kimi üstünlükləri özündə əks etdirə bilər;

➢ Kənd əhalisinin şəhərlərə miqrasiyanın azaldılması, yaxud qarşısının alınması və kənd təsərrüfatı istehsalı baxımından son həddə çatmış ərazilərdə yaşayan kənd əhalisi üçün yeni iş imkanları yaratmaqla yerində məşğulluğun təmin edilməsi;

➢ Kənd turizmi və aqroturizm vasitəsilə kənd yerlərində kənd təsərrüfatı ilə məşğul olan insanlar təsərrüfat məhsullarının satışını həyata keçirərək, kənd təsərrüfatı ilə məşğul olmayan insanlar isə ev təsərrüfatlarını turistlərə təklif etmək və bunun da nəticəsi olaraq əlavə gəlir əldə etmək olar.

Göründüyü kimi Qubadlı rayonunda aqroturizmin inkişafının həyata keçirilməsi, həm də burada yaşayacaq əhalinin gəlir əldə etməsi və məşğulluğu baxımından da müsbət nəticələr verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


***Azərbaycan dilində:***

*1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

*2. Hüseyn A. A. (2021), "Kənd turizminin ölkənin sosial-iqtisadi inkişafina təsirlərinin dəyərləndirilməsi" məqalə, Kənd təsərrüfatı iqtisadiyyatı, №2 (36), 93. s.94-95*

*3. "Qubadlının Baş Planı təqdim olundu" (2022), "Həftə içi müstəqil ictimai-siyasi qəzeti", s.2 , https://www.hafta.az/pdfs/1666248181-20-26%20oktyabr%202022.pdf*

***İngilis dilində:***

*4. Barbieri C. (2013) ,"Assessing the Sustainability of agritourism in the US: A comparison between agritourism and other farm entrepreneurial ventures", Journal of Sustainable Tourism, p.33*

*5. Lane B. (2009)," Rural Tourism: An Overview, Chapter 20, in The SAGE Handbook of Tourism", p.10*

*6. Songkhla T.N., Somboonsuke B. (2012), "Impact of agro-tourism on local agricultural occupation: A case study of Chang Klang district, Southern Thailand", Journal of Agricultural Technology, 8 (4): p.1185-1198*

*7. Zoto S., Qırıcı E., Polena E. (2013), "AgrotourismAsustainable development for rural area of Korca", European Academic Research, 1 (2): p.209-223.*



**XÜLASƏ**

Məqalədə alternativ turizm növləri barədə ümumi məlumatlar qeyd olunmuş, Qarabağ turizm bölgəsi, o cümlədən Qubadlı rayonunda alternativ turizm növlərinin mövcud imkanları araşdırılmışdır. Bu baxımdan Qubadlı rayonunda alternativ turizm növlərinin perspektivləri öyrənilmiş, ekoturizm, kənd turizmi və aqroturizmin inkişaf potensialı barədə tədqiqatlar həyata keçirilmiş və mövcud potensialdan səmərəli şəkildə istifadəyə dair məlumatlar şərh olunmuşdur.



**Açar sözlər:** *alternativ turizm, kənd turizmi, ekoturizm, aqroturizm, məşğulluq, sosial inkişaf*



**Akbarov S.**


**Prospects for alternative types of tourism in Gubadli district**


**SUMMARY**

In the article, general information about alternative types of tourism is mentioned, the available opportunities of alternative types of tourism in the Karabakh tourism region, including Gubadli district, are investigated. From this point of view, the prospects of alternative types of tourism in Gubadli region were studied, studies were carried out on the development potential of ecotourism, rural tourism and agrotourism, and information on the effective use of existing potential was widely interpreted.



**Keywords:** *alternative tourism, rural tourism, ecotourism, agrotourism, employment, social development*



**Акбаров С.**


**Перспективы альтернативных видов туризма в Губадлинском районе**


**РЕЗЮМЕ**

В статье упоминается общая информация об альтернативных видах туризма, исследуются имеющиеся возможности альтернативных видов туризма в Карабахском туристическом регионе, в том числе в Губадлинском районе. С этой точки зрения были изучены перспективы альтернативных видов туризма в Губадлинском районе, проведены исследования потенциала развития экотуризма, сельского туризма и агротуризма, широко интерпретирована информация об эффективном использовании имеющегося потенциала.



**Ключевые слова:** *альтернативный туризм, сельский туризм, экотуризм, агротуризм, занятость, социальное развитие.*

UOT 334.021:35

# XİDMƏT SAHƏLƏRİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

*ORCİD 0009-0000-9482-7583*

**KAMRAN NƏBİYEV**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-maila: kamran_nabiyev@inbox.ru*

## GİRİŞ

Dövlətin iqtisadi funksiyaları əsasən bazar sisteminin fəaliyyət göstərməsi və inkişafı ehtiyaclarının təsiri altında formalaşmış və tarixi inkişaf periodundan keçmişdir. Ona görə də tarixən onun funksiyalarından birincisi mülkiyyətin, sahibkarlığın və şəxsi azadlığın müdafiəsi xarakteri daşımışdır. Lakin cəmiyyətin potensial gələcək inkişaf və inteqrasiya prosesləri göstərdi ki, bir çox sosial-iqtisadi problemlərin həllində təkcə bazara arxalanmaq tam olaraq düzgün addım sayıla bilməz. Dövlətin iştirakının qaçılmaz olduğu sahələr müəyyən olunaraq qruplar formasında göstərilir.

Məhz bu qruplara aşağıdakılar daxildir:

ictimai malların istehsal prosesi (məsələn, müdafiə, təhsil, polis və s.);

mövcud olan sənaye sahələrində istehsalın müəyyən formada tənzimlənməsi

təbii inhisarların mövcudluğu (nəqliyyat, rabitə, enerji və s.);

subyektlərin bazar fəaliyyətinin xarici təsirlərinin məhdudlaşdırılması tədbirləri

idarəetmə strukturunun formalaşdırılması (ilk növbədə ətraf mühitin mühafizəsi);

hərəkətin arzuolunmaz sosial nəticələrinin qarşısının alınması və ya nəticələrin aradan qaldırılması

bazar mexanizmi quruluşunun düzgün təşkili (işsizlik, sosial bərabərsizlik və s.) və s.

Bununla belə, dövlət də öz növbəsində dövlətin müdaxiləsi adlanan uğursuzluqlara səbəb olan qüsurlardan da azad olunmuş sayıla bilməz. Belə ki, vergi yükünün həddindən artıq artması sahibkarların əməyini minimuma endirir, stimullar, dövlət xərclərinin artması isə ayrı-ayrı sosial qrupların qondarma siyasi renta uğrunda mübarizəsinin nəzərəçarpacaq dərəcədə intensivləşməsinə səbəblər yaradır. Həmçinin bazar iqtisadiyyatı inkişaf etmiş bütün ölkələrdə dövlət sektoru mütləq formada olur. Dövlət müəssisələri, xarakterik olaraq, infrastruktur sahələrində (nəqliyyat, enerji, rabitə və s.),bir sıra zərərli sənaye sahələri (məsələn, müharibədən sonrakı Avropada hasilat sənayesi, metallurgiya, gəmiqayırma və s. milliləşdirilmişdir), eləcə də yeni yaranmış sənaye sahələrində (məsələn, nüvə enerjisi) öz mövcudluğunu sübut edib. Lakin praktikadan anlaşıldığı kimi, dövlət sektorunun həddindən artıq seqmentləşdirilməsi və geniş məcrada yayılması inhisarçılıq meyllərinin güclənməsi və dövlət müəssisələrində zəifləmə nəticəsində bütövlükdə iqtisadiyyatın səmərəliliyinin minimal həddə qədər azalmasına gətirib çıxara bilir.

## TƏHLİL

Qeyri-mühafizəkar bazar iqtisadiyyatı modelinə adaptiv olaraq, dövlət öz iqtisadi fəaliyyətini daima həyata keçirir. Neokeyns məktəbləri dövlətin iqtisadiyyata daha çox müdaxiləsinə imkan verir, onun bazarda mülkiyyətçi və kollektiv sahibkar kimi dəstəkləməsi ilə xarakterizə olunur. Bu gün dövlətin qarşısında duran vəzifələr təkcə bazarın fəaliyyəti üçün əlverişli şərait yaratmaqla deyil, həm də müxtəlif sosial qrupların maraqlarının tarazlığı, sosial sabitlik, daxili və xarici siyasətin aparılmasında milli maraqların qorunması və s. kimi də özünü göstərir. B.Raysberqin haqlı olaraq qeyd etdiyi kimi, iştirak ölçüsü dövlətlərin sosial iqtisadiyyatda, bu cür iştirakın yolları daha çox ölkənin ictimai-siyasi sistemindən, dövlət sistemindən və yaranan iqtisadi vəziyyətdən xeyli formada asılı xarakter daşıyır. Müasir şəraitdə tənzimləmənin əhəmiyyətinin artması özünü daha geniş formada nümayiş etdirir.Sosial-iqtisadi proseslər vətəndaş cəmiyyətinin müxtəlif institutları (nə dövlətin elementləri deyil, nə də sırf) tərəfindən xeyli hiss olunur. Buraya həmkarlar ittifaqları, istehlak cəmiyyətləri, müxtəlif müqavilələr, konfranslar, işəgötürənlər birlikləri, ekoloji hərəkatlar və digər qrup formalarını misal kimi göstərmək olar. Tamamilə aydındır ki, cəmiyyətin sosial-iqtisadi modeli qlobal tendensiyalara aid olmalıdır. Belə cəmiyyətin formalaşmasını sosial yönümlü bazar iqtisadiyyatı konsepsiyasının praktiki həyata keçirilməsi reallaşdırıla bilər. İqtisadiyyatın dövlət tənzimlənməsi mexanizmi bazara keçiddə son dərəcə mürəkkəbdir, formalaşması da asan olmur. Bazar mühitinin yetkinləşməsi ilə eyni vaxtda və iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizmlərinin hər iki ümumi qanunlarını özündə birləşdirir. İnkişaf etmiş ölkələr və digər faktorlar.[1] Ümumiy-

yətlə, belə mexanizmin əsas elementlərinə hüquqi və təşkilati tənzimləmə, inzibati təsir, vergi və pul-kredit tənzimlənməsi, qiymət siyasəti, bazar institutlarının formalaşmasına köməklik, indikativ planlaşdırma və proqnozlaşdırma misal göstərilə bilər. Hər biri sənaye xidmət təsərrüfatının dövlət tənzimlənməsi sisteminin sadalanan elementləri öz növbəsində bir sıra elementlərdən ibarət olur. Sənaye xidməti iqtisadiyyatının dövlət tənzimlənməsinin əsas məsələsi son məqsədlərin, prioritetlərin dəqiq müəyyən edilməsi ilə ölkədə sosial-iqtisadi dəyişikliklərin strategiyasının işlənib hazırlanması prosesdurlarını əks etdirir. İqtisadi islahatların istiqaməti monetarizmin tövsiyələrinə əsaslanaraq dövlətin iqtisadiyyata qarışmasınınm əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına, kütləvi özəlləşdirmənin aparılmasına, sahibkarlığın və rəqabətin inkişafına, daxili iqtisadiyyata xarici investisiyaların cəlb edilməsinə, onun ixracının maksimum formada artırılmasının stimullaşdırılmasına doğru yönəlmişdir. Praktikada bazar rıçaqları işləməyə başlamadı, üstəlik, iqtisadiyyat bazardan əks istiqamətə çevrilməyə başladı. Eyni zamanda, qiymətlərin liberallaşdırılması əvvəlcə inflyasiyaya və effektiv tələbin azalmasına, sonra isə istehsalın azalmasına təsir göstərdi. Xarici ticarətin liberallaşdırılması nəticəsində yerli istehsalçılar bazarlardan qovuldu. Beləliklə, dövlətin inhisarını yaşamadan öz mənfəətlərini maksimuma çatdırmaq istəyən özəl iqtisadi strukturların monopoliyası ilə əvəz olundu. Rus alimi N.Şmelevin “bu gün və görünən gələcəkdə bizə sosial-iqtisadi həyatda artan və heç də azalmayan rolu ilə güclü, zəif olmayan dövlət lazımdır” sözləri ilə razılaşmaq mümkündür.[2] Belə bir ideya iqtisadiyyatın xidmət sektorunun dəstəklənməsi, yerli müəssisələrin rəqabətqabiliyyətliliyinin və kredit cəlbediciliyinin təmin edilməsi, dövlətin maliyyə-iqtisadi sabitləşdirilməsi üzrə kompleks tədbirləri nəzərdə tutan dövlət proqramını ehtiva etməlidir. İndiki mərhələdə dövlətin prioritet istiqamətləri sırasında iqtisadi siyasətdə məişət xidməti müəssisələrinin tənzimlənməsi və dəstəklənməsini xüsusi formada qeyd etməyə ehtiyac var. Sənayedə xidmət iqtisadiyyatında xidmət sektorunun inkişafı sosial xidmətlərin genişləndirilməsi kimi bazar münasibətlərinin formalaşması problemlərini daha səmərəli həll olunmasına kömək edəcəkdir.

Regional səviyyədə inkişaf nəzərdən keçirilərkən aşağıdakılar nəzərə alınır:

səmərəsiz istehsalın azaldılması və ya ləğvi;

göstərilən xidmətlərin həcminin artırılması və keyfiyyətinin daha da artırılması,

çeşid artırılması;

yeni iş yerlərinin əsasının qoyulması;

xidmətlərin birbaşa istehlakçıya yaxınlaşmasına səbəb olan regional iqtisadiyyatın bölünməsi; həyat səviyyəsinin bərabər formaya salınması,

rəqabətin inteqrasiyası,

habelə yeni texnologiyaların, istehsalın təşkili formalarının, marketinqin və maliyyələşdirmənin tətbiqi və artırılması;

- not to interfere in the internal affairs of another country;
- settlement of differences of opinion on international issues through negotiation and development of compromise solutions.

Mustafa Kemal performed the first act of foreign policy by approaching the leader of Soviet Russia, V. I. Lenin, with a proposal to conclude a friendship treaty, expressing his desire for financial and military assistance. The Soviet government immediately responded to the proposal of the Turkish government.

In 1987, the supply of natural gas from the USSR to Turkey gave an important impetus to the development of business cooperation between them. The supply of gas allowed Turkey to solve the energy shortage problem to some extent, and the USSR to stimulate the flow of Turkish goods and services to its domestic market. The agreement was concessional in nature, it meant that Turkey could compensate part of the cost of the gas by supplying its goods and providing services in the construction of various facilities on the territory of the USSR.

"Türkiye is the most important economic partner of Russia. In 2008, the volume of mutual trade exceeded 34 billion dollars. Thus, the task set recently - to bring this figure to the level of 25 billion dollars - has been greatly exceeded, and today, Turkish colleagues are still the total of our trade turnover. They remembered the period when it was 1 billion dollars. In other words, we can say that it has increased almost 35 times in the last ten years. This is a very important indicator," Dmitry Medvedev said on February 13, 2009 about the results of the meeting with Turkish president Abdullah Güll.

Russia and Türkiye are economically and politically the most influential countries in the Balkans, the Greater Caucasus region and the Black Sea basin. Other states in these regions are directly or indirectly feeling the long-term impact of the relationship between the two countries. The results of competition or cooperation between two countries directly affect the development of neighboring states and territories, affect the development dynamics of trade, economy, technology transfer, speed up or slow down integration processes, and affect the development of anti-terrorism policy.

Cooperation between Russia and Türkiye in the field of economy and trade has not been easy. On the one hand, it has a long history, on the other hand, as a result of various conflicts, wars and political upheavals, trade and economic cooperation has undergone constant changes. Three important time stages in the development of trade and economic relations between our countries can be conventionally distinguished:

1. Until the 1920s. The stage when both countries have a monarchical structure and are constantly at enmity with each other. However, this did not prevent us from having a fairly high turnover and a wide network of trade representatives. Relations have been disrupted by military operations from time to time.

2. From the early 1920s to the late 1980s. It is believed that trade and economic cooperation began to take modern forms in the 1920s, after revolutions and civil wars in both countries. Russia was one of the first to start trading with Türkiye and provided significant free aid to it.

3. The policy of accelerated formation of the Western-style market economy developed by the cabinet of the Prime Minister of Türkiye Turgut Özal, the program of "liberalization" of economic development and foreign trade relations predetermined the formation of the country as one of the largest and largest economies. The logical result of this was the desire of Türkiye's private and state capital to expand its sphere of activity.

At about the same time, fundamental economic reforms began in the USSR, which included the removal of monopoly and decentralization of foreign economic activity. Russia's economy was "opened" to foreign partners after decades of strict regulation of any contacts with "foreign countries", which turned into more prohibitions than permits. The first steps towards the expansion of bilateral trade

and economic cooperation between the USSR and Türkiye were taken at the state level. In the 1980s, an important event took place in Soviet-Turkish relations: on September 18, 1984, the "Natural Gas Agreement" was signed.

In 1987, the supply of natural gas from the USSR to Türkiye gave an important impetus to the development of business cooperation between them. The supply of gas allowed Türkiye to solve the energy shortage problem to some extent, and the USSR to stimulate the flow of Turkish goods and services to its domestic market. The agreement was concessional in nature, it meant that Türkiye could compensate part of the cost of the gas by supplying its goods and providing services in the construction of various facilities on the territory of the USSR.

Currently, we can talk about a new stage of trade and economic cooperation between the two countries, which began after the collapse of the USSR in 1991. This period is characterized by the development of market relations and their economic-trade rapprochement in both countries. Türkiye is one of the largest foreign trade partners of Russia, ahead of many EU countries.

## Conclusion

Despite the progress of economic and political relations and increasing investments in the field of energy since 2016, there are still problems between Russia and Türkiye that could turn into a political crisis and negatively affect energy projects again. The difference of opinion between the two countries continues, especially on the existence of the Assad regime in Syria. While Russia maintains its political support to the Assad regime, Türkiye does not take a step back, stating that Bashar Assad should be removed from power in order to resolve the Syrian crisis. In addition, the fact that Russia continues to support groups in Syria that Türkiye considers as terrorist organizations has the potential to turn this disagreement into a political crisis.

Although Türkiye has had major crises with the US and EU countries regarding the existence of terrorist organizations in Syria, it has the same point of view with its Western allies regarding the end of the Assad regime. This point of view may cause Türkiye to reconcile with its Western allies and diverge with Russia in order to overthrow the Assad regime in the future. The most recent example of this has been experienced over the allegations that the Assad regime used chemical weapons against civilians in the city of Duma. The USA, France and the UK carried out air strikes on Syria on 14 May 2018 to punish the Assad regime and destroy the regime's capacity to develop chemical weapons. In the face of this military intervention, which Russia and Iran strongly opposed, Türkiye, expressing its welcome to the attack, sided with its Western allies and separated from Russia. [17, p. 168].

With the realization of new chemical attacks, the deepening of the Syrian crisis and Russia's continued support of the Assad regime may accelerate Türkiye's separation from Russia. This situation may pave the way for increased distrust between the two countries and a return to the tense atmosphere that caused the aircraft crisis. In such an environment, the vulnerability that affects the costs of interdependence between Russia and Türkiye will increase in the short run for Türkiye. However, the commissioning of TANAP and the fact that the pipeline's initial capacity of 16 billion cubic meters will increase in 2023 will reduce Türkiye's sensitivity and vulnerability to crises with Russia in the long run. It is thought that the fact that TANAP will reduce Türkiye's costs and vulnerability will be effective in Russia's adopting a more conciliatory stance and in a more balanced interdependence between the two countries.

## REFERENCES

*1. Abbasigil, S. Ö. (2016). Son dönemde gelişen Rus ilişkilerinin enerji perspektifinden analizi, Barış Araştırmaları ve Çatışma Çözümleri Dergisi, 4(2):50-83.*

*2. Akdemir, I. O. (2011). Global energy circulation, turkey's geographical location and petropolitics, Procedia Social and Behavioral Sciences, (19), 71–80.*

*3. Akdemir, İ.O. Kuşçu, V. (2012). Küresel enerji eksenleri ve Türkiye'nin coğrafi konumu, Marmara Coğrafya Dergisi, (26), 82-107.*

*4. Akengin, H., Gürçay, H. K. (2014). Coğrafya, demokrasi ve yönetim sorunu üzerine bir bölgesel değerlendirme: orta doğu ve kuzey afrika örneği, Süleyman Demirel Üniversitesi Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, (33), 1940.*

*5. Biresselioglu, E.M. (2007). Turkey: Europe's emerging energy corridor for Central Eurasian,*

*Caucasian and Caspian oil and gas.*

*6. Boutros, E. (2018). Natural Gas in East-Mediterranean Basin – Changing the Energy Landscape.*

**SUMMARY**

This article shows that Turkey is still an interested party in purchasing energy resources. Until 2015, Turkey saw a continuous increase in demand for natural gas, coal and oil products, and Turkey's energy balance was sufficiently diversified. The share of gas, oil and coal in the total balance is approximately equal. However, according to information, since the beginning of 2015, gas consumption began to decrease, while the demand for liquid hydrocarbons continues to grow.

**Keywords:** *information, country, complex, dependence.*

**ОБЪЕКТИВНЫЕ ПРЕДПОСЫЛКИ И ТЕОРЕТИЧЕСКАЯ ОСНОВА АНАЛИЗА ВЗАИМОДЕЙСТВИЯ ТУРЦИИ И РОССИИ В ОБЛАСТИ ЭНЕРГЕТИЧЕСКОЙ ПОЛИТИКИ**

**Резюме**

В этой статье показано, что Турция по-прежнему заинтересована в покупке энергоресурсов. До 2015 года в Турции наблюдался постоянный рост спроса на природный газ, уголь и нефтепродукты, а энергетический баланс Турции был достаточно диверсифицирован. Доли газа, нефти и угля в общем балансе примерно равны. Однако, по информации, с начала 2015 года потребление газа стало снижаться, а спрос на жидкие углеводороды продолжает расти.

**Ключевые слова:** *информация, страна, комплекс, зависимость.*

**ENERJİ SİYASƏTİ SAHƏSİNDƏ TÜRKİYƏ VƏ RUSİYANIN QARŞILIQLI ƏLAQƏLƏRİNİN TƏHLİLİNİN OBYEKTİV İLKİN ŞƏRTLƏRİ VƏ NƏZƏRİ ƏSASLARI**

**Xülasə**

Bu məqalə göstərir ki, Türkiyə hələ də enerji resurslarını almaqda maraqlıdır. 2015-ci ilə qədər Türkiyədə təbii qaz, kömür və neft məhsullarına tələbat davamlı olaraq artdı və Türkiyənin enerji kompleksi kifayət qədər şaxələndirildi. Ümumi balansda qaz, neft və kömürün payları təxminən bərabərdir. Lakin məlumatlara görə, 2015-ci ilin əvvəlindən qaz istehlakı azalmağa başlayıb, maye karbohidrogenlərə tələbat isə artmaqda davam edir.

**Açar sözlər:** *məlumat, ölkə, kompleks, asılılıq.*

UOT 504

# AZƏRBAYCAN RESPUBLİKASININ BƏRPA OLUNAN ENERJİ POTENSİALI VƏ ONDAN İSTİFADƏ SİYASƏTİ

**ÜLVİ QƏDİRLİ**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*

*Email: ulvi-gadirli@unec.edu.az*

## Giriş

Kəskinləşən iqlim dəyişikliyi fonunda bir çox ölkələr tədricən qalıq yanacaq növlərindən imtina edərək günəş, külək, biokütlə, hidroenerji və s. kimi bərpa olunan enerji mənbələrinə (BOEM) və yaşıl texnologiyalara keçid edirlər [17]. "Təmiz enerjiyə keçid" hesab edilən bu proses Almaniyanın Energiewende şirkəti tərəfindən təsvir olunduğu şəkildə "tədrici xarakter daşıyan və uzun müddət davam edən iş" [18], digər tədqiqatçılar tərəfindən isə "qarışıq proses" [7] və enerji sistemlərinin "qeyri-bərabər" şəkildə yenidən strukturlaşdırılması kimi qəbul edilir [12]. Karbohidrogen resursların geniş tətbiqi nəticəsində atmosferə buraxılan zərərli qazların miqdarını azaltmaq və BOEM-dən istifadəni təşviq etmək istiqamətində demək olar ki bütün dünya ölkələri tərəfindən bir sıra siyasi dəstək mexanizmləri və proqramlar qəbul edilir. Bu konteksdə əsas müzakirə olunan məsələlərdən biri yaşıl enerjidən istifadə prosesinin bazar rəqabətinə əsasında inkişaf etdirilməsinin, yoxsa dövlətin bu prosesdə aparıcı rol oynamasının vacibliyi ilə bağlıdır. Burada ümumi yanaşmalardan biri ondan ibarətdir ki, dövlətin BOEM-dən istifadə sahəsində hansı dəstək mexanizmlərinə üstünlük verilməsi daha çox həmin ölkənin makroiqtisadi və siyasi faktorlarından asılıdır. Görünən odur ki, belə vəziyyətdə dövlətlər əsasən qarışıq sistemin tətbiqinə üstünlük verirlər. Yəni, prosesdə həm dövlətin əhəmiyyətli rolu və maraqları təmin olunur, həm də müəyyən bazar mexanizmlərinin işləməsinə şərait yaradılır. Məsələn, Böyük Britaniya özünün neoliberal kapitalist modelinə uyğun olaraq proseslərin inkişafında bazar əsaslı mexanizmlərə üstünlük verir, Fransa isə prosesdə dövlətin aparıcı roluna əsaslanır və inkişafın təmin edilməsi üçün dövlət idarəçiliyinin səmərəliliyinin artırılması siyasətini həyata keçirir [13].

Avrasiyasının neft-qaz və digər təbi resurslarla zəngin olan keçmiş sovet ölkələrinin əksəriyyəti öz enerji istehlakında BOEM-nin payını artırmağa çalışsalar da, milli hökumətlərin müvafiq sahəni inkişaf etdirmək və karbon qazı emissiyalarını azaltmaq siyasəti ilə real addımların nəticələri arasında əhəmiyyətli boşluqlar vardır [15, 16]. Azərbaycan Respublikasının milli iqtisadiyyatında neft-qaz sənayesi üstün mövqeyə malikdir və ixrac gəlirlərinin formalaşmasında da neft-qaz sektoru aparıcı rol oynayır. Eləcə də, ölkənin enerji tələbatının böyük hissəsini hələ də ənənəvi resurslar hesabına ödənilir [1]. Buna baxmayaraq, neft-qaz sektoru Azərbaycanda davamlı iqtisadi inkişafın təmin olunmasına əvəzsiz töhfələr vermişdir. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra reallaşdırılan neft strategiyası ölkənin sosial-iqtisadi inkişafında və dünya iqtisadiyyatına inteqrasiyasında əvəzsiz rol oynadı. 20.09.1994-cü il tarixində "Əsrin müqaviləsi"nin imzalanmasından sonra strateji əhəmiyyət daşıyan neft və qaz layihələrinin, o cümlədən, tranzit boru kəmərlərinin inşa olunması nəticə etibarilə Azərbaycanın sahib olduğu neft-qaz ehtiyatlarını Avropa və dünya bazarlarına çıxarmasına imkan yaratdı. Beləliklə, Azərbaycan Respublikası uğurlu neft-qaz strategiyası həyata keçirməklə həm öz karbohidrogen ehtiyatlarını beynəlxalq bazarlarda satmağa, həm də enerji daşıyıcılarının tranzit marşrutlarından birinə çevrilməyə nail oldu. Bunun əsasında Azərbaycan Avropanın enerji təhlükəsizliyində vacib elementlərdən biri kimi rol oynamağı bacardı və nəticə etibarilə iqtisadi və siyasi dividentlər qazandı. Azərbaycan üçün karbohidrogen resursların satışından əldə olunan maliyyə vəsaitlərinin milli iqtisadiyyatın diversifikasiyasına və davamlı inkişafının təmin edilməsinə yönləndirilməsi ötən dövr ərzində əsas prioritetlərdən birini təşkil etmişdir. Bütün bunların reallaşdırılması isə ölkənin güclü enerji infrastrukturunun yaradılmasını və enerji imkanlarından səmərəli istifadə edilməsini zəruri edirdi. Azərbaycan zəngin karbohidrogen resurslarına malik olmasına və onun ixracatçılarından biri kimi tanınmasına baxmayaraq, ölkəmiz həm də alternativ enerji resursları baxımından böyük potensiala malikdir. Enerji təhlükəsizliyi siyasətində alternativ mənbələr həmişə diqqət mərkəzində olsa da, son dövrlərdə xüsusilə aktuallığını artırmışdır.

## Normativ hüquqi baza

BOEM və onlardan istifadə barəsində Azərbaycan Respublikasının qanunvericiliyi Konstitusiyadan, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr-

dən, energetika sektorunu tənzimləmək məqsədilə qəbul edilmiş digər normativ hüquqi sənədlərdən ibarətdir. İstisna hal olaraq Ələtdə yerləşən azad iqtisadi zonada BOEM-dən istifadənin tənzimlənməsi "Ələt azad iqtisadi zonası haqqında" Qanun əsasında həyata keçirilir.

Ulu öndər Heydər Əliyev tərəfindən 30.05.1996-cı il tarixində təsdiq edilmiş "Enerji resurslarından istifadə haqqında" qanun müvafiq sahədə milli maraqların müəyyənləşdirilməsində və konseptual fəaliyyətin təşkil olunmasında mühüm rol oynamışdır. Bu sənəddə enerji resursları anlayışı – texnoloji və iqtisadi inkişaf səviyyəsinə adekvat olaraq istehlak olunan neft və eləcə də, neft məhsulları, təbii qaz, atom və istilik enerjiləri, su və o cümlədən digər bərpa olunan enerji qaynaqlarından istifadəni özündə ehtiva edir [8]. Qanun ümumilikdə ölkəmizin enerji siyasətinin vacib istiqamətlərini və elementlərini müəyyənləşdirmək baxımından da böyük əhəmiyyətə malikdir. Bundan sonrakı dövrdə də Azərbaycanın enerji siyasəti və bu sahənin milli iqtisadiyyatın inkişaf səviyyəsinə uyğun tənzimlənməsi ilə bağlı qanunvericilik aktları və proqramlar qəbul edilmiş, eləcə də struktur islahatları həyata keçirilmişdir.

Azərbaycan Respublikasında BOEM-dən səmərəli istifadəni təmin etmək məqsədilə energetika sahəsinin təkmilləşdirilməsi, institusional islahatların həyata keçirilməsi və normativ-hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində davamlı dövlət siyasəti həyata keçirilir. Bu sahədə aparılan səmərəli dövlət idarəçiliyinin elementlərindən biri kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22.09.2020-ci il tarixində imzaladığı müvafiq Fərmanla Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi (AREA) təsis edilmişdir. Agentliyin əsas məqsədləri sırasına Azərbaycanın enerji istehlakında bərpa olunan resursların payının 30%-a yüksəldilməsi, eləcə də, sahibkarların iştirakını təmin etməklə işğaldan azad edilmiş torpaqların "Yaşıl Enerji" Zonasına çevrilməsini reallaşdırmaq daxildir [5]. Ölkəmiz 12.12.2015-ci il tarixli Paris konfransında 1990-cı illə (baza ili) müqayisədə 2030-cu ilədək atmosferə buraxılan qazların miqdarının 35%, 2021-ci ildə Qlazqo şəhərində baş tutmuş COP26 konfransında isə həmin miqdarın 40%-dək aşağı salınması öhdəliyini üzərinə götürmüşdür.

Hazırkı qloballaşma şəraitində dünya ölkələrində, o cümlədən də Azərbaycanda BOEM-in dayanıqlı inkişaf məqsədləri naminə səfərbər edilməsi prioritet vəzifələrdən biri kimi qəbul olunur. Bu baxımdan Azərbaycanın bərpa olunan enerji potensialından səmərəli istifadə və bu sahənin intensiv inkişaf strategiyasının qəbul edilməsi ölkəmizin enerji təhlükəsizliyinin təmin edilməsi və gələcək inkişafının qarantörlərindən biri kimi çıxış edəcəkdir. Bu məqsədlə, 2021-ci ildə qəbul olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-də beş əsas hədəfdən birini də "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi"nin yaradılması təşkil edir. Burada əsas məqsəd ölkədə ekoloji tarazlığın qorunması, eləcə də, alternativ və bərpa olunan enerji qaynaqlarının dövriyyədə payının artırılmasına nail olmaqla hazırki və gələcək nəsillərin tələbatının tam şəkildə ödənilməsindən ibarətdir [9]. Sənəddə əksini tapan hədəf ölkəmizin gələcək iqtisadi inkişafında alternativ enerji qaynaqlarının rolunun artırılmasını və digər tərəfdən isə ekoloji tarazlığın qorunması tədbirlərinin gücləndirilməsini nəzərdə tutur.

03.05.2021-ci il tarixində Ölkə başçısı tərəfindən Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalanmışdır ki, bu sənəd həmin məqsədlə konsepsiyanın və peşəkar yanaşmanın tətbiq edilməsini nəzərdə tutur [10]. Bu sənədin icrası məqsədilə Baş nazir tərəfindən təsdiq edilmiş müvafiq Tədbirlər Planı isə 2022-2026-cı illərdə Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonasının yaradılması üzrə görüləcək işləri özündə ehtiva edir. Plana əsasən bu ərazilərin BOE potensialının qiymətləndirilməsi, Cəbrayıl rayonunda Günəş elektrik stansiyasının, Laçın və Kəlbəcər rayonlarında isə külək elektrik stansiyalarının inşa edilməsi, Xudafərin və Qız qalası SES-lərin tikilməsi, o cümlədən, bölgənin hidroenerji, günəş, külək və bioenerji potensialından səmərəli istifadə məqsədilə digər fəaliyyətlərin həyata keçirilməsi müəyyən edilmişdir. Bu məqsədlə, elektrik enerjisinin ötürücü və paylayıcı şəbəkəsinin yaradılması, BOEM hesabına əldə olunan enerjinin bu şəbəkəyə inteqrasiyasına imkan verən infrastrukturun qurulması, yaşıl texnologiya və innovasiyaların tətbiqinə yönələn fəaliyyətlərin dəstəklənməsi, o cümlədən, özəl investisiyaların cəlb edilməsi, dövlət-özəl tərəfdaşlığının möhkəmləndirilməsi və yaşıl texnologiyaların tətbiqinə əsaslanan istehsal və xidmət sahələrinin yaradılması və digər geniş çaplı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirlər Planı geniş spektrli olmaqla bölgənin ümumilikdə enerji infrastrukturunun modern şəkildə yenidən qurulmasını özündə ehtiva etməklə, eyni zamanda qaz nəqli və təchizatı şəbəkəsinin, optimal istilik və isti su

sisteminin yaradılmasını, ümumiyyətlə enerjidən istifadə sahəsində səmərəliliyin yüksəldilməsini hədəfləyir. Tədbirlər Planının böyük strateji əhəmiyyət daşıyan hədəflərindən biri də Cəbrayıl enerji qovşağı layihəsi çərçivəsində reallaşdırılması nəzərdə tutulan "Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizinin yaradılması"ndan ibarətdir. Bu layihə işğaldan azad edilmiş ərazilərlə yanaşı, Naxçıvanda və digər ərazilərdə yerləşən əlaqəli infrastruktur və şəbəkələndirmə işlərinin yerinə yetirilməsini zəruri edir [4]. Təbii ki, nəzərdə tutulan tədbirlərin reallaşdırılması "yaşıl enerji" zonasının yaradılmasını təmin etməklə ölkənin enerji sisteminin şaxələndirilməsinə, məcmu enerji istehsalında və istehlakında BOEM-in payının artırılmasına gətirib çıxaracaqdır. Bütün bunlar Azərbaycanın enerji təhlükəsizliyinin gücləndirilməsinə töhfə verməklə yanaşı, bölgənin sosial-iqtisadi inkişafına da təkan verəcəkdir. Enerji Dəhlizinin yaradılması isə Azərbaycanın elektrik enerjisi sahəsində ixrac potensialını da genişləndirəcək və Avropanın enerji təhlükəsizliyində rolunu artıracaqdır.

BOEM-dən istifadənin hüquqi tənzimlənməsi və bu sektorun inkişafına mühüm töhfə verən əsas sənədlərdən biri də 31.05.2021-ci il tarixində təsdiq edilmiş "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu olmuşdur. Qanun müvafiq sahədə əsas anlayışları müəyyənləşdirir, eləcə də, BOEM-dən istifadənin təşkilati-hüquqi mexanizmlərini və BOEM hesabına əldə olunan elektrik enerjisinin satışı da daxil olmaqla istehlakçı-istehlakçı münasibətlərini tənzimləyir. Sənəd bu sahənin inkişafına yönəlmiş müxtəlif fəaliyyətlərin, o cümlədən, elmi-tədqiqatların dəstəklənməsi, dövlətin vəzifə və məqsədlərinin müəyyənləşdirilməsini də nəzərdə tutur [11]. Bu qanunun qəbul edilməsi bərpa olunan enerji sektorunda hüquqi münasibətlərin tənzimlənməsi, müvafiq sektorun inkişafı, yeni innovasiya və texnologiyaların, eləcə də, özəl investisiyaların cəlb edilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Dəyişikliklərdən sonra 11.04.2023-cü il tarixində yenidən qəbul edilmiş "Elektroenergetika haqqında" Qanunun birinci fəslinin birinci maddəsində "aktiv istehlakçı" anlayışının izahı verilməklə göstərilir ki, o, fiziki və ya hüquqi şəxs olaraq elektrik enerjisini istehlak etməklə yanaşı, BOEM potensialından istifadə etməklə 150 kVt həcmində elektrik enerjisi istehsal etmək hüququna da malikdir. Qanunun həmin maddəsinin 1.1.9-cu bəndində BOEM-ə təbiətdə daimi şəkildə mövcud olan, və ya davamlı olaraq özünü bərpa edən hidroenerji, külək enerjisi, günəş enerjisi, geotermal enerji, biokütlə enerjisi, dəniz və okeanlarda dalğa enerjisi, qabarma və çəkilmə enerjisi, su axınlarının enerjisi və s. enerji mənbələri aid edilmişdir. Bu qanunun elektroenergetika sahəsində dövlət siyasətinin həyata keçirilməsi və sektorun tənzimlənməsinə həsr olunmuş ikinci fəslinin beşinci maddəsinin 5.2.7-ci bəndində müvafiq sektorda dövlət tənzimləməsinin məqsədləri və dövlətin vəzifələri sırasına elektrik enerjisi istehsalında BOEM-dən istifadənin stimullaşdırılması və inkişafının təmin edilməsi də daxil edilmişdir. 7.1.3-cü maddədə isə qeyd olunur ki, BOEM hesabına elektrik enerjisi əldə edən istehsalçılar onun şəbəkə vasitəsilə ötürülməsində və paylanmasında üstünlüklərə malikdirlər. On doqquzuncu maddənin 19.13-cü bəndində göstərilir ki, aktiv istehlakçıların elektrik enerjisinin şəxsi tələbatından artıq olan hissəsini satmaq hüququ vardır və bu maddənin müddəaları digər müvafiq qanunla tənzimlənir (9) [6]. Qanunun BOEM-lə əlaqəli bəzi müddəa və izahlarının nəzərdən keçirilməsi və mövzunun təhlili nəticəsində belə nəticəyə gəlirik ki, bu sənəd müasir reallıqları nəzərə almışdır və geniş istehlakçıların və maraqlı tərəflərin prosesdə iştirakına imkan verir. 22.07.2022-cil tarixli Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası ilə bağlı müvafiq Tədbirlər Planının 5.2.3-cü bəndi BOEM-dən geniş istifadənin təmin edilməsini, o cümlədən, bioenerji və geotermal enerji kimi alternativ mənbələrdən istifadənin genişləndirilməsini nəzərdə tutur [3]. Bu o nəticəni çıxarmağa imkan verir ki, Azərbaycanda BOEM sektorunun inkişafı həm də sosial-iqtisadi inkişafın əsas elementlərindən biri kimi götürülür.

## Bərpa olunan enerji potensialı və mövcud istehsalın həcmi

Aparılan araşdırmalar Azərbaycanın yüksək BOE potensialına malik olduğunu göstərir. Ölkəmizin təbii BOE potensialı yüksək olmaqla yanaşı, texnologiya və innovasiyaların inkişaf səviyyəsi və bu sektorda tətbiqi imkanları ilə bağlı olan texniki potensialı və eləcə də, texniki potensialın reallaşdırılmasına təkan verən iqtisadi potensialı da olduqca səmərəli qiymətləndirilir. Ölkəmizin texniki baxımdan reallaşdırıla bilən və iqtisadi baxımdan səmərəli qiymətləndirilən BOE potensialı 26 940 MVt təşkil edir. Burada külək enerjisinin hesablanmış potensialı 3 000 MVt, günəş enerjisinin payı 23 040 MVt, eləcə də, bioenerjinin və dağ çaylarının BOE potensialı müvafiq olaraq 380 MVt və 520 MVt olaraq müəyyənləşdirilmişdir.

Bütün bunlardan əlavə, Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisinin reallaşdırıla bilən texniki potensialını özündə ehtiva edən ümumi həcmi 157 QVt qiymətləndirilir [14]. Təbii ki, bütün bunlar Azərbaycanın yaşıl enerji mənbələri əsasında öz tələbatını ödəməklə yanaşı həm də onun ixracatçısına çevrilməsinə geniş perspektivlər açır. Əlbəttə ki, bu konteksdə işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata inteqrasiyası mühüm əhəmiyyət daşıyır. Ona görə ki, ölkəmizin su ehtiyatlarının təxminən dörddə biri bu ərazilərdə formalaşır ki, bu da orta hesabla bir il ərzində 2,56 kubmetr su resursu anlamına gəlir. Digər tərəfdən isə, Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli rayonları illik günəş radiasiyasının miqdarına görə, Laçın və Kəlbəcər rayonlarının yüksək dağlıq hissələri isə küləyin intensivliyi baxımından alternativ enerji istehsalı üçün səmərəli hesab olunur. Bundan əlavə, Kəlbəcər rayonu geotermal mənbələr baxımından səmərəli enerji bölgəsi kimi qiymətləndirilir və bütün bunlar bölgənin böyük həcmli yaşıl enerji potensialına malik olduğunu söyləməyə imkan verir. Mövcud potensialdan istifadə məqsədilə müəyyən hədəflər müəyyənləşdirilmiş və əməli addımlar atılmışdır. Bu baxımdan qeyd eləmək lazımdır ki, 2022-ci ildə Azərbaycanın elektrik enerjisi üzrə ümumi istehsalı 29 milyon kVt saatdan artıq olmuşdur ki, bu da 2021-ci ilin müvafiq göstəricisi (27875,3 milyon kVt·st) ilə müqayisədə 1129,0 milyon kVt·st və ya 4,1% artım deməkdir. İstehsalın strukturuna gəldikdə isə ən böyük pay İES-lərin payına düşməklə 27059,1 milyon kVt·st təşkil etmişdir. BOEM istehsalına gəldikdə isə aşağıdakı qrafikin nəzərdən keçirilməsi elektrik enerjisi istehsalında BOEM-in rolunun müəyyənləşdirilməsi tədqiqatın qarşıya qoyduğu vəzifələrin müəyyənləşdirilməsi baxımından olduqca əlverişli olar.

**Qrafik 1. 2022-ci ildə BOEM stansiyalarında elektrik enerjisi istehsalı, milyon kVt saat.**




*Mənbə: AREA. (2023). Azərbaycanda BOEM statistikası.*

Qrafikdən göründüyü kimi, SES-lərin bu göstəricidə payı 1595,7 mln. kVt·st olmuş, bundan əlavə, KES-lərdə bu göstərici 83,3 milyon kVt st, GES-lərdə isə toplam 60,9 milyon kVt·st təşkil etmişdir. Bioenerji istehsalına gəldikdə isə, bio ES-lərdə 205,3 milyon kVt·st istehsal reaallaşdırılmaqla BOEM üzrə ümumi enerji istehsalının həcmi 349,5 mln. kVt·saat qeydə alınmışdır. Burada qeyd eləmək yerinə düşər ki, ölkəmizin elektrik enerjisi üzrə toplam enerji gücü 7954 MVt təşkil edir. BOEM hesabına toplam enerji gücü isə böyük SES-lər də daxil olmaqla 1312 MVt-dir. Beləliklə, BOEM üzrə toplam enerji istehsal gücü Azərbaycanın ümumi enerji istehsalının 16,5%-ni təmin edir. Bəlli olur ki, BOEM hesabına elektrik enerjisi istehsalı mövcud potensialdan və stansiyaların istehsal gücündən çox aşağı olsa da, bu sektorda müəyyən inkişaf dinamikası hökm sürür. Bu baxımdan əhəmiyyətli göstəricilərdən biri də ondan ibarətdir ki, Azərbaycanın elektrik enerjisi istehlakı azalmışdır. 2021-ci ildə ümumi enerji istehlakı 23435,6 milyon kVt·st təşkil etdiyi halda, 2022-ci ildə istehlakın həcmi 23191,2 milyon kVt·st olmaqla 244,4 milyon kVt st aşağı düşmüşdür. Bunu BOEM sektorunda istehsalın genişləndirilməsi və enerji istehsalında səmərəliliyin artırılması ilə əlaqələndirə bilərik. Azərbaycanın 2022-ci ildə ixrac etdiyi elektrik enerjisinin miqdarında artım qeydə alınmışdır. Belə ki, ölkəmizin elektrik enerjisi ixracı 2021-ci ildə 1673,4 milyon kVt·st olduğu təqdirdə, 2022-ci ildə bu rəqəm 2997,5 milyon kVt·saata yüksəlmişdir ki, bu da müqayisə apardıqda son bir il ərzində enerji ixracında 1324,1 milyon kVt·st artım deməkdir. Daha bir müqayisə aparmaqla qeyd eliyə bilərik ki, 2021-ci ildə ölkəyə idxal edilən elektrik enerjisinin həcmi 151,6 milyon kVt·st təşkil etdiyi halda, 2022-ci ildə bu göstərici 137,2 milyon kVt·st olmuşdur [2]. Ölkəmizdə enerji sahəsində səmərəli fəaliyyətin və qanunçuluğun təmin edilməsində Energetika Nazirliyi tabeliyində fəaliyyət göstərən və əməkdaşı olduğum Enerji Məsələlərini Tənzimləmə Agentliyinin xüsusi rolu vardır. Təcrübəyə əsaslanaraq deyə bilərəm ki, enerji təchizatı sahəsində səmərəliliyin daha da artırılması, müvafiq sahədə istismara buraxılış aktlarının verilməsi, qaz və istilik təchizatı müəssisələrində qanunvericiliyin tələblərinə riayət edilməsi vəziyyətinin vaxtaşırı monitorinqi və digər istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr və onların uğurlu icrası enerji resurslarından səmərəli istifadənin təmin edilməsinə və şəffaflığın daha da artırılmasına xidmət edir. Bu baxımında, Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən həyata keçi-

rilən "Azərbaycan Respublikasında yeni yaradılmış Enerji Məsələlərini Tənzimləmə Agentliyinin fəaliyyətinə dəstək" layihəsinə uyğun olaraq "Şəbəkə itkiləri" və "Resursların adekvatlığı" istiqamətlərində baş tutmuş mentorluq təlimləri beynəlxalq təcrübənin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Vurğulamaq lazımdır ki, Gürcüstanın müvafiq təcrübəsinə əsaslanmaqla "Elektrik enerjisi itkilərinin tənzimləmə dövrü üçün normativ göstəricilərinin müəyyənləşdirilməsi Qaydaları"nın, eləcə də, "Adekvatlığın mövsüm və qısa müddətli qiymətləndirilməsi üçün Metodologiya"nın və "Adekvatlığın uzun və orta müddətli qiymətləndirilməsi üçün Metodologiya"nın ilkin layihələrinin hazırlanması gələcək fəaliyyətin səmərəli təşkilinə mühüm töhfələr verəcəkdir.

**Nəticə**

Ənənəvi resursların tükənməyə doğru getməsi və ətraf mühitin qorunması ilə bağlı narahatlıqlar dünyanın bir çox ölkələrində yaşıl enerjiyə keçidin surətlənməsinə səbəb olmuşdur. Milli və beynəlxalq çərçivədə BOEM-dən səmərəli istifadəyə yönəlmiş siyasi və hüquqi tədbirlər həyata keçirilir, elmi araşdırmalar genişləndirilir. Azərbaycan zəngin BOEM potensialına malik olmaqla yanaşı bu sahənin inkişafına xidmət edən aktiv dövlət siyasəti də həyata keçirilir. Müvafiq sahənin qanunvericilik bazasının təkmilləşdirilməsi, müxtəlif dövlət proqramlarının və təşfiq mexanizmlərinin həyata keçirilməsi Azərbaycanda yaşıl enerji sektorunun surətli inkişafına geniş imkanlar açır. Ümumi enerji istehsalının artımı və enerji istehlakının nisbətən azalması fonunda BOEM istehsalının artaraq milyon 349,5 mln. kVt saata çatması və ümumi enerji istehsalının 16,5%-ni təşkil etməsi qısa müddət üçün əldə olunmuş yüksək göstəricidir. Ancaq 2030-cu ilə qədər bu göstəricinin 35%-a çatdırılması hədəfi hələ qarşıda xeyli işlərin görülməli olduğundan xəbər verir. Digər tərəfdən mövcud istehsalın böyük qismi (1595,7) SES-lərin payına düşür və günəş, külək, bioenerji kimi mənbələrin istehsalda payı hələ də az olaraq qalır. Ancaq əlverişli təbii potensial, səmərəli dövlət siyasəti və reallaşdırılan layihələr yaxın gələcəkdə ölkəmizin bu sektorda böyük nəaliyyətlər qazanacağını söyləməyə imkan verir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Ahmadov A. K. (2019). How oil autocracies learn to stop worrying: Central Eurasia in 2008 global financial crisis. Post-Soviet Affairs, 35(2), 161–180.*

*2. AR Energetika Nazirliyi. (2023). Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən 2022-ci ildə görülmüş işlərə dair HESABAT.*

*3. AR Energetika Nazirliyi. Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə.*

*4. AR Nazirlər Kabineti. (2022). "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Sərəncam.*

*5. AREA. (2022). Haqqımızda. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi.*

*6. AZƏRTAC. (2023). "Elektroenergetika haqqında Azərbaycan Respublikasının Qanunu".*

*7. Bordoff J., O'Sullivan M. L. (2022). Green upheaval: The new geopolitics of energy. FA.*

*8. E-qanun. (1996). "Enerji resurslarından istifadə haqqında AR Qanunu".*

*9. E-qanun. (2021a). "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.*

*10. E-qanun. (2021b). https://e-qanun.az/framework/47397*

*11. E-qanun. (2021c). https://e-qanun.az/framework/47842*

*12. Guliyev F. (2022). The new global energy order: Shifting players, policies, and power dynamics. Public responses to fossil fuel export. Elsevier.*

*13. Guliyev, F. (2023). Renewable Energy Targets and Policies in Traditional Oil-Producing Countries: A Comparison of Azerbaijan and Kazakhstan. Journal of Eurasian Studies.*

*14. https://area.gov.az/az/page/yasil-texnologiyalar/boem-potensiali*

*15. Karatayev M., Lisiakiewicz R., Gródek-Szostak Z., Kotulewicz-Wisińska K., Nizamova M. (2021). The promotion of renewable energy technologies in the former Soviet bloc. Energy Reports, 7(1), 6983–6994.*

*16. Laldjebaev M., Isaev R., Saukhimov A. (2021). Renewable energy in Central Asia: An overview of potentials, deployment, outlook, and barriers. Energy Reports, 7(1), 3125–3136*

*17. Markard J. (2018). The next phase of the energy transition and its implications for research and policy. Nature Energy, 3(8), 628–633.*

*18. Smil V. (2019). What we need to know about the pace of decarbonization.Substantia.69-73.*

**XÜLASƏ**

Karbohidrogen resursların tükənməyə doğru getməsi, onlardan istifadənin baha başa gəlməsi və ətraf mühitə mənfi təsirləri alternativ enerji mənbələrindən istifadənin aktuallığını daha da artırmışdır. Azərbaycan Respublikası zəngin neft və qaz resurslarına malik olmasına baxmayaraq, son illərdə hökumət tərəfindən bərpa olunan enerji mənbələrindən (BOEM) istifadənin genişləndirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirilmişdir. Əlverişli potensialdan səmərəli istifadəni təmin etmək məqsədilə müvafiq sahənin qanunvericilik bazasının təkmilləşdirilməsi, dövlət proqramlarının və təşfiq mexanizmlərinin reallaşdırılması Azərbaycanda yaşıl enerji sektorunun surətli inkişafına geniş imkanlar açmışdır. Məqalədə təmiz enerji mənbələrinə keçid prosesi, Azərbaycanın BOEM potensialı və ondan istifadənin normativ-hüquqi bazası, eləcə də, bu mənbələrin ölkənin cari elektrik enerjisi istehsalında payı araşdırılmışdır. Bu məqsədlə, məzmun təhlili, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.



**Açar sözlər:** *Yaşıl enerji, günəş, külək, texnologiya, qanunvericilik.*



**U.Qadirli**


**Renewable energy potential of the republic of Azerbaijan and its usage policy**


**SUMMARY**

The depletion of hydrocarbon resources, the high cost of their use and negative effects on the environment have increased the urgency of using alternative energy sources. Despite the fact that the Republic of Azerbaijan has rich oil and gas resources, in recent years, the government has implemented a purposeful policy to expand the use of renewable energy sources (BOEM). In order to ensure the effective use of the available potential, the improvement of the legislative framework of the relevant field, the implementation of state programs and incentive mechanisms have opened wide opportunities for the rapid development of the green energy sector in Azerbaijan. The article examines the process of transition to clean energy sources, the BOEM potential of Azerbaijan and the normative-legal basis of its use, as well as the share of these sources in the country's current electricity production. For this purpose, content analysis, synthesis, comparison and generalization methods were used.



**Key words:** *Green energy, solar, wind, technology, legislation.*



**У. Кадирли**


**Возобновляемый энергетический потенциал Азербайджанской Республики и политика его использования**


**РЕЗЮМЕ**

Истощение углеводородных ресурсов, высокая стоимость их использования и негативное воздействие на окружающую среду повысили актуальность использования альтернативных источников энергии. Несмотря на то, что Азербайджанская Республика обладает богатыми нефтегазовыми ресурсами, в последние годы правительство проводит целенаправленную политику по расширению использования возобновляемых источников энергии (ВОЭМ). В целях обеспечения эффективного использования имеющегося потенциала совершенствование законодательной базы соответствующей сферы, реализация государственных программ и механизмов стимулирования открыли широкие возможности для стремительного развития сектора зеленой энергетики в Азербайджане. В статье рассматривается процесс перехода на чистые источники энергии, потенциал БОЭМ Азербайджана и нормативно-правовая база его использования, а также доля этих источников в текущем производстве электроэнергии в стране. Для этого использовались методы контент-анализа, синтеза, сравнения и обобщения.



**Ключевые слова:** *Зеленая энергетика, солнечная энергия, ветер, технологии, законодательство.*

UOT 338.45

# MÜHASİBAT UÇOTU BAXIMINDAN MÜASİR DÖVRDƏ QEYRİ-NEFT SEKTORUNDA MÖVCUD VƏZİYYƏTİN TƏDQİQİ

**RƏŞAD HACIYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*

*Email: qahramanovnicat1@gmail.com*

## GİRİŞ

Beynəlxalq Maliyyə Hesabatları Standartları (BMHS) dünyanın getdikcə daha çox ölkəsində kapital bazarlarına maliyyə hesabatlarının verilməsi üçün əsas yaradır. Qlobal miqyasda müqayisə edilə bilən məlumat mənbəyi kimi, IFRS da bütün dünya üzrə tənzimləyicilər üçün həyati əhəmiyyət kəsb edir. IFRS müxtəlif ölkələrin eyni, qlobal miqyasda tətbiq olunan mühasibat standartları toplusunu qəbul etməsini təmin etməklə bu problemi aradan qaldırır [1].

Bu məqalənin məqsədi, müasir dövrdə qeyri-neft sektorundakı mövcud vəziyyəti tədqiq edərək, qeyri-neft enerji mənbələrinin istehsalı, ixracı və inkişaf perspektivlərini müzakirə etməkdir. Məqalə, qeyri-neft sektorunun dünya iqtisadiyyatı üçün əhəmiyyətini vurğulayaraq, yenilənən enerji istiqamətləri və alternativ enerji mənbələri kimi alternativlərə dair son inkişafları araşdırmağa yönləndirir.

Məqalə aşağıdakıları özündə əks etdirir:

1. Qeyri-neft sektorundakı mövcud vəziyyətin analiz etmək və bu sahədəki fəaliyyətləri dünya səviyyəsində qiymətləndirmək.
2. Yenilənən enerji istiqamətləri və alternativ enerji mənbələri ilə bağlı son inkişafları və ehtimalları tədqiq etmək.
3. Qeyri-neft sektorundakı problemləri və fürsətləri müzakirə etmək və infrastruktur çətinlikləri və inkişaflar arasında əlaqələr qurmaq.
4. Qeyri-neft sektorunun iqtisadi, siyasi və ətraf mühitə təsirini qiymətləndirmək və potensial təsirin ölçülə bilən aspektlərini müzakirə etmək.
5. Gələcək perspektivləri və təklif edilən həll yollarını müzakirə edərək, qeyri-neft sektorunun davam etməsini və inkişafının istiqamətini göstərmək.

Məqalə, qeyri-neft sektorundakı inkişafın iqtisadiyyat, enerji təhlükəsizliyi və cəmiyyət üçün əhəmiyyətini araşdıraraq, oxuculara bu sahədəki mövcud vəziyyəti anlamaq və potensial perspektivləri müzakirə etmək üçün məlumatlar və analiz təqdim etməyi hədəfləyir.

Qeyri-neft sektorundakı mövcud vəziyyətin tədqiqatı, son dövrlərdə dünyada enerji sahəsində yaşanan dəyişikliklərin və çevrəsəl məsələlərin əhatəsindən irəli gəlir. Bu sektorun aktual olması bir neçə səbəblə əsaslanır:

1. Enerji tələbinin artması: Dünya əhəmiyyətli miqdarda enerji tələbinə sahibdir və bu tələb daima artmaqdadır. Qeyri-neft enerji mənbələri, bu artan tələbi qarşılayabilən ən əsas alternativlərdən biridir. Bu, qeyri-neft sektorunda inkişaf perspektivlərini və bu sahədəki tədqiqatların aktual olmasını təmin edir.

2. Enerji təhlükəsizliyi: Dünya, enerji təhlükəsizliyini təmin etmək və sürdürübilir enerji istifadəsi ilə bağlı hədəflər qoymuşdur. Qeyri-neft sektorunda mövcud vəziyyətin tədqiqatı, bu hədəflərə çatmaq üçün potensial çözüm yollarını aşkar etmək üçün əhəmiyyətli bir addımdır.

- Qeyri-neft sektorunda mövcud vəziyyətin tədqiqatı, bir sıra əlaqəli sahələri əhatə edir və müxtəlif tədqiqatlarla bağlantılıdır:
- Yenilənən enerji mənbələri və texnologiyalar: Bu sahədəki tədqiqatlar, güc mənbələrinin diversifikasiyası, alternativ enerji mənbələri, enerji emalı və ixracı, enerji verimliliyi və yenilənən enerji texnologiyalarının inkişafı ilə bağlıdır.
- Siyasi və iqtisadi məsələlər: Qeyri-neft sektorunda siyasi stabillik, enerji siyasəti, ticarət müqavilələri, vergi tənzimlənməsi, regulatorluq və dəstəkləmə mehribanlığı kimi siyasi və iqtisadi məsələlər tədqiq edilməlidir.
- Sosial məsələlər və insan kapitalı: Qeyri-neft sektorunda inkişafın sosial təsiri, iş yaradıcılığı, əhəmiyyətli iş yerləri yaratmaq, iş təlimi və mütəxəssislərin yetişdirilməsi kimi insan kapitalı aspektləri də tədqiq edilməlidir.
- Çevrə mühit və sürdürəbilirlik: Qeyri-neft sektorunun çevrəsəl təsiri, enerji verimliliyi, emal prosesləri, karbon ayıqlanması, su resurslarının idarə edilməsi və təbii ekosistemlərin qorunması ilə bağlı tədqiqatları əhatə edir.
- Bu əlaqəli tədqiqatlar, qeyri-neft sektorunda mövcud vəziyyətin bütünlüklü şəkildə təhlil edilməsini və bu sahədəki inkişafın çeşidli boyutlarını öy-

rənməyi təşkil edir.

Qeyri-neft sektorunun maliyyə hesabatı neft sənayesindən kənarda fəaliyyət göstərən müəssisə və təşkilatlar üçün maliyyə məlumatlarının hazırlanması və təqdim edilməsi prosesinə aiddir. Qeyri-neft sektorları istehsal, pərakəndə satış, xidmətlər, kənd təsərrüfatı, texnologiya və s. daxil olmaqla, geniş sənaye sahələrini əhatə edir. Bu sektorlar ölkənin ümumi iqtisadi inkişafına töhfə verir və maliyyə təhlili və qərarların qəbulu üçün vacibdir. Qeyri-neft sektorunda maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatı Standartları (BMHS) kimi müəyyən edilmiş mühasibat uçotu prinsipləri və standartlarına əməl edir. Məqsəd istifadəçilərə şirkətin maliyyə fəaliyyətini, mövqeyini və pul vəsaitlərinin hərəkətini qiymətləndirməyə imkan verən müvafiq, etibarlı və müqayisə edilə bilən maliyyə məlumatlarını təmin etməkdir.

Qeyri-neft sektoru üçün maliyyə hesabatlarında bəzi əsas elementlər və mülahizələr bunlardır:

Maliyyə Hesabatları: Qeyri-neft sektoru subyektləri balans hesabatı, mənfəət və zərər haqqında hesabat, pul vəsaitlərinin hərəkəti haqqında hesabat və kapitalda dəyişikliklər haqqında hesabat daxil olmaqla maliyyə hesabatlarını hazırlayır. Bu hesabatlar müəyyən dövr ərzində maliyyə vəziyyətinin, fəaliyyətinin və maliyyə strukturunda dəyişikliklərin qısa təsvirini təqdim edir.

Gəlirlərin tanınması: Qeyri-neft sektoru şirkətləri malların və ya xidmətlərin satışından əldə olunan gəliri müvafiq qaydada tanımalıdırlar. Gəlirlərin tanınması prinsipləri, gəlirin müştərilərə mal və ya xidmətlərin ötürülməsini əks etdirməsini təmin etməklə, gəlirin nə vaxt və necə tanınması lazım olduğunu istiqamətləndirir.

Amortizasiya: Qeyri-neft sektoru müəssisələri çox vaxt faydalı istifadə müddəti ərzində köhnəlmə və ya amortizasiya tələb edən maddi və qeyri-maddi aktivlərə malikdirlər. Amortizasiya maddi aktivlərin (məsələn, binalar, avadanlıqlar) dəyərinin bölüşdürülməsini əks etdirir, amortizasiya isə qeyri-maddi aktivlərə (məsələn, patentlər, ticarət nişanları) aiddir.

Ehtiyatların Qiymətləndirilməsi: Qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələr inventar saxlayır və bu ehtiyatların dəqiq qiymətləndirilməsi lazımdır. Ehtiyatların ilkin dəyərini və sonradan onun maliyyə hesabatlarına təsirini müəyyən etmək üçün FIFO və ya orta çəkili dəyər WAC kimi qiymətləndirmə metodlarından istifadə olunur.

Maliyyə Açıqlamaları: Qeyri-neft sektoru şirkətləri maliyyə hesabatlarından kənar müvafiq məlumatları açıqlayır. Bu açıqlamalara mühasibat uçotu siyasəti, şərti öhdəliklər, əlaqəli tərəflərlə əməliyyatlar, əhəmiyyətli hadisələr və ya risklər və maliyyə hesabatlarının şərhinə təsir edə biləcək digər amillər daxil ola bilər [8].

Tənzimləmə Uyğunluğu: Yurisdiksiyadan asılı olaraq, qeyri-neft sektoru şirkətləri tənzimləyici orqanlar tərəfindən qoyulan xüsusi hesabat tələblərinə tabe ola bilər. İllik hesabatların təqdim edilməsi və ya yoxlanılmış maliyyə hesabatlarının təqdim edilməsi kimi bu qaydalara riayət etmək çox vacibdir.

Rəhbərliyin müzakirəsi və təhlili: Maliyyə hesabatlarında qeyri-neft sektoru şirkətləri tez-tez Rəhbərliyin müzakirəsi və təhlili bölməsini təqdim edirlər. Bu rəvayət şərhi şirkətin maliyyə vəziyyəti, əməliyyatların nəticələri və gələcək perspektivləri haqqında məlumat verir və istifadəçilərə maliyyə hesabatlarının əsas amillərini başa düşməyə imkan verir [6].

Bu məqalə üçün istifadə edilən metodlar aşağıdakılardır:

1. Ədəbiyyat tədqiqatı: məqalənin hazırlanması üçün mövcud akademik mənbələr, jurnal məqalələr, konfranslar və kitablar kimi əsaslı mənbələrdən faydalanılmışdır. Bu, qeyri-neft sektorunda mövcud vəziyyəti və inkişafları araşdırmaq üçün ənənəvi və elmi məlumatlara əsaslanmağa imkan verir.

2. Statistik analiz: müasir dövrdə qeyri-neft sektorunun statistik məlumatları, enerji istehsalı, ixrac və digər əhəmiyyətli göstəricilər analiz edildi. Bu, sektorun aktualliğini və istiqamətlərini qiymətləndirməyə kömək edir.

3. Ekspert məşvərətləri: Ekspert məşvərətləri, sektorun problematik məsələlərini və perspektivlərini daha çox aydinlaşdirmağa kömək edir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 30 yanvar 2017-ci il tarixli 01 nömrəli qərarı ilə Ehtiyatların hərəkəti ilə bağlı maliyyə əməliyyatları Q nömrəli Qərarları ilə təsdiq edilmiş “Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə Mühasibat Uçotu Qaydaları”nda müəyyən edilmiş Hesablar Planına uyğun olaraq ümumiləşdirilir və hesablarda və müvafiq subhesablarda əks etdirilir.

**Cədvəl 1. Mühasibat uçotu subyektləri üçün Hesablar Planı**

| **Maliyyə hesabatının bölməsi/ maddəsi** | **Hesabın №-si** | **Subhesabın №-si** | **Adı** |
|---|---|---|---|
| **20** | | | **Ehtiyatlar** |
| | 201 | | Material ehtiyatları |
| | | 201-1 | Xammal |
| | | 201-2 | Materiallar |
| | | 201-3 | Qablaşdırma materialları |
| | 202 | | İstehsalat (iş və xidmət) məsrəfləri |
| | | 202-1 | İstehsalatda (işdə və xidmətdə) istifadə olunmuş xammal və materiallar |
| | | 202-2 | İstehsalatla (işlə və xidmətlə) məşğul olan işçi heyəti ilə bağlı məsrəflər |
| | | 202-3 | İstehsalatla (işlə və xidmətlə) məşğul olan işçi heyəti ilə bağlı məsrəflərə görə hesabalanılan sosial sığorta ayırmaları |
| | | 202-4 | İstehsalat (iş və xidmət) aktivlərinin amortizasiya məsrəfləri |
| | | 202-5 | İstehsalatla (işlə və xidmətlə) bağlı sair məsrəflər |
| | 203 | | Tikinti müqavilələri üzrə məsrəflər |
| | | 203-1 | Tikintidə istifadə olunmuş xammal və materiallar |
| | | 203-2 | Tikinti ilə məşğul olan işçi heyəti ilə bağlı məsrəflər |
| | | 203-3 | Tikinti ilə məşğul olan işçi heyəti ilə bağlı məsrəflərə görə hesabalanılan sosial sığorta ayırmaları |
| | | 203-4 | Tikintidə istifadə edilən aktivlər üzrə amortizasiya məsrəfləri |
| | | 203-5 | Tikinti ilə bağlı sair məsrəflər |
| | 204 | | Hazır məhsul |
| | | 204-1 | İstehsaldan alınan hazır məhsul |
| | | 204-2 | Kənd təsərrüfatı məhsullarının yığımı üzrə hazır məhsul |
| | 205 | | Mallar |
| | 206 | | Satış məqsədi ilə saxlanılan digər aktivlər |
| | 207 | | Digər ehtiyatlar |
| | 208 | | Ehtiyatların dəyərinin azalmasına görə düzəlişlər |

*Mənbə: https://president.az/az/articles/view/49936*

Bu Standartın məqsədi ehtiyatlar üçün mühasibat uçotu qaydaları yaratmaq və əlaqədar xərclərin qiymətləndirilməsini müəyyən etməkdir. Bu ehtiyatlar aktiv hesab olunur və gələcək dövrlərdə satılana qədər saxlanılır.

Satış üçün saxlanılan xammal və materiallar, habelə mal və ya xidmətlərin istehsalında istehsal olunan və ya istehlak edilən aktivlər əmtəə və material ehtiyatının bir hissəsi hesab olunur. Bu aktivlərin mümkün xalis satış dəyəri işin normal gedişi zamanı ehtimal olunan xərclər çıxıldıqdan və satış qiymətinin təxminindən sonra qalan məbləğdir. Ədalətli dəyər tipik bazar əməliyyatında aktiv üçün alına bilən və ya öhdəliyə görə ödənilə bilən qiymətdir, mümkün xalis satış dəyəri isə müəssisənin əməliyyat xüsusiyyətlərini daha dəqiq əks etdirən və ədalətli dəyərdən fərqlənə bilən dəyərdir. Ehtiyatlara alqı-satqı üçün qısa və uzunmüddətli aktivlər, hazır məhsullar, bitməmiş istehsal xərcləri və istehsal üçün xammal daxil ola bilər. Malların və ya materialların yaradılması ilə bağlı olmayan müqavilələrlə bağlı məsrəflər müştərilərlə bağlanmış müqavilələrdən əldə edilən gəlirlər üzrə Beynəlxalq Maliyyə Hesabatları Standartına uyğun olaraq uçota alınır. 9-cu maddəyə əsasən, ehtiyatların qiymətləndirilməsi zamanı ilkin maya dəyərindən və ya xalis satış dəyərindən aşağı olanı istifadə edilməlidir. İlkin maya dəyərinə alış qiyməti, idxal rüsumları, daşınma və boşaldılma xərcləri kimi inventarın əldə edilməsi, istehsalı və hazırkı vəziyyətinə və yerləşdiyi yerə qədər emalı ilə bağlı bütün xərclər daxildir. Bununla belə, hər hansı ticarət endirimləri, faizlərin geri qaytarılması və ya oxşar güzəştlər alış dəyərinə daxil edilməməlidir. Xalis satış dəyəri, satışı həyata keçirmək üçün lazım olan hər hansı məsrəflər çıxılmaqla, ehtiyatın təxmin edilən satış qiymətinə aiddir. İnventarla işləmə xərcləri məhsulların idarə edilməsi və saxlanması ilə bağlı xərclərdir. Bu məsrəflərə xammalın maya dəyəri, avadanlıqların köhnəlməsi və işçilərin əmək haqqı kimi məhsulun istehsalı ilə bağlı birbaşa xərclər daxildir. Bundan əlavə, istehsal zamanı çəkilən sabit və dəyişkən istehsal qaimə məsrəfləri emal məsrəfləri hesab edilir [3].

İstehsal üzrə qaimə məsrəflərinin emal məsrəflərinə aid edilməsi müəssisənin normal istehsal gücünə əsasən müəyyən edilir. Normal istehsal gücü, gözlənilən istehsal həcmi və planlaşdırılmış texniki xidmət daxil olmaqla, bir çox dövrlər üzrə orta göstəricilər əsasında hesablanır. Əgər zavodun faktiki istehsal sürəti onun normal istehsal gücünə yaxındırsa, bu sürətdən istifadə edilə bilər.

Sabit qaimə məsrəflərinə rəhbər işçilərin və istehsalatda iştirak edən işçilərin əmək haqqı xərcləri, habelə maddi ehtiyatlar və əsas fondların köhnəlməsi üzrə ehtiyatlar daxildir. İstehsal həcminin artması məhsulun hər bir vahidinə aid edilən sabit qaimə xərclərinin miqdarını azaldır. Əksinə, aşağı istehsal həcmi hər bir vahidə aid edilən sabit qaimə məsrəflərinin məbləğini artırmır. Hər hansı yerdə qalan bölüşdürülməmiş sabit qaimə məsrəfləri baş verdikləri dövrdə xərclər kimi tanınır. İstehsalın vahid dəyəri istehsal müəssisələrinin əsl əməliyyatı əsasında müəyyənləşdiriləcəkdir. İstehsal prosesi hələ sabit olmadığı təqdirdə bu xərclər arta bilər. Məsələn, avadanlıq istismarı və xidmətləri üçün istifadə olunan materialların dəyəri nəzərə alınacaqdır.

## NƏTİCƏ

Bu məqalə müasir dövrdə qeyri-neft sektoru üzrə maliyyə əməliyyatlarının maliyyə uçotunda necə uçota alınmasının aspektlərini araşdırır, xüsusilə də Beynəlxalq Mühasibat Uçotu Standartı 2 "Ehtiyatlar"da göstərilən təlimatlara diqqət yetirir. Bundan əlavə, o, Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə müəyyən edilmiş müvafiq normativ sənədləri nəzərə alır. Bu standartın müddəalarına uyğun olaraq, məqalədə maliyyə əməliyyatlarının maliyyə uçotunda istifadə olunan hesablar planı əsasında mühasibat yazılışları vasitəsilə əks etdirilməsinə dair təkliflər verilir. Bu əməliyyatlar istehsal və xidmətlərlə məşğul olan kommersiya qurumları tərəfindən aparılan əməliyyatlar nəticəsində yaranan ehtiyatların əldə edilməsi, saxlanması və sonradan xaric edilməsinə aiddir.

**Açar sözlər:** *müasir dövr, qeyri-neft sektoru, mövcud vəziyyət, IFRS, 2 №-li IFRS.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 06 yanvar 2021/https://president.az/az/articles/view/49936*

*2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 22 dekabr tarixli 228-VIQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi məsələlər haqqında/ https://e-qanun.az/framework/46665*

*3. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 06 yanvar 2021/https://president.az/az/articles/view/49936*

*4. Abbasov Q.Ə., Cəfərov E.O və b. "İqtisadiyyatın qloballaşması şəraitində maliyyə hesabatlarının beynəlxalq standartları əsasında maliyyə hesabatlarının hazırlanmasının zəruriliyi və bu standartlar üzrə sistemin yaradılması". Mühasibat uçotu, audit və iqtisadi təhlil, 2011, №4 (226), səh.7-34.*

*5. Akimova N.S., Azaden A.A. "The concept of internal audit in the period of adaptation international standards of accounting and auditing", ISBN: 2018, 2224-6282, DOI: 10.30838/P.ES.2224.250918.95.230*

*6. Anderson R. Contemporary Issues in Managerial Accounting? 2019*

*7. Brown R., Johnson M., Smith K. The Impact of Financial Reporting Quality on Investor Decision Making. Journal of Accounting and Finance, 2021, 25(2), 45-60.*

*8. Cəfərov E.O. "Maliyyə hesabatının konseptual əsasları", Bakı, Maliyyə və uçot. 2019 №1, səh. 39-52*

## ИССЛЕДОВАНИЕ ТЕКУЩЕЙ СИТУАЦИИ В НЕНЕФТЯНОМ СЕКТОРЕ В СОВРЕМЕННОЕ ВРЕМЯ С ТОЧКИ ЗРЕНИЯ БУХГАЛТЕРСКОГО УЧЕТА

### РЕЗЮМЕ

МСФО решает эту проблему, предоставляя набор высококачественных международно признанных стандартов бухгалтерского учета, обеспечивающих прозрачность, подотчетность и эффективность на финансовых рынках по всему миру. МСФО обеспечивают прозрачность, повышая международную сопоставимость и качество финансовой информации, позволяя инвесторам и другим участникам рынка принимать обоснованные экономические решения. МСФО укрепляют подотчетность, сокращая информационный разрыв между поставщиками капитала и людьми, которым они доверяют свои деньги. МСФО (IFRS) 2 «Резервы» содержит руководство по признанию, оценке и раскрытию резервов (также известных как резервы) в финансовой отчетности. Он отражает методы определения первоначальной стоимости запасов, включая распределение накладных расходов и последующую оценку запасов по наименьшей из себестоимости и чистой стоимости реализации. Текущая ситуация в ненефтяном секторе может сильно различаться в зависимости от страны, региона и конкретной отрасли. Такие факторы, как экономические условия, государственная политика, технологические достижения и глобальные рыночные тенденции, могут существенно повлиять на показатели ненефтяного сектора. Стандарты предоставляют информацию, необходимую для привлечения руководства к ответственности. Все это говорит об актуальности темы.

**Ключевые слова:** *современная эпоха, ненефтяной сектор, текущая ситуация, МСФО, МСФО № 2.*

# A STUDY OF THE CURRENT SITUATION IN THE NON-OIL SECTOR IN MODERN TIMES IN TERMS OF ACCOUNTING


## SUMMARY

IFRS solves this problem by providing a set of high-quality, internationally recognized accounting standards that bring transparency, accountability and efficiency to financial markets around the world. IFRS brings transparency by increasing the international comparability and quality of financial information, allowing investors and other market participants to make informed economic decisions. IFRS strengthens accountability by reducing the information gap between capital providers and the people they trust with their money. IFRS 2 Provisions provides guidance on the recognition, measurement and disclosure of provisions (also known as reserves) in financial statements. It reflects methods of initial cost determination of inventories, including allocation of overhead costs and subsequent measurement of inventories at the lower of cost and net realizable value. The current situation in the non-oil sector can vary greatly depending on the country, region and specific industry. Factors such as economic conditions, government policies, technological advances and global market trends can significantly affect the performance of the non-oil sector. Standards provide the information necessary to hold management accountable. All this indicates the relevance of the topic.


**Keywords:** *modern era, non-oil sector, current situation, IFRS, IFRS No. 2.*

UOT 338.48

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN TURİZMİ: REALLIQLAR VƏ POTENSİAL

**VÜSALƏ QULİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*E-mail: n-ibrahimova-86@mail.ru*

**Giriş: Turizm qeyri-neft iqtisadiyyatının perspektivli istiqamətlərindən biri kimi**

Son illər Azərbaycanın öz iqtisadiyyatını post neft dövrünün tələbləri isqamətində qurmağa çalışdığı açıq-aşkar görünməkdədir. Bu mənada qeyri-neft sektorunun genişləndirilməsi yolunda aparılan tədbirlər nəticəsində canlanan və perspektiv vəd edən sahələrdən biri də turizmdir. Son illərdə ölkəmizdə bu sahəyə artan maraq turizmin tərəqqisi üçün yeni metodlar yaradır. Bu imkanlardan düzgün və səmərəli istifadə etmək üçün çevik mütərəqqi turizm marketinqin başlıca şərtlərindən biridir. Bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, ölkəmizdə turizm sənayesinin mövcud vəziyyəti obyektiv şəkildə təhlil olunmalı, inkişafa mane olan nöqsanlar aradan qaldırılmalı, dünyanın qabaqcıl turizm ölkələrinin təcrübəsi, keçdiyi inkişaf yolları öyrənilib, tətbiq edilməlidir. Şübhəsizdir ki, ilkin mərhələdə Azərbaycandakı turizm marketinqini dünyanın aparıcı ölkələri ilə müqayisə etmək doğru olmaz. Ona görə də, müqayisə Azərbaycanla oxşar ictimai, siyasi və tarixi şəraitdə inkişaf yolu keçmiş dövlətlərlə aparılmalıdır. Nümunə üçün MDB məkanının 2 ölkəsini Qazaxıstan və Gürcüstanı göstərmək olar.

Son illərin statistik göstəricilərinə nəzər salsaq, 2017- cil göstəricilərinə görə turist sayının az olmasına baxmayaraq, gəlir 3.21 milyard dollar, ÜDM faizi isə 1.9% yüksəkdir. 2018-ci ildə ardıcıl olaraq turist sayı 2.85 milyon, gəlir 2.83 milyard dollar, ÜDM faizi 6%, turist başına qəbz isə 993 dollardır. 2019-cu ildə turistlərin sayı 3,17 milyon nəfər olarkən, bu sahəsindən gəlir 2 milyar dollar olaraq, ÜDM-nin 4,2 % ni təşkil etmişdir. 2020-ci ildə Azərbaycanda təkcə turizm sektorundan təxminən 340,00 milyon ABŞ dolları gəlir əldə edilib. Bu, onun ümumi daxili məhsulunun 0,62 faizinə və Qərbi Asiyada bütün beynəlxalq turizm daxilolmalarının təxminən 0 faizinə uyğundur. Həmin ildə ümumilikdə 796 min turist qeydə alıb və mütləq göstəricilərə görə dünyada 110-cu yerdədir. Kiçik ölkələrin qonaqların mütləq sayı ilə müqayisədə mütəmadi olaraq daha az çıxış etməsi göz qabağındadır. Turistlərin sayını Azərbaycan əhalisinə nisbətdə qoysaq, nəticə daha müqayisəli mənzərədir: hər sakinə 0,079 turist düşən Azərbaycan dünyada 129-cu yerdədir. Qərbi Asiyada 15-ci yerdədir.

Gürcüstan Statistika Komitəsinin hesablamalarına əsasən, 2019-cu ildə 9,4 milyon beynəlxalq ziyarətçi qəbul edib ki, bu da 2018-ci illə müqayisədə rekord sayda və səkkiz faiz artımdır. 2016-cı ildə turizm sektoru ölkənin ÜDM-nin 7,3%-ni təşkil edib. 2015-ci ildə bu rəqəm cəmi 6,6% olaraq, cari ildə ölkəyə 6,35 milyon xarici turist gəlib. Bu göstərici əvvəlki illərlə müqayisədə 7,6% çoxdur. Gürcüstan Milli Bankının məlumatına görə, 2016-cı ilin ilk üç rübündə turistlər ölkədə təxminən 1,68 milyard dollar vəsait qoyub. Bu əvvəki il ilə müqayisədə 11% çoxdur. Xarici turistlərin Gürcüstandakı xərcləri tədiyyə balansına əhəmiyyətli dərəcədə təsir etməklə bu ölkədə xidmət ixracı gəlirlərinin təxminən 64,3%-i turizmdən gəlir. 2017-ci il üçün Gürcüstanın turizm statistikası 2016-cı illə müqayisədə 28,34 % artaraq 2,971,000,000,00 təşkil edib. 2018-ci il üçün 2017-ci illə müqayisədə 18,41% artaraq 3,518,000,000,00 olmuşdur.

Digər statistik məlumatları təqdim edəcəyimiz ölkə, Qazaxıstandır. Belə ki, 2017 ci ildə 7.70 milyon turist ziyarəti olmuş, 2.36 milyard dollar gəlir, 1.4% ÜDM və 306 dollar turist başına qəbzdir. 2018-ci ildə göstəricilər isə 5 ilin ən yüksək halını almış və 8.79 milyon turist sayı olarkən, 2019-cu ildə isə gəlir 2.92 milyard dollar olmuşdur. 2020-ci ildə turizm bu ölkədə düşüş yaşayaraq turist sayı 2.04 milyon olarkən, ÜDM-in faizi 0.34, turist başına düşən qəbz isə 289 dollar olmuşdur. Həmin ildə turist daxilolmaları kəskin şəkildə azaldı. 2,92 milyard dollardan (2019) cəmi 589,00 milyon dollar qaldı. Bu, Qazaxıstanda 80 faiz azalma deməkdir.Kiçik ölkələrin qonaqların mütləq sayı ilə müqayisədə mütəmadi olaraq daha az çıxış etməsi göz qabağındadır. Turistlərin sayını Qazaxıstan əhalisinə nisbətdə qoysaq, nəticə daha müqayisəli mənzərədir: hər sakinə 0,11 turistlə Qa-

zaxıstan dünyada 120-ci yerdədir. Orta Asiyada 3-cü yerdədir. 2020-ci ildə Qazaxıstan təkcə turizm sektorundan təxminən 589,00 milyon ABŞ dolları gəlir əldə edib. Bu, onun ümumi daxili məhsulunun 0,30 faizinə və Mərkəzi Asiyada bütün beynəlxalq turizm daxilolmalarının təxminən 46 faizinə uyğundur.

**1. Azərbaycanda turizmin potensialına dair**

Ölkəmizin turizm sahəsindəki göstəriciləri və bu xidmət sahəsindəki əksiklikləri, qabaqcıl turizm ölkəsi olmamasının müəyyən, gözəçarpıcı səbəbləri var və bunları aydınlaşdırmaq üçün müqayisə etdiyimiz ölkələrin bu sahədə təklif etdikləri xidmətlərə nəzər yetirək. Turizm sənayesinin qiymət strategiyası və xidmət keyfiyyəti arasındakı harmoniyanın olmaması sözügedən bazarın formalaşmasında çətinliklər yaradır. İlk əsas nəqliyyat infrastruktunda olan çatışmazlıqlardır, ölkəmiz beynəlxalq turizm daşımalarından olan avtomobillə səyahət sahəsinə fokuslanaraq, inkişaf tədbirləri həyata keçirilmişdir. Araşdırmalara görə bu nəqliyyat növü digərlərindən istifadə ilə müqayisə edildikdə öndədir və bunun səbəbi qiymətlərlə bağlıdır. Hava nəqliyyatında qiymətlərin yüksək olması (yerli aviaşirkət), xarici aviaşirkətlərlə və tranzit uçuşların az olması, ölkəmizə turist axınını zəifldən səbəblərdən biridir. Qiymət səviyyəsinə nəzər yetirsək, Avropa ölkələrindən Bakıya birbaşa uçuşların qiyməti minimal olaraq 200 avronun üstündədir və bir çox ölkələrdən birbaşa uçuş mövcud deyil.

Qonşu Gürcüstanda vətəndaşlar 50 avroya Avropanın 45 destinasiyasına gediş-gəliş üçün uçuşlar, Qazaxıstandan Mərkəzi Avropa ölkələrinə maksimum qiymət 100 avro təşkil etdiyi halda, azərbaycanlılar bəzi hallarda 40-44 dəfə bundan artıq ödəniş etmək məcburiyyətində qalır. Məsələn, dünyaca məşhur Wizz Air şirkəti Kutaisidən Avropanın 6 şəhərinə gediş-gəliş üçün 19.99 avrodan başlayan qiymətlərlə uçuşlara başlayaraq, bu da illik 1 milyondan çox sərnişinin daşınmasına şərait yaradacaq.

Hal-hazırda Mərkəzi Asiya ölkələrinə, eləcə də Qazaxıstana turist axınları ərəb ölkələrindən üstünlük təşkil edir. Məlumatlara görə, BƏƏ-dən həftədə 86 uçuş həyata keçirir, minimal qiymət 99 avrodur. Son illər Şərqi Asiya ölkələrinin maraq dairəsi olan Qazaxıstan, yapon və çinlilərin gəldiyi məkan olmuşdur. Qiymətlərin yüksək olmasına baxmayaraq, Çindən Qazaxıstana həftədə 27, Koreyadan isə 14 uçuş keçirilir.

Nəticədə, ilk olaraq diqqətə çarpan məsələ uçuş qiymətləri baha olduğu üçün və dəyərin yüksək olub, orta təbəqənin yaşam standartlarına uyğun olmadığı üçün ölkmizə turist axınını zəifldir.

Azərbaycanda turizmlə əlaqədar digər əsas, önəmli və nəzərə çarpacaq məsələ otel qiymətləri və bu sahədə təklif olunan şərtlərin aşağı olmasıdır. Statistik göstəricilərə əsasən 2021-ci il etibarilə otel və mehmanxanaların sayı 712 və bu otellərə yerləşdirilmiş qonaqların sayı 1 172 123-ə çatmışdır. Bu otellərdən Bakı və rayonlar üzrə 5 ulduzlu olanların sayı 109-dur.

Otellərdə qiymət startegiyası və qiymətəmələgəlmə prosesi bazara təsir edən başlıca amillərdən biridir. Ölkəmizdə turizmin sadəcə mövsümü sahə olmasının səbəblərindən biri kiçik firmaların çoxluğu, resurs çeşidliliyinin zəif olması və rəqabətin davamlı ola bilməməsi səbəbindən "Qaymaqların yığılması" stategiyasının yəni bazarda sadəcə yüksək qiymət tətbiqidir.

Problemlərdən biri odur ki, optimal qiymət miqyası iqtisadiyyatından faydalana bilməsini müəyyən etmir. Çünki turizm sektorunda yeni inkişaf etməkdə olan ölkə kimi Azərbaycanda istehsal olunan turizm məhsulları dünyada o qədər də tanınmır. Buna görə məhsul qiymətləri ölkəyə gələn turistlərin maliyyə potensialından və xərcləmə tendensiyalarından yüksəkdir. Yüksək qiymət strategiyasının olmasının digər səbəbi isə ölkəmizdə bu sahədə fəaliyyət göstərən müəssisələrdən əlavə dəyər vergisi olaraq təyin olunan 18% həcmində vergi tutulur ki, bu da həmin müəssisənin xərcini daha da artırmış olur və məcburiyyət qarşısında qalaraq müəsissə yüksək məbləğ dəyərinə malik olan xidmət təklif edir.

Çatışmazlıqlara gəldikdə isə, otel menecmentinin mühüm problemlərindən biri də məhz planlaşdırmadır, belə ki bu sistemdə işində peşəkar idarəçilər hələ də formalaşma mərhələsindədir və bu da işlərin düzgün aparılmamasına gətirib çıxarır. Ölkəmizdə otel menecmenti qarşısında duran ən böyük problemlərdən biri də "Rəqabət qiymət strategiyası"-nın bu sahəyə düzgün tətbiq edilməməsidir. Yəni, bu "bizdə rəqabət yoxdur" mənasını vermir, rəqabətin olduğu məlumdu, lakin istiqamət doğru deyil. Belə ki, bütün dünyada əgər rəqabət xidmət keyfiyyətin yüksək,

qiymətlərin ucuz olması istiqamətindədirsə, bizdə isə qiymətlərin yüksəldilməsi rəqabəti mövcuddur.

Turistlər səyahət edərkən qalacaqlartı yeri əvvəlcədən planlaşdırmağı və nisbətən işlərini yüngülləşdirməyi sevirlər. Belə ki, otellərdə rezervasiyalar müxtəlif saytlar vasitəsilə olunur , "Booking", "Air B&B" kimi. Azərbaycanda isə sadəcə Booking-dən istifadə olunur. Və bu sayt daha çox otellərə üstünlük vermişdir, hostellər və gündəlik icarəyə verilən evlər demək olar ki yoxdur. Lakin bütün bunları əhatə edən "Air B&B"-ə ölkəmizdəki otellər daxil edilməmişdir. Hostellərin və evlərin dəyəri aşağıdır, lakin ziyarətçilər üçün bu seçim az olduğundan onları bura ziyarət etməkdən qaçındırır.

Müqayisə üçün Gürcüstanın otel və mehmanxana bölməsinə baxsaq, 2019-cu ildə Gürcüstanda turistlərin yerləşdirilməsi müəssisələrində yataq yerlərinin sayı əvvəlki illə müqayisədə 3,6% artıb. Gürcüstan assosiasiyasının saytına görə, ştatda təxminən 170,000 mehmanxana otağı var və Gürcüstanın İqtisadi İnkişaf Departamentinin saytında qeyd edildiyi kimi, onlar Gürcüstanın təxminən 69 milyard dollarlıq turizm sənayesinə töhfə verir. Az ulduzlu olmasına baxmayaraq, ucuz qiymətə gecələmə imkanı verən otellər, vergilərin miqdarını aşağı olması və vergi siyasətində hədsiz liberallıq, 27 əmlakla bağlı adminstrativ xərclərin ucuzluğu Gürcüstanda brend hotellərin yaradılmasına şərait yaratmışdır.

Əlavə olaraq Gürcüstan yerli qonaqpərvərlik sənayesini 21-ci əsrə gətirərək və ölkəyə gələn milyonlarla səyahətçinin faydalanmasını təmin edən onlayn otel rezervasiyası sistemi qurmuşdur.Yerli veb dizayn studiyası Pro-Service Gürcüstandakı bütün mehmanxanalar üçün fərdi onlayn rezervasiya sistemlərinin yaradılmasını təklif etmişdir. Bu xidmət beynəlxalq və yerli səyahətçilərə Visa kartından istifadə edərək onlayn nömrə bron etmək və ya otelə gəldikdən sonra ödəniş etmək imkanı verir. Bunun otel üstünlüyü isə, çoxdilli, dinamik və müasir veb-səhifə; otel idarəçiliyinin yeni sistemi; onlayn rezervasiya və ödənişin inteqrasiyası; və otel işçiləri üçün pulsuz təlimlərdir.

Gürcüstan İnvestisiya Agentliyinin Xarici İnvestorlarının məlumatlarına əsasən Gürcüstanda biznes və investisiya üçün çox da əlverişli şərait yaradılmışdır. Dediklərinə görə, gəlir vergisi dərəcəsi 15 faizdir və bu məbləğ yatırıldıqda sıfırlanır. Məsələn, 13 faizlə kredit götürülürsə, iş adamı cəmi 3 faiz bəndi ödəyir. Müəyyən şərtlər və öhdəliklər yerinə yetirildikdə, torpaq simvolik ödənişlə istehsal və sənaye investisiyalarına verilir. Əgər ciddi brendlər otel açmaq istəyirsə, onlar 2 il bütün vergilərdən azad edilir.

Qazaxıstanda 1999-2021-ci illər arasında otellərin sayı 128.000-dan 3.686.000-a çıxmışdır. Müştəri bazası və ulduzlu otellər və keyfiyyətlə xidmətin düz mütənasib olduğu bu ölkədə, turist axınının güclənməsi adına müxtəlif növ inkişaf yolları keçmiş və xususən ona yaxın və inkişaf etmiş ölkələrdən nümunələr götürmüşdür. Qiymət strategiyası isə digər iki ölkə ilə müqayisədə xeyli aşağıdır. Saytların göstəricilərinə əsasən günü 6 dollar olan otel tapmaq mümkündür. Azad rəqabətin güclü olduğu ölkədə, xarici investisiyalar son illərə görə xeyli artmış və bunlar xüsusən inkişaf etmiş Şərqi Asiya ölkələrinin diqqət mərkəzində olmuşdur.

Toxunmaq istədiyim digər bir mövzu isə turizmdə xidmət müxtəlifliyinin yaradılmasıdır ki, bu da səhiyyə, tarixi, idman ovçuluq turizmi kimi sahələrin inkişafından asılıdır. Sadalananları nəzərə alaraq, qeyd edə bilərik ki, ölkəmizdə yüksək standartlara cavab verən və müalicə məqsədli çoxlu sayda turizm mərkəzləri mövcuddur. Naftalan, Naxçıvandakı Duzdağ, Masallıdalı İstisu və s.

Azərbaycanın qərbində yerləşən Naftalan kurortunun böyük sərvəti - misilsiz müalicə xüsusiyyətlərinə malik naftalan yağıdır. Statistikaya görə Naftalan kurortunda müalicənin effektivliyi 85%-ə çatır ki, bu da balneologiyada çox yaxşı bir göstərici hesab olunur. Naftalan hələ qədim zamanlardan dayaq hərəkət aparatı xəstəliklərinin, dəri, uroloji xəstəliklərin müalicəsi üçün güclü vasitə kimi şöhrət qazanıb. Naftalan iltihab proseslərini aradan qaldırır, ağrıları azaldır, qan dövranını və orqanizmdə mübadilə proseslərini yaxşılaşdırır. "Qara qızıl çeşməsi – sağlamlığın açarıdır"- Naftalan müalicə ocaqlarının şüarı belə səslənir.Yüksək standartlara cavab verən texnikalar, müalicə qurğuları pasiyentlərə təqdim olunaraq, yuxarıda qeyd etdiyimiz xəstəliklərin aradan qaldırılmasına təbii yollarlar kömək edir. Turistlərin üçün "Naftalan- Booking" adlı sayt da yaradılmışdır. Lakin qeyd olunan xəstəliklərdən əziyyət çəkən və müalicə olmaq istəyən, yaxud sadəcə istirahət etmək istəyən turistlərin bu saytdan məlumatı yoxdur. Azəbaycanda olan otellərin böyük qismi

"Booking.com" saytında olmasına baxmayaraq, yenidən sayt açılması bu rekreasiya-turizm obyektinə diqqəti azaltmışdır. Ən qlobal və diqqətə çarpan nüans isə qiymət strategiyasındakı uğursuzluqlardır ki, qiymətlərin çox yüksək olması və keyfiyyətlə üst-üstə düşməməsi turistlərin marağına səbəb olmur.

Təbiətin möhtəşəm və sirri açılmamış sərvəti olan palçıq vulkanlarıdır və Azərbaycan palçıq vulkanlarının diyarı hesab olunur. Dünyadakı palçıq vulkanlarının 1/3 hissəsi Azərbaycanda, 16000 km$^2$ ərazidə cəmlənmiş və sayı 350-dir. Palçığın tərkibi çox lazımlı mikroelementlərlə zəngin olduğundan, onların çoxu müalicəvi əhəmiyyətə malikdir. Hələ 1980-ci illərdə ölkənin 16 tibb müəssisəsində vulkan palçığı poliartrit, radikulit, hepatit, bir çox dəri xəstəliklərinin və əsəb sisteminin müalicəsində tətbiq edilirdi.

Digər tərəfdən, Palçıq vulkanları inşaatda geniş istifadə olunan təbii xammal kimi də qiymətli və əvəzsizdir. Vulkan gili tikinti üçün yararlı olaraq, gildən istifadə olunan kərpic isə yüksək keyfiyyətinə görə fərqlənir. Palçıq vulkanlarının iqtisadi sərfəliliyinin başqa bir tərəfi onun rekreasiya (istirahət) əhəmiyyətli təbii ehtiyat olmasından irəli gəlir.

Hazırkı zamanda da dünya təcrübəsində palçıq vulkanları yerləşən, möhtəşəm və əsrarəngiz görünüşə malik ərazilərə turistləri cəlb etmək üçün turlar təşkil edilir, müalicəvi əhəmiyyətli kurortlar salınır. Bu ölkələr rekreasiya əhəmiyyətli resurslarından bacarıqla istifadə edərək milyonlarla gəlir əldə edirlər. Lakin Azərbaycanda reklama və tanıtıma ayrılan marağın az və yüksək qiymət olması nəinki xarici turistləri, hətta yerli əhalini belə burdan uzaqlaşdırır. Əsasən Bakı və ətraf bölgələrdə olan bu zonalarda, turistlərin çox olmasına baxmayaraq diqqətsiz qalmışdır.

Vulkan palçıqlarının müalicəvi xüsusiyyətlərinin təsdiq olunması vacibdir. Belə ki, bütün vulkan palçıqlarının kimyəvi, üzvü tərkibi eyni deyildir və hər birindən eyni müalicə məqsədilə istifadə olunmur. Müalicə məqsədilə istifadə üçün nəzərdə tutulan vulkan palçıqlarının labaratoriyalarda analizinin aparılması və hansı xəstəliklərin müalicəsində tətbiqi müəyyən edilməlidir.

Əlavə olaraq bu vulkanlara yaxın ərazidə hər hansı mehmanxana və kurort- turizm obyektlərinin azlığına görə, turistlərin çoxu sadəcə turistik ziyarət məqsədi ilə gəlir. Məsələn, hazırda Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan "Qaranquş" sanatoriyasında vulkan palçıqlarından qismən istifadə olunur. Abşeron sanatoriyalarında vulkan palçığından kompleks istifadə olunması üçün maddi texniki bazanın mövcudluğu bu imkanlardan yararlanmağa şərait yaradır. Digər əsas səbəb isə, başqa mərkəzlərdə olduğu kimi bu zəngin sərvətlə bağlı məlumat verəcək bələdçi sistemi formalaşmamasıdır.

Naxçıvan Muxtar Respublikasında yerləşən Duzdağ müalicə sanatoriyası, Badamlı, Sirab mineral suları dünyada bənzəri az tapılan təbii sərvətlərdir. Bronxit və asma xəstələri üçün əvəzsiz sayılan Duzdağ müalicə mərkəzində açılan zamandan indiyə qədər 35000 xəstə müalicə olmuşdur, bu sayda uşaqlar üstünlük təşkil edir. Bronxial asmalı şəxslərdə müalicədən sonra boğulma tutulmalarının sayı azalır və ya kəsilir, quru öskürək azalır, yuxular stabilləşir və yuxu keyfiyyəti artır, qanda leykositlərin və eazinofillərin artmış miqdarı azalır, ağciyərlərin dəqiqəlik tənəffüs sayı azalır, bronx yolları təmizlənir və həyat keyfiyyəti artır.

Duzdağda müalicə olunan şəxslərin standartlarını yüksəltmək üçün 5 ulduzlu və Avropa standartlarına cavab verən otel fəaliyyət göstərir. Hətta turistlərin və pasiyentlərin rahat gəlişi üçün otelə transfer xidməti də yaradılmışdır. Xidmətin yüksəldilməsi və daha əlçatan olunması üçün yaradılmış web səhifə sayəsində həm rezervasiya etmək, həmdə transfer və digər xidmətlərdən asanlıqla istifadə etmək mümkündür. Otaqların şəraiti, verilən xidmətin dəqiqliyi, yeməklərin keyfiyyəti personalın profesionallığı və digər standartların hər biri dünyanın qabaqcıl otelləri ilə eynidir. Digər sahələrdə olduğu kimi qiymət strategiyasındakı problemlərə görə hal-hazırda bu oteldəki qonaqların sayı azdır. Oteldə 1 günlük gecələmənin qiyməti müqayisə etdiyimiz ölkələrdə 1 həftənin qiymətinə bərabərdir.

P.H dəyəri 7.5 olan Badamlı və 7.4 olan Sirab mineral suları insan sağlamlığı və gündəlik su ehtiyacı üçün əvəzsiz rol oynayır. Alimlərin və ekspertlərin fikirlərinə görə, xususən mədə xəstəliyindən əziyyət çəkənlər üçün Na və Cl elementlərinin zəngin olduğu bu mineral suların ölkə daxilində çox istifadə olunduğunun şahidi oluruq. Hətta bir çox post-sovet ölkələrinə ixrac olunan bu suların, həmin ölkələrdə tanınmaması və reklamının zəif olması çatışmazlıqlardan biridir.

Ölkəmizdəki termal mineral su və bulaqların say üstünlüyü və insan orqanizminə faydası saysız-hesabsızdır. Təəssüflər olsun ki, bu mineral su mənbələrinin çoxu diqqətdən kənarda qalmış, investisiya qoyulmadığına və abadlaşdırılma aparılmadığına görə həm turistlər, həm də səyahət agentlərinin marağını qaçırmışdır. Buna misal, "Oğlan-Qız" bulağıdır. İlisu kəndinin 5 km şimalında yerləşməyinə baxmayaraq, mürəkkəb relyef şəraiti yol infrastrukturunun təşkilinə imkan verməmişdir. Yolsuzluq şəraitinin olması müalicəvi sulardan istifadəyə mane olur. Müalicəvi sulara gedən yolun bərpası mövcud potensialdan səmərəli istifadə olunmasına şərait yaradır. Bulaqların ətrafında sosial infrastrukturun təşkili məqsədi ilə yerli idarəetmə orqanları və sahibkarlıq subyektləri tərəfindən gecələmə yerləri, ictimai mobil sanitar qovşaqları, tibb məntəqəsi, ümumi müalicə hamamları, istirahət yerləri və s. təşkil olunmalıdır. Bulaqların ətrafındakı ekoloji mühitin qorunması üçün, infrastruktur qurularkən ətraf mühitin sağlamlığı qorunmalı, eyni zamanda mövsümülük və meteroloji şərait nəzərə alınmalıdır.

Quba rayonunun Xaltan termal bulaqlarının fiz-ki-kimyəvi və mikrobioloji analizi beynəlxalq standartlara uyğun olaraq 40 komponent üzrə aparılmışdır. Xaltan termal bulağının müalicə məqsədilə istifadəsi üçün suyu həm daxilə qəbul etmək, həm də vanna qəbul etməklə bir çox xəstəliklərin müalicəsi və sağlamlığın bərpa olunmasında istifadə etmək olar. Suyun mikrobioloji analizinin nəticələrinə görə bakteriya və digər mikro orqanizmlərin normadan az olması müalicəvi süfrə suyu kimi istifadə olunmasına imkan verir. Xaltan termal bulağının yerləşdiyi ərazinin coğrafi şəraiti ondan istifadə imkanlarını çətinləşdirir. Termal mənbəyə ən qısa yol Siyəzən rayonundan gəlir. Bulağın 35 km-də asfalt örtüklü yol çınqıllı yola əvəz olunur. Bulağa gedən yolun Gilgil çay dərəsindən keçməsi və onun yaz aylarında daşması nəticəsində gətirdiyi daşlı-palçıqlı sel yolun kəsilməsinə səbəb olur. Yay mövsümdə çay dərəsində yolun hamarlanması yolsuzluq şəraiti üçün lazım olan avtomobillərin termal mənbəyə gəlməsinə imkan verir. Müalicəvi bulağın ətrafında infrastruktur şəraiti zəif təşkil olunmuşdur. Digər yandan Xaltan bulağının ətrafında məişət tullantılarının atılması üçün xüsusi qabalar qoyulsa da dolduqdan sonra uzun müddət daşınmır. Həmçinin kanalizasiya sularının birbaşa çaya axıdılması, şanboların yetərsizliyi daha acınacaqlı vəziyyət yaradır. Bələdiyyələrin və digər əlaqəli strukturların bulaqların ətrafında olan ekoloji və sanitar vəziyyətə nəzarət etməsi, məişət tullantılarının mütəmadi olaraq daşınması, kanalizasiya sularının çaya axıdılmasının qarşısının alınması, müvəqqəti şanboların və ya mobil sanitar qovşaqlarının təşkili vacibdir.

Ölkəmizdə mineral sulardan az istifadə olunmasının səbəbləri ardıcıllıqla:

• Mineral suların ətrafında normal infrastrukturun olmaması;

• Əksəriyyətinə gedən yolların bərbad olması və ya yolsuzluq şəraiti;

• Ətrafında sosial infrastruktur sahələrinin olmaması;

• Müalicə məqsədilə istifadə olunmasının texni-ki-iqtisadi əsaslandırılmasının olmaması;

• Ətrafında anti-sanitariya vəziyyətinin yaranması və bu sahəyə nəzarətin olmaması və s.

**2. Qonşu ölkələrin təcrübəsindən bəzi nümunələr**

Gürcütanın mineral su yataqları və istehsal etdiyi "Borjomi" təbii standartlara görə 1500 ildən çox yaşı olan vulkan mənşəli mineral sudur. Dünyaca məşhur olan bu su Qafqaz dağlarının dərinliklərindəki mənbələrdən çox diqqətlə istehsal olunur və bütün mərhələlərdə hərtərəfli keyfiyyətə nəzarət olunduqdan sonra butulka və bankalara qablaşdırılır. Borjomi suyu MDB və Baltikyanı ölkələrin ən böyük təbii mineral su istehsalçısı və təbii qablaşdırılmış suyun aparıcı istehsalçısı olan IDS Borjomi International-ın törəmə şirkəti olan IDS Borjomi Georgia tərəfindən istehsal olunur. IDS Borjomi International 2002-ci ildə təsis edilmiş Rusiya, Ukrayna və Gürcüstanda mineral su qablaşdırma zavodlarına malik, MDB və Baltikyanı ölkələrin aparıcı mineral su istehsalçısı olan beynəlxalq şirkətdir. Bu gün IDS Borjomi International öz məhsullarını dünyanın 40-dan çox ölkəsinə ixrac edir.

Borjomi Mərkəzi Parkının cənub hissəsində ziyarətçilər dəri üçün faydalı təbii ılıq suda dincəlmək və üzməkdən həzz almaq üçün ən yaxşı yer olan Çar Kükürd Hamamları adlanan açıq hava kükürdlü su hovuzları vardır. Zəngin xiyabanda gəzmək və bu isti, yumşaq və sağlam su ilə vanna qəbul etmək üçün qurulmuş sistem, yüksək standartlara cavab verən istirahət mərkəzləri turistlərə və yerli xalqa

normal qiymətlə təklif olunur. Kurortda və ətrafında çoxlu tarixi abidələr var ki, bu da ziyarətçilərə mədəni turizmdən həzz almaq imkanı verir.

Tiflis türk hamamlarının hidrogen-sulfidli suyundan dəri, ağciyər və digər xəstəliklərin müalicəsində səmərəli istifadə olunur. Əlbəttə, bunun üçün müntəzəm olaraq hamama getmək lazımdır. Turistlər üçün isə hamam bir növ attraksion – Tbilisiyə gəzinti proqramının mütləq bəndidir. Hamama gələnlər arasında Şərq yuyunma ənənəsi ilə tanış olmaq istəyən əcnəbilər çoxdur. Hamamlarda termal bulaqların müalicəvi suyu doldurulmuş hovuzda uzanmaqla bərabər, yorğunluğu əla çıxaran ənənəvi sabunlu masaj sifariş etmək olar.

Gürcüstanda təbii isti bulaqlar və kurortlar var. Amma Tbilisinin Abanotubani məhəlləsindəki kükürd vannaları bir çox turistin ilk dayanacağıdır. 40$^{o}$C temperaturda oturan hamam suyunun dəri üçün faydalı olduğu düşünülür.

Tarixi turizmdə uzun inkişaf yolu keçən Azərbaycanda olan abidələrin, memorialların hekayələri, üzərindəki izlər turistləri daim cəlb edən cəhət olmuşdur. Bakıda yerləşən tarixi abidələrin çoxu UNESCO-nun Ümümdünya İrsi siyahısına daxil olmuşdur: İçərişəhər, Qız Qalası, Yanardağ, Atəşgah və Qobustan kimi. Lakin diqqətin sadəcə Bakı və ətrafı ərazilərə yönəldilməsi, investisiyaları, daxili və xarici diqqətin bura artılırması, şəhərdən kənar yerləşən məkanları diqqətdən yayındırır. Rayonlarda yerləşən bir çox abidələrin dövlət qayğısından kənarda qalması, turistlərin səfəri üçün turların təşkil edilməməsi tarixi turizmi zəiflədən məsələlərdən biridir.

Azərbaycanda mühafizə sisteminin olmasına baxmayaraq, təhlükəsizli yəni turizm polisi adı altında qurum fəaliyyət göstərmir. Bunun üçün xüsusi şöbə yaradılmalı və abidələrin qorunması, ən əsası gələn turistlərin təhülkəsizliyi təmin edilməlidir.

Kiçik olmasına baxmayaraq, Gürcüstanda səhralar, sahillər və dağlar da daxil olmaqla hər cür mənzərə var. Ölkə yürüş və düşərgə həvəskarları üçün cənnətdir. Həmçinin nəfəs kəsən gölləri , kanyonları, şəlalələri kəşf etmək macəra sevən turistlər üçün seçilən yerdir..

Tbilisinin tarixi rayonu ziyarətçilərə maraqlı tur təklif etmək üçün tarixi abidələrlə zəngindir. Bizans bazilikalarını, orta əsrlərə aid abidələri, Moorish memarlığını, Osmanlı hamamlarını, Stalin parlamentlərini və daha çoxunu tapmaq mümkündür.

Gürcüstanın paytaxtına baxan Narikala qalası həm də "Tbilisinin ana qalası" kimi tanınır. 4-cü əsrdə tikilmiş qala şəhərin müdafiəsini yaxşılaşdırmaq üçün kritik bir barrikada rolunu oynadı. Ərəblər daha sonra onu 7-ci əsrdə, Kral David isə 11-ci əsrdə genişləndirdilər. Bura Gürcüstana səfər edərkən, təkcə tarixi baxımdan deyil, həm də gecə şəhər işıqlarının heyrətamiz mənzərəsini təqdim edir.

Bu ölkə digərlərinə görə tur çeşidiliyi, sayı və qiymətinə görə Avropa ölkələri ilə daim yarışdadır. Belə ki, Gareji və Signagi özəl tam günlük turlar, Qudauri/Kazbegə Qış Bestseller Günü Səyahəti adı aldında turlar mövcuddur. Və ortalama 2 nəfərlik bu gəzinti 100 dolladır.

Turistlərin rahat gəzməsi və bu tarixi məkanları ziyarət etməsi üçün mərkəzləşmiş qaydada məlumat ötürülməsi və bələdçilik sistemi, hətta dil bacarığı olan turizm polisi fəaliyyət göstərir.

Təbii gözəlliyi ilə Almatı şəhərinə gələnlərin üz tutduqları yerlərdən biri olan Böyük Almatı gölünə turistlərin marağı günü-gündən artır. Almatı Qubernatorluğu Turizm İdarəsindən verilən açıqlamada, bu ilin yanvar-may aylarında Almatıya gələn turistlərin ümumi sayının keçən ilə nisbətən yüzdə 25 artımla 271 min nəfər olduğu, onlardan 91 mininin burada olduğu bildirilib. Gölün orta suyunun temperaturu 8-10° C-dir və Almatı üçün əsas içməli su mənbəyidir

Qışda xizək mərkəzi kimi xidmət edən Çimbulak yayda yürüyüş və dağ velosipedçilərinin sevimli məkanlarından birinə çevrilir. Xizək mərkəzində çay və şam meşələri üzərindən keçən 3800 metr uzunluğunda kanat yolu, otellər, restoranlar, mağazalar, uşaq meydançaları, xizək hazırlığı məktəbi və digər əyləncə obyektləri ilboyu xidmət göstərir. Qış aylarında Çimbulakda qış idman yarışları da keçirilir.

Almatıdan 120 km şimalda, İli çayının sahilində yerləşən Tamqalı Taş traktı qayaüstü rəsmləri ilə diqqət çəkir. Qayalarda Buddist tanrılarının 5 təsviri həkk olunub. Tarixçilər onları 12-ci əsrə aid edir və bu rəsmlərdən başqa bütün qazax qəbilələrinin tamqaları var.

Hətta burada Tamgaly Taş festivalı keçirilərkən, idman, əyləncə və etnik mədəniyyəti birləşdirir. İdman yarışları kokpar və ya buzkaşi (at üstündə oyna-

nan polonun Orta Asiya versiyası), voleybol, qayayadırmanma, peyntbol və dözümlülük yarışlarında keçirilir.

Yuxarıda qeyd olunanların hamısı həm yerli, həm də xarixi turoperatorlar tərəfindən turlar təşkil edilərək, turistlərin axırnın gücləndirir.

Azərbaycan keçdiyi inkişaf yolu və müstəmləkədə olduğu illər ərzində digər dinlərə mənsub çoxlu tikililərə ev sahibliyi etmişdir. Ölkəmiz əsrlər boyu üç konfessiyanın – islam, yəhudi və xristian dinlərinin nümayəndələrinin dinc yanaşı yaşadığı ölkədir. İstər paytaxt Bakıda, istərsə də bölgələrdə xeyli dini memarlıq kompleksi, o cümlədən yüksək tarixi dəyəri olan abidələr yerləşir.

Şamaxıda təkcə Azərbaycanda deyil, həm də bütün Cənubi Qafqazda ən qədim və ən böyük məscidlərdən biri yerləşir. Burada 3 mindən çox adam eyni zamanda namaz qıla bilir.

Bakıda Mixail Arxangel kilsəsini görmək olar. Bəzi mənbələrə görə, batan gəmidən xilas olmuş dənizçilər tərəfindən 1841-1849-cu illər arasında inşa edilmiş bu kilsə şəhərdə qorunub saxlanılmış ən qədim kilsədir. Paytaxtda Azərbaycan ərazisində yeganə katolik kilsəsi - Müqəddəs Məryəm Ana katolik kilsəsi yerləşir.

Dağ yəhudilərinin dünyada ən böyük icmasının yaşadığı Qubadakı Qırmızı Qəsəbədə çoxsaylı tarixi sinaqoqlar bu günə qədər fəaliyyət göstərir.

Turizm potensialının yüksək qiymətləndirildiyi, lakin texniki vəziyyətinin ürəkaçan olmadığı və diqqətdən kənarda qalan mədəni irs obyektlərinin ayrı-ayrılıqda deyil, bir turizm inkişaf strategiyasının tədbirlər planı çərçivəsində bərpası və ya konservasiyasının həyata keçirilməsi vacibdir. Məsələn, "Böyük İpək Yolu" mədəni turizm marşrutunun tətbiqi üçün Səngaçal və Miəcik karvansaraları da daxil olmaqla, digər tarixi karvansarayların, ovdanların və hamamların bərpası vacib şərtdir. Eyni zamanda, ölkəmizdə Səfəvi mədəni irsinə olan marağı nəzərə alaraq, həm yerli, həm də xarici turistlərin diqqətini çəkən Şeyx Heydərin (Xızı rayonu) və Şeyx Cüneydin (Qusar rayonu) qəbirüstü abidələrinin, Gəncə və Bərdədə yerləşən İmamzadə məscidlərinin bərpa-konservasiyasının turizm inkişaf planları çərçivəsində həyata keçirilməsi bu yerlərin daha rahatlıqla turizm nümayiş obyektlərinə çevrilməsinə səbəb ola bilər.

Nardaranda yerləşən Rəhimə xanım ziyarətgahı islam dininə etiqat edənlər üçün önmənli ziyarətgahdır. Lakin turoperatorlar və səyahət agentlikləri tərəfindən gəzdirilmədiyi üçün gözdən uzaq qalmışdır.

Gürcüstanda yerləşən dini məkanlar və çarlar tərəfindən istər eramızdan əvvəl, istərsə də bizim eranın müəyyən əsrlərində tikilmiş çoxlu kilsə və monastrlar turistlərin axınına şərait yaratmışdır.

Qərbi Gürcüstanda yerləşən Gelati Monastırı Kral IV Davidin Gürcüstanda tikdiyi ilk monastırlardan biri olduğuna inanılan monastır kompleksidir.

Kakheti bir çox fərqli monastır və kilsələrə ev sahibliyi edir. Ən seçilənlərdən bəziləri David Gareji, Alaverdi Katedrali, Nekresi Manastırı və Gremi Manastırıdır.

Azərbaycanla həmsərhəd olan ölkənin səhrasında yerləşən David Gareji, qayada yonulmuş mağara monastırlar kompleksidir.

Eramızın IV əsrinə gedən Nekresi, ölkədəki ən qədim xristian kilsəsidir. Keçmişdə, millətin ən əhəmiyyətli mənəvi, mədəni, siyasi və təhsil mərkəzi idi.

Çapraz günbəzli Alaverdi Katedrali XI əsrdə Kaxetiya Kralı Kvirike tərəfindən inşa edilmişdir. Katedralin hündürlüyü 50 metrdən çoxdur və bu, Tbilisidəki Müqəddəs Üçlük Katedralindən sonra ölkədəki ikinci ən yüksək dini binadır.

Müqəddəs Nino, Xristianlığı 4-cü əsrdə ölkəyə gətirdiyi üçün Gürcüstanda vacib bir şəxsiyyətdir. Sighnaghi'ye çox yaxın olan Bodbe Manastırı, müqəddəsin son istirahət yeri olmuş, Kral Mirian əvvəlcə kilsəni qəbrinin üstündə tikdirilmiş, lakin o vaxtdan bəri bir neçə dəfə yenidən qurulub və təmir edilmişdir.

Qazaxıstanda həm müsəlman, həm də xristian mədəiyyətini nümayiş etdirən çoxlu dini komplekslər fəaliyyət göstərir. Məsələn, Aktaunun təqribən 285 km şərqində yerləşən Beket-Ata yeraltı məscidi və sufi mistiki və müəllimi Beket-Atanın (1750-1813) son iqamətgahını ziyarət etmək istəyənlər üçün vacib və olduqca məhşur ziyarət yeridir. Məscid mənzərəli səhra kanyonunun dibində yerləşir və Beket-Ataya səyahət bəzi möhtəşəm çöl və səhra mənzərələrini keçməyi nəzərdə tutur. Hətta buraya zəvvar nəqliyyatı da təşkil olunmuşdur. Yolların vəziyyəti yaxşı olduğuna görə, ora çatmaq problem yaratmır. Əgər turistlər maşınla gedirsə, əvvəlcə Je-

tibay kəndinə gedir, sonra Janaozen şəhərində keçir. Zəvvarlar məscidə çatmamış son məntəqə olan Qızılsay kəndində namaz qılır.

Qazaxıstanın əsas pravoslav kilsələrindən biri olan Zenkov Katedralı kimi tanınan Almatı Yüksəliş Katedralı bu ölkə üçün ən böyük pravoslav kilsələrindən biridir. Katedral 1907-ci ildə açılmış və o vaxtdan çox zəzələlər, sonra dinlərin haram edildiyi, dini qurumların bağlandığı dövləri görmüşdür. Lakin çoxmillətli Qazaxıstanın mədəniyyəti və turizmi üçün böyük dəyərlərə malikdir. Bu taxta kilsə qədim texnologiyaları nəzərə alaraq demək olar ki, mismarsız tikilmişdir.

**Yekun**

Qeyd olunan bütün məlumatlardan sonra deyə bilərik ki, ölkəmizdə istər otellər, istər bərpa olunan tarixi, mədəni məkanlarin xarici görünüşü Avropa və dünyanın qabaqcıl turizm ölkələri ilə demək olar ki, eynidir. Bütün xidmət sahələrindəki problem isə qiymət staretegiyası və qismən güclü kadr çatışmazlığıdır. Azərbaycanda böyük otel və mehmanxanaların çoxu xarici ölkələrdən dəvət olunmuş vətəndaşlar tərəfindən həyata keçirilir. Bu isə bir növ yaranmış boşluqları bağlayır. Digər yandan, məqsədyönlü tədbirlər bu aktivləri digər sektorlardan daha sürətlə turizm sektorunun rəqabət üstünlüyünə çevirə bilər. Bu cür səylər üç əsas amili əhatə edir: əsas vasitələrin təchiz edilməsini, cəlbedici turizm təkliflərini və bunların uğurlu marketinqinin təşkilini. Bunların həyata keçirilməsi üçün ölkədə və ölkədən kənarda turizm imkanlarının geniş təbliği, beynəlxalq səviyyədə turoperatorlar ilə əməkdaşlıq və ölkənin imicinin dəstəklənməsi istiqamətində müxtəlif tədbirlərin təşkili olunmalıdır. Azərbaycanda olan potensialı nəzərə alaraq, ölkəmiz üçün tək yol turizmi mövsümü sahədən iqtisadi sahəyə çevirməkdir.

**Açar sözlər:** *Azərbaycan, turizm, qeyri-neft iqtisadiyyatı, beynəlxalq təcrübə, təbiət potensialı.*

**İstifadə olunmuş informasiya resursları:**

*https://mida.gov.az/documents/Turizm_s%C9%99nayesinin_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf*

*https://tourism.gov.az/uploads/documents/sa%C4%9Flaml%C4%B1q_turizmi_haqq%C4%B1nda__hesabat_dta.pdf*

*https://www.ceicdata.com/en/kazakhstan/hotel-statistics/number-of-hotels#:~:text=Kazakhstan%20Number%20of%20Hotels%20data,to%202021%2C%20with%2023%20observations.*

*https://www.nationmaster.com/nmx/ranking/number-of-bed-places-in-tourist-accommodation-establishments*

*http://unec.edu.az/application/uploads/2018/12/Eyyubova-lk-r.pdf*

*https://unec.edu.az/application/uploads/2015/11/xidmet_saha16.pdf*

*file:///C:/Users/reception.left/Downloads/Azerbaycan_turizmi_ve_onun_inkishaf_problemleri.pdf*

*https://www.stat.gov.az/source/tourism/*

*https://en.wikipedia.org/wiki/Tourism_in_Azerbaijan*

*https://www.macrotrends.net/countries/GEO/georgia/tourism-statistics*

*https://www.worlddata.info/asia/kazakhstan/tourism.php*

*https://www.worlddata.info/asia/azerbaijan/tourism.php*

*https://www.skyscanner.net/routes/ae/kz/united-arab-emirates-to-kazakhstan.html*

*https://www.skyscanner.net/routes/cn/kz/china-to-kazakhstan.html*

**РЕЗЮМЕ**

**Вусаля Кулиева**

**Азербайджанский туризм в современный период: реалии и потенциал**

В данной статье сделана попытка анализа туристического сектора Азербайджана, как одного из важнейших векторов постнефтяной экономики страны. Автор, применяя метод сравнительного анализа на базе опыта соседних стран и мирового опыта, пытается нарисовать реальную картину туризма в Азербайджана, и старается выявить его потенциальные направления. Указывая на богатую природу и множество уникальных исторических памятников, а также лечебных источников разбросанных по всей территории страны, автор предлагает активно привлечь весь этот естественных потенциал для расширения и развития туристической сферы. Так, как на данном этапе своего развития туризм в нашей

стране носит в значительной мере однобокий характер. Большинство туристов, приезжающих в Азербайджан ограничиваются развлечением, шопингом и в лучшем случае кратковременными походами на природу. Такое положение дел безусловно, не способствует полноценному развитию туристической сферы. Наряду с этим автор предлагает создание туристической полиции, которая обеспечивала бы безопасность туристов пребывающих в нашей стране и боролась со всеми возмоными негативными проявлениями в этой сфере.

**Ключевые слова:** *Туризм, Азербайджан, постнефтяная экономика, международный опыт, природные богатсва.*

**SUMMARY**
**Vusala Kuliyeva**

**Azerbaijan tourism in the modern period: realities and potential**

This article attempts to analyze the tourism sector of Azerbaijan as one of the most important vectors of the country's post-oil economy. The author, using the method of comparative analysis based on the experience of neighboring countries and world experience, tries to draw a real picture of tourism in Azerbaijan, and tries to identify its potential directions. Pointing to the rich nature and many unique historical monuments, as well as healing springs scattered throughout the country, the author proposes to actively attract all this natural potential for the expansion and development of the tourism sector. So, as at this stage of its development, tourism in our country is largely one-sided. Most of the tourists coming to Azerbaijan are limited to entertainment, shopping and, at best, short trips to nature. This state of affairs certainly does not contribute to the full development of the tourism sector. Along with this, the author proposes the creation of a tourist police that would ensure the safety of tourists staying in our country and fight against all possible negative manifestations in this area.

**Keywords:** *Tourism, Azerbaijan, post-oil economy, international experience, natural resources.*

# Fəlsəfə və Sosiologiya

UOT 101.1::316

**MÜSLÜM NƏZƏROV**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti.*
*Fəlsəfə elmləri doktoru, dosent*
*E-mail: muslimnazarov@mail.ru*

## TƏHSİL PROSESİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN FƏLSƏFİ ASPEKTLƏRİ

Müasir dünyada təhsil cəmiyyətin sosial-iqtisadi inkişafında hərəkətverici qüvvə olduğundan təhsil prosesində innovativ transformasiyaların rolu əhəmiyyətli dərəcədə genişlənmişdir. Bu baxımdan, tərəqqinin və gerilləmənin proqnozlaşdırılması zərurəti üçün həm ölkəmizdə, həm də bütün dünyada mövcud təhsil sistemində istiqamətləndirmə üzrə elementar bilik və bacarıqlara ehtiyac var. Bu baxımdan fəlsəfə və pedaqogika elmləri müasir elmi biliyin və başər mədəniyyətinin tərkib hissəsi olan böyük tarixi təcrübə toplamışdır, ona görə də bu elmlər elmi tədqiqatlara daxil edilmədən dünyanın tam elmi mənzərəsi və gələcək mütəxəssisin dünyagörüşü mümkün deyildir. Eyni zamanda, razılaşmaq lazımdır ki, təhsil cəmiyyətin insan kapitalının tərkib hissəsidir.

İctimai həyatın bütün sahələrində baş verən əsaslı dəyişikliklər, elm və mədəniyyətin tərəqqisi, pedaqoji fəaliyyət sahəsində yeni tələblər təhsil sisteminin müasirləşdirilməsi zərurətinə səbəb olmuşdur. Bu sahəni daha da inkişaf etdirməyin mümkün yollarından biri informasiya texnologiyalarıdır, yəni təhsildə informasiya texnologiyalarının yaradılması, qavranılması, qiymətləndirilməsi, işlənib hazırlanması və həyata keçirilməsinin idarə olunan prosesləridir. Bu, təhsilin məzmununa, təlimin metod və formalarına, təhsil müəssisələrinin idarə edilməsinə və s. sahələrdə mühüm rol oynayır.

İnformasiya texnologiyalarının əsaslarının fəlsəfi və metodoloji səviyyədə nəzərdən keçirilməsinin, ilk növbədə, müxtəlif pedaqoji situasiyalarda "insan-kompüter" münasibətlərinin təhlilinin aktuallığı şübhəsizdir. Belə təhlil ona görə zəruridir ki, o, təhsil sahəsində kompüter texnologiyalarından istifadənin müxtəlif imkanlarının öyrənilməsində ümumi dünyagörüşün əsaslandırılmasına yönəlib.

Qeyd etmək olar ki, informasiya texnologiyası bu gün insan fəaliyyətinin strukturlarına dərindən nüfuz edir, əməyin və təlimin məzmununu, xarakterini dəyişdirir, insan intellektinin və şəxsiyyətinin inkişafı problemlərini yeni tərzdə qoyur, insanların dünyagörüşünə, ideoloji inkişafına ciddi təsir göstərərək anla-yışlar yaradır, elmi tədqiqatın yeni üsullarını formalaşdırır. Məhz buna görə də informasiya texnologiyalarının inkişafının sosial-fəlsəfi və fəlsəfi-metodoloji aspektləri xüsusi diqqətə layiqdir. Bu tələb elmi biliyin müxtəlif sahələrinə, o cümlədən onun tədqiqat predmetinin - pedaqoji fəaliyyətin mühüm xüsusiyyət-lərini əks etdirən pedaqoji elm sahəsinə şamil edilir.

Öz təbiətinə görə sosial elm olan pedaqogikanın təkcə digər sosial elmlərlə (sosiologiya, psixologiya, məntiq, etika, estetika və s.) deyil, həm də təbiət və texniki elmlərlə inteqrasiyası elmi və elmi-texniki elmlər sisteminin təkmilləşdirilməsində pedaqoji biliklər aparıcı tendensiyadır. Bu tendensiya müstəqilliyinə və əhəmiyyətinə görə, mahiyyətcə daha ümumi sosial-fəlsəfi problemin yalnız bir hissəsi olan təhsil sahəsində "insan-maşın" müasir elmi-texniki inqilabın mərkəzində insanın kompüterlə qarşılıqlı əlaqəsi probleminin öyrənilməsində də görünür. Eyni zamanda, "maşın" kateqoriyası insan fəaliyyətinin məqsədəuyğunluğunun səmərəliliyinin artırılması vasitəsi kimi istifadə olunan hər hansı texniki qurğuları ifadə edən kollektiv xarakter daşıyır.

Sosial-iqtisadi və elmi-texniki tərəqqinin sürətləndirilməsi, ictimai istehsalın intensivləşdirilməsində insan amilinin rolunun və yerinin şərhi ilə bağlı məsələlər kompleksinə diqqətin artırılması düzgün pedaqoji və texniki amilləri getdikcə aktuallaşır. Bu əlaqə insanın sosial-faydalı fəaliyyətinin texnolojiləşdirilməsinin ən yüksək təzahürü olan kompüter texnologiyaları ilə qarşılıqlı əlaqə prosesində özünü göstərir.

Sosial, təbiət və texniki elmlərin qarşılıqlı əlaqəsinin gücləndirilməsi biliyin inteqrativ, fənlərarası formalarının özəyini təşkil edən, təbiət və cəmiyyət elmlə-rinin yaxınlaşması prosesinin dərk edilməsində həlledici rol oynayan fəlsəfi biliklər sisteminin əhəmiyyətini vurğulayır və bu elmlərin elmi-tədqiqat işlərinin aparılmasında mühüm rol oynayır.

Obyektiv reallığın cisim və hadisələrinin univer-

sal və qarşılıqlı asılılığının fəlsəfi prinsipi insan və texnika elmlərinin qarşılıqlı əlaqəsi üçün bilavasitə metodoloji rəhbər rolunu oynayır. Dialektik-materialist nöqteyi-nəzərdən qanunların mövcudluğunu təsdiq edən dünyanın maddi vəhdət prinsipinin təzahürü kimi, çox vaxt keyfiyyətcə dərindən fərqli olan şeylərin, əşyaların, hadisələrin, proseslərin qarşılıqlı təsirlərə qabiliyyəti müxtəlif təbiətli obyektlərə şamil edilir.

Eyni zamanda, dialektik məntiq tələb edir ki, insanın əmək fəaliyyəti ilə müxtəlif maşınların işləməsi arasındakı əsas fərqləri ifadə etməklə yanaşı, insanın əmək fəaliyyətini müşayiət edən əqli və fiziki proseslərlə maşınlarda baş verən proseslər arasında obyektiv olaraq mövcud analoqlar müəyyən edilməlidir. Üstəlik, həyat insanı və maşını bir mövqedən nəzərdən keçirməyə imkan verən belə anlayışların yaradılmasını tələb edir, lakin bu, insanla robot arasındakı hər hansı keyfiyyət fərqinin silinməsi demək deyil. Sözün əsl mənasında heç bir maşın, hətta ən mükəmməli belə işləyir və işləyə bilməz. Bu, yalnız əmək alətidir, onun köməyi ilə insan təbiətə təsir göstərir, sonuncunu əvvəlcədən müəyyən edilmiş məqsədə uyğun olaraq dəyişdirir. Texnologiya nə qədər diqqətəlayiq uğurlar qazansa da, nə qədər heyrətamiz avtomatlar yaradılsa da, əmək həmişə insanın şüurlu fəaliyyəti olub və qalır, insan isə əməyin subyektidir. Əməyin mürəkkəbləşməsi, maşınların özləri təkmilləşməsi ilə insanın əmək fəaliyyətinin aləti kimi maşının funksiyalarının əhəmiyyətli dərəcədə dəyişməsi tamamilə təbiidir. İctimai istehsalın demək olar ki, bütün sahələrində əməyin intellektuallaşdırılması, idarəetmə fəaliyyətinin rolunun və optimal idarəetmə qərarlarının qəbulu prosesinin əhəmiyyətli dərəcədə artması, elmi tədqiqatların səmərəliliyinə və sübutlarına olan tələblərin davamlı olaraq artması seçmə axtarış, emal, saxlama problemini kəskinləşdirir.

İnformatika ideyalarının, metodlarının və texniki vasitələrinin bu sahəyə nüfuz etməsi ilə əlaqədar təhsil sahəsində kompüterləşdirmənin sosial-fəlsəfi problemlərinin həlli daha aktual bir vəzifədir. Söhbət təkcə kompüterin texniki xüsusiyyətlərindən - onların sürətindən, yaddaş tutumundan, etibarlılığından və s.-dən deyil, hər şeydən əvvəl kompüter texnologiyasından pedaqoji, mahiyyətcə sosial praktikada istifadənin effektivliyindən gedir.

Bu mövqeyi irəli sürərək və onun pedaqoji elm üçün ən mühüm metodoloji əhəmiyyətini vurğulayaraq, eyni zamanda ona da diqqət yetirmək lazımdır ki, müəyyən fəlsəfi anlayışları, ümumi elmi metodoloji prinsipləri, xüsusən də lazımi qaydada alınmadan götürülmüş metod və üsulları birbaşa ötürmək cəhdləri, əlaqəli bilik sahələrindən olan və bilavasitə pedaqogikaya daxil edilən pedaqoji şərhlər çox vaxt kifayət qədər effektiv olmur. Həyatın özü, gündəlik pedaqoji təcrübə, bir qayda olaraq, konkret pedaqoji problemlərin həlli onlardan istifadənin qanuniliyi üçün lazımi əsas olmadan pedaqogikaya daxil olan digər elmlərdən mexaniki olaraq götürülmüş müəyyən yenilikləri rədd edir.

Bu yanaşma müvafiq məsələlərin nəzərdən keçirilməsi ardıcıllığını əvvəlcə-dən müəyyən edir: ilk növbədə pedaqoji fəaliyyətin mahiyyətini və əsas istiqamətlərini müəyyən etmək, sonra isə fəlsəfi və metodoloji səviyyədə səmərəli qarşılıqlı əlaqənin mümkünlüyünü prinsipcə əsaslandırmağa çalışmaq lazımdır.

Fikirimizcə "pedaqoji fəaliyyət" kateqoriyası üç fənn sahəsi üzrə müvafiq pedaqoji reallıqları adekvat şəkildə əks etdirir. Birincisi, bu, müəllimin gündəlik məqsədyönlü pedaqoji (təhsil) fəaliyyətində öz sosial funksiyalarını yerinə yetirdiyi ənənəvi başa düşülən təhsil prosesidir.

İkincisi, bu, təhsilin hər bir səviyyəsində və bütövlükdə pedaqoji sistemdə optimal fəaliyyət göstərən təhsil sistemlərinin əsaslandırılması (layihələndirilməsi), sonrakı tədris prosesinin təşkili üçün zəruri ilkin şərtlərin yaradılması ilə məşğul olan pedaqoq-alimlərin elmi-tədqiqat fəaliyyəti sahəsidir.

Nəhayət, pedaqoji fəaliyyətin üçüncü sahəsi pedaqoji idarəetmə sferasını müxtəlif səviyyələrdə - ayrıca bir təhsil müəssisəsinin idarə edilməsindən tutmuş bütövlükdə xalq təhsili sisteminin və ya onun alt sistemlərinin idarə edilməsinə qədər əhatə edir.

Həmçinin "pedaqoji fəaliyyət" kateqoriyası pedaqoji reallıq sferasını əhatə edir ki, bu da pedaqogika elminin özünün inkişafı ilə bağlıdır. Məsələ burasındadır ki, bütövlükdə pedaqoji elmin və onun məntiqi strukturunun ən mühüm komponentlərinin (əsaslar, nəzəriyyələr, qanunlar, qanunauyğunluqlar, kateqoriyalar, anlayışlar, prinsiplər, metodlar, ideyalar, faktlar) təkmilləşməsi heç bir halda kortəbii, öz-özünə baş verən inkişaf proses deyil. Bu proses, şübhəsiz ki, idarə olunandır və buna görə də pedaqogikanın mövcud vəziyyətini, onun xarici mühitlə əlaqəsini, digər elmlərlə inteqrativ (fənlərarası) qarşılıqlı əlaqəni, elm sahəsində inkişaf perspektiv-

lərini öyrənməyə yönəlmiş elmi xarakterli xüsusi pedaqoji fəaliyyətin təşkilini tələb edir.

Qeyd etmək lazımdır ki, elmi-praktik əhəmiyyətinə görə qalıcı olan, lakin hazırda (sosial-iqtisadi və elmi-texniki tərəqqinin sürətləndirilməsi şəraitində) xeyli kəskinləşən pedaqoji fəaliyyətin optimallaşdırılması və intensivləşdirilməsi probleminin həlli onun tətbiqinin spesifik dairəsi bu fəaliyyətin hərtərəfli, etibarlı və operativ informasiya təminatı vəzifələrinin həlli ilə üzvi şəkildə bağlıdır.

Beləliklə, təhsil fəaliyyəti sahəsində kompüter həm təhsil vasitəsi (təhsil, inkişaf), həm də öyrənmə obyekti kimi çıxış edir və ümumi sosial-fəlsəfi problem olan "insan-kompüter" əslində əlaqəni müəyyən etməyə gəlir. Təhsil prosesinin səmərəliyinin inkişafına keyfiyyətcə yeni metod və texnologiyaların, xüsusən də aktiv, interaktiv və kompüter üsullarının fəal istifadəsi kömək edir.

Təhsilin informasiyalaşdırılması təhsil sektorunun müasir informasiya texnologiyaları ilə təmin edilməsinin kompleks prosesi kimi başa düşülür [5, s. 506].

Təhsilin informasiyalaşdırılmasına nəzər salındıqda kompüterləşdirmə, informasiyalaşdırma kimi terminlər qarşıya çıxır.

Kompüterləşmə, kompüterlərin təsiri altında bu fəaliyyətin nəzərə çarpacaq dərəcədə yenidən qurulması ilə müşayiət olunan insan fəaliyyətinin müəyyən bir sahəsinə kompüterlərin daxil edilməsidir.

İnformasiyalaşdırma informasiya cəmiyyətinin qurulması, insan fəaliyyətinin bütün sahələrində etibarlı, hərtərəfli və qabaqcıl biliklərin rolunun gücləndirilməsidir. Kompüterləşmə cəmiyyətin informasiyalaşdırılmasının daha geniş prosesinin əsas hissələrindən biridir. Rabitə sistemlərinin hərtərəfli inkişafı ilə birlikdə cəmiyyətin informasiyalaşdırılmasının texniki əsası kimi çıxış edir.

Cəmiyyətin informasiyalaşdırma səviyyəsi hazırda dövlətin inkişaf dərəcəsini qiymətləndirmək üçün əsas meyarlardan biri, onun iqtisadi, siyasi və hərbi qüdrətinin ən mühüm amilidir. Bu baxımdan dünyanın aparıcı dövlətləri informasiya sənayesinin yaradılmasına, müasir informasiya texnologiyaları vasitələrindən istifadəyə müstəsna əhəmiyyət verir, bu problemlərin həllinə böyük resurslar və səyləri yönəldirlər.

İnformasiya texnologiyaları dedikdə, insanların biliklərini genişləndirən, texniki və sosial prosesləri idarə etmək bacarıqlarını inkişaf etdirən məlumatların toplanması, təşkili, saxlanması, emalı, ötürülməsi və təqdim edilməsi üsulları və texniki vasitələrin məcmusu başa düşülür. İnformasiya texnologiyaları bir sıra meyarlara görə təsnif edilə bilər. Tətbiq sahəsinə görə elm, təhsil, mədəniyyət, iqtisadiyyat və s. informasiya texnologiyalarından istifadə olunur [2,s.394].

Təhsildə yeni informasiya texnologiyaları - bu texnologiyadan və xüsusi proqram təminatından, informasiya-metodiki təminatdan istifadəyə əsaslanan təlim, təhsil, tədqiqat və idarəetmə texnologiyalarının məcmusudur.

Təhsilin informasiyalaşdırılmasının ən vacib vəzifələrindən biri mütəxəssisin informasiya mədəniyyətinin formalaşdırılmasıdır, onun formalaşma səviyyəsi: 1. informasiya prosesləri, modelləri və texnologiyaları barədə biliklərlə müəyyənləşdirilir; 2.müxtəlif fəaliyyətlərdə məlumatların işlən-məsi və təhlili üçün alət və metodlardan istifadə bacarıqları; 3. peşəkar (təhsil) fəaliyyətində müasir informasiya texnologiyalarından istifadə etmək bacarığı; 4.açıq bir məlumat sistemi olaraq ətraf aləmin dünyagörüşünü formalaşdırır.

Müəllimlərin informasiya mədəniyyəti, onların informasiya texnologiyaları vasitələrinin potensialı ilə tanış olması və onlardan tədris prosesində istifadə etmək bacarığı təlim prosesinin informasiyalaşdırılmasında digər mühüm amildir. Kompüter elmləri və kompüter texnologiyaları dünyası ilə insan ünsiyyətinin üç səviyyəsini ayırmaq olar: kompüter məlumatlılığı, kompüter savadlılığı və informasiya mədəniyyəti.

Kompüter savadlılığı fərdi kompüterdə oxumaq və yazmaq, saymaq və çəkmək, məlumat axtarmaq və proqramlarla işləmək bacarığıdır.

Cəmiyyətin mədəniyyəti dedikdə, cəmiyyətin və insanın tarixən əldə edilmiş inkişaf səviyyəsini əks etdirən və istehsal fəaliyyətinin nəticələrində təcəssüm olunan əməli, maddi və mənəvi nailiyyətlərin məcmusu başa düşülür.

Bu gün ümumiyyətlə mədəniyyətin ən mühüm komponentlərindən biri informasiya mədəniyyətidir.

İnformasiya mədəniyyəti informasiya proseslərinin təşkilinin əldə edilmiş səviyyəsi, insanların informasiya kommunikasiya texnologiyarından məmnunluq dərəcəsi, informasiyanın yaradılması, toplanması, saxlanması, emalı, ötürülməsi, təqdim edilməsi və istifadə edilməsində səmərəlilik səviyyəsi, vahid informasiyanın təmin edilməsi kimi qəbul edilməlidir [6, s.101].

İnsanın yaratdığı qurğu və sistemlərin hər birində informasiyanın toplanması prosesləri baş verir. Fərdi kompüterlərin yaranması informasiyanın toplanması, ötürülməsi və emalı sahəsində inqilabın başlanğıcı oldu. Bu inqilab təkcə maddi istehsal sahəsinə deyil, həm də həyatın intellektual sahələrinə təsir edir və onları dəyişdirir. Sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid prosesi bu gün bütün inkişaf etmiş ölkələri əhatə edib. Bu prosesin mərkəzi nüvəsini yeni informasiya texnologiyalarından istifadə etməklə informasiyanın emalı təşkil edir.

Təhsil kompüter şəbəkələri müxtəlif təbəqələrdən olan müəllimlərin ixtisa-sının artırılmasının, yüksək ixtisaslı müəllim kadrlarının hazırlanmasının, müəllim və tələbələri bir araya gətirən vasitədir. Bu vasitələrə aşağıdakılar daxildir:

- müəllimlər üçün təhsil sisteminin normativ-metodiki sənədlərini operativ şəkildə almaq;
- təhsil sistemi üçün nəzərdə tutulmuş tədris-metodiki materialları, pedaqoji innovasiyaları və yeni informasiya texnologiyalarını almaq;
- pedaqoji texnologiyalar sahəsində davam edən konfranslar, seminarlar, müsabiqələr və s. haqqında məlumat almaq;
- pedaqogika və təhsil problemləri üzrə fərdi məlumat banklarını formalaş-dırmaq, retrospektiv axtarış aparmaq və alınan məlumatlardan çoxsaylı istifadə etmək bacarığı;
- sənayenin müxtəlif qurumları arasında məlumat mübadiləsini təşkil etmək.

Tədris və öyrənmə üçün mövcud olan texnoloji resurslara elektron media və rabitə vasitələri ilə yanaşı, kompüter avadanlıqları və proqram təminatı da daxildir. Hesablamanın sürətlə dəyişən təbiəti istənilən növ öyrənmə üçün mövcud olan resursların çeşidini genişləndirməyə davam edir. Texnologiya müasir həyatın bütün sahələrində mühüm rol oynayır [7].

Bəşəriyyətin gələcəyi elmi bilikləri və praktiki təcrübəni vahid bütövlükdə birləşdirən bir-biri ilə əlaqəli qlobal birlik konsepsiyasına əsaslanır.

İnformasiya yönümlü cəmiyyətin mövcud olacağı qlobal informasiyanın formalaşmasına yönəlmiş səylərin uğurla həyata keçirilməsi üçün təhsilin inkişafı sahəsində nəzərdə tutulmuş kommunikasiya infrastrukturunun yaradılması lazımdır. Bu istiqamətdə kompüter rabitəsi, təhsil telekommunikasiya şəbəkələrinin yaradılması mühüm rol oynayır. Təhsildə bu şəbəkələrin yaranması təlim prosesini iki istiqamətdə dəyişir:

- hər bir tələbə və müəllim üçün dünya üzrə elmi-metodiki mərkəzlərin malik olduğu informasiya və texniki imkanlar mülkiyyətə çevrilir;
- tələbə və müəllimlərin informasiya proseslərinə cəlbi artır ki, bu da tədris və tələbə fəaliyyətini daha fəal və səmərəli edir.

İnformasiya texnologiyalarından istifadə etmədən pedaqoji monitorinqin inkişafının mürəkkəb problemlərini həll etmək çətindir, bu halda informasiya sisteminin inkişafı üçün güclü vasitə kimi çıxış edir. Bu da fəlsəfi tədqiqat prosesinə informasiya texnologiyalarının tətbiqi onun fəaliyyət sərhədlərini dərk etməklə çox səmərəli tendensiya kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1.“Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya” Konsepsiyası.“Azərbaycan” qəzeti.02.04. 2014-cü il.*

*2. Nəzərov M.H., Quliyev N.Z., Nəzərova X.M. Pedaqoji texnologiyalar. (Dərs vəsaiti) Bakı. ADPU-2020. 496 s.*

*3. Nəzərov M.H. Təhsil fəlsəfəsi. Dərs vəsaiti. Bakı, ADPU-2022 496 s.*

*4. Захарова И.Г. Информационные технологии в образовании. М.: Изд. центр «Академия», 2010. - 192 с.*

*5. Осипова С.И., Баранова И.А., Игнатова В.А. Информатизация образования как объект педагогического анализа // Фундаментальные исследования. 2011. № 12 (часть 3) С. 506-510.*

*6.Nazarov M.H. Sociocultural fundamentals of education.(Monograph) Germany, Meldrum. LAP. LAMBERT Academic Publishing, 2020, 248 p.*

*7.https://cyberleninka.ru/article/n/rol-informatsionnyh-tehnologiy-v-obrazovanii*


**M.H.Nəzərov**

**Təhsil prosesində informasiya texnologiyalarından istifadənin fəlsəfi aspektləri**

**XÜLASƏ**

Məqalədə təhsil prosesində informasiyalaşdırmanın üstünlükləri, sosial şəbəkələrin müsbət və mənfi cəhətləririndən və sosial-fəlsəfi perspektivlərdən də bəhs edilir. İctimai həyatın bütün sahələrində baş verən əsaslı dəyişikliklər, elm və mədəniyyətin tərəqqisi, təhsil sisteminin müasirləşdirilməsi yolları, informasiya texnologiyalarının əsasları fəlsəfi və

metodoloji səviyyədə nəzərdən keçirilir.

“Pedaqoji fəaliyyət” kateqoriyası əks etdirilir, həmçinin təhsil kompüter şəbəkələri müxtəlif təbəqələrdən olan müəllimlərin ixtisasının artırılmasının, yüksək ixtisaslı müəllim kadrlarının hazırlanmasının vasitələri göstərilir.

**Acar sözlər:** *Təhsil, informasiya texnologiyaları, informasiya mədəniyyəti, fəlsəfi səviyyə, informasiya cəmiyyəti.*

**М.Г.Назаров**

**Философские аспекты использования информационных технологий в образовательном процессе**

**РЕЗЮМЕ**

В статье рассматриваются преимущества информатизации в образова-тельном процессе, положительные и отрицательные стороны социальных сетей, социально-философские аспекты. На философско-методологическом уровне рассматриваются коренные изменения, происходящие во всех сферах общественной жизни, прогресс науки и культуры, пути модернизации системы образования, основы информационных технологий. Отражена категория «педагогическая деятельность», а также показаны учебные компьютерные сети как средство повышения квалификации учителе й разных классов и подготовки высококвалифицированных педагогических кадров.

**Ключевые слова:** *образование, информационные технологии, информационная культура, философский уровень, информационное обще-ство.*

**M H. Nazarov**

**Philosophical aspects of using information technologies in the educational process**

**SUMMARY**

The article also discusses the advantages of informatization in the educational process, the positive and negative aspects of social networks, and socio-philosophical perspectives. Fundamental changes occurring in all spheres of public life, progress of science and culture, ways of modernizing the education system, the basics of information technologies are considered at the philosophical and methodological level.The category of "pedagogical activity" is reflected, as well as educational computer networks are shown as means of increasing the qualifications of teachers from different classes and training highly qualified teaching staff.

**Keywords:** *Education, information technologies, information culture, philosophical level, information society.*

UOT 1

# İNTUİSİYA FƏLSƏFİ KONSEPSİYA VƏ KONKRET ELMİ BİLİKLƏRİN QARŞILIQLI ƏLAQƏSİ PROBLEMİ

**KÖNÜL QƏHRƏMANOVA**
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: qkonul@mail.ru*

Yaradıcılıq prosesində qeyri-şüurun əsas psixoloji fenomenlərindən biri intuisiyadır. "İntuisiya" termini latınca intuito rapido epronto, yəni "tez görünən", latın felindən intueri "daxili görmək", "diqqətlə baxmaq" mənasını verir. Hərfi mənada isə "hisslərlə həqiqətə nail olmaq" mənasını verən "intuisiya" anlayışı hal-hazırda ənənəvi olaraq fəlsəfi (qnoseoloji) və müasir – psixoevristik mənalarda çıxış edir. Belə vəziyyət filosoflar arasında müəyyən ziddiyyətlərin yaranmasına səbəb oldu: onlardan bəziləri problemin müasir interpretasiyasına qətiyyətlə müqavimət göstərdilər, digərləri isə əksinə, onu qeyd-şərtsiz qəbul etdilər.

Fəlsəfə tarixində bu konsepsiyanın təfsiri fəlsəfə tiplərindən – materializmdən, idealizmdən, sensualizmdən və ya rasionalizmdən asılı idi. Platona görə, bu, əvvəlcə şüursuz bir insana verilən və həssas işıqlandırma yolu ilə zehnə nüfuz edərək daxil olan fikirlərin intellektual düşüncə formasıdır. Rasionalist R. Dekart, Platon kimi, belə hesab edir ki, intuisiya yalnız dərrakəli, hazırlıqlı ağıl üçün əlçatandır, lakin o "ağılın təbii işığı" tərəfindən yaranır, bununla yanaşı, sadə və aydın bilikdən ibarətdir. Materialist L.A. Feyerbax intuisiyanı həssas analiz kimi başa düşürdü. Müasir təsəvvürlərə görə isə, intuisiya həm "biliyin", həm "spesifik qabiliyyət", həm "xüsusi həssaslıq", həm "təxmin", həm "ani qavrayış", həm də "fantaziya" deməkdir [8, 81].

İntuisiya subyektiv və obyektiv, həssas və rasional, zəruri və təsadüfi, informasiya məzmunlu olmaqla qiymətləndirmə prosesinin qarşılıqlı əlaqəsi kimi nəzərdən keçirilir. Bəzi vahid məhsula nail olmaq məqsədi, adətən şüursuz səviyyədə həyata keçirilir. Bu fəaliyyətin yekunu olaraq isə şüursuzluq varislik, həqiqətin şüurlu təsdiqi, sübut tələb etməyən əminlik kimi çıxış edir.

İntuisiyanın öyrənilməsi lap əvvəldən təbii dildən fəlsəfə və psixologiya dilinə daxil olan "intuisiya" sözünün şifahi və yazılı nitq praktikasında əldə etdiyi məna yükünü daşımağa davam etməsi ilə bağlı xüsusi çətinliyə sövq edir.Fəlsəfi ənənədə bu onun "həqiqətin bilavasitə təqdiri" kimi şərhində ifadə olunur.

Lakin intuitiv biliklərin bilavasitə olması mütləq deyil, nisbi mənada – yalnız subyektə münasibətdə, subyektivlik kimi başa düşülməlidir. Bu, intuitiv biliklərin ortaya çıxmasını şərh edən proseslərin olmaması deyil, yalnız onların şüursuzluğu deməkdir. Lakin subyektin şüurunda təmsil olunmayan subyektin koqnitiv fəaliyyətinin ən müxtəlif mexanizmləri ola bilər. Bu intuisiya çoxüzlü olduğuna inanmağa imkan verir. Çünki onların subyektinin fəaliyyəti dərk etmir, intuisiya adı altında düşən koqnitiv mexanizmlərin müxtəlifliyi arasında, bir neçə əsas növü ayırmaq olar:

1.İnstitusiya instinktiv reaksiya kimi.

2. Dispozision intuisiyası (şüursuz qurğularla şərtlənən).

3. Perseptiv intuisiya (subsensor qavrayış mexanizmlərinin işinin məhsulu, "yan görmə", appersepsiya, geştaltın yaranması).

4. Assosiativ intuisiya (nəzarətsiz şüurun və oyunun bir çox şəraitindən asılı olan hissi obrazlarla nəticələrini təqdim edir).

5. Məntiqi intuisiya ("avtomatlaşdırılmış" məntiqi təfəkkür).

6. Evristik intuisiya (hissiyyatlı obrazlar və anlayışlar arasında qarşılıqlı əlaqəylə bağlı, hansı ki, prosesdə obrazların kombinasiyası əsasında anlayışlar (konseptual intuisiya) formalaşır və ya anlayışların köməyi ilə hissiyyatlı obrazlar (eydetik intuisiya) yaradılır).

F. Vaugan isə (Vaughan, 1979) intuisiyanın dörd səviyyədə ortaya çıxdığını göstərirdi:

1) fiziki, o, qeyri-adi bir şey haqqında düşünmək üçün heç bir səbəb olmadan baş verən şüurlu bədən hissi uyğundur;

2) emosional; intuisiya hisslər vasitəsilə düşüncəyə çatır, məsələn, ilk baxışdan məhəbbət və ya heç bir səbəb olmadan bir şeyə məhəbbət yoxdur;

3) mental; şəxs əhəmiyyətsiz məlumatlar əsasında dəqiq nəticələr əldə edə bilmək üçün obrazlardan istifadə edir

4) spiritual, hisslər və fikirdən asılı deyil, reallıq vahid anlaşma kimi əldə edilir [5, 72].

Bəzən insan uzun müddət ərzində həll edə bilmədiyi problemi ani olaraq dərindən başa düsür və onun düzgün həlli yolunu tapır. Bu keyfiyyət intuisiya adlanır. Deyilənlər bunu ifadə edir ki, insan yeni biliyi heç də həmişə məntiqi təfəkkür vasitəsilə əldə etmir. Çoxsaylı müşahidələr və elmin nailiyyətləri göstərir ki, hislər və mücərrəd təfəkkür kimi intuisiya hamıda vardır. İntuisiya müxtəlif formalarda çıxış edir. Yeniliyin xarakterinə görə isə intuisiya iki növə ayrılır: standartlaşdırılmış (qəlib xarakterli) və evristik (yaradıcı).

İntuisiyanın formalaşması və təzahür etməsinin ümumi şərtləri aşağıdakılardır: 1) insanın əsaslı peşə hazırlığına malik olması, problemin dərindən mənimsənilməsi; 2) axtarışları əhatə edən şərait, problemliliyin səviyyəsi; 3) problemi həll etmək üçün fasiləsiz və gərgin axtarışların olması; 4) yeni fikrin yaranması [2, 237]. Müasir elm intuisiyanın daxili məzmununu açmaq üçün xeyli iş görmüşdür. Sübut olunmuşdur ki, o bir sıra mərhələlərdən keçir. Əvvəlcə, insanın beynində onu düşündürən problemlə bağlı obrazlar və abstraksiyalar qeyri-ixtiyari surətdə toplanılır. Sonra, onlar qeyri-şüuri səviyyədə birləşdirilir və yenidən işlənilir. Üçüncü mərhələdə qarşıda duran vəzifə ən aydın şəkildə görünür. Nəhayət axırıncı mərhələdə birdən-birə vəzifənin dəqiq həlli yolu tapılır.

İntuisiyanın əsas əlaməti ondan irəli gəlir ki, insan özündə hansısa biliklərin necə və haradan meydana çıxdığını dərk etmir, hesab edir ki, onun adı altında koqnitiv fenomenlərin çox müxtəlif növləri gizlənir. A. S. Karmin altı növ fərqləndirir:

Disposisional intuisiya. İnsanın müəyyən hərəkətlərə meylinin olması üçün müxtəlif səbəblər mövcuddur. Belə meyil tez – tez insanın necə anlaşılmaz göründüyünə dair qərarın tanınmamış seçiminə gətirib çıxarır. Perseptiv (hissyatlı) intuisiya qeyri-şüuri və subsensor qavrayış ilə bağlıdır. Assosiativ intuisiya obrazların uzun assosiativ zəncirinin düzüldüyü prosesində əyani-obrazlı təfəkkür çox vaxt baş verir, şüurun nəzarəti olmur və s.

İnsan psixikasının ən müəmmalı və çətin anlaşılan problemlərindən biri intuisiya problemi, onun məntiqi-qnoseoloji təhlilidir. Müasir elmin problemlər içərisində intuisiya problemi qədər mürəkkəb, ziddiyyətli, qeyri-müəyyən bir problem tapmaq çətin ki, mümkün olsun. Nəzəri təfəkkürdə və elmi tədqiqatda yaratdığı çətinliklərlə yanaşı danışıq dilimizdə yaratdığı bəzən yanılmalara görə intuisiya anlayışını bir zamanlar hətta lüğət tərkibindən də çıxarmaq istəmişlər. "İntuisiya anlayışına münasibətdə bir cəhəti də nəzərə almaq lazımdır ki, bu termin müxtəlif ipostasiyalarda işlənməklə, həm də insanın müxtəlif qabiliyyətlərini: bir halda onun rasional idraka qədərki qabiliyyətini (hissi intuisiya), digər halda fövqəlrasional qabiliyyətini: öncəgörmə, irəlicədən hiss etmə, parapsixologiya və s. (mahiyyət intuisiyası, xalis intuisiya), üçüncü bir halda isə mistik intuisiyanı ifadə edir" [3, 3].

İntuisiya şüurun digər formalarından onunla fərqlənir ki, insan intuisiya vasitəsilə hər hansı bir hadisəni özünün daxili orqanlarının təsirinin hərəkətini hiss etmədən insan qrupunun, xalqların, dövlətlərin, özünün düşə biləcəyi situasiyanı irəlicədən aydın görmək imkanı qazanır [1, 153].

İntuisiya probleminin fəlsəfi irsi son dərəcə zəngindir. Bəşəriyyətin bir çox dühaları min illər ərzində intuisiya müəmmasını açıqlamağa çalışmışlar. Platon intuisiyanın mahiyyətinin "eydosların" mənəvi seyrinin xatırlanmasında görür, Aristotel isə belə güman edirdi ki, yüksək tərtibli anlayışlar bilvasitə deyil, bilavasitə səciyyə daşıyır. R.Dekart yazırdı: "İntiusiya – əqlin təbii işığı ilə yaradılan və özünün sadəliyi üzündən deduksiyadan daha səhih görünən diqqətli əqlin möhkəm anlayışıdır" [4, 86]. Rus filosofu N.O.Losski ruhun yüksək qabiliyyətini intuisiya ilə bağlayır və yazırdı: "Bu təlimə görə (intuisiya təlimıı – Q.K.) hər cür bilik mənim məxsusi «mən»im vasitəsilə predmetin mənim baxış sferama daxil edliməsidir". N.O.Losski intuisiyanın üç növünü fərqləndirir: hissi intuisiya, intellektual intuisiya və mistik intuisiya. Onun fikrincə, intuisiyanın bu növlərinə uyğun olaraq gündəlik danışıqda "qabaqcadan hiss etmə, "qabaqsöyləmə", "nurlanma" terminlərindən istifadə olunur. Hissi intuisiya və ya qabaqcadan hissetmə ətraf aləmdə inamla istiqamət götürməyi bacaran, xoş və kədərli hadisələri irəlicədən söyləməyi bacaran az sayda insanların yüksək hissiyyatının ifadəsidir. Nurlanma intuisiyası adətən əlverişsiz situasiyalarda: yuxuda olarkən, kitab mütaliyə edərkən, teatrda tamaşaya baxarkən, meşədə gəzişərkən baş verə bilir. Musiqi tarixində belə hadisələr tez-tez baş verir, musiqi fikri bəstəkara gözləmədiyi halda, məsələn, yuxuda gələ bilir. Məsələn, italyan bəstəkarı Cüzeppe Tartini bir dəfə yuxuda şeytanın musiqi aləminə məlum olmayan heyranedici bir melodiyanı skripkada ifa etdiyini görmüş və yuxudan oyandıqdan sonra onu nota köçürərək

özünün məşhur əsərlərindən biri olan "Şeytan zəngulələri" skripka sonatasına daxil etmişdir.

Bu nurlanmalar, bir qayda olaraq, birdən-birə deyil, şüurun insan marağını cəlb edən hər hansı bir mövzu üzərində uzun sürən, üzücü işindən sonra yaranırdı. Ani nurlanmanın baş verdiyi andan etibarən insanda yaradıcı ekstaz başlanır. Görkəmli sovet neyrofizioloqu P.V.Simonov kimyəvi elementlərin dövrü cədvəli ilə əlaqədar D.İ.Mendeleyevə yuxuda nazil olmuş nurlanmaya aydınlıq gətirərək qeyd edir ki, "Mendeleyevin yuxuda kimyəvi elementlərin dövrü cədvəlini görməsi, heç də təsadüfi olmamışdır. Əgər bundan əvvəl Mendeleyevin kimya sahəsində diqqətçəkən işləri olmasaydı, Mendeleyev bu sahədə zəngin bilik toplamasaydı, bu nurlanma da baş verməzdi" [9].

Tədqiqatlar göstərir ki, intuisiyanın da yaranma mexanizmi eynilə şüurun formalarının yaranma mexanizmi kimidir: determinatorların elektromaqnit rəqsləri əsəb cərəyanına çevrilərək orqanizmin periferik reseptorlarını yaradır. Bu cərəyan afferent (yüksələn) naqillərlə hərəkət edərək beynin müvafiq sahələrinə çatdırıldıqda yaratdıqları boşalmalarla əsəb cərəyanını efferent vəziyyətə gətirirlər. Efferent vəziyyət müxtəlif hərəkətetdirici əsəblərə, o cümlədən nitqə doğru istiqamətlənərək təfəkkürü, səsli nitqi, yəni şüuru, o cümlədən intuisiyanı yaradırlar. Fizioloqlar intuisiyanın yaranmasının daha ümumi səbəblərini də aşkar etmişlər: Canlı orqanizmlərin yaşayış şəraitinin dinamiki dəyişməsi və onların tədricən bu şəraitə uyğunlaşması. Pavlov "İnsan beyninin böyük yarımkürəciklərinin fəaliyyəti haqqında mülahizələr" əsərində qeyd edirdi ki, "tamamilə aydındır ki, orqanizmin bütün fəaliyyəti qanunauyğun olmalıdır. Əgər heyvanlar xarici aləmə dəqiq uyğunlaşa bilməsəydilər onların mövcudluğu tezliklə və tədricən kəsilərdi..." [6, 22-23]. İ.P.Pavlovun şərtsiz və şərti reflekslər təlimi sonralar onun şagirdləri və ardıcılları P.K.Anoxin, P.V.Simonov, N.P.Bexteryeva və b. tərəfindən qəbul edilibdir. Tədqiqatlar göstərir ki, bir sıra şərtsiz reflekslər də intuitiv səciyyə daşıyır.Pavlov dəfələrlə qeyd etmişdir ki, heyvanlar da azadlıq və tədqiqatçılıq refleksinə malikdir. Qeyd edək ki, belə hallarda azadlığın şərtsiz refleksi intuisiya ilə üzvi surətdə birləşir. Heyvanlarda tədqiqat refleksləri də intuitiv xarakter daşıyır. Bu problemlə sovet neyrofizioloqu P.V.Simonov xüsusilə ciddi məşğul olmuşdur. Simonov insan fəaliyyətində şüuraltının rolunu bunda görür ki, bu hadisə "şüuru əlavə işdən, daşınması mümkün olan yükdən azad edir. Avtomatlaşdırılması vərdiş və ya sosial norma olmasından asılı olmayaraq şüuraltı həmişə insanın əldə etdiyi və yaxşı mənimsədiyi hadisənin keşiyində durur. Fərdi mənimsənilmiş hadisələr məhz şüuraltı hesabına şərtsiz reflekslər üçün səciyyəvi olan imperativlik və sərtlik xüsusiyyətləri kəsb edirlər" [9, 297-299].

"Fövqəlşüur" anlayışı da həmçinin şüurun xarakteristikası olub, onun struktur elementini təşkil edir. Fövqəlşüuru adətən ya insanların ifrat dərəcədə həssas olan fəaliyyəti ilə, ya da elmi yaradıcılıqla bağlayırlar. Məs.: öncəgörən Vanqanın fəaliyyəti, Eynşteynin, Paulinin və b. alimlərin fəaliyyəti fövqəlşüura misal ola bilər. Kəşflərin, ixtiraların baş verməsində yaxından iştirak edən fövqəlşüur eyni zamanda miflərin, inancların, əfsanələrin, xurafatın müxtəlif növlərinin yaradılmasında da mənbə rolunu oynayır. Fövqəlşüurun əsasını insanların əvvəllər toplamış olduğu təcrübə təşkil edir. Fövqəlşüur hazırda təfəkkür və şüurun yeni səviyyəsinə doğru can atır. Məsələn, hazırda Moskvada professor V.M.Bronnikovun başçılıq etdiyi İnsan inkişafının Beynəlxalq Akademiyası fəaliyyət göstərir. Bronnikov və əməkdaşları insanın fizioloji və psixoloji aspektlərinin inkişaf etdirilməsi üzərində intensiv iş aparır və ümid edirlər ki, onların fəaliyyəti elə bir bioloji insan növü yaratmağa imkan verəcək ki, o telepatik qabiliyyətlərə, virtual görmənin yeni formalarına, məkan və zamanca daha geniş sərbəstliyə malik yaddaşa yiyələnəcəklər [7].

İntuisiyanı müxtəlif əsaslara görə bir neçə növə ayırmaq olar. Yuxarıda biz intuisiyanın hissi, intellektual və mistik formalarını nəzərdən keçirdik. Əməyin fiziki və əqli növlərinə uyğun olaraq intuisiyanı fiziki və intellectual növlərə də ayırmaq olar. İntellektual intuisiyanı da, öz növbəsində, iki qrupa: a) reallaşdırılması xüsusi fiziki gərginlik tələb edən intellektual intuisiyaya (müasir təyyarələrin uçuşları zamanı havada müxtəlif fiqurlar nümayiş etdirən as təyyarəçinin nəzarət etdiyi yüzlərlə cihazların onda yaratdığı ağır fiziki gərginliyi və b.) razılaşdırılması, xüsusi fiziki güc tələb etməyən intellectual intuisiya (məs.: kompyuterlə işləmə).

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, intuisiya, heç də şüurun xüsusi bir təbəqəsi deyil. İntuisiya şüuru yuxarıdan aşağıya keçərək bir sıra hallarda onun müxtəlif təbəqə və formaları ilə qovuşan xüsusi mənəvi fenomenidir.İntuisiya haqqında elmi axta-

rışlarımızı məqalə həcmində yekunlaşdırarkən qeyd etməyi vacib bilirik ki, yaşadığımız günlərdə biz intuisiya haqqında müəyyən gümanlarla danışsaq da, əminik ki, yaxın gələcəkdə onu da, əsəb cərəyanı, orqanizmin fiziki, kimyəvi və digər reaksiyaları kimi dərindən öyrənmək imkanı əldə edəcəyik.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Qəhrəmanova, K.N. İntuisiya: intellektual yükü və idraki imkanlari (İntuisiyaya yeni baxış)// Bakı Universitetinin Xəbərləri № 4. Sosial-siyasi elmlər seriyası. 2011, - s. 150-159*

*2. Алексеев П., Панин А. Философия: учеб. – 3-е изд., перераб. И доп./ П.Алексеев, А. Панин – Москва: Изд-во Проспект, 2005.— 242 с.*

*3. Бунга М. Интуиция и наука. М.: Прогресс, 1967, 214 с.*

*4. Декарт Р. Избранные произведения. Москва: Мысль, 1980, с. 429.*

*5. Ильин Е. П. Психология творчества, креативности, одаренности. Санкт-Петербург: Питер, 2009. – 448 с.*

*6. Павлов И.П. Лекции о работе больших полушарий головного мозга//Поли.собр. соч. в 6-ти т. Т. IV, М-Л, 1947, с.22-23*

*7. Петров А.Н. Ключ к сверхсознанию. Москва.: ИНФАА, 1999, -264 С.*

*8. Новиков А.А., Ирина В.Р., В мире интуиции- Москва: Наука, 1978, 81 с.*

*9. Симонов П.В. Мотивированный мозг. Высшая нервная деятельность и естественнонаучные основы общей психологии. Изб. Труды. В 2-х т. Т. I / П.В. Симонов - Москва: ИНФРА, 2004 - 576 с.*


## РЕЗЮМЕ


Статья посвящена исследованию интуиции как философской концепции. В статье отмечается, что проблема интуиции привлекает к себе пристальное внимание представителей самых разных областей научного знания. Однако, несмотря на это, интуиция является острой проблемой именно с философской точки зрения. Раскрываются ее свойства, ее место в системе познавательной деятельности человека, ее роль в повседневной жизни и в творчестве. Выделяются различные когнитивные типы интуиции и описываются их механизмы.



**Ключевые слова:** *интуиция, философская концепция, интеллект, научное познание.*


## SUMMARY


The article is devoted to the study of intuition as a philosophical concept. The article notes that the problem of intuition attracts close attention of representatives of various fields of scientific knowledge. However, despite this, intuition is an acute problem precisely from a philosophical point of view. Its properties, its place in the system of human cognitive activity, its role in everyday life and in creativity are revealed. Different cognitive types of intuition are distinguished and their mechanisms are described.



**Keywords:** *intuition, philosophical conception, intellect, scientific knowledge.*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

XƏYYAM İSMAYILZADƏ: MÜASİR DÖVRDƏ ABŞ-ÇXR MÜNASİBƏTLƏRİNDƏ İQTİSADİ ASPEKTLƏRİN ÜMUMİ XARAKTERİSTİKASI........ 5

ANAR ŞÜKÜROV: QURUMLARIN KORPORATİV SOSİAL MƏSULİYYƏT (KSM) İŞİNDƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN (PR-ın) ROLU........ 10

CEYRAN RƏHMƏTULLAYEVA: SOSİAL XİDMƏTƏ DAİR YENİ YANAŞMALAR: NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ........ 14

КЕНУЛЬ ШИРИНОВА: РОЛЬ СМИ В ВООРУЖЕННЫХ КОНФЛИКТАХ........ 20

## TARİX

QƏNIRƏ MİRZƏXANLI: "HEYDƏR ƏLİYEV FONDU" QARABAĞ MƏDƏNİYYƏTİNİN QORUYUCUSU KİMİ........ 23

ASƏF HACIYEV: RUSİYA İŞĞALINDAN SONRA DƏRBƏND ƏHALİSİNİN DİNİ VƏ SOSİAL TƏRKİBİ (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)........ 28

YÜZDANƏ CABBARLI: HEYDƏR ƏLİYEVIN GƏNC KADRLARIN DÖVLƏT İDARƏ ETMƏSİNƏ CƏLB EDİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ (1969-1982-ci illər)........ 34

СУГРА ОРУДЖЕВА: ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ ГОРОДА ХАНКЕНДИ С МОМЕНТА ОБРАЗОВАНИЯ ДО ПРИОБРЕТЕНИЯ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ........ 38

ZHANG TERIGELE: ПРИСУТСТВИЕ ГУННОВ НА ТЕРРИТОРИИ ГРУЗИИ В РЕГИОНЕ ЮЖНОГО КАВКАЗА В ЭПОХУ РАННЕГО СРЕДНЕВЕКОВЬЯ........ 43

ВАН ЦЗИБАО: СВЯЗИ ЗОРОАСТРИЗМА С ДРУГИМИ РЕЛИГИЯМИ........ 48

ORXAN USUBALİYEV: MİLLİ KİTAB KONSEPSİYASI........ 53

NƏRMİN İSMAYILOVA: ERMƏNİSTANDAN XARİCDƏ ERMƏNİ DİLİNİN ÖYRƏDİLMƏSİ METODİKASI........ 57

ƏLVİDA RƏHİMOV: AHISQA (MESXETİ) TÜRKLƏRİNİN ETNİK KİMLİYİ........ 60

İLAHƏ SARIYEVA: AZƏRBAYCAN AİLƏLƏRİNDƏ GENDER BƏRABƏRLİYİ VƏ ETİKETİN TRANSFORMASİYASI........ 65

## İQTİSADİYYAT

ŞƏFA ƏLİYEV: ŞUŞA ŞƏHƏRİNİN QARABAĞIN MƏRKƏZİ KİMİ FORMALAŞMASI VƏ İNKİŞAFININ STRATEJİ ƏHƏMİYYƏTİ.............................................. 70

SƏKİNƏ BABAYEVA: AZƏRBAYCANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DÖVLƏT SAHİBKARLIQ SİYASƏTİ SOSİAL-İQTİSADİ İNKİŞAFIN TƏMİNATÇISI KİMİ..................... 75

TURAL BAYRAMOV: QONAQLAMA TURİZMİ VƏ ONUN İNKİŞAFINDA RƏQƏMSAL MARKETİNQ STRATEGİYALARININ ROLU........................................................ 79

AYTƏKİN AXUNDOVA: HADİSƏ TURİZMİNİN MƏFHUMU VƏ NƏZƏRİ ASPEKTLƏRİ.... 85

FAMİL HƏSƏNOV: AZƏRBAYCAN VƏ İRAN İSLAM RESPUBLİKASI ARASINDA İQTİSADİ ƏLAQƏLƏRİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ ONUNƏHƏMİYYƏTİ.................................................................................................................. 88

KAMRAN SHYKHYLY: DEMOGRAPHIC DEVELOPMENT AND GLOBAL DEMOGRAPHIC TRENDS.......................................................................... 93

NİCAT MƏMMƏDYAROV: İNNOVATİV İQTİSADİ İNKİŞAFIN STİMULLAŞDIRILMASI VƏ TƏNZİMLƏNMƏSİNDƏ VERGİ MEXANİZMLƏRİ.................. 98

SÜLEYMAN ƏKBƏROV: QUBADLI RAYONUNDA ALTERNATİV TURİZM POTENSİALI.. 103

KAMRAN NƏBİYEV: XİDMƏT SAHƏLƏRİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ.......................................................................... 106

ГУСЕЙН ГУСЕЙНОВ: АНАЛИЗ МЕЖДУНАРОДНЫХ ТРАНСПОРТНЫХ КОРИДОРОВ ГУБА-ХАЧМАЗСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА................................. 110

ISMAIL ISMAILOV: MEETING THE BUSINESS EXPECTATIONS OF ACCOUNTING EDUCATION GIVEN IN UNIVERSITIES....................................................... 115

RIAD DADASHOV: OBJECTIVE PREREQUISITES AND THEORECTIAL FOUNDATION OF THE ANALYSIS OF TURKEY AND RUSSIAS INTERACTION IN THE FIELD OF ENERGY POLICY......................................................................................... 119

ÜLVİ QƏDİRLİ: AZƏRBAYCAN RESPUBLİKASININ BƏRPA OLUNAN ENERJİ POTENSİALI VƏ ONDAN İSTİFADƏ SİYASƏTİ.......................................... 123

RƏŞAD HACIYEV: MÜHASİBAT UÇOTU BAXIMINDAN MÜASİR DÖVRDƏ QEYRİ-NEFT SEKTORUNDA MÖVCUD VƏZİYYƏTİN TƏDQİQİ............................................ 129

VÜSALƏ QULİYEVA: MÜASİR DÖVRDƏ AZƏRBAYCAN TURİZMİ: REALLIQLAR VƏ POTENSİAL........................................................................................................ 134

**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

MÜSLÜM NƏZƏROV: TƏHSİL PROSESİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN FƏLSƏFİ ASPEKTLƏRİ....................................... 143

KÖNÜL QƏHRƏMANOVA: İNTUİSİYA FƏLSƏFİ KONSEPSİYA VƏ KONKRET ELMİ BİLİKLƏRİN QARŞILIQLI ƏLAQƏSİ PROBLEMİ........................................ 148

**Founder:**
**“Kaspi” Geopolitical Research Center**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Tural Huseynov**

**Address of the editorial office:**
**Fikret Amirov Street 1, Baku, Azerbaijan**
**Tel: (+994 12) 493 04 15**
**Fax: (+994 12) 493 04 15**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 300**
**Order №16**

**Published by**
**“Class Print” LLC publishing house**
**Address: Matbuat avenue 22, Yasamal district,**
**Baku, Azerbaijan**

**Təsisçi:**
**"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**Tural Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Bakı şəhəri, Fikrət Əmirov küçəsi 1**
**Tel.: (+994 12) 493 04 15**
**Faks: (+994 12) 493 04 15**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 300**
**Sifariş №16**

**"Class Print" MMC nəşriyyatının**
**mətbəəsində çap olunub**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu,**
**Mətbuat pr. 22**